# Çəkisizliyin yükü

Miroslav
# Hermaşevski

## Çəkisizliyin yükü

### Təyyarəçi-kosmonavtın həyat hekayəsi

Bakı - 2014

Kitab Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə çap olunub.

Şəkillər kitabın müəllifinə məxsusdur

ISBN: 978-9952-488-53-1

2.6.1.2 / 036-4702060102 qrifli nəşr

www.aliyevheritage.org Tərcümə Laboratoriyası

AZNM Azerbaijan New Media

© Miroslav Hermaşevski 2014

Məqsəd o vaxt yüksəkdir ki, sən özünü ona həsr edirsən,
Məqsəd o vaxt alçaq olur ki, sən onu yekəxanalıq mövzüsuna çevirirsən.

Antuan De Sent Ekzüperi

*Ailəmə,*
*xüsusən də həyat yoldaşıma, övladlarıma*
*və nəvələrimə həsr edirəm.*

# GİRİŞ SÖZÜ

Bu kitabı bir neçə səbəbdən yazmışam, ilk növbədə isə bütün Polşanın haqqında danışdığı və bütün dünyanın müşahidə etdiyi 1978-ci ilin iyun ayında baş vermiş hadisələri xatırlamaq üçün. Onu da qeyd etmək lazımdır ki, bu işdə çoxları məni qabaqlayıb. Bu müstəsna hadisəni vəsf etmək istəyənlər bir-birləri ilə yarışıblar. Lakin bu nəşrlərin müəllifləri nə mənim tərcümeyi-halım, nə də mənim yaşadığım hisslər, emosiyalarla tanış olmağa cəhd belə etməyiblər. Amma bu addımlar da gərəksiz idi. Çəkisizliklə mübarizə apardığım zaman, yer üzündə bir-birinin ardınca kosmik sürətlə kitabça və kitablar nəşr olunmuşdu. Qabaqcadan kosmonavt surəti yaradılmışdı. Kosmonavt qüsursuz, heç bir zəif cəhəti olmayan, seçdiyi məqsədə doğru yolda heç bir maneəyə baxmadan irəliləyən bir supermen olmalı idi. Rastlaşa biləcəyi bütün çətinliklərsə dövlət qayğısı sayəsində aradan qaldırılırdı. Əslində bu, qismən doğru idi, dövlət qabiliyyətləri inkişaf etdirmək üçün şərait yaratmasaydı, bu istiqaməti maliyyələşdirməsəydı, yəqin ki, doğulduğum kiçik şəhərdə köməkçi və yaxud maşinist kimi işləyərdim, çünki parovozlar məndə həmişə rəğbət hissi oyadırdı.

Çoxları belə hesab edirdilər ki, kosmonavt uğursuzluq və çətinliklərlə qarşılaşmayan bəxtəvər bir qəhrəmandır. Bu, olduqca yanlış fikirdir. Həyatımız proqramlaşdırılmayıb. Öz taleyimizi necə istiqamətləndirməyimiz və növbəti məqsədlərə çatmaq üçün kifayət qədər səy göstərməyimiz yalnız bizdən asılıdır. Təcrübəmdən öyrənmişəm ki, hətta ən ağır anlar belə heç vaxt şübhəyə səbəb olmamalıdır, bu kimi anlarda qalib gəlməyimizsə bizi gücləndirir.

Niyyətim kitabımda müharibədən sonrakı nəslin keçdiyi gərgin ömür yolunu göstərmək idi. Kiçik kənddən böyük dünyaya aparan yolu. Arzusunda olduğum təyyarəçi peşəsinə doğru yolum təhlükəli virajlarla dolu idi. İlk uğursuzluqlar tez bir zamanda çətinlikləri aradan qaldırmaq və özümü təkmilləşdirmək həvəsinə çevrilmişdi. Aydın şəkildə müəyyən etdiyim həyat məqsədim və inadkarlığım öz bəhrəsini vermişdi. Göyə uçmanın ləzzətini duymuşam. Zaman keçdikcə isə uçuş həyatımın məqsədinə, peşəmə, Vətənimə xidmətə çevrilib. Uşaqlıq xəyallarım gerçəkləşdi. Arzu etdiyim bir çox şeyə nail olmuşam və öz xəyallarımın hüdudunu keçmişəm.

Ümidvaram ki, yaşadığım qeyri-adi hisslərin təsvirində heç olmasa bir qisim suala cavab taparsınız. Həyat üçün böyük riskə baxmayaraq, insanlar niyə kosmosa uçmağa davam edirlər? Kosmosda olarkən insan nə düşünür? Çəkisizlik şəraitində nə hisslər keçirir? Orada necə yaşayır və işləyir?

Kitabımın köməyi ilə gənc oxucularımı öz gələcəklərinə cəsarətlə baxmağa ruhlandıra bilsəm, çox sevinərdim. Biz sülh şəraitində, nisbi rifah içində və tarixdə misli görünməmiş inkişaf etmiş sivilizasiya dövründə yaşayırıq. İslahatları dayandırmaq olmaz. İnkişaf prosesində iştirak etmək lazımdır, çünki burada hər kəsin öz yeri var. Məhz ona görə də əsas odur ki, siz – gənc qız və oğlanlar şansınızı qaçırmayasınız.

Əlbəttə ki, həyatda əldə etdiklərim tək mənim məziyyətim, xidmətim deyil. Burada Anamın xatirəsini yad etmək istərdim, çünki o, bütün mənalarda müstəsna insan idi. İndiki dövrdə onun kimi insan tapmaq mümkün deyil. Həyatda bütün gördüklərim, hiss etdiklərim üçün, anamın mənə göstərdiyi qayğı, bəslədiyi ana sevgisi, vətənpərvərlik hisslərinin aşılanması, məni inam ruhunda tərbiyə etdiyi üçün ona çox minnətdaram. Onunla daim fəxr edəcəyik və buna görə də mən Anama minnətdaram. Eləcə də ailə üzvlərimə – qardaş və bacılarıma, mənə göstərdikləri qayğı və köməyə, gözəl uşaqlıq illərində və yeniyetməlik dövründə dəstəklərinə görə öz təşəkkürümü bildirirəm.

Əlbəttə ki, mənə inam və etimadla yanaşan insanların köməyi olmadan, heç vaxt kosmonavt olmazdım. Belə insanlar arasında müəllimlərimi, həkimlərimi, Vrotslavdakı Aeroklubda və "Şahin balaları" adlı təyyarəçilik məktəbində çalışan təyyarəçiləri, hərbi xidmət keçdiyim alaylardan olan aviasiya təlimatçılarımı və komandirlərimi, kosmik texnika sahəsində mütəxəssisləri və bu günə kimi dostluq elədiyim bütöv bir rus kosmonavt dəstəsini sadalaya bilərəm.

Həmçinin sabiq komandirlərimə və tabeliyimdə çalışmış əməkdaşlara, təyyarəçi həmkarlarıma, bizim hava qoşunlarında xidmətimiz zamanı mənə və daha sonra isə kosmik missiyama göstərdikləri dəstəyə görə öz hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm. Onların sayəsində geniş bir məkanla qeyri-adi qovuşma hissini keçirmişəm.

Həyat yoldaşım, Emiliyaya, ilk növbədə həyatda üzləşdiyimiz əzab-əziyyətləri, qayğıları mənimlə bölüşməyə razı olduğuna, mənə bəslədiyi sevgiyə, dostluğa, faydalı məsləhətlər verdiyinə və dəstək olduğuna görə öz dərin minnətdarlığımı bildirirəm. Mənə ərə gedərkən hələ dərk etmirdi, anlamırdı ki, özümü haradasa uzaqlarda, ucalıqda, həyatımda mühüm yer tutan məşğuliyyətə – yəni təyyarəçiliyə həsr etdiyim zaman onu nə qədər əzab-əziyyət, yuxusuz gecələr və göz yaşları ilə dolu illərə düçar edirəm.

*

Eyni zamanda İreneuş Sobeşçuka, Leşek Vrublevskiyə və Tadeuş Zaqojcinskiyə, hazırkı nəşr üçün müəllif şəkillərini təqdim etdiklərinə görə dərin minnətdarlığımı bildirmək istərdim. Fotomateriallar eləcə də WAF, CAF, KAW, Kosmonavtların Hazırlığı Mərkəzinin arxivi və şəxsi arxivim kimi mənbələrdən götürülüb.

Xanım İzabela Kraşevskayaya, əlyazmalarımın yığılması zamanı çəkdiyi zəhmətə görə, xanım Edita Podolska-Freyə, kitabın son versiyasının hazırlanması zamanı söylədiyi dəyərli fikirlərə, Təyyarəçilik Muzeyinə və Active.pl firmasına isə fotomaterialların hazırlanmasında göstərdikləri köməyə görə dərin təşəkkürümü bildirirəm.

# BİRİNCİ
## HİSSƏ

Hələ uçmasa da,
artıq bombalamağa başlayıb



# İLK UÇUŞUM VƏ İLK ENİŞİM

1948-ci il idi. Uşaq bağçasından sonra məktəbin birinci sinfinə daxil olmağa hazırlaşırdım. Məndən üç yaş böyük olan qardaşım Boquslav dostları ilə birlikdə asudə vaxtlarının böyük hissəsini Voluv şəhərinin kənarında yerləşən çəmənliklərdə keçirirdi. Bacı-qardaşlarımın ən kiçiyi olduğumdan, həmişə onların oyunlarında iştirak etmək arzusunda idim. Bir dəfə, yəqin ki, bekarçılıqdan, onlar mənə maraq göstərməyə başladılar. O vaxtlar balaca bir oğlan idim, onlar isə məni Aya göndərmək fikrinə düşdülər. Məni gəzintiyə aparacaqlarını vəd edərək, həvəsləndirməyə çalışırdılar. Bunu necə həyata keçirməyi planlaşdırırdılar? Arxaları üstündə uzanaraq, məni onların əyilmiş ayaqlarının üstündə otuzdurub, əzələlərinin gücü ilə göyə atırdılar. Ağlaya-ağlaya, onların əllərində oyuncaq olmağa razılaşmışdım. "Start"dan sonra dünya mənim ətrafımda dövrə vururdu, uçuş qısa idi, eniş isə sərt.

Təxminən üçüncü enişim zamanı boğuq xırıltı eşitdim və sol çiynimdə şiddətli ağrı hiss etdim. Qolum iradəsiz zəifliklə sallanmışdı və hətta elə bil bir az qısalmışdı. Mən köməyə çağırdım. Geri dönüb baxdım, lakin çəməndə tək idim. Ağrı bir az azaldıqdan sonra, ağlaya-ağlaya özümü güclə evə çatdırdım. "Kosmik ekipajım" artıq məni orada gözləyirdi. Onlar üzdə mənə yalandan şəfqət göstərsələr də, gizlində sıxılmış yumruqlarını nümayiş etdirirdilər. Şiddətli ağrıya baxmayaraq, bu jestlərin mənasını çox gözəl dərk edirdim. Tanış feldşer çıxığı yerinə salmağa çalışdığı zaman huşumu itirdim.

Məhz bu hadisələrin sayəsində maşınla ilk səyahətim baş tutdu: anam və dostum Zbışekin atası, pan Koşıklə birlikdə Voluvdan Vrotslav şəhərində yerləşən xəstəxanaya yola düşdük. Biz yandırılmış kəndlərin, darmadağın edilmiş tank və təyyarələrin, tərk edilmiş maşınların və eybəcər hala salınmış ağacların yanından keçirdik. Məhz o vaxt ilk dəfə olaraq böyük şəhər gördüm. Küçələr tunellərə oxşayırdı, şəhər özü isə xarabalığa çevrilmişdi. Qrabişınska küçəsində yerləşən xəstəxanaya düşdüm, yaralanmış əsgərlərlə bir otaqda yatdım, onların bəziləri əlil olmuşdular. Başa düşülməyən dildə danışan tibb bacılarının nə dediklərini anlamırdım. Onların tə-

bəssümləri mənə mənasız görünürdü. Məni əməliyyat otağına aparan zaman qorxmağa başladım. Qəribə geyinmiş, üzləri isə maska ilə örtülmüş yad adamların arasında idim. Bütün bunları görəndə, dəhşətə gəldim. Onda həkim başımı sığallayıb dedi: "Anan tezliklə gələcək və sən sağ-salamat evinə qayıdacaqsan. Dərindən nəfəs al". Tibb bacısı üzümü tənzif tamponu ilə örtdü, qəribə bir kəskin qoxu hiss etdim. Gözlərimin önündə titrəyən ağ-qara zolaqlar peyda oldu. Mənə elə gəlirdi ki, havaya qalxıb uçuram. Səslər kəsildi və mən yoxluğa çəkildim. Gözlərimi açdığım anda isə anamı gördüm, o, başımı sığallayır və gülümsəyirdi. Özümü pis hiss edirdim. Çox keçmədən yenidən yuxuya getdim.

Evə qeyri-adi bir silahla qayıtmışdım. Mənimlə eyni palatada yatan əsgər qolumdakı gips sarğısı üstündə bir tank şəkli çəkmişdi. Yaman məğrur idim!

Bir neçə həftə sonra anamla birlikdə yenidən Vrotslavdakı xəstəxanaya yola düşdük. Bu dəfə biz Voluvda yaşayan tanışımız – Pan Ceçontkovski ilə birlikdə qatarla gedirdik. Xəstəxanadan, qolumdakı gips sarğısının açılacağından qorxurdum; qolum yaman gicişirdi və mən xoşagəlməz hissləri yüngülləşdirmək üçün yavaşca ağlayırdım. Tanışımız deyirdi ki, belə bir şəklin sahibi cəsarətli olmalıdır. Sakitləşdiyim təqdirdə mənə tort alacağına söz vermişdi. Lakin özümü heç cür ələ ala bilmirdim və o əlavə olaraq, mənə piston qutusunu da almağı vəd edəndən sonra sakitləşdim.

Qatarımız Vrotslavdan əvvəlki stansiyada, Kuznikidə dayanmışdı. Pəncərədən kədərli bir mənzərə açılırdı: darmadağın edilmiş böyük bir bunker, dəmiryol xəttinin qırağında isə üstündə güllələrin izləri olan yolayırıcısının köşkü, bombaların açdığı gözəçarpan çuxurlar, dağıdılmış dəmiryol relsləri, baş-ayaq çevrilmiş və yandırılmış parovoz və vaqonlar, uzaqda isə yandırılmış evlərin qalıqları və dağıdılmış körpünün səmaya yönəlmiş tağı. Parovoz fısıldayır, buxarla fınxırırdı, kömür və yağ qoxusu gəlirdi. Kupeyə bir ayağı olmayan və qoltuq ağacı ilə hərəkət edən, köhnə mundir geyinmiş, papağının üstündə balaca qartal formasında nişan olan bir kişi daxil oldu. O, müharibə, həlak olmuş əsgərlər, öz anası və Vətəni haqqında bir mahnı oxuyurdu. Ürəyim yumşaldı və anamın mənə vağzaldakı bufetdən çoxdan arzusunda olduğum kolbasalı buterbrod almaq məqsədi ilə verdiyi pulu ona uzatdım. Belə bir vəziyyət, yəni əlil əsgər, onun riqqət doğuran mahnısı, mənim göz yaşlarım və cibimdəki pulu ona verməyim bundan sonra da tez-tez təkrarlanırdı.

Lokomotiv asta-asta fısıldayırdı. Aeroportun yanından keçirdik. Leylək bağırtısını xatırladan səs məni düşüncələrimdən ayırdı.

Pəncərədən enişə hazırlaşan yaşıl-göy rəngli biplan tipli bir təyyarə gördüm. Sərnişinlərdən biri bunu belə şərh etdi: "Bax, təyyarə uçub gəldi" – yəni təyyarə yerə endi. Hansısa savadlı bir adam əlavə etdi: "Bu kukuruznikdır". "Kukuruznik" isə təkərləri ilə yerə toxundu, bir-iki dəfə hoppandı, bir qədər sakitləşib yellənməyə başladı və bağırmağa davam edərək, yan tərəfi ilə bizim tərəfimizə döndü, sanki etdiklərindən qürur duyaraq, burnu dik, dağıdılmış bunker arxasında gözdən itənə kimi öz yoluna davam etdi. Mənsə gördüyümə heyran qaldım.

Sentyabr ayında, qolumun vəziyyəti artıq yaxşılaşdıqdan sonra orta məktəbdə təhsil almağa başladım. İlk dərslərin birində müəlliməmiz, pani Vnimçuk lövhədə forması ilə təyyarəni xatırladan bir rəsm çəkdi. Vrotslava səfərim zamanı gördüyüm, lövhədə çəkilmiş təyyarəyə oxşamayan, əsl təyyarə barədə mütləq danışmaq istərdim. Lakin yanımda əyləşən Xenyo Beleviç boynuma bərk bir yumruq vurmaqla mənə bir söz deməyə də imkan vermədi. Müəllimə kimin təyyarəçi olmaq istədiyini soruşanda isə dərhal elə ayağa qalxdım ki, mürəkkəbqabındakı mürəkkəb Xenyonun köynək və şalvarının üstünə töküldü. Onun reaksiyası özünü yubatmadı və o mənə növbəti möhkəm yumruq vurdu. Dərhal qarşılıq verdim və onun keçəl başına şillə vurdum. Müəlliməmiz bu hadisəni belə şərh etdi: "Hələ uçmasa da, artıq bombalamağa başlayıb". Sinfimizin uşaqları qaqqıldamağa başladılar. Beləliklə, təyyarəçi qismində karyeram sərt enişdən başladı, çünki müəllimə bizi cəzalandırıb küncə qoymuşdu.



Babam Sılvester Hermaşevski və nənəm - Hurnitskilər ailəsindən olan Mariya. Volın yaxınlığında Lipniki kəndi. XX əsrin 30-cu illəri. Müəllifin arxivindən.



Valideynlərim Roman Hermaşevski və Belyavskilər ailəsindən olan Kamila. 1925. Müəllifin arxivindən.



Atam – Roman Hermaşevski, 44-cü piyada alayında xidmət edərkən. Lutsk. 1921. Müəllifin arxivindən.



Müharibə alovundan xilas olanlar. Voluv 1948. Sol tərəfdən: Alina, Vladıslav (AZM-nin kursantı), Teresa, Sabina, anam Kamila, Boquslav və ən kiçikləri – müəllif. Müəllifin arxivindən.



Gələcək həyat yoldaşım Emiliya valideynləri ilə birgə: Yadviqa və Stanislav Lazar. Onun hörüklərinə 14 yaşı olarkən  fikir verdim. Voluv 1951. Müəllifin arxivindən.



Bibim Mixalinagildə. Sobotka yaxınlığındakı Kunov kəndi. 1947. Sol tərəfdə bacım Sabinadır. Müəllifin arxivindən.



Qardaşım Boquslavla. Müəllifin arxivindən.



Bacım Teresa ilə, əlbəttə ki, təyyarə modelinin planını çəkirəm. Müəllifin arxivindən.



Qardaşım Vladıslav – Yak-9 qırıcı təyyarəsinin pilotu. Propelleri qucaqlamaq arzusunda idim. Müəllifin arxivindən.



Mənim üçün Vladıslav əlçatmaz nümunə idi, tabeliyində olanlar üçün isə nüfuz sahibi. Müəllifin arxivindən.



Anamız Kamila 92 yaşında, Vrotslav yaxınlığında,1996. Foto Andjey Parkitnı.



Ailəmiz bir yerə toplanıb, lakin artıq anamız yoxdur: Boquslav, Miroslav, Alina, Vladıslav, Teresa, Sabina və Anna. Voluv 1997. Müəllifin arxivindən.

# QİSMƏT VƏ VƏZİFƏ

Əcdadlarım Konqres Polşadan idilər. Əfsuslar olsun ki, ulu babamın babası Hermaşevskinin adını bilmirəm. Onun "nailiyyəti" beş uşağıdır: Vinsentı, Yakub, Sabina, Dorota və Katajına. Vinsentı (1808-1880), uşaqlardan ən böyüyü, üsyanda iştirakına görə məhkum edilib Sibirə sürgün edilmişdi. Sürgündən qayıtdıqdan sonra Malinsk[1] kəndi, daha sonra Kjeşuv[2] və nəhayət, Volında[3] Sarnın[4] cənubunda Zurnedə məskunlaşıb. Vinsentı ailədə, deyilənə görə, xalça və yun parça toxumaqda çox qabiliyyətli olan gənc Vilhelmina Lişetska ilə evləndi. Həmin evlilikdən dünyaya doqquz övlad göz açdı: Sılvester – mənim babam, Pyotr, Yan, Lukaş, Yuzef, Anelya, Saleza, Lutsyan və İqnatsı. Nəsil şəcərəsində Holubetski, Belyavski, Rakovski, Severin, Slovinski, Tomçınski kimi soyadlar peyda oldu. Babam Sılvester 1853-cü ildə Zurnedə Malınskinin evində anadan olub. Böyüyərək qrafın kiçik oğlu Emanuel Malınski ilə dostlaşdı və bu möhkəm dostluq hər zaman davam edirdi. Babam 26 yaşında olarkən on altı yaşlı Maria Hutnitska ilə ailə qurdu. Bu nikahdan dünyaya on altı uşaq gəldi, lakin onlardan yalnız on biri yetkin yaşına çatdı: Yulia, Teofil, Mixalina, Antoni, Kajimej, Roman – mənim atam, Zofia, Maria, Zıqmunt, Vladıslava və Tadeuş. Hermaşevskilər nəsilinə Plotskilər, Zıqadlovlar, Slovinskilər, Loşyovlar, Savitskilər, Mixalakovlar, Baqinskilər, Vrublevskilər, Zarçınskilər, Urbanoviçlər və Ben, Civişek, Kuriatlar qoşuldular.

Valideynlərim 1925-ci ildə ailə qurdular. Anam Kamila Belavska (Damaz və Zofianın qızı) yaxın Mloçyanovkadan idi. O, çox səbirli idi, lakin dediyi sözün üstündə dura bilirdi. Atamla anam qonşular üçün nümunəvi bir tandem idilər. Valideynlərim bir-birilərinə qarşı

---

[1] Malinsk – Ukraynada kənd

[2] Kjeşuv- Polşada, Dolnoşlonsk voyevodluğunda yerləşən kənd

[3] Volın – müasir Ukraynanın şimal-qərbində yerləşən tarixi vilayət

[4] Sarnı – Ukraynanın qərb hissəsində Rovnen vilayətində yerləşən şəhər

dərin hörmət və sevgi hissi duyurdular. Əcdadlarım kimi, onlar da yeddi övlad sahibi oldular. İlk dünyaya göz açan Alina idi, sonra ardıcıl olaraq Vladıslav, Sabina, Anna, Teresa, Boqdan və mən.

Çox təəssüf ki, Hermaşevski nəsli ata-babaların ənənəsini davam etdirmədi. Alinanın Rışard, Kşıştof və Violetta; Vladıslavın Qrajına adlı qızı; Sabinanın – Alinka və Boqdana, Annanın –Yaroslav, Teresanın-Andjey, Boqdanın – Bojenka adlı övladları, mənim isə Emiliya ilə (Lazar) oğlum Miroslav və qızım Emiliya var. Hələlik üç nəvəmiz var: Yulia, Amelia və Emiliya.

Voluva[5] 1945-ci ilin iyun ayında gəldik. Böyüklərin dediyi kimi, buradan barıt, dəmir və ölüm qoxusu gəlirdi. Volından gəlmişdik – orada ölüm qoxusu hər yerdən gəlirdi. Bu əziyyət çəkən torpaqda atam, babam, xalam, bibilərim və əmim, dayılarım, həmçinin yüz minlərlə qohumumun cənazələri var. Toydan sonra valideynlərim Kostopol Povyatında, Ruvnedan[6] şimalda yerləşən Polika adlı kiçik kənddə yaşayırdılar. 25 hektarlıq fermanı idarə edirdilər. Torpaq məhsuldar idi, atamla anamın da təsərrüfat bacarıqları yüksək. Ailə böyüməyə başlayan zaman valideynlərim yaxında Lipnikada[7] yaşayan əmilərimin köməyi ilə yalnız yeni ev deyil, həmçinin təsərrüfat binaları inşa etmişdilər. Atam zirək sahibkar idi və babam Sılvester kimi yalnız ən yaxın sahə ilə maraqlanmırdı. O, daha uzaq, naməlum dünyanı tanımağı arzulayırdı. Bu dünya haqqında bilikləri nadir hallarda mövcud olan qəzet və abunə olduğu təsərrüfat haqqında jurnallar, həmçinin qraf Malınskinin mülkündə işlər müdiri olan və onunla dünyanı gəzən (həmçinin ova çıxdıqları Amerika və Afrikanı) babamın hekayələri vasitəsi ilə öyrənirdi.

Qraf Malınskinin mülkü yalnız torpaq sahəsi və meşələr deyil, həmçinin gözəl saray, şəxsi elektrik stansiyası, Mokvin stansiyasına qədər işıqlandırılan yol və etajeri xatırladan təyyarə - taxta Farman biplanıydı[8]. Onun yaxın sahədə təsadüfi uçuşları böyüklərdə qorxu, uşaqlarda isə sevinc hissi oyadırdı. O zaman uçuşun gözəlliyini ilk dəfə qardaşım Vladıslav gördü, özü də təyyarənin "qəzaya uğradığı", qrafın isə ciddi zədə aldığı zaman.

Babam uzaq səyahətdən kristal radio gətirmişdi və vilayətdə onun ilk istifadəçisi idi. Çox vaxt ona nənəm Mariadan gizlin qulaq

---

[5] Voluv - Polşanın cənub-qərbində yerləşən şəhər

[6] Ruvne - Ukraynada şəhər.

[7] Lipniki – Ukraynanın Jitomir vilayətinin Luqin rayonunda yerləşən kənd.

[8] Biplan – üst-üstə qoşaqanadlı təyyarə

asırdı, çünki nənəmin bu icaddan xoşu gəlmirdi və o "orada şeytanın danışdığını" deyirdi. Babam axşamlar işdən sonra çardağa çıxırdı və orada qulaqcıqlarla xəbərləri dinləyirdi. Eşitdiyi xəbərləri ən yaxınları və qonşularla bölüşürdü. Uşaqlara o özgə, sirli və maraqlı aləm haqqında danışmağı xoşlayırdı. Bunlar mənim uşaq yaddaşımda qalmayıb.

Ailə hekayələrindən bilirəm ki, atamın xarratlıqda tayı-bərabəri yox imiş. O, mebel və lazım olan avadanlığı özü düzəldirmiş. İlk övladının dünyaya gəlişindən öncə gözəl çarpayı və ustalıqla oyma beşik düzəltmişdi. Uşaq mebelləri evimizin daimi elementinə dönmüşdü, çünki hər iki və ya üç ildən bir yeni istifadəçisini əldə edirdilər. Böyük bacım Alinanın doğumundan iki il sonra anam Vladeki, daha sonra Sabinanı, üç növbəti ildən sonra isə Annanı yelləyirdi. Ən böyüyümüz Alina növbəti bacıları Teresa və Boquşya ilə oynamaq şərəfinə nail oldu. Ən kiçiyi – yəni məni – yırğalamaq və əzizləməyi isə, etiraf etdiklərinə görə, ailəmin bütün üzvləri istəyirmiş.

Orada, Kresıda[9] sakit və firavan yaşayırdıq. Zamanla valideynlərim təsərrüfatı böyütdülər, daha çox torpaq aldılar, məhsul isə atamın onun mövcudluğundan çox fəxr etdiyi otçalan maşınla yığılırdı. Həmin maşını atam anamın məsləhəti ilə almışdı. Anam hələ subay olarkən Koloda[10] ticarət məktəbində təsərrüfat bilikləri əldə etmişdi. Anam Varşava, Qdınyada olub, mən bir az böyüyəndə, o illər, Kral Sarayındakı bal, dəniz və gəmilər haqqında danışırdı. Lakin hər şeydən yaxşı Lipniki ətrafının, meşələrin gözəlliyi, yaz sevinci, yayda güllər və otun qoxusu, bayram ənənələri və kirşə ilə gəzintilərimiz yadımda qalıb. Babamın təkrar etdiyi kəlamları və atamın uşaqlara qarşı sevgisi mənim üçün unudulmazdı. Kəndin içi ilə gedəndə, hər zaman uşaqlar yanınca gedərdilər. Qəmli, həzin və gözəl melodiyası olan Ukrayna dumkalarını xatırlayıram. Onlar indi də məni həyəcanlandırır.

İdilliyanı 1943-cü ilin mart ayının 25-dən 26-na keçən gecə Lipnikidə baş verən faciə məhv etdi. Onda aralarında lipnikililərin tanış və qonşuları olan balta, yaba, kərənti, zəncir, odlu silahla və yalnız öldürmək üçün deyil, həmçinin mümkün qədər çox əzab verməyə yararlı olan alətlərlə silahlanmış vəhşi ukraynalı quldur qoşunu dinc yatan kəndi mühasirəyə aldı. Onlar evləri yandırıb, qırğına başladı-

[9] Kresı – nə vaxtsa Polşa Respublikasının tərkibində olan hazırkı qərbi Ukrayna, Belarus və Litva ərazisinin adı

[10] Kolo - Polşada şəhər

lar. Onlar cinsinə və yaşına baxmayaraq hamını amansızlıqla öldürür, əmlakı qarət edirdilər. Həmin yadda qalan və qorxunc gecədə mənim Lipnikimin 182 sakini ölmüşdü. Ən kiçiyinin bir yaşı da yox idi, ən böyüyünün isə 90 yaşı var idi. Babam Sılvester də həlak olmuşdu, onu bir neçə dəfə süngü ilə vurmuşdular. O, sona qədər bizim təhlükəsizliyimizdən əmin idi, pisliyin yaxınlaşması haqqında danışılanda "qardaş ukraynalılar bizə nə pislik edə bilərlər" deyirdi. Lipnikinin sakinləri aylarla artan təhlükə haqqında xəbərdar idilər. Yaxın kəndlərdə polyakların qətli artıq tez-tez baş verirdi. Polyaklar kütləvi nifrəti gözləmirdilər, çünki hər yerdə həmrəylik, hətta qardaşlıq hökm sürürdü. Polyak-Ukrayna qohumluq əlaqələri də nadir deyildi. Öz-özünə əmələ gələn özünümüdafiə qrupları quldurların hərəkətlərini izləməyə cəhd edirdilər, lakin hücumun vaxt və yerini qabaqcadan öyrənə bilmədilər. Anam və bacı-qardaşlarımın dediklərindən bilirəm ki, həmin gecə çox soyuq imiş və ay bədirlənibmiş. Artan həyəcan səbəbindən anam ailəmizin geyimdə yatacağını qərara almışdı. Uşaqların hər biri üçün lazımi əşyalarla dolu torba hazırlanmışdı. Anamın öz torbası var idi, yəni yaş yarımlıq mənim üçün. Belə hazırlıq vəziyyəti mart ayının əvvəlindən idi. Anam neçə günlərlə yuxusuz qaldığına görə çox yorğun idi və belə gözəl aylı gecəyə valeh olub – "belə işıqlı gecədə pis heç nə baş verə bilməz" – qərara aldı ki, hamı bu gecə yuxusunu alsın. Axşam uşaqlara kətan pijama geyindirib və ən kiçiklərini qucaqlayıb yatıb. Vladıslav, Alina və atam özünümüdafiə hissəsində idilər. Faciə artıq gecə yarısından öncə başladı. Arabaların gurultusu, gələnlərin oxuma və səs-küyləri eşidilirdi. Bir anlıq sükutdan sonra pulemyot atəşinin səsi gəldi. Yandırıcı güllələr öz işini gördülər. Səhər açılırdi. Quldurların nərəsi daha da artırdı. Atam əlində tüfəng evə girdi və "qaçın" deyə qışqırdı, bundan sonra qaranlıqda yox oldu. Anam tələsik ən balacaları geyindirdi, əllərinə hazırladığı torbaları verdi və artıq alovlanan evdən çıxardı. Anam bu dəhşəti görüb – öldürülənlərin fəryadını, yandırılan heyvanların zingiltisini, yaralıların qışqırıqlarını və ümumi xaosu – qorxudan hərəkət edə bilmirdi, lakin uşaqları xilas etmək instinktini itirməmişdi. Uşaqları yanına çağırdı və bu zaman dörd nəfər degenerat – UÜO[11]-nun "əsgərləri" onu ələ salaraq gülüb çığırdılar: "Dayan, polyak sifət, qaçma, onsuz da səni öldürəcəyik". Bayaq gördüyü dəhşətli ölümlər anama güc verdi. Təqibçilərdən uzaqlaşa bildi. Onlar isə güzəştə getməyib, əliuşaqlı tənha qadına atəş açdılar. Onlardan

[11] UÜO – Ukrayna Üsyançılar Ordusu

biri anama gəlib çatdı, tüfəngi başına tutdu. Atəş açılmışdı, güllə gicgaha dəyib qulağını cırdı. Anam atəşin səsindən sarsılmışdı və qan içində yıxıldı, özündən gedib tərpənmirdi. Təqibçilər uğurlarından əmin olub, öz quldur əməllərinə davam etmək üçün kəndə qayıtdılar. Atəşdən sonrakı qan və şoka görə anam səmərəli hərəkət etmək iqtidarında deyildi. Çox uzun zaman qaçırdı, məntiqi düşünmək bacarığı bərpa olduqdan sonra isə ayaqyalın, nazik donda Lipnikidən 6 km məsafədəki qonşu Byalka kəndində tanış ukraynalı qadınlar arasında dayandığını anladı. Qadınlar onun taleyinə acıyırdılar, kimsə ona bir az isinməsi üçün gödəkcə verib üzünü qandan təmizlədi, o biri əl isə ona çörək uzatdı. Bu insanlıq əlamətləri anama qalan dəhşəti xatırlatdı: "Balam hardadı?" - ürəksizladıcı səslə qışqırdı. "Orada qaldı" - əllərilə qanlı üfüq tərəfi göstərdilər. Tərpəndi, lakin ukraynalı qadınlar güclə onu saxladılar. "Orada ancaq ölüm var" – dedilər.

O zaman atam kəndin özünümüdafiə qrupunun digər üzvləri ilə vəhşi quldurların hücumunu dəf etməyə çalışırdı. Mühasirə dairəsini yarmağa nail oldular və buradan çoxlu qorxu və yaxınlarının itkisinin ağrısından dəli kimi olan qadın və uşaqları çıxarda bildilər. Təxliyə yolu ancaq kifayət qədər dərin, lakin dar olan Zurne kəndi istiqamətində yerləşən drenaj kanalı vasitəsi ilə mümkün idi. Onun dibində ancaq bir-birimizin ardınca gedə bilirdik, bu isə qaçışı ləngidirdi. Bərk qorxmuş qaçqınlar bir-birinin üstünə yıxılırdılar, böyük qarışıqlıq və basırıq yarandı. Hücumçular polyakları lənətləyərək, növbəti qırğına başladılar. Bunu metodik olaraq edirdilər, qumbaraları atıb toplunu güllələyirdilər. Çuxurdan çıxmağa cəhd göstərənlər geriyə başları balta ilə vurulmuş vəziyyətdə düşürdülər. Onlarla qaçqın öldürülmüşdü. Xanım Baqinska da onların arasında idi, güllə ilə yaralanmış oğlunun önünü öz bədəni ilə kəsmişdi. Evelina Haydamoviç öz yaralı oğlunu xilas edərək, hər iki gözündən güllələnmişdi və onun gördüyü son şey yanğınlar idi. Qatillərin "uğurlu işi" ndən sonra çuxur zalım ölümə tuş gələnlərlə dolu idi.

Səhər açıldıqda ən cəsur kişilər Lipnikiyə getməyə tələsdilər. Artıq uzaqdan faciənin böyüklüyü görünürdü, yanıb qurtaran malikanələr, şikəst gəzən və ya yandırılmış heyvanlar. Yaxınlaşdıqca daha böyük xaos, viranəlik və təsvirolunmayacaq dəhşətlər gözə görünürdü. Güllədən az insan ölmüşdü, bəziləri başsız, əl-ayaqsız, yaba ilə deşilmiş vəziyyətdə uzanmışdılar... Uşaqları quyularda və ya hasarların məhəccər barmaqlıqlarının üstündə yırtılmış vəziyyətdə tapırdılar... Axtaranlar arasında atam və qardaşım Vladıslav da var idi. Evimiz artıq yox idi, onun yerində ancaq kül var idi. Donmuş düzənlikdə, canlı çəpərin yaxınlığında atam gözlənilmədən da-

ma-dama yorğanı, onun içində isə hərəkətsiz uzanan oğlu Mireki gördü, ətrafda qarın üstündə isə çoxlu qan var idi. Atam əmin idi ki, mən artıq yaşamıram, üzüm çox solğun idi. Lakin məni bir az silkələyəndə gözümü açıb "ata, şi", yəni alov və "part" mənasını verən sözləri dedim.

Polyak Lipniki kəndi və ona bənzər çoxsaylı kəndlər yer üzündən silinmişdi, xəritədən yox olmuşdular. Lakin orada polyak qanı və əzablarla ölən insanların sümükləri qalıb. Lipnikililərin ürəklərindəki ağrı və ümidsizlik qalıb. Bütün mülkümüzü və valideynlərimizin ömür boyu yığdığı qazanclarını itirmişdik. Çox qorxurduq, sabah nələr olacağını fikirləşib, yaxınlarımızın itkisindən doğan ağrı hissini yaşayırdıq. Biz yolçulara döndük. Aclıq hissi ağıldan güclü idi. Payız əkinlərində nəsə tapmaq məqsədi ilə atamla dayılarım bizim tarlalara yollandılar. Bu, atamın ata-baba mülkünə son səfəri oldu. Geriyə sinəsindən güllə ilə vurulmuş halda qayıtmışdı. Evə qayıdarkən onları pusqudan güllələmişdilər. Hörmətli həkim cənab Turkeviç əlacsız idi, güllə ürək kisəsini zədələmişdi. Sinəsi sarğılarla dolanmışdı. Məni nəyə görə qucağına almadığını anlaya bilmirdim. Anamın növbəti dəfə xəstəxanaya gələrkən pilləkəndə əlindəki kompot bankasını nəyə görə sındırıb sonra ağladığını da başa düşmürdüm. Deyəsən, anamı sakitləşdirirdim: "Ana, sakit, ata yatıb". Dəfn mərasimi, hamının ağladığı, anamın isə özündən getdiyi yadımda qalıb. Yalnız illər sonra başa düşdüm ki, atasız, yarı yetim qaldıq. Pastor keşiş Rossovski dəfn günü verilən şəhadətnamədə yazdı: "Roman Hermaşevski, Sılvester və Maria Hutnitskanın oğlu, 10.11.1900-cü ildə anadan olub, 28 avqust 1943-cü ildə Bereznoda ağ ciyərin güllə yarasından vəfat edib. Həyat yoldaşı Kamila, uşaqları: q. Alina, o. Vladıslav, q. Sabina, q. Anna, q. Teresa, o. Boquslav və o. Miroslav qalıb".

Beləliklə, ailə epopeyamızın növbəti faciəvi hissəsi başladı. Atamızın ölümündən sonra anam şok yaşadı, lakin sınmadı, axı onun yeddi uşağı var idi. Lakin heç kimin yardımını gözləyə bilməzdi, çünki hamı eyni dərəcədə pis vəziyyətdə idi. O çoxlu işləyirdi. O, paltaryuyan, dərzi, aşpaz işləyirdi, lakin bizim üçün hər zaman ana olaraq qalırdı. Yorğunluğunu bildirmirdi, hər birimizə ana qayğısı göstərirdi. Məni xüsusən sevirdi, ən kiçik övladı idim və möcüzə sayəsində xilas olmuşdum. Anamın zəhmətkeşliyi və zirəkliyi yüksək hörmətə layiq idi. Aclıq başlayanda anam tərəddüd etmədən bəxt üzüyünü çıxardıb iki kömbə çörəyə dəyişdi. Mühafizə dəstəsini inandıra bildi ki, bizdən Reyxdə heç cür istifadə edə bilməyəcəklər və qəribə olsa da bizi vaqondan "ev"ə apardılar. Həmin ev şəhərdə-

ki qırğından sonra qalan bina idi. Şüşəsiz pəncərələr, anamın tapdığı samanla qayğı ilə örtülmüş beton döşəmə. Bu ümidsiz vəziyyətdə yardım əlini bizə hamıya qarşı hər zaman diqqətli olan keşiş Rossovski uzatdı. Anamı uşaqları ilə birgə Bereznodakı evinə sığındırdı. Yuxarı mərtəbədə böyük parka baxan kiçik otaqda yaşayırdıq. Orada hündür ağaclarda qarğalar qırıldaşırdılar. Evin yanında iki qülləli kilsə vardı. Kərpic hasarın yanında isə zəng qülləsi yerləşirdi. Pastorun qardaşı cənab Yan xüsusilə xoşuma gəlirdi. Onun dizlərində otururdum, hətta ibadətə çağırarkən şalvarından yapışırdım. Yaxınlıqdakı Sluç çayına gəzməyə gedərkən məni də özü ilə götürərdi, çayın o tayında təlim keçən rus əsgərlərini göstərirdi, oxuyurdu, məni yüksəyə qaldırıb, quşların uçuşunu təqlid edib deyirdi: "Sən şahinsən". Altmışıncı illərdə artıq zabit kimi keşiş Rossovski və cənab Yana Zgejdakı[12] prixodda gizlincə baş çəkdim; mənimlə fəxr edirdi – şahin idim. Hər ikisi Modlnadakı qəbiristanlıqda dəfn ediliblər. Sonralar oranı ziyarət etdim. Sakinlər keşişin qəbrinə əklil qoyan və fikrə gedən polad rəngli mundir geyinmiş generalı görəndə təəccüblənmişdilər.

Anam, zəif qadıncığaz uşaqlara qayğı göstərmək üçün çox güc sərf etmişdi. O, Qərbə köçmək üçün, dediyi kimi, "artım" hazırlaya bildi. Bunu artıq xatırlayıram: yük vaqonu ilə başqa ailə ilə birgə gedirdik. Qatarla səyahət uşaqlar üçün çox maraqlı idi. Qayğısız idim. Ona görə də böyüklərin nəyə görə hönkür-hönkür ağladıqlarını başa düşə bilmirdim. Taxtalardakı çatlardan yeni, başqa, tanınmayan dünyaya baxmağa cəhd göstərirdik. İlk dəfə böyük evlər – "binalar" görürdüm, maşınların gəlməsi isə tərifəgəlməz sensasiyaya dönmüşdü. Səyahətimizi arasıkəsilməyən şaqqıltı, təkərlərin taqqıltısı, xırıltı, parovozların fiti, daimi yırğalanma və vaqonların növlərə ayrılması müşayiət edirdi. Çoxsaylı dayanacaqlardan birində anam isti yemək hazırlamağa qərar verdi, su gətirməyə getdi, əyildi və şaquli divarı olan kərpic quyuya düşdü. Üzə bilmirdi, var qüvvəsilə çənin qırağındakı otlardan yapışırdı, otlar qopur, anam isə batırdı, artıq taleyə müqavimət göstərmək istəmirdi. Özündən sonra iz qoymaq istədiyi və bayaqdan əlində tutduğu və o zamanlar üçün sərvət olan qazanı atdı. Ağlına uşaqları gəldi və bu ona güc verdi. Tələdən çıxmaq üçün növbəti cəhdi uğurla nəticələndi.

Əldən düşmüş, yaş, üşüyən vəziyyətdə vaqona qayıtdı və heç nə olmamış kimi yeməyi hazırladı. Yalnız illər sonra olanları danışdı.

---

[12] Zgej – Polşada Lodz voyevodluğunda şəhər

Səyahət uzanırdı, iyunun sonunda nəqliyyat Vrotslav ətrafına gəlib çatdı. Biz bəxtəvər idik, çünki minlərlə volınlının faciəvi taleyini bölüşmədik. Biz polyak Holokostunu yaşadıq. Tanımadığımız yad torpaqda idik. Voluvda məskunlaşdıq. İlk iki həftə ərzində çoxsaylı ailələrlə birgə "rampa"da, yəni parovoz deposu zalında gecələyirdik. Anam həsrətlə bizim inəyi axtarırdı. Bir həftə gözləyəndən sonra ailəmizi dolandıran inək yüzlərlə başqaları ilə peyda oldu. Anam onu onlarla inək olan naxırda kədərli mələməsindən tanıdı. İkisi də bir-birilərini tanıdılar, inəyimiz anamı nahamar dili ilə yalayaraq sevindiyini bildirirdi.

Şəhərdən kənar Koşçuşko küçəsində yerləşən binanın birinci mərtəbəsində yaşamağa başladıq. Qardaşım Vladek üçün darıxırdıq, səfər zamanı qarın yatalağı xəstəliyinə tutulmuşdu. Şüursuz vəziyyətdə Katovitsadakı xəstəxanaya çatdırılmışdı. Bir neçə həftə sonra sağalıb özününküləri axtarmağa başladı. Geri alınmış torpaqlarda[13], Vrotslav, Şçeçin, Kvidzında öz ailəsini axtarırdı. Fəhmlə hərəkət edərək Aşağı Sileziyaya geri dönür. Günlərin birində bacım Sabina ilə pəncərədən şabalıd ağacları əkilmiş küçəyə baxıb gördük ki, səkidə ayaqyalın, cırıq şalvarlı, başında rəngi qaçmış papaq olan bir oğlan gəlir. Vladek! – bacım çağırdı. O biz tərəfə baxıb, bir anda yanımıza gəldi. Onda anamın ağladığını gördüm, bu, sevinc göz yaşları idi.

Tezliklə anam mərkəzə yaxın Berut küçəsində yerləşən binada ev tutdu. Bina kiçik idi, qonşuluqda yerləşən villalardan fərqlənirdi. Sanki maddi vəziyyətimizi əks etdirirdi. İki çarpayı, şkaf, masa və bir neçə kürsülü yemək masamız var idi. Evin zirzəmisi yox idi, lakin onun bir üstünlüyü var idi – arxa həyətində donuz damı və kiçik bostan, həyətin ortasında isə gilas ağacı var idi. Qardaşım Boqdan və həyətdəki dostlarımızla yazdan payıza qədər ona dırmaşırdıq. Donuz damında donuz xortuldayırdı və buzov movuldayırdı, toyuqlara bacım Teresanı qorxudaraq onu məktəbə qədər yola salan xoruz başçılıq edirdi. Bostanda tərəvəz və ərik ağacı var idi, çəpərin arxasında böyük park, yanında isə qəbiristanlıq yerləşirdi – bunlar mənim uşaqlıq dünyam idi. Ətrafı və təbiəti tanıyırdım. Anama qonşu damdakı sərçələrdən şikayət edirdim, çünki, dediyim kimi, cikkildəyərək məni çağırırdılar: "Mirek-çvirek". Onlara əsəbiləşirdim və düzəltdiyim sapand vasitəsi ilə ədaləti bərpa etmək istəyirdim.

[13] Geri qaytarılan torpaqlar – Alman Polşası, Üçüncü Reyxin keçmiş ərazilərinin adı. 1945-ci ildə beynəlxalq Yalta və Postdam konfranslarının şərtləri, həmçinin 1945-1956-cı illərdə SSRİ ilə ikitərəfli sazişlərə əsasən ərazinin böyük hissəsi Polşaya verilib

Anam özünü tamamilə uşaqlara həsr edirdi. Onun hər şeyi bacardığını fikirləşirdik. Köhnə plaşdan bizə gəşəng və rahat geyimlər tikdi. Donuzumuzun xəstə olduğunu və onu yeyə bilməyəcəyimizi biləndə, anam hardansa kaustik soda əldə edib, o zamanlar tapılmayan sabun düzəltdi. Hər şənbə günü mən və Boqdan əsaslı yuyunurduq, yuyunduğumuz su isə qapqara olurdu. Axşam duasından sonra anam əynimizə uzun köynəklər geyindirib, çarpayılarımıza, nişastalanmış yorğan-döşəyin üstünə uzadardı. Yuxuya getməmişdən əvvəl bizə nağıl danışıb, mahnılar oxuyurdu. Bizə əziyyət verən qotur xəstəliyinə tutulanda isə kiminsə məsləhəti ilə, tərəddüd etmədən minomyot mərmilərini söküb içindən sarı trotili götürüb qatranla bişirirdi. Əsaslı vannadan sonra bu dəhşət üfunətli, lakin o zaman yeganə əlçatan məlhəmi bədənimizə sürtürdü.

Ailənin yaşayışını bir az düzəltmək üçün anam əsas küçədə yerləşən binada kiçik dükan açdı. Yer çox balaca idi, içində isə xəzinə: konfetlər, pirojnalar, buz lülələri və əlbəttə duz, un, sıyıq, zeytun yağı və s. Orada olmaqdan xoşum gəlirdi. Arada mənə şirniyyat verilirdi, bu günə qədər üstündə ağ ətirli kütlə olan pirojnaları xoşlayıram. Bir dəfə anam məni dükanda tək qoydu. O zaman ora bəstəboy bir insan girdi: "Təksən?" – soruşdu. "Bəli" – cavab verdim. "Sənə konfet üçün zlotı[14] verəcəm, sən də mənə ananın siqaretləri harada gizlətdiyini de", - təklif etdi. Özümü sahib kimi hiss edib, əlimlə işarə etdim: "Burada - sobanın altında". O qımışıb, sobanın altından odunları çıxarıb, dərindən üstündə at şəkli olan (bu, dəvə idi - "Camel") iki uzun sarı qutu çıxardı. "Ananı gözləyək", – dedi. Pencəyinin ətəklərini açdı, kəmərdə isə "tapancası" var idi. Beləliklə, vəd edilmiş zlotıya anamı ələ verdim. Həmin zlotını almadım. Anamı, böyüklərin dediyinə görə, "bizim" parkın o biri tərəfində yerləşən Təhlükəsizlik İdarəsinə apardılar. Anamın olmadığı iki həftə ərzində ətrafda ac canavarlar kimi gəzirdik. Bacım Hanya məni parka apardı. "İndi yeyib doyacayıq", deyə - mənə qara kəndalaş salxımını uzatdı. Çox ac olduğuma görə, acgöz kimi yeyirdim. Giləmeyvələr biraz şirin idilər. Birdən mədəmdə olan hər şeyi qusdum. Hətta bu gün də kəndalaşın yanından keçərkən ordan tələsik uzaqlaşıram. Yəqin bu reaksiya doğma anamı ələ verdiyim üçün cəzamdı. 1983-cü ildə həyat yoldaşım və qızımla birgə doğma evimə baş çəkdim. Oradakı sakinlər məni çox xoş qarşıladılar. Altmışıncı illərdə lipnisalıların faciə yerində, o zaman vəfat edənlərin birgə dəfn yeri

---

[14] Zlotı – Polşanın pul vahidi

olan köhnə Folklor Evinin yanında kurqan tikilib. Lövhədə məlumat verilir: "Burada 182 günahsız insanın cənazəsi yerləşir" – bu haqda qardaşım Vladıslavdan bilirəm. Ora gəldiyimdə kurqan artıq yox idi. Yerli insanlar deyirdilər ki, o, biçin işlərinə mane olurdu. Qurbanların cənazələri hörmətlə yaxınlıqdakı Byalkaya köçürülüb. Qoyulan baş daşı heç nə ilə başqa qəbirlərdən fərqlənmirdi. Kiçik lövhə çatlamış və oxunmaz vəziyyətdə idi. Həmin gecənin dəhşətli səhnələrini yadda saxlamadığıma peşman deyiləm. İki bacım Anna və Teresa, həmçinin qardaşım Boqdan həmin hadisələrdən neçə il sonra da gecələr yuxudan qorxudan qışqırıb ayılırdılar.

# İKİNCİ

## HİSSƏ

Səmanın qaranlığını nişan alıram



# PLANERDƏN REAKTİV TƏYYARƏYƏ QƏDƏR

Böyük qardaşım Vladislav 1948--ci ilin payız aylarında aviasiya təhsili almağa başlamışdı. O, Demblində[15] Aviasiya Zabitləri Məktəbində kadet idi. Düz bir ildən sonra evə gəldi, ona yaxınlaşmağa belə cəsarət etmirdim, dəyişmişdi – boylu-buxunlu, gümüşü rəngli təyyarəçi formasında idi. Sevinə-sevinə təyyarələr, uçuşlar haqqında danışırdı. Ondan başqa,  sirli dünyanın qoxusu gəlirdi. Bu, artıq Voluvdan olan və bacısı Alina ilə Malçıtsadakı şəkər zavoduna bir pedallı və bir şinli velosipedlə işə gedən Vlacyo deyildi; və bu liseydə oxuyarkən yanacaqdoldurma məntəqəsində kanistrdən benzin tökərək işləyən Vlocu deyil. İndi o, təyyarəçi Vladek idi. Mən də onun kimi olmaq istəyirdim.

Anam çox işləyirdi, uşaqları saxlamaq lazım idi axı. Anamın işini asanlaşdırmaq üçün əmim Kajimej məni Zlotuvun[16] yanındakı Krayenkaya[17] "kökəltməyə" aparmışdı. Əmim və onun sərt, tələbkar, lakin məni öz övladı kimi çox istəyən həyat yoldaşı Korneliyanın qayğısı ilə əhatə olunduğum varlı evə gəlib düşdüm. Birinci sinfi bitirdiyim haqda şəhadətnaməni də Krayenkada aldım.

Məktəb illəri qayğısız idi. Məktəb "UNRI" südü, balıq yağı və bulka kimi əlavə yemək verirdi. Aviasiya haqqında bilikləri abunə olduğum və 1951-ci ildən müntəzəm surətdə oxuduğum "Səyyar Polşa» jurnalından əldə edirdim. Bu biliklər dünya görüşümü genişləndirirdi. Qardaşımın hekayələrini xatırlayıb, hərbi təyyarəçilərin şəkillərinə baxandan sonra çarpayının üstünə stulu elə şəkildə qoyurdum ki, uçan təyyarəyə bənzəsin. Stulda uzanaraq özümü göy üzündə sürətlə gedən qırıcı təyyarənin kabinəsində hiss edirdim. O vaxtlar bu mənim ən sevdiyim və saatlarla  əylənə biləcəyim oyun idi. Dostlarımla gizlicə metal qırıntıları olan zibilxanaya gedirdik. Orada olan təyyarə

---

[15] Demblin – Polşada şəhər

[16] Zlotuv- Polşada şəhər

[17] Krayenka – Polşada şəhər

kabinəsində otururdum. İdarəetmə elementlərinə toxunub burnumun altında mızıldanırdım, uçurdum. Təyyarənin qanadlarının üstündə qara xaçlar, kabinədə isə çoxsaylı "saat"lar var idi. Həmin "saat"lar almanların idi. Və bu saatları xüsusi ehtirasla sındırırdıq. Bu gün, bunu yada saldığım zaman utanıram, çünki bu, əsl qırıcı təyyarə - "Messerschmitt"-109 idi.

10 yaşım olanda, arıq və zəif oğlandım. Bədən quruluşum, müəlliməmin fikrincə, Maria Konopnitskanın novellasındakı Musiqiçi Yanek roluna uyğun gəlirdi. Xoşbəxtlikdən anam premyeradan bir gün öncə mənim Yanek rolunda planlaşdırılan teatr debütümdən xəbər tutdu və etiraz səsini ucaltdı. Fikirləşirəm ki, ən kiçik övladının "balaca, arıq, açıq rəngli gözləri olan" uşaqla müqayisə edilməsi anamın qüruruna çox toxunmuşdu. Bunun sayəsində mən aktyorluq karyerasından qurtula bildim. Uçuş haqqında xəyallarımla qaldım, bunu çəmənə öz əlimlə düzəltdiyim böyük çərpələnglə gəlməyim təsdiqləyirdi. İctimaiyyət nümayədələrinin dediyinə görə, tamaşa pis deyildi, hətta pərdənin bağlandığı zaman, yəni çərpələngimin burularaq yerə çırpıldığı zaman alqışlar da səslənirdi. Bu kiçik teatrda özümü yaxşı hiss edirdim, tamaşalar isə getdikcə daha da maraqlı olurdu. Aktyorları çoxsaylı planer modelləri, isti hava balonları və özümün düzəltdiyim rezinötürücülü modellər əvəz edirdi.

Dostlarım arasında modelləşdirmə və aviasiya sahəsində sayılıb-seçilən adam idim. İlk növbədə ona görə ki, qardaşım Vladıslav tanınmış və sürətlə inkişaf edən pilotuydu. Onun haqqında radiodan eşidəndə və ya qəzetlərdə "baş zabit pilot Vladıslav Hermaşevski" sözlərini oxuyan zaman parad anında təyyarəsinin səsini təsəvvür edirdim. İndi dördüncü siniflərin polyak dili kitabında "Kiçik Vlacyonun təyyarəçi olması haqqında" adlı hekayə var. Həmin kitabı bacım, müəllimə Alina və Sabinanın övladları oxuyublar. 1951-ci ildə "Azadlığın qanadları" qəzetində qardaşım və bir neçə pilotun şəklini gördüm. Orada yazılmışdı: "Bütün Polşa müasir avadanlığın istifadəsi üzrə ustaların - bu təyyarəçilərin soyadlarını bilir… onlar polyak səmasını qoruyurlar". "Qanad və Motor" aviasiya jurnalındakı məlumat mənə çox təsir etmişdi. "Vladek Hermaşevski hələ yeniyetmədir – PGİ[18]-nın üzvü, faşistlər tərəfindən evi yandırılan və atası sovet partizanları ilə əməkdaşlıq etdiyinə görə öldürülən kəndlinin oğludur". Öyrəndim ki, "Vladek reaktiv təyyarəni elə idarə edir ki, elə bil bu ən adi işdir. Şəhərə çox az çıxır, vaxtının çoxunu mühazirə zallarında keçirir – beləliklə, Hermaşevski təvazökarlıqla öz uğurlarının mənbəyini göstərir. " Bu

[18] PGİ – Polyak Gəncləri İttifaqı

sözləri yadda saxladım. 1961-ci ildə Aviasiya Zabitləri Məktəbinin praporşiki olduğum zaman bu qaydaya əməl edirdim. Nəticəsini gördüm.

1954-cü ildə ilk dəfə anamla Varşavaya Vladekin dəvəti ilə gəlmişdik. O, Bemovoda iyirmi nömrəli tramvayın terminalı, yəni hava limanının yaxınlığında yerləşən gözəl ikiotaqlı mənzildə yaşayırdı. Günün vaxtından asılı olmayaraq, reaktiv təyyarənin mühərrikinin səsini eşidən kimi hava limanına tərəf qaçırdım, orada, hasarın yanında, kolda uzanıb enmə meydançasının havasını ciyərlərimə çəkirdim. Təyyarələr 20-30 metrlik məsafədə idi. Bir neçə saatdan sonra anam məni varenik və ya hər hansı şorba qazanı ilə tapırdı. Elə olurdu ki, şam yeməyinə gəlmirdim, çünki gecə uçuşları daha heyranedici idilər. Əsgərlərlə tanış olduqdan sonra onlardan bir qazança sıyıq və indiyə qədər dadını unutmadığlm kotleti alırdım, sonra isə məni hasardan keçirirdilər. Təyyarələrin yanında kiçik işləri yerinə yetirməyimə icazə verirdilər.

İllər sonra Babitse hava limanında hərbi təyyarə ilə dəfələrlə enib və postumun yanında hərəkət edərkən bir dəqiqəlik təyyarəni saxlayıb salamlaşırdım.

Ümumi təhsil liseyində oxuyarkən model düzəltməklə məşğul olmağa başladım. Çardaqdakı otaqda kiçik model sexi quraşdırıb, boş vaxtlarımı orada keçirirdim. Hər ideal model onun haqqında texniki-tarixi bilikləri aldıqdan sonra bir neçə həftə ərzində yaxın parkda kəsilmiş cökədən arzular obyektinə dönürdü. Modellərin kolleksiyası böyüyürdü, bununla birgə zəif qiymətlərin kolleksiyası da durmadan zənginləşirdi. Fikirlərim planerin kabinəsində idi, çünki tətillərdən və onuncu sinfi bitirəndən sonra planer pilotu nişanı ilə qayıtmışdım. Mən planerlən ilk dəfə "səyahət"ə çıxanda, Vladek Qrünvaldda məşhur qalibiyyətin 550-ci ildönümündə 64 qırıcıdan ibarət şahmat qaydasında uçan birgə qrupa rəhbərlik edirdi. Mən ona heyran qalmışdım, bütün Polşa və dünya təyyarəçiləri kimi.

Liseydə gözəl müəllimlərim var idi: polyak dilindən xanım prof. Mitskeviç, fizika fənnindən prof. Zebrovski, tarixdən prof. Haydo, riyaziyyatdan prof. Peşlak. Fəlsəfəyə giriş fənnindən dərs deyən Ksöndz Bosakın həyata dair məsləhətləri çox dəyərli idi. Tərbiyəçilərim həvəsimi başa düşürdülər, lakin məni təyyarəçi rolunda heç təsəvvür edə bilmirdilər. Qamış özü uça bilməz – müəllimlərim deyərdi. Önündə durduğum seçki komissiyası da eyni fikirdə idi. Məni ələ salırdılar, lakin bu ən qorxulusu deyildi. Onlar mənim orduya yaramadığım qənaətində idilər – C kateqoriyasını aldım, bu isə orduda xidmətə tam yararlı olmadığımdan xəbər veririrdi. Planerdə uçmaq arzumu eşidəndə

isə daha bərk gülməyə başladılar. Mənim dünyam beləcə darmadağın oldu.

İllər sonra həmin şəxslərdən biri məni Vrotslavda həyat yoldaşına hamının eşidəcəyi səslə təqdim etdi: "Bax, Başya, bu, polkovnik Hermaşevskidi. Mən onu Aviasiya Zabitləri Məktəbinə yönəltdim". Əlbəttə ki, həmin vaxt mənə göstərilən "xeyirxahlığa" görə ona təşəkkür etdim.

Aviasiya təhsilim müddətində uçuş sənətində təcrübələri olan və həvəsimi başa düşən gözəl insanlara rast gəlirdim. Baş Aerotibbi Tədqiqatlar Mərkəzində iki dəfə məğlubiyyət yaşadığıma baxmayaraq, Vrotslav Aeroklubuna qəbul edilmişdim. VA-nın o zamankı müdiri polkovnik Antoni Zcislav Mayevski biliklərə yiyələnmək istəyimə görə mənə ciddi istehza ilə yanaşırdı. Onlarla suallar verirdi. Sonda ilk dəfə aviasiya və uçuş barəsində ilk dəfə bu qədər məhdud biliklərə malik insan gördüyünü dedi. Planer nəzəriyyə kursunu yaxşı qiymətlə bitirdim. Müvafiq təyinatla Voluvdan iki dostumla birgə Oleşnitsa hava limanına gəldik. Elə oldu ki, kurs bir həftə sonra başlayası oldu. Dostlarım öz evlərinə döndülər, mənsə qaldım. Qayıtmaq üçün pulum yox idi, ona görə də Texniki Aviasiya Zabitlər Məktəbinin ərazisində əsgər mətbəxində ştatdankənar köməkçi vəzifəsinin mənə düzəldim. Kartof, tərəvəz soyurdum, yeşikləri daşıyırdım. Bunun müqabilində hansısa anbarda yatırdım, hər şeydən öncə isə təyyarələrlə əlaqəm var idi, çünki TAZM-də hərbi təyyarələrin xidməti üzrə gələcək mexanik və texniklər təhsil alırdılar. Burada müxtəlif növlü hava gəmiləri var idi.

Bir həftədən sonra HAH-1 (Hərbi Aviasiya Hazırlığı) kursunun iştirakçısı oldum. Arıq cüssəli, yerdə məşğələlər zamanı son dərəcə dəqiq, havada isə rahat və sakit təlimatçı Eugeniuş Mlınarskinin himayəsi altında idim.

11 iyul 1960-cı il tarixində qeydiyyat nömrəsi SP-2200 olan "Vağ" planerinin kabinəsində pilot vəzifəsinə namizəd rolunda ilk uçuşumu həyata keçirmək üçün onunla əyləşdim. Dostlarım paraşütü taxmaq və kəmərləri bağlamağa kömək etdilər. Birinci kabinədə arxada təlimatçı əyləşmişdi. "Hazırsan?" – soruşdu. Emosiyalarım aşıb-daşırdı, başımla razılığımı bildirdim. Qaldırıcı vasitəsi ilə uçuşa başladıq. Polad buraz planerin gövdəsini qəribə səslə dolduraraq dartılırdı. Yerimizdən tərpəndik. Demək olar ki, planer dərhal otdan ayrılıb burnunu səmaya tərəf yönəltdi. Təlimatçının səsini eşitdim: "Daha güclü dart". Eyni zamanda öz qulpunu da çəkdi. Planer şahə qalxdı. Nə yeri, nə üfüqü görmürdüm, yalnız göy üzünə yönəltdiyim ayaqlarımı görürdüm. Bu mövqe divanın üstündə qoyulan stullarda təyyarəçi rolunu oynadığım

zamanki duruşuma bənzəyirdi. Nəfəs belə ala bilmirdim. Bir neçə dəqiqədən sonra 250 metr hündürlükdəydik. Cihazların sürətimizin 70 km/s olduğunu göstərməsinə baxmayaraq, planer elə bil hərəkətsiz dayanmışdı. Bu, tanışlıq uçuşu idi. İdarəetmə cihazlarına, demək olar ki, toxunmurdum. Baxışımla ətrafda olan hər şeyi qeydə alırdım. Hava limanı üzərində müəyyən olunmuş dairəni həyata keçirdikdən sonra enmə meydançasında idim. O zaman eşitdim: "İşarələrdən öncə planlaşdır". Elə bilirdim ki, hava limanına enə bilməyəcəyik, çünki çox kiçikdi (əslində isə 3000 metr idi!). Vəziyyət hər saniyə dəyişirdi. Yerə tərəf gedirdik. İstər-istəməz torpaqla toqquşacağımızı fikirləşəndə, idarəetmə cihazlarında təlimatçının qərarında dönməz reaksiyasını hiss etdim. Xilas edilmişdim. Otlara dəyən gövdənin səsini eşitdim və bir andan sonra Vağ enmişdi. Həyəcanla "Əladır" qışqırdım – təlimatçının enməsini deyil, bütün uçuşu nəzərdə tuturdum. Arxadan eşitdim: "Deyəsən, yaxşı uçacaqsan. Təbrik edirəm". Uçuş üç dəqiqə davam edib - 6.26-dan 6.29-dək.

Təlimatçı Mlınarskinin sayəsində 29 iyul tarixində ilk dəfə müstəqil olaraq uçuşu yerinə yetirdim. Doğrudan da, tək uçduğuma əmin olmaq üçün bir neçə dəfə arxaya dönüb baxdım. Əmin olandan sonra isə var-gücümlə "Baxın, tək uçuram!" - deyə qışqırdım. Yerə endikdə isə təlimatçıdan ənənəvi şapalağı aldım, sonra isə onun və beş dəqiqə bundan əvvəl ilk dəfə tək uçan dostum Zıqmuntun təbriklərini qəbul etdim. Həyəcanlı şəkildə özümə and verdim ki, bu tətili uçuşa həsr edəcəyəm. Daha sonra bütün həyatımı həsr etdim. On iki nəfərdən ibarət qrupdan hamı planer pilotu olmadı. Bəzilərinin motivi olmadı, bəziləri inkişaf edə bilmədilər. Üç həmkarım gözümüzün önündə Yunak-təyyarəsi ştoporu[19] yerinə yetirərkən qəzaya uğrayandan sonra evə döndülər. Pilotlar torbaları dairəyə tullamağı öyrənirdilər. Təəssüflər olsun ki, hədəfə təyyarəylə düşmüşdülər, pilotlardan birisə həlak olmuşdu.

Növbə zamanı kifayət qədər ciddi nizam-intizam var idi. Günümüz dan yeri sökülməmiş başlayırdı. Yuxulu vəziyyətdə otların üstü ilə ayaqlarımızı sürtə-sürtə hava limanının o biri tərəfində yerləşən anqarlara gedirdik. Orada texniki baxış keçirəndən sonra bir kilometrlik yol boyu əl ilə planerləri starta çəkib sürürdük. Hər gün başqa cür olan günəşin doğması bizim mükafatımız idi.

Uçuş günü uçuşun özündən fərqlənir. Bu, çoxlu fiziki güc tələb

---

[19]Ştopor – vintvarı xətt üzrə sürətlə başı aşağı enməkdən ibarət yüksək təyyarəçilik üsulu

edən daimi təlimdir. Yerə endikdən sonra əl ilə planeri start yerinə aparır, dartan cihaz işə düşəndə isə uzunluğu bir neçə yüz metr olan burazı qaçaraq bucurğada[20] qədər çəkirdik. Bəzən öz növbəmi gözləyərkən cibimdən latın dili kitabından bir vərəq çıxardıb, planerin qanadının kölgəsində Ovidinin poeziyasını əzbər öyrənirdim. Bunu daxilimdəki tələbə görə etmirdim, vəzifəmə görə edirdim. Latın dilini öyrədən professora yaxşı bildiyim mətnlə cavab verməli idim.

Təlimin sonunda sırada Zıqmunt Borıslavski, Franek Paynovski, Valentı Plonka, Vatsek Şetelnitski, Yanuş Rudı və Boqdan Linevski ilə qaldım.

Bir neçə bəxtəvərlə birgə avqust ayında Karkonoşeda[21] hələ müharibədən əvvəl tanınmış Yejuv Sudetski planer meydançasının üstündə uçurduq. Orada himayəçim təlimatçı və pilot, gözəl insan, aviasiya haqqında böyük biliklərə malik və yüksək fiziki hazırlığı olan – xanım Lidiya Pazio idi. Xanım Lidiya özüm haqqında bilmədiyim xüsusiyyətlərimi üzə çıxarmışdı: inad, başqalarından çox şey əldə etmək istəyi, tədbirlilik və havada olarkən mühakimə yürütmək qabiliyyəti. Orada ilk dəfə planerlə ştoporu və mənə çox güclü təsir bağışlayan müxtəlif pilotaj fiqurlarını görmüşdüm. Yejuvda ilk itaət dərsimi almışdım. Bir saatdan çox Muşe-100 ilə göydə "asılıb qalmışdım". Uzun, bir neçə kilometrlik yamacı dövrələyən hava axınından istifadə edirdim. Səma ağır buludlarla örtüldü. Hava limanından göyə üç qırmızı raket atıldı – dərhal enmək əmri. Bu siqnala əhəmiyyət vermədim. Yamac boyu bir uçuş da yerinə yetirməyi qərara aldım. Uçuş əla keçmişdi, lakin güclü burulğan başladı, külək şiddətləndi. Yerə enmək üçün geri döndüm. Spidometr 90 km/s sürətini göstərirdi, mən isə yavaşca irəli gedirdim. Qırmızı raketlər daha tez göründü. Enmə meydançasına necə çatacağım haqqında düşünməyə başladım, alçaqdan uçurdum. Tərslikdən yağış da yağmağa başladı. Bir az yuxarı qalxmağı qərara aldım, təpənin başına yaxınlaşırdım. Dağa möhkəm dəyib, aşağıya tərəf uçdum. Ölümcül "dalda (külək tutmayan yerdə)" qalmışdım. Ağacların başları səs-küylə yaxınlaşırdı. Bir neçə metr hündürlükdə təkrarən təpənin üstündən uçdum. Enmə meydançası haradasa buralarda idi, onu kabinənin şüşələrini bürüyən yağış damlalarından bulanıq şəkildə görürdüm. Görünmə dərəcəsini yaxşılaşdırmaq üçün instinktiv olaraq kiçik yan pəncərəsini çəkdim və yenidən ağacları gördüm, onlar çox yaxın idi. Öndən heç bir şey

---

[20] Bucurğad – ağırlıq qaldıran mexanizm

[21] Karkonoşe - Polşa və Çexiya ərazisinə dağ massivi

görmürdüm. Ciddi-cəhdlə Muxanı sol tərəfə apardım. Pəncərədən çox-çox yaxında şumlanmış torpaq sahəsini gördüm. Şassiləri çıxartdım, uçuşu düzəltdim və həmin an yaş, palçıqlı torpağa çırpıldım. Planer haradasa beş metrdən sonra dayandı. Mən sağ idim. Yağış leysanla əvəz olunmuşdu. Kabinədə qaldım, yağışın səsi əsəblərimi sakitləşdirirdi.

Bir neçə dəqiqədən sonra dostlarım təngnəfəs sonradan dediklərinə görə, "məni qırıntılardan çıxartmaq üçün" qaçıb gəldilər. Əsəbi təlimatçı məni yaxşıca vurub dedi: "Əşyalarını yığ və evinə cəhənnəm ol!" Üç yüz metrə yaxın məsafədən uçuş xaçımı dağa daşımalı oldum.

Lidiya xanım qaydaları pozduğuma görə məni söyüb biabır elədi və... enməmə görə təriflədi. Bizi danlayan kişiyə deyirdi: "Mirekdən əl çək, o mənim tələbəmdi, sən də onun kimi əlli metrlik torpaq sahəsinə enməyə cəhd göstər". Özümü lap axmaq kimi hiss edirdim, çünki bu enməni planlaşdırmamışdım. Təsadüf və ya mənim mələyim (anam hər zaman deyərdi ki, hər insanın öz mələyi var) elə etdilər ki, planeri qırmadan enə bildim. Təyyarəçilikdə uğurla bədbəxtliyin son dərəcə yaxın olduğunu anladım.

Yejuvda rezin kanatlardan və təyyarədən sonra startı gördüm. Bu səlahiyyəti mənə aviasiya əfsanəsi olan insan, pərəstiş etdiyim və ona oxşamaq istədiyim təlimatçı pilot Tadeuş Popel vermişdi. Təyyarəçilikdə tanınmış və əməkdar insanların əllərini hər dəfə çiynimə ərklə vurmaları ilə fəxr edirdim. Evə arzuladığım təcrübə qazandaıqdan sonra, III sinif planer pilotu nişanı ilə gəlmişdim. Anam baxıb: "Deyəsən kişiləşmisən", – dedi. Bu sözləri eşidəndə sevinməyə bilərdimmi?

1960-61-ci ilin qarları əriyən kimi mart ayında Vrotslavdakı Qaduv hava limanının anqar və planerlərini təmizləyirdim. Bu artıq "mənim" hava limanım idi. İllər öncə bir neçə günümü onun hasarı altında, Kujniki stansiyasının yaxınlığında yerləşən dağılmış bunkerin yanında keçirmişdim. Tələbkar Zcislav Mayevski əvvəl iş qabiliyyətimi qiymətləndirdi, sonra isə nəzəri biliklərimi və Bocian (Leylək) planerində pilotaj bacarıqlarımı yoxladı. Belimdən astaca vurub, parıldatdığım Muxanı (planer) göstərib dedi: "Onu özünə götür və uç, amma yıxılıb ölmə, çünki başqa xamlara da planer lazımdı". Təlimatçının dediklərinə əməl etdim, planeri zədələmədim. Hər zaman çətin də olsa, səliqəli idarəetməyə diqqət yetirirdim. Təlimatçıma Demblindəki AZM-ə daxil olmaq istəyim haqqında dedim. "Yüksəklərə can atırsan", – rəyini bildirdi. Bir saatdan sonra bu sözlər yazılan müsbət rəy aldım: "Müsbət qiymətləndirmə nəticəsində Vrotslav Aeroklubu tərəfindən AZM-ə namizəd kimi seçilmişdir". Üstəlik "Zcixu" mənə Beskidada Jar dağında keçirilən planer yarışına iştirakçı kartını verdi.

Məktəbin komandiri tanınmış, qorxubilməz pilot Adam Cujınski idi,

təlimatçılardan biri isə mənim sonrakı dostum, əfsanəvi pilot, təcrübəli podpolkovnik Bolek Zon. Rezin kanatlarla da çoxsaylı startları yerinə yetirmişdim. Ətrafdakı peyzaj təkrarolunmaz və romantik idi. Aşağı enmə meydançasında oturandan sonra planerlər kanat yolu ilə zirvəyə göndərilmişdi. Pilot onunla birgə gedirdi. Onda bir dəfə də ətrafda olan təpələrin payız mənzərəsinə baxıb, bitmiş uçuş barədə fikirləşə bilərdin. Orada Jar dağında tam uçuş xoşbəxtliyi hisslərini yaşadım.

Sənədlərimi tanınmış və çox arzuladığım Demblin Şahinlər Məktəbinə (Szkoła Orląt) verdim. Xüsusi sağlamlıq tələblərini bildiyimə görə, Hərbi Aviasiya Tibb İnstitutuna  həyəcan içində gedirdim. Voluvdan öncə Vrotslavdakı Baş Aerotibbi Tədqiqatlar Mərkəzində iki dəfə məğlubiyyət yaşamışdım. İki il müddətində planeri idarə etməyə yararlı deyildim. İnadla idmanla məşğul olmağa başladım. 80 namizəddən səkkizi sağlamlıq sertifikatını ala bildi. Onların arasında mən də var idim. Demblindəki nəzəriyyə imtahanlarını yaxşı verdim, bədən tərbiyəsi testlərini isə çox yaxşı. Stadionda 1500 metr məsafəni idman ayaqqabısı ala bilmədiyimə görə ayaqyalın qaçmağıma baxmayaraq daha yaxşı qət edə bildim. Oğlanları yüz metr ötüb keçmişdim. Seçki komissiyasının qabağında durmuşdum. Farağat durmadığıma görə məni danladılar. Ayaqlarımın qanlı izlərini gördükdə isə təəccüblənmişdilər. Hələ iki həftə ərzində yaralı ayaqlarımın altından pasaların[22] hissələrini çıxardırdım. Ən böyük nöqsanım az çəkili olmağım idi, qısa olaraq belə rəy bildirdilər – kökəldərik. Sözlərini tutdular. Əvvəl LPW-2 adlandırılan Qrucondzın[23] yanında yerləşən Lişe Kontı (Tülkü Küncü) hava limanına bilet aldım. Orada planerlə uçuşlardan həzz alırdım. Təlimatçım, sonradan TU 154 A rabitə təyyarələrinin pilotu, tələbkar, lakin hər zaman nəzakətli Yejı Kondraçuk təcrübəsində olan ən yaxşılarını, əsasən də çətin pilotaj fiqurlarını mənə öyrətdi. Diqqətli və fəaliyyətdə dəqiq olan hazırlıq rəhbərim səlahiyyətim olmadan (yəni bacarıqlarım) buludlu səmaya uçduğuma, orada çox vaxt keçirdiyimə fikir verdi. Nəticədə üç gün uçuşlara icazə verilmirdi, anqarda işləməli idim – ən azından ibrət dərsi almaq üçün və "təyyarəçilərin qanı ilə yazılmış" uçuş qaydalarından imtahan verməli idim – bu, hörmət etdiyimiz və ələ salmadığımız cənab Valentı Hardtın qərarı idi.

Termiklərdə[24] bir ay uçduqdan sonra, yəni planerlərdə azad uçduqdan sonra başında pilot papağı olan və üzündən "zəhrimar yağan" əsl "pilot"a dönmüşdüm (Y.Meissner[25] belə yazırdı). Tam görünüş üçün təkcə bahalı

---

[22] Pasa – filizdən metal əridildikdən, həmçinin daş kömür yandıqdan sonra qalan qalıq

[23] Qrucondz – Polşada şəhər

[24] Termik (termik axın) – planer pilotları isti hava axınlarını belə adlandırırlar

[25] Yanuş Meissner (1901-1978)  – Polyak Ordusunun kapitan pilotu, yazıçı və jurnalist

saatım çatmırdı. Təəssüflər olsun ki, heç adi saatım belə yox idi. Qrucondz hava limanında motorlu pilotaj kursunu öyrənməyə başladım. Köhnə tanış - PO-2 "kukuruznik"inin sükanı arxasına Qonduv hava limanında əyləşdim. Əlbəttə ki, tək deyil, yeni təlimatçım, aviasiya mayoru, qırıcı təyyarə pilotu, qoşundan Aerokluba ezam edilmiş Henrık Qotliblə birgə idim. Podpolkovnik pilot Adamçukun başçılıq etdiyi qeyri-formal mülki-hərbi aviasiya məktəb eskadrasını təşkil edirdik.

Uçuşun yeni başlanğıc sferasına daxil olmuşdum. Mühərrik, propeller, yanacaq, yağ, elektrik qurğusu, yeni aparatlar – tamamilə hər şey yeni idi. Təyyarəmdən başqa. O çox köhnə idi. Lakin hələ 1927-ci ildə SSRİ zamanı konstruktor Polikarpov tərəfindən bərpa olunduqdan sonra məktəb, təsərrüfat, sanitar, rabitə və gecə şığıyıcı təyyarə kimi, planerlə müqayisədə, irəliyə addım sayıla bilərdi. Bu, klassik biplan idi, 125 kM gücündə hava ilə soyudulan 5-silindrli radial mühərriki var idi, maksimal sürəti 150 km/saat, kreyser sürəti 120 km/saat, enmə sürəti 72 km/saat. Təyyarənin çəkisi 770 kq, uçuş zamanı isə 1100 kq təşkil edirdi. Ekipajın iki üzvü üçün nəzərdə tutulan kabinələr açıq idi. Təyyarənin konstruksiyası üstü parça və fanerlə örtülmüş taxtadandı, şassi isə daimi, bağlanmayan idi.

Tezliklə ilk uçuşdan böyük marağıma səbəb olan naviqasiya və pilotaj uçuşlarının sirlərinə yiyələndim. Səmadan Tuxol Meşələrinin payız rənglərinə, Vislanın unudulmaz gözəlliyinə və səmanın maviliyinə heyranlıqla baxırdım.

Mayor Qotlib məni müstəqil uçuşa yaxşı hazırlayırdı. İmtahan uçuşunu eskadranın başçısı podpolkovnik pilot Adamçukla birgə icra edirdim. Uçuşa düzgün başladım, doğru dairəni "yaratdım", aerodromun traversində[26] olanda isə təlimatçı dəstəyi dartdı. Motor sakitləşdi. Dövrü çoxaltmaq üçün cəhd göstərirdim, lakin dəstək elə bil pərçimlənmişdi. Təyyarəni yerə tərəf istiqamətləndirdim. "Mühərrik xarab olub, enirik", – aviafonda eşitdim (təlimatçı qulağıma borucuqla birləşdirilən qulaqcıqla danışırdı). Anladığımı bildirmək üçün başımı endirdim və sükanı tərpətdim. Aşağıda meşə var idi. Şlemin altında tüklərimin biz-biz durduğunu hiss etdim. Sağ tərəfdən talanı gördüm, tam ortasında isə lazımi dərəcədə düz yer var idi. Təyyarəni o tərəfə yönləndirdim. Lakin çox yüksəkdə idik. Təyyarəni dərin sol qanada tərəf çevirdim. Hava axını üzümə vurdu. İnstinktiv olaraq eynəyi taxdım. Hündürlük get-gedə azalır, havanın sürəti qanadların dirəklərində qorxulu melodiya çalırdı. Düz yerin üstündə

[26] Travers – gəminin getdiyi yola perpendikulyar istiqamət

uçuşu düzəltdim ki, təyyarəni təkərləri üstə endirim. Birdən mühərrik tam gücü ilə işləməyə başladı. Təlimatçı dövriyyəni çoxaltdı. Tezliklə əvvəlki hündürlüyə qalxdım. Hava limanına enəndə təəccübümü gizlədə bilmirdim. Uçuşdan sonra təlimatçının yanına gedib, baş verənləri şərh etməyini xahiş etdim. Əlimi bərk sıxıb, hamının eşidəcəyi səslə dedi: "Bu ikinci quş balası eyni yuvadan uçub gəlib". Nə demək istədiyini başa düşmədim. Bir müddət sonra, 1949-cu ildə onun, qardaşım Vladıslavın Demblinda UT-2 təyyarənin idarə edilməsinin sirlərinə yiyələnəndə aviamanqa komandiri olduğunu öyrəndim.

13 noyabr 1961-ci il tarixində planer pilotu lisenziyası və təyyarə pilotu səlahiyyətləri ilə Demblindəki Şahin Məktəbinin məzunu olmuşam. Bir neçə ay müddətində xarici dünya mənim üçün bağlı idi. Dünyanın bütün hərbi xidməti üçün tipik əsgər təlimləri vasitəsi ilə xarakterin formalaşdırılması başlamışdı. Təlimlər, tüfəng, bel, səngər, döyüş meydanında döyüş taktikası, əleyhqaz maskası, intizam, növbələr və bitməyən iş, daimi gün və gecə həyəcanları, kapralların qışqırığı (piyada qoşunlarında) – bu bizim adi günlərimiz idi, çoxlarının yetişə bilmədiyi  təntənəli andiçmə mərasiminə qədər. Formanın qolundakı xətt və çiynimdəki ilk zolaq təsviredilməyəcək iftixar hissimin səbəbi idi. Aviasiya Zabitləri Məktəbinin birinci kurs tələbəsi oldum. Əsl uçuş haqqında arzularım gerçəkləşməyə başladı. Aeroklubda və kitablardan əldə etdiyim biliklər gərəkli oldu. Qardaşımın prinsiplərini xatırlayaraq, özümü tamamilə dərs oxumağa həsr etdim. Artıq növbəti ildə vintvarı ötürücülü TS-8 "Şeytan" (Bies) təyyarəsinin pilotajını öyrənmişdim.

Bu füsunkar təyyarə görünüşü ilə hərbi qırıcıları xatırladırdı. Bu metal konstruksiyalı, gücü 315 kM olan radial mühərrikli və tənzimlənən hərəkətli vintli monoplan idi. Önündə təkəri olan gövdəsi uçuş zamanı çəkilirdi. Təyyarəni idarə etmək xoş idi, lakin onun istismarı kifayət qədər çətindi. Qanadlarına start və enmə üçün vint quraşdırılmışdı. Təyyarədə hidravlik, pnevmatik, mühərrik və yağı soyutmaq üçün yeni mexanizmlər də var idi. Bundan əlavə, təyyarə ultra qısa dalğalı radiostansiya, bort telefonu və avtomatik radiokompasla təchiz edilmişdi. Cihaz panelində yeri görmədən uçuşu mümkün edən idarə-naviqasiya qurğuları vardı. Motorun böyük gücü sayəsində şeytan pilotajının bütün fiqurlarını yerinə yetirmək mümkün idi. Bu təyyarənin ən böyük üstünlüyü və dəyəri - gövdəsi və qanadlarında ağ-qırmızı xətlərin görünməsi idi.

Şeytanın kabinəsinə ilk dəfə baxanda, qüvvəmə inanmadım. Təlimatçım pilot Vitold Depka məni işlərin pis olmayacağıma əmin etdi. Radzın Podlaskidəki[27] otlu hava limanından çox uçurdum. Müxtəlif hündürlükdə

[27] Radzın Podlaski – Polşada şəhər

buludlarda yüksək pilotajlı naviqasiya uçuşlarını öyrəndim. İlin sonunadək həmin təyyarə ilə 85 saatdan çox uçmuşdum. Təlimin yarısında texnika daha çox olduğuna görə, uçuş romantikasını itirməyə başladığımı sezdim. Əlbəttə ki, radio və müşahidənin radiolokasiya sistemi təhlükəsizliyi artırırdı, lakin azadlığım məhdudlaşırdı. Rəhbərlik hər zaman tələbəsinin harada olduğunu bilirdi. Lakin heç də həmişə yox. Bir dəfə hələ Lişe Kontıdakı kursdan olan dostumuz baş sıravi pilot Heyo Vişnevski radio vasitəsilə tapşırığın yerinə yetirilməsi haqqında məlumat verəndən sonra onunla əlaqə kəsildi. Hava təlimatçılarından ibarət bütün təyyarələr onun ola biləcəyi sahəyə göndərilmişdi. Mən də təlimatçımla birgə uçmuşdum. Borki kəndi tərəfinə yaxın gölcüklərin yanında qara tüstü və alovu gördük. Gövdənin gümüşü qalıqlarını aşkarladım. Bu o idi. Henyonun xilas olduğuna ümid edirdik. Hadisəni araşdıran komissiya pilotun hava limanı tərəfə uçarkən vidalaşma çəlləyini yerinə yetirmək istədiyini təyin etdi. Kifayət qədər təcrübəsi yox idi, buna görə də manevri çox alçaqda və üfüqi uçuşda yerinə yetirmişdi. Uçuş mexanikasının prinsiplərinə uyğun olaraq, fiqurun trayektoriyası yerə tərəf əyilmişdi, Henyo isə həlak olmuşdu. Bu, doğrudan da, onun vidalaşma çəlləyi oldu. Ailəsi ilə birgə Henyonun yasını tutduq və bu hadisədən ciddi nəticələr çıxardıq. Fikrimcə, bu faciə sayəsində daha da ağıllandıq.

Formanın qoluna iki zolaq tikdim, çiynimin üstündə isə kapral nişanı parıldayırdı. Reaktiv təyyarə, qırıcı Miq-15 mənim üçün artıq əlçatan idi. Bu, arzularımın zirvəsi və yeni keyfiyyət, pilotluğun digər psixofiziki tələbləri idi. Həmin təyyarə birnəfərlik mübarizədə yoxlanılmışdı, inanılmaz nailiyyətləri və güclü silahlandırılması - topun birinin kalibri 37 mm və ikincisi isə 23 mm olan tamamilə metal qırıcı idi. Həmçinin iki 250 kq bomba və ya iki əlavə yanacaq bakı yerləşirdi. 2700 kq turboaktiv mühərriki 1070 km/saat maksimal sürətə çata bilərdi, maksimum hündürlük 15 500 m, məsafə isə 2000 km idi. 1962-1963-cü ilin qış ayları xüsusilə uçuş sirri ilə dolu bir dövr idi. Uçuş texnikası, mexanikası, naviqasiya, hava atışı, bombardman, uçuş taktikası nəzəriyyəsini, həmçinin çoxsaylı idman və ümumi hərbi dərsləri keçirdik. Kazino “uçuşun norması“ adlandırılan – yüksək kalorili və müxtəlif yeməklərlə öz təklifini daha da genişləndirdi. Əlavə olaraq, gündəlik meyvə və yarım şokolad plitkası da alırdıq. Pis təchizatçılar şokoladları qəsdən birimizi o zaman ən əsas atributlardan məhrum etmək üçün qırırdılar. Bir dəfə şokolad çatmadı, narazıçılığı sakitləşdirmək üçün yarım kilo şəkər tozu şəklində kalorili ekvivalenti bizə verildi. Məzuniyyətə, demək olar ki getmirdim, buna görə də

arada yığdığım şokolad və siqaretləri (çəkmirdim) Voluva, anama göndərirdim.

İdmanı çox sevirdim. Şahinlər Məktəbini Zabit Məktəblərinin tüfəngdən atəş açma, qaçış və voleybol üzrə ümumi çempionatında dəfələrlə təmsil etmişdim və yaxşı nəticələr göstərmişdim.

Praktiki təlim müddətində Təlim Şöbəsi adlandırılan və Demblində, "dovşan"lar tərəfindən idarə olunan kazarmalarımızın bir neçə yüz metrliyində yerləşən aviasiya alayına göndərilmişdik. Yüngüllük hiss edirdik. Cins parçadan olan yaşıl kombinezonlar əsl uçuş forması ilə əvəz edilmişdi- fufayka və qara dəri gödəkcə, xizək növlü şalvar, qəşəng və rahat çəkmələr. Hər birimizi alayın kadrlarına təqdim edən rəhbərimiz oğlanlardan biri, Hubertin xasiyyətnaməsini verən zaman irəliləyişini orta, intizamını isə dəyişkən kimi qiymətləndirib, qırmızı rənglə bağışlanmış cəzanın üstündən xətt çəkilən "cəza və fərqlənmələr" kartını qaldırıb göstərdi. Pilot-təlimatçılar zarafat naminə suallar verməyə başladılar: "Orada nə var idi?" Kapitan Q. dedi: "Sərxoşluğa görə". Zalda hamı güldü və səs eşidildi: "Onu mənim dəstəmə göndərin". Hubert qızardı, çünki bu, biabırçılıq idi, dilinə əsla içki vurmayan adam üçün bundan pis nə ola bilərdi ki? Məni intizam baxımından çox müsbət qiymətləndirmişdilər, bu da toplantıya yığışanların xüsusi diqqətini cəlb etmədi. Diqqəti isə Təlim Şöbəsi müdirinin nəzəriyyə hazırlığı haqqında rəyi və uçuş təcrübəsinin qiymətləndirilməsi çəkmişdi. "Başlandı", – arxadan eşitdim, dərhal sonra isə "Onu mən götürəcəyəm". Arxaya dönüb baxa bilmirdim və səsin kimə aid olduğunu başa düşmədim. Lakin tezliklə hər şey aydınlaşdı. Təlimatçım poruçik pilot Yuzef Zdunçık – kobud zabit, tələbkar, etiraz qəbul etməyən insan oldu. Manqa rəhbəri vəzifəsinə fantaziyalı pilot, lakin yerdə impulsiv olan baş leytenant pilot Andjey Roniker təyin olunmuşdu. Bu dəstənin başqa təlimatçısı, bir az fleqmatik, şən və zarafatcıl poruçik pilot Stefan Bulandanı daha çox bəyənirdim. Hər hansı problemimiz olduqda, məhz ona müraciət edirdim. Onunla birgə uçmaqdan xoşum gəlirdi, mənə reqlamentdən kənar bir-iki şey öyrətmişdi. Bir-birimizə tamamilə etibar edirdik.

"Miq"-dəki ilk uçuşları, əlbəttə ki, onun ikiyerli versiyasında başlamışdıq. Təlimatçım bir-iki gün ərzində mənə bu təyyarənin xüsusiyyətləri, onun pilotdan hansı bacarıqları tələb etməsi haqqında danışırdı. "Şeytan"ın idarə edilməsini çox yaxşı qiymətlərlə başa vuran biri hələ "Miq"i də idarə edə biləcək

anlamına gəlmir“, - dəfələrlə bunu deyirdi. Çox sakit keçməli olan ilk tanışlıq uçuşundan öncə təlimatçı mənə hər şeyi çox gözəl təsvir edirdi: “Sənə pilotajın bütün fiqurlarını - həm ikili immelman[28], həm 90 dərəcəli virajları[29], şaquli və üfüqi səkkizləri, yüksəliş və enmə zamanı dövrələri göstərəcəyəm“. Bunlara qulaq asarkən uçuşa həvəsim getdikcə azalırdı. Hətta bacara bilməyəcəyimdən qorxmağa başlayırdım. Pis yatırdım – yuxuda uçuşda məni gözləyən fiqurları yaşayarkən sıxılırdım.

Səhər hava limanında uçuşa hazırlaşırdım. Çiyinlərimə iki paraşüt götürüb, təyyarə tərəfə getdim. Yaxında baş leytenant Bulandanı görüb salamlaşdım: “Sənə buterbrod və ya təmiz oksigenli maska taxmaq lazımdır“, – gülümsəyərək dedi. Təlimatçım gəldi. Hərbi qaydalara əsasən uçuşa hazır olduğumu bildirdim. Tapşırığın məzmununu xüsusi təmtəraqla söylədim. Təlimatçım mənə qulaq asdı, reaksiyasını üzündə böyük gün eynəyi olduğuna görə görmədim. Sonda cavab verdi: “Bu gün əsas variantı yerinə yetirəcəyik. Hava dəyişkəndir, qanadların altında isə əlavə yanacaq bakları asılıb. Onlarla çox yüklənməni edə bilmərik“. Xilas edilmişdim. Motoru işə saldım, əvvəl guruldamağa başladı, sonra isə səsi sakit fitə keçdi. Zolaqların başlanğıcına qədər ikidən çox və yarım kilometr məsafəni fırlanası oldum. Bu müddətdə beton yerdə uçuş zolağından çıxmamaq üçün çox əlləşdim. İkinci kabinədən təlimatçı məni öyrədir və elə hey deyinirdi: çox böyük dövrələr, çox böyük sürət, əyləclərdən həddindən artıq qızğın istifadə edirəm, indi bizi yandıracağam və ya şinləri qopardacağam. Zolaqdan əvvəl müvafiq komandaları start mövqeyinə qədər yerinə yetirdim. Qan-tər içindəydim, məni isə qarşıda reaktiv təyyarə ilə qırx dəqiqəlik uçuş gözləyirdi. Zolaqlarda sürəti maksimuma qədər artırdım. “Başla“ komandasını eşitdim. Əyləci buraxdım. Təyyarə hərəkət etdi. Nəzərim zolağın sonunda idi. Cihazlara baxdım, lakin heç nə demədim. Önə baxdım. Ayaqlarımla istiqaməti saxlamağa çalışırdım. Təyyarə başgicəlləndirici sürətlə gedirdi. “Ön təkərləri qaldır“, – eşitdim. Bu, sürətimizin 160 km/saat həddini aşması demək idi. Dəstəyi astaca özümə tərəf çəkdim, maska yuxarıya qalxdı. Tək idarə etmədiyimi hiss etdim. Təyyarə artıq yellənmirdi, bir neçə dəqiqədən sonra isə gövdənin taqqıltısı sakitləşmişdi. Havada idim. Spidometrə

---

[28] İmmelman – yüksək pilotaj fiquru.

[29] Viraj – təyyarənin yan verərək dönməsi

baxdım, 320-ni göstərirdi. Kəskin surətdə yüksəlirdik. Gövdəni çəkmək istədim, lakin bloklamanın dəstəyi ilişdi. Əlimdən gələni edirdim. Sonda alındı. Lyuku[30] da çəkdim. Alnımda əlavə tər damcıları peyda oldu. Yüksələrək hava limanının ətrafında dövrə vurdum. Qabaqda fırlanan propeller yox idi, mühərrikin uğultusu eşidilmirdi, yalnız turbinin fiti və korpusa dəyən havanın səsi gəlirdi. Tezliklə Qura Pulavska rayonunda pilotaj sahəsinə gəlib çatdıq. Altı min metr hündürlüyündə təlimatçım mənə bir neçə sadə fiquru göstərdi. "Təkrarla!" - əmr verdi. Sükanı qətiyyətlə tutub və gələcək qırıcı pilotuna yaraşan tərzdə, təyyarəni cəld daha çox spiralı xatırladan viraja daxil edib, bir sıçrayışla həmin manevri bitirdim. "Sıçrayış etmə, - eşitdim – bu sənin üçün at arabası deyil, səlis uçmalısan". Təkrarladım, daha yaxşı alındı.

Təlimatçım əla metodist və pilot imiş. Bir müddət sonra tamamilə mənə etibar etməyə başladı. Artıq lazımi dərəcədə "sükanı yaxşı saxlayırdım", xüsusən cüt şəkildə, yəni təlimatçımla birgə iki təyyarədə yanbayan qanadların arasında bir neçə metr məsafəni rahat uça bilirdim. Bir dəfə poliqonda bort silahından atəş açdıq. Ciddi surətdə onun təyyarəsindən geridə qalmağım diqqətini cəlb etdi. "15 metrdən uzaq olmamalısan", – yekunlaşdırdı. Cüt enirdik, rəhbərimə yaxın uçurdum. Enmədən sonra dayana bilmirdim. Zolağın yarısında "Əyləclər işləmir" sözlərini eşitdim. Artıq taqətdən düşmüşdüm, zolağın sonu yaxınlaşırdı. Təlimatçım hava limanının ot olan hissəsinə çıxıb, eninə şumlanmış torpağın üstünə yıxıldı və orada batıb qaldı. Yavaşca o tərəfə sürüb təyyarəni arxadan saxladım. "Mən palçığa düşmüşəm, – dedi, – sən haradasan?" "Burdayam", – cavab verdim. Çöndü və burnunun altında donquldandı. Sonra mənim bu zarafatıma gülürdük.

1963-cü ilin yay fəslini əsrin yayı adlandırırdılar. Dözülməz istilər var idi. Təyyarənin alüminium örtüyünə əl vurmaq belə olmurdu. Temperaturu azaltmaq üçün təyyarələrin üstünü sulayırdılar. Bu, yalnız bir müddət kömək edirdi. Yerdə bağlı kabinədə oturarkən, özümüzü saunadakı kimi hiss edirdik. İsti günlərdə bəzən göstərişlərə əks olaraq, starta qədər kabinəni yaxşı bağlamır və oksigen maskasını taxmırdım. O zaman dəbilqələrdə uçmaq əmri də verilmişdi. Bu, kabinənin içinə güclə yerləşən və ətrafın müşahidə olunmasını çətinləşdirən eksperimental məhsul idi. Çox vaxt bu əmrə də məhəl qoymurdum – nəticə: "Sabaha qədər 150 dəfə - dəbilqə və maskada uçacağam - cümləsini yazacaqsan". Bu əmri Məktəbin hava atışı

---

[30] Lyuk – hərbi təyyarənin bortunda top lüləsi üçün deşik

üzrə rəhbəri, podpolkovnik pilot Zavitkovski vermişdi. Yazdım və əvvəlcədən hazırladığım mətnlə öz bildiyim kimi uçurdum, amma o bir də lazım olmadı.

1964-cü ildə, zabit rütbəsini almağımdan öncə şaxtalı günlərdə uçurduq. Uşaqlardan biri ayaqlarını qızdırmaq istəyib, mühərriki işə düşən təyyarənin arxasında oturub. Ayaqqabısını çıxarıb, ayağını forsunkaya[31] tərəf uzadıb, mühərrikdən gələn istidən həzz alırdı. Çox isti olan anda ayağını aşağı salıb, təəccüblə ayağındakı corabın yalnız topuqdan yuxarı qaldığını görür. Ayağın pəncəsində olan hissə isə ərimişdi, oğlanın ləqəbi isə "corab" olmuşdu.

Rütbənin alınması yaxınlaşdıqca, səlahiyyətləri olmayan xidmətlər tərəfindən "himayə"miz artırdı. Əsl əhvalı, baxışları öyrənmək məqsədi ilə qrupa daxil olmaq cəhdləri göstərilirdi. Yazışmalar, şəxsi danışıqlar yoxlanılırdı. Bundan artıq bezmişdik. Pilotların evində (pilotların uçuşdan sonra dincəldiyi və növbəti tapşırıqlara hazırlaşdığı yer) yeni daxil olmuş, dediyinə görə, pilotlara yardım etmək istəyən piyada qoşunu zabiti peyda oldu. Leytenantları müzakirələrə cəlb etməyə çalışırdı. İstirahət zalında çoxlu qəhvə içir, qəzetlər oxuyurdu. İki zarafatcıl pilot çay içərkən pıçıldamağa başladılar. Zabitin onlara qulaq as dığına fikir verdilər. Bu, fürsət idi. "Leşek, bax, bu təchizatçılar əsl xəsisdirlər. Bayır şaxtadır, bunlar isə çay üçün "İ" mayesini verməkdən imtina etdilər. Amma mən görmüşdüm ki, varlarıdır", – biri o birinə dedi. "İ" mayesi şaxtalar zamanı texniklər tərəfindən yanacağa əlavə olunan xüsusi maye idi. Bu maye yanacaq filtrində buz kristallarının çökməsinin qarşısını alırdı, bununla da bədbəxt hadisədən sığortalayırdı. Uçuşlar haqqında danışanda, həmin zabit ərzaqçı zabiti danlayıb bir də belə ciddi pozuntu baş verdikdə, hərbi rəhbərliy bu haqda məlumat verəcəyini demişdi. Zalda hamı gülməyə başladı. Deyəsən, səhv iş gördüyünü anladı. Zalı tərk etdi. Tezliklə öz istəyi ilə "İ" mayesi ilə problemlərin yaşanmadığı hissəyə qayıtmışdı.

1964-cü ilin mart ayına qədər yalnız Miqin pilotajını deyil, həmçinin havada vuruşmaq, yerdə olan hədəflərə bort silahı və bombalarla effektiv hücum etməyi də öyrənmişdim. Bir sözlə, III sinif qırıcı təyyarə pilotu ixtisasını almışdım. Zabit rütbəsinə təyin olunana qədər lider idim. Poruçikin iki ulduzu, MTN nazirindən üstündə yazısı olan kortik[32], mükafat olaraq 2000 zl[33] məbləğində

---

[31] Forsunka – buxar qazanların olduğuna, mühərrikin silindrinə və s. maye və ya toz halında yanacaq vermək üçün cihaz

[32] Kortik – dəniz və hava donanması komandirlərinin gödək qılıncı

[33] Zlotı – Polşanın pul vahidi

əmanət kitabçası, içində iki ədyal, əlavə forma və alt paltarı olan çamadan, həmçinin arzuladığım – uçan qartal şəklində olan hərbi pilot nişanını almışdım. Beləliklə, uşaqlıq arzum həyata keçdi.

Zabit rütbəsini alma mərasiminə anam bacım Teresa ilə birgə gəlmişdi. Ailə ənənəsinə uyğun olaraq, anama sevinc hissi ilə həyatda ilk qazandığım pulları – zabit maaşını vermişdim. Artıq böyük, müstəqil həyata addım atırdım. Həmin vaxtda artıq böyük təcrübəsi olan bacarıqlı pilot, böyük qardaşım Vladıslavın yolu ilə gedirdim. O Polşada birinci olaraq əvvəlcə dörd, sonra isə yeddi Miq-17 hərbi təyyarəsindən ibarət olan və uçan xalça adlandırılan pilotaj qrupunu yaradıb, ona başçılıq edirdi.

Pilot xidmətinə Poznanda, Kjeşinı hava limanında, ölkənin Hava Müdafiəsinin 62-ci qırıcı aviasiya alayında davam edirdim. İki il ərzində öz bacarıqlarımı Miq-17 təyyarəsində, mayor Stanislav Maikin eskadrasında təkmilləşdirirdim. İki ildən sonra pilotajı mükəmməl bilirdim və I sinif qırıcı təyyarə pilotu səlahiyyətlərini əldə etmişdim. Fəxr və sevinc hissimi aerodromda gecə və gündüz hərbi növbələri azaldırdı.

Məni yeni sınaqlar gözləyirdi. Onlardan birincisi evlilik idi. 1965-ci ilin payız fəslində Emiliya ilə ailə qurmuşdum. Rəhbərlik və dostlarım o zamankı adətə görə, aviasiya toy mərasimi təşkil etmişdilər. Mərasimdən bir həftə öncə Katovitsedəki prixodda, kilsədə evləndiyimizi az insan bilirdi. Toyumuz uçuş tərzində Poznanın ratuşasında və Kjeşinadakı zabitlər klubunda təşkil edilmişdi. Emiliyaya 14 yaşım olarkən vurulmuşdum; Voluvdakı məktəb adından tez-tez çıxış edirdi. Yoğun, gözəl hörükləri var idi, böyüdükcə isə daha da gözəlləşirdi. Qismət elə gətirdi ki, müharibədən sonra, bazarın qərb hissəsinin bərpa olunmasından sonra anam və Emiliyanın valideynləri bir-birilərinin yaxınlığında mənzil almışdılar. Mənzillərimizi yalnız bir divar ayırırdı. Mənim üçünsə cəsarətsizlik divarı da var idi. Onu aşmaq üçün mənə bir il lazım oldu. Bir may günündə Kamen Şlonski hava limanından Kjeşinaya qayıdırdıq. Yol Voluv tərəfdən keçirdi. Həmin gün Emiliya yazılı attestasiya imtahanını verirdi. Onu bir az ruhlandırmaq üçün stratosferə daxil oldum və liseyin damında endim. Bilmirəm, bunun ona köməyi oldu, yoxsa yox, amma effektli alınmışdı. Öz qrupumu tapmaqda problem yaşamadım. Səmada dostlarım üç kondensasiya zolağını çəkirdilər. Aviamanqanın rəhbəri mənim bir müddətlik yoxluğuma fikir vermədi. Emiliya dərhal "effekt"in müəllifinin kim olduğunu başa düşdü. Onun mənim "hərəkət"imə dair tənqidi, ola biləcək xidməti nəticələrdən yüz dəfə ağrılı idi. Ona söz verdim ki, artıq heç vaxt belə etməyəcəyəm...

Növbəti sınaq səsdən surətli Miq-21 qırıcı təyyarənin idarə olunmasını öyrənmək və həmin təyyarədə ikiqat səs maneəsini aşmaq idi. Ən yüksək həddə idim, dünyanı səmanın qara, insanın isə tənha olduğu yerdən - buludların üstündən və stratosferdən görürdüm.

Həyat yoldaşım Polşa Dövlətinin min illiyində mənə oğlum Miroslavı bağışladı. İlk övladımızın doğum günündən sonra hərbi təyyarəni təmir etmək üçün Kjeşina hava limanında dayandığımız Babimostdan[34] Vrotslava aparırdım. Yol Voluvdan düz gedirdi, ona görə də əvvəlcə orada, sonra isə Qaydakı xəstəxananın üstündə öz sevincimi nümayiş etdirmişdim. Bu dəfə məni anam ağıllandırdı. O vaxtdan Voluvdan kənar uçurdum.

Xoşbəxt idim, gözəl ailəm var idi, pilot kimi xidmət edridim, çox yaxşı uçurdum, əhatəmdə xeyirxah dostlarım, pilotlar, tələbkar və zəngin uçuş təcrübəsi olan rəhbərim var idi. Onlardan daha yaxşı olmağı öyrənirdim. Mənim üçün yeni olan böyük səsdən iti sürətlərdə və 20 min metrdən çox yüksəklərdə uçuş sirlərini kifayət qədər tez öyrənirdim. Daxili səs məni daha çox şeylərə nail olmağa çağırırdı. Zamanla fikir verdim ki, həyat yoldaşım nikbinliyimi bölüşmür. Hava limanına hər gedişim, evdə və ya işdə olmağından asılı olmayaraq, onun üçün evə qayğımı gözləməkdən başqa bir şey deyildi. Bunu məndən gizlədirdi, lakin gecələr uçuşdan evə qayıtmayınca yuxuya gedə bilmirdi. İllərlə bu vahimə ilə mübarizə aparırdı, bu, dostlarımızı son mənzilə yola saldıqdan sonra xüsusilə hiss olunurdu. Sadəlövhcəsinə aviasiyada bəzən qəzaların baş verməsinin normal olduğunu deyirdim, lakin düşəcəyim çətin vəziyyətdən çıxa biləcəyimə əmin idim. Havada nələr olduğunu ona deməyə etibar etmirdim, lakin qapalı qarnizon mühitində sirlər yox idi. İki dəfə məni göz yaşları ilə qarşılayıb, nəyə görə pis şeyləri başqalarından öyrəndiyini soruşmuşdu. Mən isə artıq hər şeyin keçib getdiyini, boş yerə narahat olmağa dəymədiyini deyirdim. Rembertuvdakı[35] Baş Qərargahın Akademiyasındakı dərslərə 1968-ci ildə başlamışdım. Həyat yoldaşım üçün əsl rahatlıq idi, mənim üçün isə üçillik çətin səylər dövrü idi. Kirayədə yaşayırdıq, amma ən azından bir yerdə idik.

1970-ci ilin avqust ayında BQA tərəfindən göndərildiyim baş müəssisədə təcrübə keçərkən pilotaj bacarıqlarını qorumaq üçün onlarla uçuş yerinə yetirmişdim. Eskadranın komandiri mayor Boqdan Kovalkovski ilə birgə "Miq"-21 nəzarət uçuşunu da. Startdan sonra təlimatçıdan 100 metr hündürlüyündə uçuşa icazə verməsini xahiş

---

[34] Babimost – Polşada şəhər

[35] Remertuv – Varşava şəhərində rayon

etdim. Start çox dinamik idi, bir neçə saniyədən sonra 900 km/saat həddinə çatmışdım. Bu, əsl əyləncə idi, aşağı hündürlükdə belə bir sürətlə uçurduq. Yer qeyri-adi sürətlə hərəkət edirdi və birdən təyyarə səs-küylə elə şığıdı ki, başım kabinənin qapağına dəydi. Dəstəyi özümə tərəf çəkdim, dəhşətli yüklənmə məni oturacağa tıxamışdı. Şüurumun qalan hissəsi ilə uçuşu sabitləşdirməyə çalışırdım, təyyarə şahə qalxdı, mənfi yüklənmə yenə də məni oturacaqdan qoparmaq istədi. Dəhşətli gurultu var idi. Elə bildim ki, mühərrik partladı. Bu, son olardı. Eyni zamanda güc dəstəyini çəkdim, əyləcləri çıxardım və dəstəyi özümə tərəf çəkdim. Yadımda qalan son görünüş – önümdəki meşə və ağ pəncərəli ev idi. Huşumu itirdim. Sonradan, deyəsən, yaşadığımı hiss etdim, lakin heç nə görmürdüm. Əzələlərimi gərginləşdirdim və qışqırmağa başladım ki, beynimə qan gəlsin. Bozluqdan göy görünməyə başladı. Təyyarənin burnu səmaya yönəlmişdi. Sürət səs-küylə azalırdı. Təyyarəni üfüqə tərəf istiqamətləndirdim və təlimatçıma qışqırdım: "İAT, İAT zədələnib (idarəetmənin avtomatik tənzimləyicisi). Cavab vermədi. Dəstəyi bir neçə dəfə tərpətdim. Eyni hərəkətlə cavab verdi. Sürəti 500 km/saat aşağı saldım – bu sürət mövcud qəza üçün müvafiq idi. Bir neçə dəqiqə sonra Kovalkovskini eşitdim, sakit səslə dedi: "Miruş, biz yəqin düşünərdik ki, kimsə xuliqanlıq edir" və əlavə etdi "Maskamla şlemofonum çıxmışdı, manual rejimə keçir". "Dəyişdirici açar plomblanıb, necə var elə də qalsın, sonra texniklər nəyisə xarab etdiyimizi deyəcəklər", – cavab verdim. Mənimlə razılaşdı. Normal qaydada endim, lakin tez-tez İAT-nin göstəricilərinə baxırdım. Yerdə idarəetmə avtomatikasının nasazlığı haqqında məlumat verdik. Bunu qəsdən etdik, çünki hərbi Miq-21-də hələ üç uçuş həyata keçirməli idim. Səhər qapıda məni alayın baş mühəndisi tutub, hansısa kağızları göstərməyə başladı: "Bax, nə baş verirdi – yüklənmə +10 –dan -6-ya qədər idi!" Nəticə - başımda üç şiş, qıpqırmızı gözlər, bütün sümüklərin ağrısı və alayın komandiri podpolkovnik Kajimej Kratı tərəfindən 2000 zl məbləğində mükafat. Ən pisi isə həyat yoldaşımın qəmli və ağlamaqdan şişmiş gözləri idi.

Təhsilimi bitirdikdən sonra yenə fərqlənmələr var idi, kapitan üçün avans və ...Polşada daimi köçmələr. Emiliyanın sayəsində bir həftədən çox müddətə tək qalmırdım. Əvvəl çox gözəl Slupsk. Miq-17 təyyarə eskadrasının komandiri vəzifəsi mənə həvalə olunmuşdu. Bu mənim üçün növbəti sınaq idi – bir qrup insanı həm göydə, həm də yerdə idarə etməli idim. Alayın komandiri Henrık Petjakın ruhlandırmasından sonra dörd təyyarənin pilotaj qrupunu formalaşdırdım. İllər öncə qardaşım Vladek kimi, mən də qrupun aparıcısı idim. Alayın bayramında çıxış etmək üçün çoxlu məşq edirdik. "Miq-19" ikinci

eskadrasının adətən bizi sevməyən pilotlarının hörmətini qazandıq. Bir neçə həftə sonra gözlənilmədən yuxarıdan rombun məşğələlərini dayandırmaq haqqında əmr gəldi. Səbəb? Piledəki aerodromda hücum təyyarələrinin pilotları oxşar manevrləri həyata keçirirdilər. Aparıcının səhvi ucbatından iki təyyarənin uçuşu əkin sahələrində bitmişdi. Üç pilot həlak olmuşdu.

İki ildən sonra yenidən köçdük, bu dəfə Qdınyaya[37], Babe Dolı hava limanına. Sevdiyim "Miq-21"-ə qayıtdım. Oradakı köhnə təyyarəçilər gənc kapitan, alay komandirinin müavininə şübhə ilə baxırdılar. Tezliklə buzlar əriməyə başladı. Pilotlar Pyotr Vişlinski, Yan Kmita və Lopek Staxovski sirlərini bölüşdülər və "Miq-21"-də həqiqi bacarıqlarını göstərdilər. 34-cü alayda yalnız uçuşla deyil, həmçinin təşkilati, insan qruplarının idarə olunması, əsl uçuşa yaxın olan şəraitdə hava müdafiəsi sisteminin daimi təlimləri problemləri ilə yaşayırdım. Alayın idarə edilməsi sahəsində dəyərli təcrübə əldə etmişdim.

Növbəti köçməni sevinc hissi ilə qəbul etmişdik. Bu dəfə sevimli Vrotslava, həyat yoldaşımın valideynləri, anam və bacı-qardaşlarıma yaxın yerə köçürdük. Bizi iki il yarım ev gözləməyimiz də qorxutmadı. Sadə mehmanxana otağında artıq dördümüz yaşayırdıq, çünki Emiliyanın çox gözlədiyi qızımız dünyaya gəldi. Spaniel cinsli itimiz Sava da – ailəmizin üzvü idi. Buna görə də mənzili aldığımda ikiqat sevinirdim. Müəyyən sabitləşməyə inanırdım, çünki burada, Aşağı Sileziyada, ailəm yeni Vətən tapmışdı. Burada volınlıların yeni nəsli dünyaya gəlmişdi, burada aviasiya ilə bağlı macəram başlamışdı. Qırıcı kabinəsindən Yer Kürəsini ilk dəfə Oleşnitsada gördüm, daha sonra Yejuvdakı hava limanından uçuşa başlayarkən Karknoşenin[38] nadir təbiətinə heyranlıqla baxırdım. İndi isə səsdən sürətli "Miq-21" qırıcılarındakı yorucu uçuşlardan sonra, Qondov hava limanına gedirdim ki, qırıcının kabinəsindən Vrotslavın mənzərəsinə baxıb sevinim. Özümü buludların altında sakit, əzəmətlə uçan və təbiətlə vəhdət təşkil edən quşlardan biri kimi hiss edirdim.

6 yanvar 1975-ci il tarixində mayor rütbəsini aldım. Bir neçə ay sonra Vrotslavda 11-ci qırıcı aviasiya alayının komandiri vəzifəsinə təyin olundum. Belə gedişlə il yaxşı keçməli idi. Həm karyera, həm də ailə baxımından hər şey yaxşı idi. Arzuladığımız bir yaşlı qızımız Emilka çox şirin idi və yaxşı inkişaf edirdi. Onu hər şey maraqlandırırdı, atasını da çox sevirdi. Oğlum on yaşında idi və çox ağıllı idi. Həyat

---

[37] Qdınya - Polşada şəhər

[38] Karkonoşe – Polşa və Çexiyanın ərazisində dağlar massivi

yoldaşım yaxında yerləşən hava limanında işləyirdi. "Miq-21"-lərdə tez-tez uçurdum, əlavə olaraq bu müasir təyyarələrlə uçmalı olan digər alaylardan bir qrup pilota təlim keçmək də mənə həvalə edilmişdi. Rəhbərlik etdiyim hissə çox yaxşı işləyən kollektivdən ibarət idi. Vrotslav Hava Müdafiəsinin 3-cü Korpusunun aviasiya alayları arasında birinci yeri tutmuşduq. Müsbət rəylər həmçinin Milli Müdafiə Nazirliyi tərəfindən də verilmişdi. Buna görə də, necə deyərlər, karyeramın çox yaxşı səviyyəsində idim. Bir il sonra, yay fəslinin tam ortasında məxfi şifroqram aldım. Orada bir neçə ən yaxşı, perspektivli pilotdan, "çox uzaq, çox tez və çox hündür" uçan yeni təyyarə üçün namizədlər seçməyim xahiş olunurdu. Alayda yaxşı pilot çox idi. Müvafiq anketləri məni unutduqlarına görə təəssüf hissi ilə doldururdum. İndiyə kimi uçduğumdan daha da sürətlə uçmaq çox maraqlı idi. Yalnız uçuş sürətdən həzz almaq imkanı verirdi. İlk "rekord"umu, saatda 160 kilometri xatırlayıram. Bu sürətə planerlə çatıb, bir neçə dəqiqə saxlamışdım. Küləyin fiti kabinənin içini doldurub, içimdəki sürət aclığını doydurmuşdu. Reaktiv təyyarə enerjidən azad olmaq imkanını verirdi. Sehrli 1000 km/saat sürətini isə Şahinlər Məktəbində oxuyarkən əldə etmişdim. Səsin sirli maneəsi təhlükəli cəhdlərimə müqavimət göstərirdi. Dəfələrlə "Miq-17" mühərrik tam işləyərkən stratosferdən düşmüşəm. Bilinməyən bir qüvvə yüksək sürətlə uçan maşını dayandırırdı, lakin ağıl və ya yaşamaq instinkti eksperimenti dayandırmağımı məsləhət görürdü. İllər sonra səsin hətta ikiqat sürətini aşırdım, artıq belə emosiyalar yox idi. Enmə sürəti 1939-cu ildəki qırıcı təyyarələrin maksimal sürətindən çox olan təyyarə ilə iyirmi min metrdən yüksəkdə olan qara səmaya çatırdım. Nə isə təzə bir şeyi əldə etmək perspektivi yoldan çıxarırdı. Günlərin birində məndən soruşdular ki, nə istəyərdim – istədim. Və başladı.



Oleşnitsada planer kursu, 1960. “Vağ SP-2200” kabinəsindəki müəllifdir. Müəllifin arxivindən.



Planer meydançası - Yejuv Sudetski. Mərkəzdə təlimatçımız Lidia Paziodur. Biz onun gözəl uçuş gödəkcəsinə baxırıq. Xanım Lidianın sol tərəfində müəllif dayanıb.

Müəllifin arxivindən.



Vrotslav Aeroklubunun təlim rəhbəri Zcix Mayevski qarşısında imtahan verirəm.




Təyyarəçilik kursu. Qrucondz 1961. Mənim təyyarəm SP-ASC nömrəli "CSS-13"-ü "Kukuruznik" adlandırırdıq. Mühərriki tez-tez şıltaqlıq edirdi. Sol tərəfdə Romek Tşos, sağ tərəfdəsə Huber Sauer. Müəllifin arxivindən.




Burada isə həmin təyyarəçilik kursu zamanı müəllif sadə mühərrikin starteri rolundadır. Müəllifin arxivindən.



“Li-2” təyyarəsində şok vəziyyətində olsam da, yalandan heç nədən qorxmadığımı göstəririrəm. Demblin 1962. Müəllifin arxivindən.



TS-8 “Şeytan” (Бес)  təyyarəsində, demək olar ki, artıq pilotam. Radzın Podlaski, 1962. Müəllifin arxivindən.



Artıq "U-Miq-15" reaktiv təyyarəsindəyəm. Demblin, 1963. Müəllifin arxivindən.



"Boru"larda, yəni gözəl "Miq"lərdə uçuş günü. Müəllifin arxivindən.



Artıq kursant idim, liseydəki bal zamanı. O zaman Emiliya ilə birgə həyat yolumuza yenicə başlayırdıq. 6 yanvar 1964. Müəllifin arxivindən.



Zabit rütbəsinin qəbul edilməsi, ulduzlar hələ örtülüb. Sol tərəfdən: müəllif, poruçik pilot Marian Navrotski, poruçik pilot Eugeniuş Sumpor, rütbəni briqada generalı pilot Mixal Yakubik təqdim edir. Demblin, 22 mart 1964. Müəllifin arxivindən.



Milli Müdafiə Naziri marşal Marian Spıxalskinin hərbi məktəblərin liderləri ilə görüşü, 1964.




Əfsanəvi və gözəl "Miq-17". Poznan yaxınlığındakı Kjeşinı aerodromu. Müəllifin arxivindən.



Səsdən sürətli "Miq-21" təyyarəsində ilk müstəqil uçuşdan sonra təbriklər. Kjeşinı aerodromu, 1967. Təbrik edir podpolkovnik pilot Çeslav Filonoviç, onun yanında podpolkovnik Yejı Barbaş. Sağ tərəfdə alayın komandiri podpolkovnik pilot Kajimej Krata və kapitan pilot Boleslav Çekala. Müəllifin arxivindən.



Ratuşun girişində... Hələ bütün həyatımız qabaqdadır. Poznan, 5 oktyabr, 1965. Müəllifin arxivindən.



Ata hərbi növbədədir, Emiliya oğlum Miruşla və üçəmlərlə (Polşa Xalq Respublikası zamanı yemək daşımaq üçün istifadə olunan məşhur qablar komplekti) "növbətçi cütlüyü" ziyarət edir. Kjeşını 1969. Müəllifin arxivindən.



Qardaşlar: Miroslav – mayor, 11-ci alayın komandiri və Boquslav – kapitan, paraşütçü, aviasiya xilasetmə mütəxəssisi. Vrotslav-Straxovitse hava limanı. 1976. Fotoqraf Leçek Vrublevski.



Uçuşdan öncə 11-ci alayın pilotları fikir mübadiləsi aparırlar. Sol tərəfdə: leytenant pilot Lex Maçkovski, müəllif, podpolkovnik pilot Meçislav Koxanovski, kapitan pilot Adam Vaşiçonek, kapitan pilot Yejı Şçıqel, mayor pilot Zıqmunt Hartman, leytenant pilot Yejı Kopeç və kapitan pilot Aleksander Çolek. Fotoqraf Leşek Vrublevski.



“Səma ilə vidalaşma”. Gecə-gündüz romantik uçuşu. Vrotslav, avqust 1976. Müəllifin arxivindən.

# SƏMA İLƏ VİDALAŞMA

İsti yay gecəsi. Səmada milyonlarla ulduz var. Qırıcı təyyarəmin kabinəsi tonqal kimi işıqlanır, qırmızı rənglə parlayır. Önümdəki uçuş zolağında düzünə sıralanmış işıqlar var. Uzaqda itən bu işıq yolunun tam ortasında durmuşam. Mühərrik tam gücü ilə işləyir. Maşın ulayır, vibrasiya edir, güclü mühərrikin təzyiqi altında titrəyir, atlanır və əyləclə bloklanmış təkərlərlə betonun üstündə sürüşür. Onun hər atılmasını hiss edirəm. Yalnız fiziki rabitə baxımından deyil, həmçinin onu bütün hisslərimlə canlı vücud kimi başa düşdüyümə görə də vəhdət təşkil edirik. Daha doğrusu, onun ürəyimdə olduğunu hiss edirəm. “Starta icazə verirəm” – qulaqlıqlarda eşidirəm. Güc dəstəyini sona qədər çəkirəm. Hərəkəti yavaşıdıram. Birdən arxa tərəfdən təkan olur, səkkiz tonluq axın məni oturacağa sıxır. Güclü mühərrik əlavə olaraq hər saniyəyə bir vedrə yanacaq sərf edir. Forsunkadan beş metr hündürlüyündə ağ-narıncı alov qığılcım saçır və periskopun[39] güzgüsündə əks olunan üzümü işıqlandırır. Mühərrikin gurultusu ətrafdakı  səsləri batırır. İndiyə qədər hərəkətsiz olan işıqlar artıq görüşümə gəlirlər. Tələsirlər. Təyyarə titrəyir. İşıqlı yol daralır, işıqlandırılmış idarə otağı, anqarlar görünür. İdarəetmə dəstəyini çəkirəm, təyyarənin burnu büronun üzərində qalxır, vibrasiyalar kəsilir, zolağın işıqları korpusun altında itirlər. Nəzərimi idarəetmə panelində saxlayıram. Kəskin surətdə qara səmaya tərəf yönəlirəm. Şassi və lyuku gizlədirəm. Yaşıl lampalar sönür, qırmızılar isə yanırlar. Cihazlardakı əqrəblər canlanır, sürət yüksəlir – 400, 500... 850 kilometr, variometr[40] saniyədə 120 metr yüksəldiyimi göstərir, altimetr[41] növbəti yüzlərlə metri “çəkir”, süni üfüq..., dövrələr..., temperaturlar..., təz-

---

[39] Periskop – təyyarədən və ya sualtı gəmidən baxmaq üçün optik cihaz

[40] Variometr -  bir sıra proseslərdə və s. dəyişiklikləri ölçmək və göstərmək üçün bəzi cihazların adı

[41] Altimetr - ucalığı təyin edən alət

yiq, müxtəlif rənglərdə yanan nəzarət lampaları. Bütün bu məlumatları eyni vaxtda görürəm. Təyyarəni sağ tərəfə çevirirəm, şimal kursuna daxil edirəm. Artıq yerdən minlərlə metr hündürlükdəyəm və daha da yüksəyə qalxıram. Təyyarə arxasında alov quyruğunu qoyaraq sürətlə uçur. Bəlkə də kimsə bunu görüb, nəyə görə Yerdən olan bu ulduz başqa ulduzların görüşünə tələsir, deyə fikirləşir. Yer növbəti siqnalları verir. Yaxalayıb "məhv" edəcəyim hədəf hələ uzaqdadır. Səs maneəsini ötüb keçirəm. Sürət 1400..., 1500..., 1800 km/saat qədər artır. Aşağıda yəqin top gurultusuna bənzər səs eşidilir. Bəlkə kimisə oyatdım? Kompensator skafandrı və germetik şlemdə oturub, cihazların göstəricilərinə baxıram. Əqrəblər sabit tərpənirlər. Hündürlük 16 min metrdir. Günəş qalxır, günün bir hissəsini görürəm. Aşağıda, Yerdə, işıqlar, minlərlə kiçik işıq, aralarında isə şəhərlər daha çox seçilir, elə bil heç hərəkət etmirlər və dostcasına göz vururlar. Bu mənim Vətənimdir – Polşa. Günəş üfüqü və ən yüksəkdəki buludları işıqlandırır, aləmi qırmızı, qızılı və göy rəngə bürüyür. Yönəltmə məntəqəsinin komandalarını yerinə yetirirəm. Nəhayət ki, radiolokatorun firuzəyi ekranında məqsədi lokallaşdırıram. Uyğun mövqeni tapıram, "düşmən" qaçmağa cəhd göstərir. Onun manevrini qabaqlayıb, tufan sürəti ilə yaxınlaşıram. Onu nişan alıram və "raketi alışdırıram" – vəziyyətin şəklini çəkirəm. "Hədəf məhv edilib, evə qayıdıram" – raport verirəm. Alışdırmanı söndürürəm, əyləci qoşuram. Mühərrik uğuldayır və xırıldayır, sonra isə sakitləşir. Tapşırığı yerinə yetirdim, növbəti imtahanı verdim. Bunu aşağıdakılar üçün etdim, qoy sakit yata bilsinlər, göyə baxanda narahatlıq hiss etməyib, gözəlliyindən həzz alsınlar. Aşağıya uçuram, yenidən gecənin qaranlığındayam. Emosiyalarım sakitləşir, əlavə oksigeni qoşuram, üzümü sərinləndirir. Fikrimdə uçuşumu yenidən yaşayıram, uçuşlarım isə yüzlərlə olub. Hər biri başqa cür, hər biri daha gözəl. Uçuşun gözəlliyindən daha çox həzz almaq üçün yavaş-yavaş enirəm. Cihazların alətləri donurlar, bircə altimetr əldə etdiyi metrləri itirir, saat sürətli uçuşun 34-cü dəqiqəsini göstərir. Qaranlığa bürünmüş Yerin üstündə fikrə getdim. Özümü güclü qartalın öz yuvasının keşiyində durduğu kimi hiss edirəm. Yaxamda belə qartal var, bu, polyak pilotunun ən gözəl və ən qürurverici nişanıdır. Tanış şəhərləri tanıyıram: Raviç, Tjebnitsa, Oleşnitsa, doğma Voluv və işıqlarda üzən Vrotslav.

Məhz burada, bu gözəl yerdə uçuş macərama başladım, burada övladlarım dünyaya gəldilər, uçuş həvəsim isə gözəl Aşağı

Sileziyanın (Dolnoşlonsk) havadan müdafiəsi vəzifəsinə çevrilmişdi. Voluv uşaqlıq və gəncliyimin beşiyidir. Bu sevimli şəhərdə çoxlu dost, tanış, keçmiş müəllimlərim və əzab çəkən Volından tanışlarım var; burada anam, bacılarım və həyat yoldaşımın valideynləri yaşayır. Gözəl, qarasaçlı qonşum Emiliya, məni, sarışın pilotu həyat yoldaşı kimi seçmişdi. O zaman nə mən, nə o həyatımızda nələr olacağını bilmirdik. Mənim uçuş həvəsimə görə hər zaman narahat olub qayıdışımı gözləyirdi. İndi də gözlədiyini bilirəm.

Yer məni fikirlərimdən ayırır: "Məntəqəyə qədər 70 (kilometr), kurs 215 dərəcə". Dəqiq harada olduğumu bilmədiyimə baxmayaraq təsdiqlədim. Yer mənim qeydimə qalır. Kimlər üçünsə ekranda firuzəyi nöqtə, başqaları üçün planşetdə nömrə və ya öz dəmir quşları ilə fəxr edən mühəndis və mexaniklər üçün səmada işıq olduğuma baxmayaraq, çoxları diqqətlə qayıtmağımı gözləyir. Vrotslav ətrafında böyük dövrə vururam. Slavyan Şlenja dağı dumanla örtülüb, zirvəsində isə işıq görünür. Kimin işığıdır o? Bizim? Bəlkə bu, Svyatovitin[42] işığıdır? Min metr hündürlükdən enməyə hazırlaşıram. 650 litr yanacaq qalıb. Bəs edər. Asta və əzəmətlə uçuram, azadlıq hissindən və məkandan zövq alıram. Yerin qaranlığı solğun bozluqla əvəz olunur. Qəsəbələrin və maşınların işıqları solurlar. Sol tərəfdən hava limanının xarakterik işıqlarını görürəm. Şassi və lyukları çıxarıram. Buna görə sabitliyini itirən təyyarə yırğalandı. Korpusu bürüyən havanın səsi dəyişilir, mühərrik sabit işləyir. Zolağın işıqları sürətlə yaxınlaşır. İşıqlar iki cərgəyə keçir, onların aralarına yönəlirəm. Şturvalla təyyarənin külək ilə dreyfini[43] tənzimləyirəm. Projektorlar betonu işıqlandırırlar. Bu parlaq ləkənin içinə düşürəm, işığın parıltısı kabinədə və şlemin şüşəsində əks olunub gözlərimi qamaşdırır. Düzəldirəm və o dəqiqə korpusun təkərləri 300 kilometr sürətilə betona dəyirlər. Düz hesabladım. Təhtəlşüurla, avtomatik olaraq dəstəyi çəkirəm. Mühərrikin fiti sakitləşir, zolağın işıqları sürətlə arxa və yan tərəflərdə gedirlər. Əyləc paraşütünü çıxarıram. Təkan və cəhdlə dayanıram. Projektorların işıqları sönür. Səkkiz tonluq dəmir zolağın uzunluğunun yarısında dayanır. Yalnız kompas, dövrə və temperatur göstəriciləri işləyir, qalanları isə artıq dincəlirlər. Təyyarəmlə təkbətəkəm.

---

[42] Svyatovit - qərbi slavyanların bir hissəsində bərəkət allahı

[43] Dreyf - külək və ya axın təsiri ilə yoldan kənara çıxma

Göstəricilərin çoxu sıfır rəqəmindədir. Sevinclə və səhvsiz hərbi vəzifəmi yerinə yetirdim. Dayanacaq meydanında mühərriki söndürürəm. Hər şey sakitləşir, mühərrik, radio, transformator, kabinənin qırmızı işıqlandırılması da sönür. Yalnız sakitləşən jiroskopların səsi eşidilir. Texniklərlə görüşüb vidalaşıram. Onlar bunun səbəbini başa düşmürlər. Mənsə bilirəm. Sabah Hərbi Aviasiya Tibb İnstitutunda olmalıyam.

# ÜÇÜNCÜ
## HİSSƏ

Aranızdan ən yaxşılarını seçməliyik...



# ÖZ İSTƏYİ İLƏ

Hərbi Aviasiya Tibb İnstitutunda mənim kimi təəccüblənən onlarla (72 nəfər) səsdən sürətli təyyarə pilotu ilə qarşılaşdım. Hara gəlmişik? Onlara neçə nəfər lazımdır? Hansı maşınla tanış olacağıq? Cavab yox idi. Artıq birinci gündən yalnız "tədqiqat materialı" olduğumuzu başa düşdüm. İnstitutun rəhbəri polkovnik professor Stanislav Baranski tədqiqat proqramı haqqında danışdı. Bu gündən xüsusi qaydalara əməl etməliyik. Heç kəslə əlaqə saxlaya bilmərik. Bir neçə həftə ərzində evdə olmayacağımıza hazır olmalıyıq. Bu müddətdə hərbi formalarımızı xəstəxana geyimi ilə əvəz etməliyik. Bu məlumatlar bizə çox təsir etdi. Bir-birimizə baxdıq, hamının çöhrəsində təəccüb hissi vardı. Yanımdakıların üzündən gərginlik, fikirlərini cəmləşdirmə cəhdi, tərəddüd etdikləri oxunurdu. Vəziyyəti birmənalı qiymətləndirdim – Miruş dabanına tüpür, nəyə isə ilişəcəklər və heç uça bilməyəcəksən. Geriyə yol yox idi. Hərbi bürokratiya mövcudluğumu müvafiq sənədlərlə təsdiq etdi. Geriyə aparan qapı artıq bağlanıb. İstəmədiyim vəziyyətə düşdüm. Prosedurlara əməl etmək çıxış yolu idi. Bizi yerli mehmanxanada yerləşdirmişdilər. Gecənin yarısına qədər "basqın"ın səbəbini araşdırmağa cəhd edirdik. Hamımız "səsdən sürətli" pilotlar idik, hamımızın böyük uçuş təcrübəsi var idi, hər birimiz birinci dərəcəli pilot idik. Gecə ərzində polkovnik Baranskinin sözlərini təhlil edirdik: "Biz, həkimlər – professor deyirdi – aranızdan ən yaxşılarını, xüsusi psixofiziki meyl, stres, hava çatışmazlığı və sürətləndirməyə istisna dözümü olanı seçməliyik". Üçhəftəlik tibbi müayinə başladı. Həm faktiki, həm də məcazi mənada. Laboratoriya analizləri, yükləmə sentrifuqası, aşağı təzyiqli kameralar, fırlanan oturacaqlar, mayallaq vurma, reyn çarxı[44], bitməyən testlər və psixoloqlarla söhbətlər bütün günümüzü alırdı. Bəzi prosedurlara yəqin ki, həkimlərin gecə ağıllarına gələn yeniliklər əlavə olunurdu. Bizi dəfələrlə sentrifuqada huşumu-

[44] Reyn çarxı – 1925-ci ildə Otto Fayk tərəfindən patentləşdirilmiş və Reyn dağ massivi ilə eyni ad daşıyan idman aləti

zu itirənə qədər yüksək yüklənmələrə məruz qoyurdular. Yüklənməyə qarşı kostyumda 8,2 g[45] qədər dözə bildim. Aşağı təzyiq kamerlarında 12 min metr hündürlüyündəki şərait yaranırdı və bizi mənasız testlərdən keçirirdilər – burada da huşumuzu itirənədək. Hərəkət koordinasiyasında test zamanı hər səhvə görə cərəyan zərbələri ilə cəzalanırdıq. Bizi fırlanan oturacaqlarda dözülməz sürətə qədər fırladırdılar. İdeyalar bitəndə isə, hansısa tozlanmış cihaz tapmışdılar, biz də onu sınaqdan keçirirdik. Laboratoriya dəhlizlərində xəstəxana geyimlərində, dişlərimizdə zond, əlimizdə banka gəzirdik. Tez-tez Varşavadakı digər institutların qonağı olurduq. Orqanizmlərimizin daxilinə bütün mümkün üsullarla baxırdılar. Hətta saçlarımız, dırnaq, dəri analizlərimiz belə verilmişdi. Bunlar azmış kimi, Boqdan Şvyatkeviçlə birgə "Çoluvka" (Aparıcı) studiyasından rejissorlar qrupu da bizimlə gəzirdi. Kameralar günün hər vaxtında bizi müşayiət edirdilər, istirahət və şəxsi vaxtımız artıq yox idi. Bütün bunlara hamı dözə bilmirdi və bir qrup namizəd geri döndü. Qalanların axırına həkimlər çıxdılar. Sonda on altı nəfər qaldıq.

Seçilmiş qrup gözəl həkim və idmançı kapitan Kşıştof Klukovskinin himayəsi altında ikihəftəlik Ços gölü yaxınlığında yerləşən pilotlar üçün Hərbi Təlim Mərkəzinə yollandı. Çətin və yorucu təlimlər keçirdik. Fiziki möhkəmlik və effektivlik, çəldlik, itilik, hərəkət koordinasiyasını formalaşdırırdıq, məkan oriyentasiyasında təlimlər, həmçinin xüsusi psixoloji təhlillər keçirilirdi. Təcrübədə bunların hamısı heç təqdim etdiyim elmi təsvirə oxşamırdı. Rəqabətdə uduzan oyundan çıxırdı. Qısa və ya uzun məsafəli qaçışın olub-olmamağı nəzərə alınmırdı. Üzgüçülük, velosipedi uzun məsafəyə sürmək, suda paraşüt təlimi, 16 g qədər yüklənmə ilə təlim, katapult etmək də yaddan çıxarılmamışdı. Günümüzə gərgin başlayırdıq, gündə üç dəfə həkim müayinəsindən keçirdik. Çoxsaylı psixoloji testlər də öz yerində. Bir dəfə onların sayı 998-ə çatmışdı.

15 sentyabr tarixində, ad günümdə radio "Soyuz-22" kosmik gəmisinin V.Bıkovski və V.Aksyonovla startı haqqında məlumat verdi. Andjey Buqala qeyd etdi: "Bilmirəm, bizim bununla ortaq nəyimizsə var ya yox, amma Miruş yəqin ki var". Bu faktı ad günümlə assosiasiya etdiyimi və ya bunun qabaqcadan gələcəkdən xəbər verilməsi olduğunu bilmədim. İki həftə bir göz qırpımında keçdi – təlimlərə səkkiz nəfər tab gətirə bilmədi. Rəqiblərim və çoxillik dostlarımla təəssüf hissi ilə sağollaşırdım. Onlardan biri təsəvvür edilə bilməyəcək dərəcədə cəsur və mərd Yanuş Dorojınski idi. Yerdə yumşaq fleqmatik olan bu adam

[45] Çəkinin sürətləndirilməsinin ölçü vahidi



DHM (Dövlət Hava Müdafiəsi) 11-ci qırıcı alay komandirinin masası arxasında, Vrotlsav-Straxovitse, 1976. Fotoqraf Leşek Vrublevski.



Vrotslavdakı Hubı qəsəbəsindəki mənzildə Miluşya və Mireklə təyyarəçilik həvəsinin davamı. Fotoqraf Leşek Vrublevski.



İkiqat səsdən sürətlə stratosferə uçuşdan öncə, iyul 1976. Fotoqraf Leşek Vrublevski.



Sevimli "Miq 6608" nömrəli təyyarədə "Səma ilə vidalaşma" uçuşundan sonra. Sol tərəfdə: Çolek, Şçıgel, Koxanovski, müəllif, Boquslav Hermaşevski, Vaşiçonek, Kopeç, Hartman, Maçkovski. Fotoqraf Leşek Vrublevski.



Final beşlik. Sol tərəfdə: mayor Andjey Buqala, podpolkovnik Zenon Yankovski, podpolkovnik Bohdan Şvontkeviç, mayor Miroslav Hermaşevski, poruçik Tadeuş Kujora, mayor Henrık Halka. Fotoqraf Leşek Vrublevski.



Namizədlər qrupunun himayəçisi kapitan, tibb elmləri namizədi Kşıştof Klukovski ən yaxşıların əhatəsində. Hərbi Aviasiya Tibb İnstitutu, Varşava, oktyabr 1976. Fotoqraf Leşek Vrublevski.



Kosmonavtlığa namizədlər Ulduz şəhərciyində himayəçilərlə birgə yoxlamalarda, 1976. Soldan: Dvojak-həkim (Çexiya), Yankovski (Polşa), Halka (Polşa), Vondrouşek (Çexiya), Köllner, formada (Almaniya), Pelçak (Çexiya), Klima (Çexiya), Klukovski –həkim (Polşa). Yuxarıda soldan: Kujora (Polşa), Hermaşevski (Polşa), Yen (Almaniya), yuxarıda Qolbs (Almaniya), bir az aşağıda Haaze – həkim (Almaniya), aşağıda ağ sviterdə - Berger (Almaniya), sağ tərəfdə Remek (Çexiya). Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Kosmonavtların Təlim Mərkəzinə uçuşdan öncə "xeyir-duanın verilməsi". Dekabr 1976. Fotoqraf Leşek Vrublevski.




Uzaq səfərə yola düşürəm... Əvvəlcə "AN-2" təyyarəsi ilə Varşavaya, sonra isə "İL-62" sərnişin təyyarəsi ilə Moskvaya qədər. Straxovitse aerodromu. Sol tərəfdə: Stanislav Lazar, müəllif, anam Kamila, bacım oğlu Kşıştof Kovalko, Alinka və Boqdan Çapiqovlar (bacım Sabinanın övladları), Emiliya və təyyarənin ekipajı. Müəllifin arxivindən.

qırıcı kabinəsində yırtıcıya dönürdü, uçuşdan sonra isə həlimləşirdi. Yanuş hava döyüşündə əsl as idi. Məhz o, Polşada ilk olaraq tərs və qanadlarının dəyişkən həndəsəsi olan "Miq-23"-ü istismar qaydaları olmadan idarə edə bilmişdi (həmin qaydalar yarım illik gecikmə ilə gəlmişdi). Səmimi və xeyirxah "rəqib"im Yan Vališkeviçin də getməsindən heyfsilənirdim – hər ikimiz ÖHM-nin 3-cü Korpusunda alay komandiri idik. O, Poznan yaxınlığındakı Kjeşinıda, mən isə Vrotslav Staxovitsalarında.

Zakopanedəki təlim-məşq mərkəzinə köçürülmüşdük. Orada iki nəfər də kooptasiya edilmişdi[46]. Pilotlar üçün Qronik mərkəzi İkinci Dünya müharibəsindən öncə yaranmışdı. Yaxşı yerdə yerləşirdi, təchiz edilmişdi, yaxşı kadrları və bazası, mətbəxi və tibbi personalı var idi. Hər il keçirilən üç həftəlik növbələr zamanı fiziki və psixoloji hazırlığımızı daha da yaxşılaşdırırdıq. İndi isə həkimlər namizədlərin dözüm sərhədini, orqanizmlərinin bərpa olunma bacarıqlarını, stresə davamlılıqlarını və qrup üzvləri arasında münasibətləri təyin etməyə çalışırdılar. Çox yorğun idik. Yaxınlarım haqqında tez-tez fikirləşirdim. Tez bir zamanda uçuşa qayıtmaq istəyirdim. Günlərin bir günü Qronikə polkovnik prof. St.Baranski gəlmişdi, müəmmalı görünürdü. İrəliləyişimizlə tanış olub, təlimatçılar arasında sorğu apardı. Görüş zamanı səylərimizə və iştirakımıza görə bizi təbrik etdi. "Cənablar, – professor dedi, – nə qədər əmək göstərdiyinizi bilirəm, lakin sizdən daha çox gözləyirəm, çünki qarşınızda hələ uzun yol var, ən yaxşıları sovet kosmik gəmisi ilə kosmosa uçacaqdır". Bu xəbər mənə elektrik qığılcımı kimi təsir göstərdi. Həmin anda tərəddüd etdim – gözəl dostlar və pilotlar arasında idim, onlardan hər biri yüksək peşə dəyərlərini sübut etmişdi, hər biri qeyri-adi şəxsi dəyərlərə malik idi. Bu cəsur onluq arasında ən ciddi xidməti vəzifə məndə idi - alay komandiri idim – həmçinin ən hündürboylu da mən idim – məhz bu faktları öz nöqsanım kimi qəbul edirdim, çünki komandanlıqdan heç kim tələb olunan pilot və komandirin getməsini istəməz. Professor Baranski tədqiqat və testlərin nəticələri ilə tanış oldu. Bütün fənlərdən öndə olduğumu, lakin Henrik Halkanın fiziki hazırlığının məndən yaxşı olduğunu bilirdim. Təlimlərin qalan hissəsi də ölümcül idi: qaçış, idman zalı, üzgüçülük, məkan oriyentasiyası və başıaşağı mövqeli təlimlər, aşağı təzyiqli kameralar və dağ turizmi adlandırılan treninqlər. Bu son idman növü turistik cığırların ən qısa zamanda keçməsini nəzərdə tuturdu. Dağların gözəlliyindən həzz almağa vaxt yox idi, yalnız önümdə gedənin ayaqlarını görürdüm. Əsl turistlər deyinirdilər, bizi qarğıyır və ya gənc insan-

[46] Kooptasiya etmək - öz heyətinə seçkisiz olaraq yeni üzv daxil etmək

ların dağda özlərini necə aparmalı olduqlarına dair nəsihət verirdilər. Bu sözləri eşitmək heç xoş deyildi, lakin işin məxfiliyi bəraət qazanmağımıza imkan vermirdi. Növbəti sürətə peşələri dağ bələdçisi olan üç dağlı dözə bilmədi və onlar bizimlə işləməkdən imtina etdilər. Hətta illər sonra, dağ şəklini görən zaman məşhur Morske Okodan[47] (Dəniz Gözündən) Beş Nohur Dərəsinə[48] (Dolina Pięciu Stawów) qədər cığır yadıma düşür. Şpiqlas Aşırımında (Przełęcz Szpiglasowa) canımın çıxacağını fikirləşirdim. Son on beş metri dizlərimin üstündə, əllərimlə donmuş torpağı qazırdım, dişlərimlə isə şam ağacından yapışırdım – elə can atırdım. Bu rəqabətdə məndən çox gənc oğlan məni uddu. Lakin vaxtımı pis keçirməmişdim. Aşırımdan turist bazasına qədər qayaların üstü ilə çevik keçiddən tez keçmişdik. Ailələrimiz də bizi qınamağa başlayırdılar. Oktyabr ayının əvvəlində bizi bir-iki günlük evə göndərmişdilər. Həyat yoldaşım vəziyyətim və yaşamaq tərzimdən bir az narahat idi. Hər gün parkda qaçmaq üçün tez oyanırdım, başımın üstündə qaldırdığım barmağımın ətrafında dolanırdım. Bu məşğələdən sonra gözlərimi döndərirdim və bundan sonra tarazlığı qoruya bilmirdim. Öz istəyimlə əziyyət çəkirdim. Mən olmadığım vaxtda poliqonda raketlərdən atış zamanı pilotlarımdan biri, hədəfi vurma nəticəsini öyrənmək üçün batmadan çıxmasını gecikdirdi. Yerin hava ilə birləşən yerdən 20 sm məsafəsində çatdırdı. Bu məsələ haqqında danışmağı, qoruyucu fəaliyyəti təhlil etməyi və konyakla onun yenidən "doğulma"sını qeyd etməyə çatdırdım.

HATİ-da bizi bir sıra sənəd, analiz nəticələri, təlimat və yeni təkliflərlə gözləyirdilər. Gözlənilmədən həkimlərdən biri mənə "qida borusu yırtığına şübhəni istisna etmək üçün" əlavə analiz keçməyimi təyin etdi. Səhər ac qarnına mənə maye gipsə oxşar nəsə yedirdilər. Rentgen aparatı altında bir sıra şəkil çəkildi, onlar üçün poza alırdım, ayaq üstə, bel üstündə, uzanaraq, sonda isə yarasa mövqeyində və yenə də ayaq üstə. Nəticə yaxşı idi. Göndəriş verən həkim nəzakətli idi, başa salırdı ki, bunların hamısı mənim yaxşılığım üçündür.

Yoxlamalar davam edirdi, əlavə EKQ və yeni psixoloji testlər keçirilirdi. Fırlanan oturacaqlar və yelləncəklərdə məşğələlərin sayı artırılmışdı. Həkimləri nistaqm[49] və dözüm həddi maraqlandırırdı. Axşamlar taqətdən düşmüş vəziyyətdə, çox vaxt mürgüləyərək, kosmik tibbi məsələləri və raket texnikası sahəsinə aid mühazirələri dinləyirdik. Həmin mühazirələrdən asılı olmayaraq, hazırlığın son mərhələsində

---

[47] Morskie Oko – Tatra dağlarında ən böyük göl

[48] Beş Nohur Dərəsi – Tatra dağlarında dərə

[49] Nistaqm - göz almasının qeyri-iradi, ardıcıl, ritmik hərəkəti

rus dilində uçuş və kosmik terminologiya ilə tanış olurduq. Sürətləndirməyə dözüm, müvazinət orqanının həssaslığı, hipoksiyaya qarşı müqavimət, məkan oriyentasiyasını təyin etmək bacarığı, görmə qabiliyyətinin dinamik itiliyi, ürək-damar sisteminin işləmək qabiliyyətinin təyin olunması üçün yekun yoxlanışlar keçirilmişdi. Psixoloji testlərdə isə psixomotor, əqli istedad, şəxsin strukturu və emosional-həvəsləndirici proseslər təyin olunmuşdu. Yoxlanışların bütün materialları həkim-kapitan K.Klukovskinin rəyləri ilə birgə toplanıb, müvafiq tərzdə möhürləndikdən sonra "Məxfi" yazısı ilə seyflərdə gizlədilmişdi.

Nəhayət, 29 oktyabr 1976-cı il tarixində beş qovluq İnstitutun konfrans zalındakı masanın üzərinə qoyuldu, onların içində isə beş cəsur insan: podpolkovnik pilot Zenon Yankovski, mayor pilot Henrık Halka, mayor pilot Andjey Buqalı, poruçik pilot Tadeuş Kujora və mənim taleyim var idi. Ulduz Şəhərciyində yerləşən Kosmonavtların Təlim Mərkəzindən rusiyalı mütəxəssis və həkim nümayəndə heyəti gəlmişdi. Nümayəndə heyətinin başçısı polkovnik həkim kosmonavt Vasili Lazarev idi. Polyak tərəfini polkovnik professor Baranski başda olmaqla təlimçilərimiz təmsil edirdilər. HATİ-nun mütəxəssisləri hər birimizin xüsusiyyətlərini tərifləyirdilər. Gözləmə anı çox təsiredici idi. Komissiyanın önünə ikinci çağırıldım. Sakitliyi qorumağa çalışaraq, konfrans zalına daxil oldum. Lazarevin qarşılamağa çıxmağı məni çox təəccübləndirdi. Hamının hər hərəkətimə baxdığına fikir verdim. Mənə bir neçə sual verildi. Qısa olaraq tərcümeyi-halım və aviasiya təcrübəm haqqında danışdım.

Ailə, maraqlar, arzular haqqında suallar verilirdi. "Şübhələri ləğv etmək üçün" yoxlanışlardan bir daha keçmək təklifindən başqa xüsusi suallar yox idi. Bu cümləni gələcək yarım il ərzində dəfələrlə eşitməli idim. Təbaşiri içirdim, rentgen otağında artıq mənə tanış mövqelərdə poza verirdim. Nəticə - əvvəlki kimi idi, lakin sənədləşmədəki iz dəftərdəki mürəkkəb ləkəsi kimi qalmışdı. Rus həkimlər bizi son dərəcə dəqiq müayinə edirdilər. Tadeuşa stomatoloji cərrah əməliyyatı, Henyoya isə fırlanan oturacaqda əlavə seans təklif etmişdilər. Təəssüflər olsun ki, əla pilot və dost, təmkinli və qayğıkeş Andjey Buqalı aramızdan getdi. Həkimlərin rəyinə əsasən onun yeganə nöqsanı hündürboy olmağı idi. Düzünü desəm, mən Andjeydən da hündür idim, lakin boyum oturarkən kosmik gəmi üçün təyin olunan meyarlara uyğun idi. Andjey dörd santimetr "daha hündür idi" və o, şərəflə çıxıb getdi. Onun şərəfinə təşkil edilmiş təntənəli şam yeməyi zamanı vidalaşdıq. Şampanla qədəh qaldıran zaman Andjey bizi xoş hərəkətilə təəccübləndirdi. Formasından aviasiya qartal şəklindəki pilot nişanını çıxarıb, ovcunun içinə qoyub dedi: " Qoy bu polyak aviasiya rəmzi kosmosa uç-

sun". Əllərimi onun əlinin üstünə qoydum. Andjey, bu gözəl jestə görə təşəkkür edirəm.

Gözəl əhvalı bir məlumat korlayır – səhər Rembertovda Polyak Ordusunun hər il keçirilən komandanlıq brifinqində olmalıyam. Yəni vəzifələrimə geri dönməliyəm – bu əmri belə başa düşdüm. Orada Milli Müdafiə Naziri general Yaruzelskinin əllərindən rəhbərlik etdiyim hərbi hissə üçün dəyərli olan "Hərbi Xidmət zamanı Xüsusi Nailiyyətlərə görə" verilən medalı qəbul etmişdim. Qırıcı Aviasiyanın 11-ci alayı ardıcıl olaraq üçüncü dəfə fərqlənmişdi, yəni sələflərimin də əməyinin məhsulunu almışdım. Mənə çox xoş idi, xüsusən də həmin axşam Vrotslavda həyat yoldaşım, oğlum və kiçik Milutka ilə görüşmüşdüm. Mənim qədər darıxmışdılar, son həftələr ərzində baş verənlər haqqında danışan zaman diqqətlə qulaq asırdılar. Günümü qızımın xoşladığı nağıl danışmaqla bitirmişdim. Həmçinin pilotlar arasında da görünməli idim. Olmamağım haqqında "hesabat"ıma qulaq asarkən uşaqlarım kimi üzləri qızarmışdı.

Yaxınlarımın yanımda olmaqlarına çox sevinə bilmədim. Varşavada yeni təlim proqramı və bir neçə "and" içmiş reportyor və jurnalistlər gözləyirdilər. Milli Müdafiə Nazirliyinin Kadrlar Şöbəsinin müdiri ilə görüşmüşdük. Xoş sözlərlə göstərdiyimiz səylərə görə təşəkkür etdi. Qruplaşmanın yarandığı gündən onun diqqəti altında olmamızı qeyd etdi və mövqe, əldə olunan nəticələr, həvəsimiz və s. görə sürətli inkişaf fonduna daxil olunmağa layiq olduğumuzu bildirdi. Həmin fondun nə olduğunu bilmirdim, lakin bu fərqlənmə çox xoş idi. Sabahdan yeni, daha çətin mərhələyə daxil olduğumuz və ondan sonra iki namizədin seçiləcəyi haqqında məlumat verildi.

Tibb İnstitutu "qızğın çağında idi". Salamlaşmaya – hər zamankı kimi – bizi biokimyəvi laboratoriya və xüsusi kabinetlərdən keçməklə başladılar. Təzyiq kameraları, güclü sentrifuqa otağı, fırlanan oturacaqlar, yelləncəklər və digər cihazlar istifadəmizə verilmişdi. Testlər daha da təkmilləşdirilmişdi. Sentrifuqa otağında iki proqram quraşdırılmışdı: nizami (və ya uzunluq), yüklənmənin daimi artımı "yalnız" 8 g qədər idi, həmçinin dəyişən periodik temp və 12 dəqiqəyə qədər vaxtda sürətləndirmə proqramı. Həkimlər raketin startı simulyasiyasını belə təsəvvür edirdilər. Aşağı təzyiq kameralarında sikloerqometr[50] qoyulmuşdu, yük hündürlüyə müvafiq olaraq paylaşırdı. Hündürlük geyimində olarkən daha metodik qaydada boğulurduq. Oksigenlə doldurulmuş germetik dəbilqəyə digər qazların qarışığı əlavə edilirdi – yalnız qarmaqarışıq danışıq, əllərin əsməsi, məntiqə uymayan əməliy-

[50] Sikloerqometr - təlim məqsədləri və fizioloji tədqiqatlar zamanı istifadə olunan, pedalları tənzimlənən velosiped şəklində cihaz

yatlar, gözlərin bərəlməsi və ya huşun itirilməsi həkimləri razı salırdı.

Dekompressiya eksperimentinə həvəslə razı oldum. Bunun laboratoriya şəraitində necə baş verəcəyi mənə maraqlı idi, çünki təcrübədə artıq "Miq-21" ilə gecə 18 min metr hündürlüyündə bundan keçmişdim – o zaman kabinənin germetizasiyası şaqqıltı ilə partlamışdı.

Əynimdə yüklənməyə qarşı kostyum və germetik dəbilqə ilə kamera-kabinəyə daxil oldum. Oturacağın kəmərlərini bağladım. Qonşu, daha böyük kameradan hava çəkilmişdi; təzyiq fərqi böyük olduqda, uzaqdan hər iki məkanı birləşən membran quraşdırılmışdı. Bir saniyə ərzində kabinəmdəki hava çıxdı. Poznandakı o yadda qalan gecə kimi, indi də avtomatik olaraq reaksiya verdim, dədilqəyə yüksək təzyiqli boğucu oksigen udumu daxil oldu. Əzələlərin gücü ilə ciyərlərimdən oksigeni çıxardım. Boğulurdum. Bədənim yüklənməyə qarşı skafandrın içində güclü atletin qucağındakı kimi sıxılırdı. Belim, oynaqlarım, biləyim və ombalarımda dəhşətli ağrı hiss etdim. Mənə elə gəlirdi ki, indi boğulacağam, belimdəki dəri isə partlayır. Hər hansı radio komandasını deməyə cəhd göstərdim. Başa düşən kimi təzyiqi bərabərləşdirdilər. Dirilmişdim. Bu test o praktiki təcrübədən yüngül idi, təyyarəni idarə etmirdim və belimdə də qançırlar qalmadı. Həkimlər sınaqdan razı idilər, rejissorlar isə nəhayət ki, heyran qalmışdılar. Kabinədən çıxdım və gülümsəyərək yalan dedim – maraqlı idi, çox yaxşı idi. Başqa nə deyə bilərdim ki? Növbəti müsbət balları aldım. Bütün başlanğıclara psixoloqlar da nəzər yetirirdilər. Onların rəyinə əsasən, cəsarət və risk etmək hazırlığı deyil, iş dəqiqliyi, məntiqi təfəkkür və sürətli oriyentasiya ən yüksək qiymətləndirilən xüsusiyyətlər idi. İki həftəlik əzablardan sonra növbəti mərhələ - əfsanəvi Ulduz Şəhərciyində Kosmonavtların Təlim Mərkəzində sınaqlara hazır idik. Tale gözlənilməz və xeyirxahdır – hər birimizə göz vururdu.

# KOSMOS ZİYARƏTGAHINA ZƏVVARLIQ

Moskvanın Şeremetyevo hava limanından meşənin arası ilə gedən bir saatlıq yol birdən bitdi. Mikroavtobus YURİ QAQARİN ADINA KOSMONAVTLARIN TƏLİM MƏKTƏBİ yazısı olan kiçik bir binanın qabağında dayandı. Bizi hava limanında qarşılayan zabit qarovulçuya başı ilə işarə etdi və hökmlə əmr verdi: "Aç". Əsgər salamlayandan sonra şlaqbaumu qaldırdı. Əfsanəvi və sirli Ulduz şəhərciyi - kosmonavtların beşiyində idik. Beynimdə bu hasardan bir də keçib-keçməyəcəyimi fikirləşdim. Yol küknar meşəsindən keçirdi və çox sadə idi. Bir az sonra avtobus böyük abidə - skafandrdakı insan surətinin yanında dayandı. Demək olar ki, bir səslə dedik – bu Qaqarindir. "Pravilno" (Düzdür) – himayəçimiz dedi və əlavə etdi: "Belə bir ənənəmiz var – Ulduz şəhərciyinə ilk dəfə gələn hər kəs Yurinin abidəsinin önünə əklil qoyur". Bizim sifətimizi gördükdən sonra dedi: "Güllər hazırdır, hətta fotoqraf da". Rəhbərliyin təşkilati işlərdə güclü olduğunu hiss etdim.

Henyo Halkla gözəl gül buketini götürdük. Təntənəli addımlarla abidənin önünə yaxınlaşdıq. Hörmət hissi ilə planetin ilk kosmonavtının xatirəsini yad etdik. Fotoqraf boş durmurdu, dərhal işə başladı. Təzə güllərin miqdarına fikir verdim. Yəni bura bu gün o qədər yeni insan gəlib? – özüm-özümə sual verdim. Sirrin üstü bir az sonra açıldı. Bizi gözəl kiçik mehmanxanada yerləşdirdilər və orada biz canlı izdihamla üz-üzə gəldik. Çexoslovakiya və Almaniya Demokratik Respublikasından himayəçi-həkimlərlə birgə hərəsindən dörd namizəd var idi. Ümumi on beş nəfər idik. Onların arasında Penemündedən[51] tanış qırıcı alay komandiri, VMT-nin[52] hava müdafiəsi sistemi çərçivəsində keçirilən birgə məşğələlər zamanı

---

[51] Penemünde (alm. Peenemünde) – Almaniyada kommuna

[52] Varşava Müqaviləsi Təşkilatı (VMT) — 14 may 1955-ci ildə SSRİ və Avropadakı sosialist bloku dövlətləri tərəfindən imzalanan Varşava müqaviləsi əsasında yaranan hərbi ittifaq. Müqavilə Albaniya, Almaniya Demokratik Respublikası, Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Polşa, Rumıniya və SSRİ arasında imzalanmış və 5 iyun 1955-ci ildə qüvvəyə minmişdir

bütün eskadra ilə qonağım olan polkovnik Berger ilə qarşılaşdım.

Çalışırdım ki, Ulduz şəhərciyində qaldığım dövrdən çox şey yadımda qalsın. Əvvəlki "pillələri" nəzərə alaraq, həmçinin Aerokluba namizəd kimi də özümü təsdiq etməli idim, bunun uğurla nəticələnəcəyindən şübhələnirdim. Tərcümeyi-halımda həmçinin digər, ailə günahlarım da var idi. Xidmətlərimizin yəqin bu haqda məlumatı yox idi, çünki əks-təqdirdə nə mən, nə də ki, qardaşlarım bir gün belə orduda xidmət edə bilməzdilər. Burada müharibədən sonra dünyanın müxtəlif yerlərinə səpələnən əmim və bibilərimin izinə düşmələrindən qorxurdum. Anamın dörd qardaşı partizan idi – Milli Ordunun 27-ci Volın Diviziyasının əsgərləri olmuşdular, bibim Vladıslavanın həyat yoldaşı, Kajimej Severın isə Katında vəfat etmişdi. Bibim Vladıslavanı Qazaxıstana sürgün etmişdilər. Əmim Antoni Lubyankaya davam gətirdi. Hər ikisi döyüş yolundan general Andreslə birgə keçmişdilər. Londonda mühacirlikdə olarkən əmim Antoni Polşa-Ukrayna İttifaqının fəal üzvü idi. Faciəvi keçmişinə baxmayaraq, polyaklarla ukraynalılar arasında əməkdaşlıq naminə fəaliyyət göstərirdi. "Polşanın həftəsi" qəzetində nəşr edilirdi. Əmim Tadeuş, Hərbi Hava Qüvvələrinin bosmanı polyak Fırtına (Burza) və Şimşək (Piorun) esmineslərində[53] döyüşüb. Kənd Təsərrüfatı Baş Məktəbinin məzunu əmim Zıqmunt müharibədən əvvəl Tuluzada konsulluğun əməkdaşı, Silahlı Mübarizə İttifaqının üzvü olub. Gizli fəaliyyətinə görə Auşvits həbs düşərgəsinə düşmüşdü, həmçinin Mauthauzendə[54] də olub. Müharibədən sonra Parisdə məskən salıb. Onların hamısı dəmir örtüyün o biri tərəfində qalmışdılar, ailəmin Kresıdakı cəhənnəmi, rəsmi olaraq atamın faşistlər tərəfindən qətlə yetirildiyi deyilsə də, reallığa uyğun gəlmirdi. Volındakı polyak kəndlərinin UMT (Ukrayna Millətçilər Təşkilatı) və UÜO (Ukrayna Üsyançı Ordusu) quldurları tərəfindən ram edilməsi haqqında danışılmırdı. İndi də heç danışılmır.

Ulduz şəhərciyi ilə tanışlığımıza mümkün olan hər şeyin analizlərini verəndən sonra başladıq. Həkimlər çox soyuq, lakin xeyirxah idilər, yalnız testlərin keçirilmə üsulunu deyil, həmçinin mənasını başa salırdılar. Narahat olanları sakitləşirirdilər. Bu mehribanlıqda kosmonavt general Aleksey Leonov hamıdan öndə idi. Çox xoş, hörmətli, zarafatcıl olan bu kişi kosmonavtların təlim

---

[53] Esmines - eskadra mina gəmisi.

[54] Mathauzen həbs düşərgəsi (alm. Konzentrationslager Mauthausen ) - Üçüncü Reyx tərəfindən İkinci Dünya müharibəsi dövründə Avstriyada yaradılmış nasist həbs düşərgəsi

şöbəsinin rəisi idi. Xatirəmdə ilk pioner tapşırıqlarının iştirakçısı kimi qalıb. 1965-ci ildə, dünyada ilk dəfə olaraq açıq kosmik məkana çıxması, 1975-ci ildə baş tutan ikinci tapşırığı da həmçinin dünyada əks-səda doğurmuşdu. O zaman Leonov Rusiya-Amerika ilk birgə yaddaqalan Soyuz-Apollo kosmik uçuşu zamanı Soyuz-19-un komandiri idi; Polşada Apollo-Soyuz deyirdilər. Daha sonra onun çox zəhmətkeş, bilikli, xeyirxah və rəhmli, lazım gələndə isə qayğıkeş, insanpərvər birisi olduğu aşkarlandı. Gərginlik və ya yorğunluq gördüyü zaman yoxlamaları dayandırıb, muzey, gimnastika zalı və ya meşəyə tonqal ətrafına dəvət edirdi. Leonov Aya uçuş üçün ilk rusiyalı namizəd idi. Bu haqda bir neçə ay sonra öyrəndim, bu da böyük bir sirr kimi deyilmişdi mənə.

Tibbi bazanı, xüsusən də labirint, sentrifuqa və məqsədi diskomfortun yaranması olan tanımadığım digər cihazların müqavimətini formalaşdıran bazaları yaxşı öyrənmişdim. Yoxlamaların çox hissəsi ölkəmizdə keçirilənə oxşayırdı, lakin “əsl“ kosmonavtlar onlarla yoxlanıldığından və təlim keçdiklərindən daha çətin idilər. Qaqarinin məşq etdiyi sentrifuqada da yaxşıca işləyirdik. İki həftə ərzində həkimlərin sərəncamında idik. Demək olar ki, hər bir namizəd hansısa prosedurları təkrarlayırdı, mən isə “şübhələri ləğv etmək“ məqsədi ilə - indi isə “əmin olmaq üçün“ əlavə olunmuşdu – təbaşirin böyük porsiyalarını yeyib artıq mənə tanış olan pozalarda dururdum ki, rentgen otağındakı həkimlər fotosessiyadan məmnun qalsınlar.

Möhkəmlik ehtiyatlarını güclə işə saldıqdan sonra şəhərcikdəki macəralarımızın sona çatmasını gözləyirdik. Yoxlamaların nəticələri rəsmi, təntənəli və möhtəşəm şəkildə elan edilmişdi. Mərkəzin baş həkimi, bütün həkim heyəti, komissiya üzvləri bizə, qorxudulmuş namizədlərə son qərar haqqında məruzə edirdilər. Təəssüflər olsun ki, Almaniya Demokratik Respublikasından namizədlər Berger və Golbs, həmçinin Çexoslovakiyadan olan Klima və Vondrouşek yoxlamanı keçmədilər. Gərginlik artırdı, məruzəçi nəticələri elan etməyə başlayan zaman isə emosiyalarım ucbatından dostlarım haqqında dediklərini eşitmirdim. Yalnız “Miroslav sağlamlıq baxımından kosmik uçuşa yararlıdır“, eşitdim. Henrık, Tadeuş və Zenek də həmin formulu eşitdilər. Bu müsbət qərar bizdə tərəddüd, həkim Klukovskidə isə gizlənilməyən məmnuniyyət hissi oyatdı, çünki nəticə polyak mütəxəssislərinin yaxşı işini və qəbul edilmiş tədqiqatlar metodikasının doğruluğunu təsdiq edirdi. Bizdən hansımızın təlimə təyin olunduğu haqda Varşavada öyrənəcəkdik.

Şəhərcikdə olmağımız yerli kosmonavtika muzeyi və təlim

bazasına getməyimiz ilə zənginləşdirilmişdi. Kosmik gəmilər və orbital stansiyaların simulyatorları çox təsiredici idilər. Məşq edən kosmonavtlarla görüş isə xüsusilə həyəcanlı idi. Maraqlı, gülərüz idilər, boylarının balaca olmasına baxmayaraq, skafandrlarda qəhrəmanları xatırladırdılar. "Bu Qorbatko və Qlazkovdur – Leonov dedi – qısa müddətlik uçacaqlar".

Gün qeyri-adi təəssüratlarla dolu idi. Hətta Mərkəzin əməkdaşlarının əhatəsində keçən təntənəli vidalaşma yeməyi, masada çoxsaylı yeməklərin olması, deyilən sağlıqlar müzakirəmizi kəsməyə qadir olmadı.

# ZİYARƏTDƏN QAYIDIŞ VƏ XEYİR-DUANIN VERİLMƏSİ

1976-cı ilin noyabr ayının son günlərində Ulduz şəhərciyindən Varşavaya geri döndük. Hərbi Aviasiya Tibb İnstitutunun nəzdindəki tanınmış mehmanxanada yaşamağa başladıq. Əsəblərimiz gərgin idi, aylarla çalışdığımıza görə çox yorğun, hətta üzülmüş idik. Henyo bu vaxt ərzində səkkiz kilo arıqladı, digərləri onunla müqayisədə bir qədər az, lakin hər birimizin mədəsinin selikli qişasında yaşadığımız emosiyalar və stress nəticəsində petexial qansızması var idi. Bu, azmış kimi, qonşu otaqlardan bizim üçün darıxan və gözləməkdən «yorulan» rejissor və jurnalistlər yavaş-yavaş çıxmağa başladılar. İki gün ərzində karantini keçərək mehmanxanada qaldıq. Heç birimiz hansımızın seçilməsi haqqında fikir bildirmirdik, hər birimiz ümid edirdik. Gözlənilmədən həyat yoldaşım gəldi. Xoşbəxt idim, nəhayət ki, adi günlərimdən ayrıla bildim. Sevincim qısamüddətli oldu. Axşam biz, yəni dörd namizəd - himayəçimiz doktor Klukovski və HATİ-nun komendantı təlaş içində Milli Müdafiə Naziri general Voyçex Yaruzelski tərəfindən qəbul edilməyimizi gözləyirdik. Bir azdan talelərimiz həll olunacaqdı. İllər öncə MMN-nin rəhbərliyinin hərbi məktəbin "primus"ları ilə görüşü zamanı nazirin kabinetində olmuşam. O zaman da bugünkü kimi gərgin idim. Gənc və cəsarətsiz podporuçik olmağıma baxmayaraq, özümdə çıxış etməyə güc tapdım. O zaman nazir marşal Marian Spıxalski idi, general Yaruzelski isə Baş Siyasi İdarənin rəisi vəzifəsində çalışırdı.

Söhbət uzun və xoş idi. General, söhbət əsnasında aydın olduğu kimi, hər şeyi dəqiqliyi ilə bilməsinə baxmayaraq, indiyə qədər keçirilən yoxlamaların nəticələri ilə maraqlanırdı. Ailələrimiz haqqında məlumatlarla da tanış idi. Maraqlı söhbət artıq uzanırdı və vaxt keçdikcə qorxum və qətiyyətsizliyim də çoxalırdı. Sakitləşməyə çalışırdım. Özümü inandırırdım ki, çox şey əldə etmişəm, yeni təcrübələrlə zənginləşmişəm,

alayımda da iş və problem çoxdur. Dəstədə olduğum zaman, Vrotslava qayıtdıqdan sonra üzərində işləmək istədiyim işlərin qeydiyyatını aparırdım.

Düşüncələrimi kəsdim, çünki general durdu və rəsmi qaydada bildirdi: "Kosmik uçuşa təlim üçün seçildi – mayor Miroslav..." – gərginliyim yüksək nöqtəsinə gəlib çatdı. Emosiyalarım ucbatından soyadımı eşitmədim, iki bəxtəvəri axtarırdım. Tadeuş Kujoraya nəzər saldım, masaya baxırdı. Odur! – fikirləşdim. Ürəyimdə sevinirdim, həyəcandan bədənimin bütün əzələlərini sıxmışdım, deyəsən, çox sıxmışdım, çünki baldırlarım qıc oldu. Deməli, Ulduz şəhərciyinə gedirəm! – ayağımdakı ağrıya fikir vermədim. General davam edirdi: "İkinci namizəd isə podpolkovnik...". İlk anda hərbi məsələlərdə çox diqqətli olan general Yaruzelskinin namizədləri təqdim edərkən, hərbi rütbələrin ardıcıllığına riayət etmədiyinə fikir vermədik. Henrık Halka və Tadeuş Kujora bizi təbrik etdilər. Bizsə öz növbəmizdə himayəçilərimiz – professor Baranski və kapitan Klukovskiyə təşəkkürümüzü bildirdik. Son mübarizədə iştirak edən bütün namizədlər ölkənin müdafiəsində göstərdiyi xidmətlərə görə qızıl medalla təltif olunmuşdular. Kabinetdən düz çıxdım. Sevincimdən bütün Varşava boyu qaçmağa hazır idim.

Həyatım çox sürətləndi, özü də indidən fərqli olaraq tamam başqa bir istiqamətdə. Qısa müddətli, bir neçə günlük məzuniyyətə yollandım. Uşaqlar ataları üçün çox darıxmışdılar. Oğlum suallar yağdırırdı, nə elədiklərimlə maraqlanırdı, mənə diqqətlə qulaq asırdı. Qızıma da nə üçün uzun zaman evdə olmadığımı başa salmalı idim.

Alayım, pilotlarla təntənəli surətdə, dostlarımla isə qeyri-rəsmi qaydada vidalaşdım. İşçilərim seçimimdən fəxr etdiklərini gizlətmirdilər, bəzilərisə gedişimdən təəssüfləndiklərini açıq-aşkar deyirdilər. Voluva da gəldim. Həyat yoldaşımın valideynlərini gedişim haqda xəbər çox təəccübləndirmişdi, qayınatam Stanislavsa bu xəbəri iftixar hissi ilə qəbul etmişdi. Həyat yoldaşımla anama bu xəbəri necə təqdim edəcəyimiz barəsində çox fikirləşdik. Onu çox narahat etmək istəmirdim, onsuz da həyatında çox əziyyət çəkmişdi. Anam gəlişimə hər zaman sevinirdi. Həyat yoldaşımın valideynləri yaxınlıqda yaşadığına görə, son illər ərzində daha tez-tez yanına gedirdim. Bu dəfə çay içərkən və çox dadlı pirojna yediyimizə baxmayaraq, söhbətimiz nəyə görəsə alınmırdı. "Yeni radio aparatı almışam, – anam dedi, – çünki gecələr Qaqarinin uçuşu haqqında

məlumatlara qulaq asdığın artıq xarab olub". Bu da kosmosa uçmağım barədə söhbəti açmaq üçün fürsət idi. Bunu tam açıq demədiyimə görə anam eyhamımı başa düşmədi. Vəziyyətdən çıxmağıma yoldaşım yardım etməyə çalışdı, lakin uğursuz idi. O zaman düz dedim: "Ana, bir neçə gündən sonra Ulduz şəhərciyinə, kosmonavtlar kursuna yollanacağam". "Sən hər zaman zarafat edirsən, ümumiyyətlə, bu kurs nəyinə gərəkdir – anam dedi. - Artıq uçmağı bacarırsan axı". Yenə də alınmadı. Orbitdə kosmik gəmi ilə uçmağımı başa salmağa başlayanda anamın siması dəyişdi, fikrə getdi, üzünü əlləri ilə bağlayıb ağlamağa başladı. Çox qorxurdu, bu onu ifadə edrdi. Ukraynanın bender hərəkatının iştirakçılarının hücumu zamanı itdiyimi, o zaman məni tapıb-tapmayacağından necə narahat olduğunu, Voluvdakı müharibədən sonrakı çətin vəziyyətimizi və uçuşla bağlı arzularımın necə yarandığını xatırladı. Öz ümidləri haqqında danışırdı, mühəndis və ya həkim olmağımı istəyirdi. Mənimlə fəxr edirdi, lakin bir ana kimi narahat olurdu və hamımız üçün dua edirdi. Hər zaman çətin anlarımda onun yanımda olduğunu hiss edirdim. Bu günə kimi heç nə dəyişməmişdi, anam qeydimə qalırdı. Yəqin ki, çətin həyat və uşaqlarına olan məhəbbəti bu qadını belə güclü edib.

Gözlənilmədən təcili məlumat aldım. Birisi gün, yəni 2 dekabr tarixində, saat 12-də parad paltarında kadrlar departamentinə getməliyəm. 4 dekabrda şəhərciyə getməyə hazır olmalıyam. Tələsik paltarlarımı yığıram. Yaxın ailəm, anam, qayınanam, həyat yoldaşım uşaqlarla məni hava limanına yola salırlar, orada uçuşa hazır olan "AN-2" gözləyir. İki saatdan çox mənə tanış olan Varşavaya qədər yolu müşahidə edirdim. Mehmanxanada Zenka ilə qarşılaşdım. Kadrlar departamentində gedişimlə bağlı bütün zəruri sənədləri doldurduq. Səhər bizi növbəti xeyir-dua gözləyir. BPİP[55]-nın Birinci Katibi Edvard Gerekə təqdim olunmalı idik.

Mərkəzi Komitənin binası çox böyük idi, hər mərtəbədə və dəhlizin sonunda mühafizə var idi. Emosiyalar yüksəlir. "Birinci"nin kabinetinin qapısı açılır, general Yaruzelski kosmonavtlığa namizədləri təqdim edir və yenidən "səhv edir". Əvvəl mayoru, sonra isə podpolkovniki təqdim edir. Görüş mehriban keçir, söhbətsə daha maraqlıdır. Əvvəlcə rəsmi, sonra isə hər birimizlə daha şəxsi söhbətlər aparılır. Fotoreportyorlar

---

[55] BPİP – Birləşmiş Polşa İşçi Partiyası

boş durmurlar. Ümumi şəkil çəkdirdiyimiz zaman Edvard Gerek mənə bu sözləri deyir: "Yoldaş Hermaşveski, söz verirəm ki, Kosmosdan qayıtdığınızdan sonra böyük bayram təşkil edəcəyik" və əlavə etdi (deyəsən, nəzakətsizlik etdi, çünki mən tək deyildim): "Yoldaş Hermaşveski, görürəm ki, hündür insanlar kosmonavt ola bilərmiş, çox yaxşı ki, kosmik gəmilərdə müvafiq geniş kabinələr düşünülüb. Müasir polyak gəncləri əsasən hündürboydurlar". Sağollaşarkən "birinci" hər ikimizi qucaqladı. "Qayıdışınızı gözləyəcəyik. Qoy orda hər şey yaxşı getsin", – sözünü bitirdi. Qəbul otağından qızarmış halda çıxdıq. İkinci, daha vacib xeyir-dua baş tutdu. Kosmodromdan qayıdışımızı fikirləşib, ürəyimdə "atalar üçdən deyib" söylədim.

4 dekabr tarixində yaxınlarım - anam, həyat yoldaşım, oğlum və dostlarımla vidalaşandan sonra Zeneklə əzəmətli "İL-62" "Kostyuşko" ilə həyatımın ən böyük macərasına yollanıram. 7 dekabr tarixli "Varşavanın həyatında"da polyaklar aşağıdakı xəbəri oxudular: "Moskvadakı daimi müxbirimizə 6 dekabr tarixində, bazar ertəsi televiziya xəbərlərində İnterkosmosun ümumi proqrama əsasən, Sovet İttifaqında qonşu sosialist ölkələrinin namizədlərinin kosmik uçuşuna hazırlıqlara başlaması haqqında məlumat verilib. Onlar Polşa, Almaniya Demokratik Respublikasının vətəndaşlarıdılar". Bu xəbər səhərisi gün Varşavadakı Televiziya xəbərlərində təkrar olunmuşdu. Yaxın bir il yarım ərzində bizim soyadlarımız gizlin saxlanırdı.

# DÖRDÜNCÜ
## HİSSƏ

Kosmodroma aparan yol açıqdır







# TİKANLARI KEÇƏRƏK...

Ulduz şəhərciyi – bu adın özü artıq fərqliliyə işarə edir. Onun yeri əsaslı surətdə gizli saxlanılırdı. İndi isə mən burada yaşayacağam.

Şəhərciyin tarixçəsi ötən əsrin altmışıncı illərinə təsadüf edir. 4 iyul 1957-ci il tarixində Yer kürəsinin ilk süni peyki Kosmosa gedəndən sonra ruslar artıq ciddi şəkildə insanın yerətrafı orbitə uçuş imkanları haqqında düşünməyə başlayırlar. Raket-kosmos texnikası sahəsində görkəmli mütəxəssis, ilk kosmik uğurun müəllifi Sergey Korolyov SSRİ-nin rəhbərliyini, məqsədi insanın ilk kosmik uçuşa hazırlıqlarının aparılması olan xüsusi müəssisənin yaranmasının necə vacib olduğuna inandıra bilir. Bu yenilikçi tapşırığın yerinə yetirilməsini hakimiyyət üzvləri Hərbi Hava Qüvvələrinin komandanı marşal Verşinova həvalə edirlər.

Kosmonavt olmağa namizədləri artıq 1957-ci ilin oktyabr ayında qırıcı aviasiya dəstələrində axtarmağa başladılar. İlk qiymətləndirilməyə 35 yaşına qədər 3461 pilotun şəxsi-tibbi sənədləri təqdim edilmişdi. Onlardan ilkin müsahibəyə 347 namizəd çağırılmışdı, 206 pilotsa xüsusi tibbi müayinəyə istiqamətləndirilmişdi. Müayinə olunan 72 nəfər çətinliyə tab gətirməyib, proqramda iştirak etməkdən imtina etdi. 105 namizəd müsbət rəy almadı, yalnız 29 pilot sağlamlıq haqqında arayışı ala bildi. Sonrakı seçimlər nəticəsində 1960-cı ilin mart ayında 20 namizədi Kosmonavtların Təlim Mərkəzinin tərkibində olan təlim şöbəsinə göndərmişdilər.

Mərkəzin ilk rəhbəri aviasiya tibbi üzrə mütəxəssis polkovnik Yevgeni Karpov idi. Strukturda 189 ştat nəzərdə tutulmuşdu, burada kosmonavtlığa 20 namizəd, 70 peşəkar əsgər və ordunun 99 nəfər mülki əməkdaşı var idi. Onları Mərkəzin rəhbərliyi, Kosmonavtlar şöbəsi, təlim şöbəsi, maddi-texniki təminat şöbəsi, mühafizə taqımı və klubu təşkil edirdi. 1960-cı il mart ayının ilk günlərində namizədlərdən seçilmiş qrup Frunze adına mərkəzi hava limanına gəldilər və 14 martdan xüsusi məşğələlər başladı. Yayda Mərkəz Moskvanın yaxınlığında xəlvət yerə köçürülmüşdü – bu gün Ulduz şəhərciyi

yerləşən yerə. 1961-ci il yanvar ayının ortalarında "Vostok" (Şərq) kosmik gəmisində ilk uçuş üçün altı dinləyici seçilmişdi. Onlar kapitanlar: Valeriy Bıkovski, Adrian Nikolayev, Pavel Popoviç və baş leytenantlar Yuri Qaqarin, Georgi Nelyubov və German Titov idi.

29 mart tarixində Nazirlər Soveti insanın Kosmosa "Vostok" kosmik gəmisində uçuşu haqqında qərar qəbul etdi. Həmin gəmi qısamüddətli orbital uçuşlar üçün yaradılmışdı. Yer kürəsinin qayıdış və yüksək temperatur sahəsini keçəndən, həmçinin yüksək sürətin təxminən 8 min metr yüksəklikdə dayandırılmasından sonra kosmonavtın enən aparatın katapultasından istifadə edərək gəmini tərk edəcəyi nəzərdə tutulmuşdu. Kosmonavt, onun oturacağı və enən aparatlar xüsusi paraşütlərlə enməli idilər.

3 aprel tarixində dinləyicilərin ikinci qrupu imtahan verirdi, yəni E.Xryunov, V.Komarov, P.Belyayev, B.Volınov, G.Şonin, V.Qorbatko, M.Rafikov, A.Leonov, V.Filatyev, İ.Ankeyev və D.Zaykin.

10 apreldə dövlət komissiyası baş konstruktor S.Korolyovun 12 aprel tarixində "Vostok" kosmik gəmisinin göyərtəsində insanla startı haqqında ərizəsini təsdiq etdi. Həmin komissiya bir səslə birinci kosmonavt kimi Yuri Qaqarini təyin etdi. Onun dublyoru German Titov idi. Qaqarin 12 aprel 1961-ci il tarixində Moskva vaxtı ilə saat 9.07-də uçuşa start verdi. Bir dövrəni yerinə yetirdi və 108 dəqiqədən sonra Yer Kürəsinə qayıtdı. 45 illik fəaliyyəti ərzində Mərkəz müxtəlif ekipajlı proqramlar həyata keçirirdi: "Vostok", "Vosxod", "Soyuz", "Almaz", "Soyuz-Apollo", "Salyut", "Mir", "Mir-Space Shuttle", "Buran", "JSS", həmçinin "İnterkosmos" proqramı çərçivəsində müxtəlif ölkələrlə birgə təşkil olunan beynəlxalq uçuşlar icra edirdi. 1961-ci ildə uçuşa qadının hazırlanması haqqında qərarın qəbul edilməsi çox maraqlı bir faktdır. 58 könüllü qadın arasında 23 namizəd tibbi müayinəyə göndərilmişdi. İlk qadın qrupunda Janna Yerkina, Tatyana Kuznetsova, Valentina Ponomaryova, İrina Solovyova və Valentina Tereşkova var idi. Bildiyimiz kimi, kosmosa sonuncu xanım uçdu.

Hazırda Mərkəz dünyada məşhur elmi-tədqiqat və təcrübə mərkəzidir. Onun bazasından NASA və ESA kimi tanınmış kosmik müəssisələr istifadə edir. Mərkəz uçuşlara 300-dən artıq ekipaj hazırlayıb. SSRİ və Rusiyadan, həmçinin 25 ölkənin nümayəndələrindən, 100-ə qədər kosmonavt kosmik missiyasını icra edib. Şəhərcikdə Çindən kosmonavtlar təcrübə toplayırdılar və kosmosa turist uçuşlarına hazırlaşırdılar. Ulduz şəhərciyində qalmamız təntənəli təqdimetmə mərasimi ilə başlamışdı. Mərkəzin rəhbəri general Georgi Bereqovoy öz əməkdaşları və "İnterkosmos" proqramı çərçivəsində uçuşlara

seçilən hazırkı kosmonavtları təqdim etdi. Həyəcandan onların bəzilərini yadda saxlaya bildim. Biz namizədləri - Yen Ziqmundu və Almaniya Demokratik Respublikasından Eberhard Kölneri, Çexoslovakiyadan Vladimir Remeki və Oldrix Pelçakı, həmçinin mənimlə Zenek Yankovskini təqdim etdilər. Hər birimiz qısa olaraq tərcümeyi-halımızı danışdıq. Bununla da rəsmi hissə bitdi. Böyük marağa səbəb olduğumuzu hiss etdim.

Rəisin müavini general Aleksey Leonov uçuşa hazırlıq proqramı və onun həyata keçirilməsi mərhələləri ilə tanış etdi. Gözlənilənlərə rəğmən, nə uçuşun planlaşdırılma tarixi, nə də ki, heç olmasa, təxmini vaxtı qeyd olunmamışdı.

İlk mərhələdə kosmik uçuş nəzəriyyəsi və dinamikasının, kosmik aparatların idarə sistemlərin, astronomiya və astronaviqasiyanın qavranması nəzərdə tutulmuşdu. Texniki hazırlığa "Soyuz" kosmik gəmisinin və "Salyut" orbital stansiyasının tikintisi və istismarı daxil idi. İlk gündən tibbi, psixoloji hazırlıq proqramını həyata keçirir, həmçinin fiziki hazırlıq planını yerinə yetirirdik.

Hər birimiz üçün məqsədi müvazinət aparatının və ürək-damar sisteminin müqavimətini artırmaq olan "TU-104" təyyarə-laboratoriyalarında çəkisizlik uçuşları, "Miq-21" təlim təyyarələrində uçuşlar, müxtəlif mühit və iqlim qurşaqlarında yaşamaq qabiliyyətini formalaşdıran fərdi məşqlər planlaşdırılmışdı. Planlaşdırılan elmi eksperimentlərin aparılması metodikası və təhlükəsizlik probleminin xırdalıqla öyrənilməsi ayrıca bir hissə idi. Bu bilik üzrə imtahan birinci mərhələyə son qoyurdu.

İkinci mərhələ ekipaj tərkibli cütlüklərlə təlim şəklində keçirilirdi. Bu, "Soyuz" kosmik gəmisinin idarə edilməsi, həmçinin sistem və cihazların müstəqil uçuş zamanı istismarı, "Salyut" stansiyası ilə birgə onların və astronaviqasiya simulyatorlarında məşğələlərin aparılması idi. İstehsalat fabrikində konstruksiyanın müxtəlif mərhələlərdə qurulması ilə tanışlıq da nəzərdə tutulmuşdu. Təhlükəsizlik prinsipləri haqqında mövzu xüsusi idi. Görüşün sonunda bizə sabah üçün məşğələlər planı təqdim olunduqdan sonra quru əmr verildi: "Məşğələlərə başla". Beləliklə, "İnterkosmos" proqramı kosmonavtlarının ilk beynəlxalq şöbəsi olduq.

Günümüzə havanın və ilin fəslindən asılı olmayaraq, "məcburi olmayan" fiziki məşğələlərdən başlayırdıq. "Təsadüfi" həkimlərə rast gəlirdik. Onlar isə "fürsətdən" istifadə edərək, nəbz və təzyiqimizi ölçürdülər. Hər günümüz diqqətlə planlaşdırılmışdı. Xidməti sahədə vaxtımızı axşama qədər keçirirdik, həmçinin şənbə və əksər bazar günlərimizi də. Yeməyimizi sovet yoldaşlarımızla birgə kosmonavt-

lar üçün kazinoda yeyirdik. Həkimlər hər yerdə idilər, hər məşqdən öncə müayinə olunurduq. Həftədə bir dəfə geniş şəkildə, ayda bir dəfə isə üçgünlük xüsusi əziyyətli müayinələr keçirilirdi. Onda da mənə "şübhələri ləğv etmək üçün" əlavə müayinə təyin olunurdu ki, bu zaman ağ horranı tamaşanın müəllifi olan həkim Romuald Dombrovu söyə-söyə udurdum.

İlk həftələr tipik sinif məşğələləri ilə keçdi. Kosmik uçuşun nəzəriyyəsi çox çətin oldu, onun anlayışı mürəkkəb riyazi hesablamalara əsaslanırdı. Müəllimlərin xeyirxahlığı və yardım etmək istəkləri bizdə hörmət və təşəkkür hissi oyadırdı.

Yeni il bayramında qısa məzuniyyətdən sonra şəhərciyə ailəmlə birgə qayıtdım. Almanlar və çex Pelçak da həmçinin. Remek aramızda yeganə subay idi. Yankovski ailəsini ölkəsində qoyub gəlmişdi. Yaxınlarımın yanımda olmasına və həyat yoldaşımın planlarına xətt çəkərək, məni dəstəkləməyə qərar verməsinə görə çox sevinirdim. Mehmanxana-profilaktoridə yaşayırdıq. Bu, rahat və xoş yer idi, hərçənd qadınlar mətbəxi bölüşməli idilər. Amma yəqin ki, bunun sayəsində belə tez tanış olub dostlaşdılar. Uşaqlarımız da dostlaşdılar. Öz polyak-çex-alman-rus dilləri ilə danışıb, bir-birilərini çox gözəl başa düşürdülər.

Qar yorğanına bürünmüş Ulduz şəhərciyi əsrarəngiz görünürdü. Çox soyuq idi. Evlərin üstündən tüstü çıxırdı, hər yerdən ayaq altında xırçıldayan qarın səsi gəlirdi. Hündür şam ağacları və çoxsaylı tozağacları qar papaqlarının ağırlığından əyilirdilər. Meşədəki köşklər nağıllardakı dekorasiyaya bənzəyirdilər. Gəzinti hər zaman xoş təəssürat oyadırdı. Qızım daha çox bürünmüş şəkildə kirşə ilə gəzirdi. Soyuqdan yanaqları qırmızı idi, nağıldakı kimi və çox gözəl görünürdü. Belə gözəl anlar üçün fürsət çox az idi. O zaman ətrafa baxmaq və Moskvadan şərqə 40 kilometr məsafədə, şəhərətrafı tramvayın Çkalovskaya dayanacağının yaxınlığında yerləşmiş şam meşəsi ilə əhatələnən, tipik qarnizon qəsəbəsi olan Ulduz şəhərciyinin coğrafiyası ilə tanış olmaq imkanım var idi. Əraziyə hündür beton hasar çəkilmişdi. Mühafizəni xidmətin əsgərləri təmin edirdilər. Əsas giriş çox da görkəmli deyildi. Hasardan gedən yol gözəl meşə ilə düz bizim yaşadığımız profilaktoriyə aparırdı. Bu yolun tam yarısında sol tərəfdə Yuri Qaqarinin abidəsi var idi. Düz abidədən sonra geniş xiyaban var, ordan sol tərəfə gedərkən kosmonavtların iki yaşayış bloku, poçt, məktəbdən ibarət Zabitlər Evinə, sağ tərəfdəsə qorunan xidməti sahəyə çatmaq olar. Qəsəbənin şərq hissəsində Mərkəzin heyəti və əməkdaşları üçün onlarla blok inşa olunub, meşənin hasarının yanında isə müxtəlif konstruksiyalı qarajlar cərgəsi var.

Burada hər zaman dostluq ab-havası var idi. Şənbə və bazar günləri qarajlar rayonunda bişirilən ətin və profilaktorinin yanındakı göldən tutulub hisə verilmiş balıqların qoxusu hiss edilirdi. Axşamlar isə gözəl mahnılar ifa edən qrupların səsləri gəlirdi. Bir dəfə Zabitlər Evinin foyesində kimsə satirik rəsm asmışdı – qarajlar cərgəsi, ulduzlu səma, qar topası. Yolla qadınla qız gedir, hər ikisi isti geyinib, ayaqlarında isə keçə çəkmələr. Qarajların birinin qapısı bir az açıqdır. Qadın təəccüblənən qıza işıq zolağını göstərib deyir: "Atanın yaşadığı yerə bax".

Bunu mənim yoldaşım da uşaqlara deyə bilərdi, çünki xidməti sahədə gecəyə kimi dərs otaqlarının pəncərələrindən işıq görünürdü. Profilaktoridən o sahəyə qədər məsafə yaxın idi. 35 dərəcədən yüksək soyuqlar bu yolu sonsuzluğa qədər uzadırdı. Mühazirə və təlimlər bir neçə xüsusi kompleksdə keçirilirdi. Ən müəmmalısı müxtəlif laboratoriyası, müxtəlif ixtisaslı həkim otağı, labirintəoxşar aparatı olan psixoloji otaq, orada isə əzab vermək üçün çoxlu ixtiraçı cihazlar və iki ədəd yüklənməyə qarşı sentrifuqa, aşağı təzyiq, sakitlik və təklik kamerası olan tibbi pavilyon idi.

Simulyatorlar kompleksi Mərkəzin inzibati binasında yerləşirdi. İki anqarda "Salyut-6" stansiyası və "Soyuz" kosmik gəmisinin maketi, həmçinin seçilmiş dinamika vəziyyəti və ya missiyanın bütün mərhələləri, gəminin ayrı-ayrı sistemlərinin fəaliyyətinin startdan öncə yoxlanılması, start və orbitə daxil olmaq, manevr və orbitin korreksiyası, stansiyaya yaxınlaşma və birləşmədən başlayaraq orbitdən çıxış və enməyə qədər kompleks şəkildə məşq etmək imkanı var idi. Simulyator real uçuşu çox düzgün şəkildə təsvir edirdi, müxtəlif qəza vəziyyətlərini yarada bilirdi. Cihazların göstəricilərinə, akustik effektlərin yaranmasına böyük hesablama mərkəzi cavabdeh idi. Lakin yüklənmə və çəkisizlik kifayət etmirdi, çünki onları stasionar şəraitdə əmələ gətirmək mümkün deyil.

Nəzəri hazırlıq kompleksi ayrıca üçmərtəbəli binada yerləşirdi. Dərs otaqları və texniki-metodik kabinetlər, planetari, kosmik naviqasiya kabinetləri, kitabxana, uçuşları idarə edən kiçik mərkəz və xoş istirahət guşəsi çox yaxşı təchiz edilmişdi.

İdman kompleksində yerli baza, stadion, hovuzlar, gimnastika zalı, tennis kortları, sauna və kosmetik kabinet var idi. Pilotlar üçün tanış olan və daim söyülən müvazinət orqanının hazırlığı üçün alətlər, fırladan cihaz və jiroskoplar bütün bunlara arzuolunmaz bir əlavə idi.

Nəzəri məşğələlər sürətlənirdi. Yeni bilikləri həvəslə öyrənirdim. Kosmik uçuşun dinamikası təyyarə uçuşunun mexanikasına heç ox-

şamırdı. Kosmik gəminin idarə olunması yalnız adı ilə təyyarənin idarə edilməsinə bənzəyirdi. Uçuş naviqasiyası heç də kosmik naviqasiya ilə eyni deyildi, oxşarlıq yalnız adda idi, məzmunda isə hər biri ayrı məsələ idi. Təfəkkür riyazi qaydalara əsaslanırdı, buna görə də yaddaşımı təzələmək üçün müvafiq kitablara müraciət edirdim. Raketə aparan yolun uzun və çətin olacağını anladım. Müəllimlərimiz hər an bizə yardım etməyə hazır idilər – biz də bu imkandan istifadə edirdik. Orbital uçuşun prinsip və qaydalarını, növlərini, orbitlərin forması və elementlərini, həmçinin onların təmir üsullarını öyrənirdik. Planetaridəki ulduzlu və sirli səma bürc şəklini almağa başlayırdı. Qalaktikamız və bütün kainatın quruluşu artıq daha az sirli idi. Əldə etdiyimiz biliklər təkcə orbital uçuşu uğurla həyata keçirməyimizi deyil, həmçinin Günəş sistemi məkanında rahatlıqla üzməyimizi təmin edirdi.

Kosmik tibbi pilotlar üçün yüksək dərəcəli başlanğıc təmin edilmişdi. Orqanizmimizin yüklənmə və çəkisizliklə mübarizə aparmağı öyrənməsi üçün hər birimizə fərdi proqramlar hazırlanmışdı. Kosmik uçuş kimi çətinliyə tab gətirmək üçün kosmonavt çox yüksək fiziki imkanlara, möhkəm müvazinətə və sağlam ürək-damar sisteminə malik olmalıdır. Stadionda qaçış çox xoş məşğələ idi. Hər gün 1500 metr məsafə qaçmalı idik. Qışda xizəklərdə qaçırdıq. Tez-tez belə qaçışlara oğlumla birgə gedirdim. Fürsətdən istifadə edərək, Ulduz şəhərciyinin ətrafında yerləşən meşələrə də baş çəkirdik. Ulduz şəhərciyində yaşadığımız ilk gündən bizi həmçinin çəkisizik, stress və vaxt çatışmazlığı şəraitində işləməyimiz üçün psixoloji cəhətdən də hazırlayırdılar. Hələlik fiziki məşğələlər və pilotlar tərəfindən ən çox sevilməyən fırladan alətlər, reyn çarxı, jiroskop, batut və digər sirk qurğularında məşq etmək idi. Məşqdən sonrakı hovuz, sauna və tennis, hər şeydən öncə isə, Tu-104 təyyarələrində çəkisizlikdə uçuşlarla təskinlik tapırdıq. 6000 metr yüksəkliyə çatandan sonra təyyarə şığıyırdı, sonra isə 60 dərəcə küncündə qalxırdı. O zaman pilot sükanı önə çəkirdi ki, trayektoriya parabolanı xatırlatsın, təyyarə yüksəlirdi, ən yüksək nöqtəsinə çatırdı və yavaşca aşağı enirdi. Uçuşun bu hissəsində yüklənmə yox olurdu. Uçuşun bu mərhələsini nəzarət altında saxlamaq məqsədi ilə pilota məlumatları gecikmə ilə göstərən akselerometr quraşdırılırdı. Pilot – Sovet İttifaqı Qəhrəmanı – sınaqçı təyyarəçi, şəxsi "cihazından" istifadə edir. Kabinənin tavanına ip bağlayır, onun ucuna uçuşda sərbəst asılan pinq-ponq topunu birləşdirir. Təyyarəni parabola trayektoriyasına daxil edən zaman top tərpənirdi, ip bir az yellənirdi – bu o demək idi ki, yüklənmə itir. Yalnız bir az sonra çətin cihaz g=0 göstərirdi. Biz, korpusun içində

məşq edənlər əvvəlcə yerə çökürdük, sonra isə pilot kabinəsindəki top kimi yuxarı qalxırdıq. Tələsik skafandrı geyinirdik, daha sonra "Soyuz" kosmik gəmisinin maketinin yanına üzürdük, məkan səmtləşdirilməsi və ya psixoloji testləri yerinə yetirirdik. Əlbəttə ki, bunların hamısını mərhələlərlə yerinə yetirirdik, çünki çəkisizlik seansı 24-26 saniyə çəkirdi. Bir uçuş zamanı bu manevr 10-12 dəfə təkrar olunurdu. Amerikalı astronavtlar bu tip təyyarələri "ürək bulandıran kabinə" adlandırırdılar, məncə, elə düz edirdilər.

Planetaridəki seanslar daha maraqlı idi. Bu, həmçinin dincəlmək üçün fürsət idi. Üç kresloda uzanarkən üfüqə baxmaqdan çox xoşum gəlirdi. Bir dəfə ulduzlara baxaraq yuxuya getdim. Varlamov bunu gördü, lakin məni oyatmağa icazə vermədi. "Ona bu lazımdır", – dedi, çünki kosmonavt işini çox gözəl bilirdi. Kosmosa uçmaq üçün ilk namizədlərdən biri idi. "Tu-134" təyyarələrində gecə vaxtı müəllimlərlə astronaviqasiyaya uçuşlar xoş bir əlavə idi. Bu məşğələlər yalnız bürcləri, onların yerləşməsini müşahidə etmək üçün deyil, həmçinin o müddətdə naviqasiya hesablamalarını yerinə yetirmək üçün idi.

Üç aydan sonra yorğunluq əlamətlərini hiss etməyə başladıq, yaxın zamanda isə ilk yoxlamalar keçirilməli idi.

Nəzəri biliklərə dair testlər çox ciddi qaydada keçirilirdi. Mühazirə və uçuş zamanı radio əlaqəsi rus dilində keçirildiyinə görə, fürsətdən istifadə edib, bu dil üzrə test verdik. Altıaylıq birinci mərhələnin nəzəri təlimi kosmonavtlar üçün təntənəli şam yeməyi ilə bitdi.

İyun ayının əvvəllərində qrupumuzda canlanma hiss olunurdu – öz uçuş peşəmizə qayıdırdıq, yaxınlıqda yerləşən təlim alayının himayəsi altına göndərilmişdik. Müvafiq uçuş təchizatı və naviqator avadanlığını aldıqdan bir həftə sonra dərslərə başladıq. "Miq-21" UM təyyarələrində uçuşa dair ətraflı nəzəri hazırlıq keçdik. Yerdə katapulta etmək üzrə təlimlər də nəzərə alınmışdı. Uçuşlar çox intensiv idilər, məşğələlərin çoxunda, hətta sutkada beş dəfə olmaqla manevr uçuşları keçirilirdi. Uzunmüddətli və böyük yüklənmələrə, həmçinin çoxsaylı uçuşlara davamlılıq yoxlanılırdı. Uçuş zamanı təyyarədən öncə uçanın yaxınlaşması və guya birləşməsini yamsılayırdıq. Nişangahın yerinə fənərin ön şüşəsində "Soyuz" gəmisinin periskopu imitasiyası quraşdırılmışdı. Yoldaşın təyyarəsinə yaxınlaşarkən bu "nişanın" köməyilə mənimlə obyekt arasındakı məsafəni hesablaya bilirdim. Əməliyyatın gedişi haqqında "kosmik uçuşu idarə edən məntəqəyə xəbər verirdim", yəni maqnitofon lentinə: yaxınlaşma meyarları, "obyekt"in manevrləri və mənim reaksiyam. Daha sonra bu yazılar psixoloqlar tərəfindən incələnirdi. Uçuş saat-

da 900 kilometr sürətində stratosferdə yerinə yetirilirdi. "Obyekt"in, yəni başqa "Miq"-in mühərrik forsunkasına müvafiq sürətlə bir metr yarım məsafəsinə yaxınlaşdığım və onun manevrlərinə baxmayaraq, bu mövqeni iyirmi saniyə ərzində saxladığım halda əməliyyat uğurla nəticələnmiş hesab edilirdi. Bu qeyri-səciyyəvi və mürəkkəb testləri gecə-gündüz dəfələrlə keçirdik.

Psixoloqları icra olunan tapşırıq zamanı fikri cəmləşdirmə bacarığı və diqqətin bölünməsi, müşahidə qabiliyyəti və mövcud, ya təlimatçı tərəfindən yaranan qeyri-tipik vəziyyətə reaksiya vermək qabiliyyəti maraqlandırırdı. Öz hərəkətlərini, cihazların göstəricilərini, müşahidəni, təəssüratlarını kosmonavt kabinəsində yerlərini tutduqdan dərhal sonra, motoru işə salarkən, startdan düzə enməyə qədər lentə yazmalı idilər. Eyni zamanda təyyarəni idarə edir, radio vasitəsilə idarə edən məntəqə və digər təyyarələrlə danışıqlar aparırdı. Hər uçuşdan sonra təyyarənin yanına yalnız mexanik deyil, həmçinin həkim və ya psixoloq da gəlirdi. Birincisi təzyiqi ölçür, ikincisi isə startdan öncə içində plyus qoyduğum və uçuşdan sonra da eyni şeyi təkrarlayacağım bloknotla dururdu.

Hər "uçuş" günü bizim üçün gözlənilən və maraqlı idi. Şəhərcikdən hava limanına gedən zaman planlaşdırılan məşğələlər haqqında danışırdıq. Bu gözəl qırıcının idarə edilməsinə dair tanışlığı təsəvvür edirdik. Yoldaşlar arasında ən böyük uçuş təcrübəsinə mən malik idim, hətta təlimatçı kapitan Morozovdan da çox. Lakin hər zaman onun rəy və təkliflərinə hörmətlə yanaşırdım. Bu aviasiyada təlimatçının təcrübəsinə və özünə qarşı hörmətdən irəli gələn bir qaydadır.

18 iyun 1937-ci il tarixində tanınmış aviator Valeri Çkalov birmotorlu "ANT-25" təyyarəsi ilə şimal qütbündən Amerikaya qədər yaxında yerləşən hava limanından uçuş icra edib. 12 min kilometrlik çətin yolu keçəndən sonra Vankuverdə enib. İndiyə kimi də start zolağının yanında yanacaqla yüklənmiş təyyarəyə startda yardım etmək üçün quraşdırılan maili qum təpəsinin qalıqları görünür. Çkalov dəfələrlə uzun məsafəli uçuşlara buradan start verib. Aerodrom onun adını daşıyır – Çkalov adına.

Həmin aerodromdan 27 mart 1968-ci il tarixində Yuri Qaqarin "U-Miq-15" təyyarəsinin bortunda polkovnik Seryoginlə birgə təlim uçuşuna başlamışdı. Təəssüf ki, uçuş faciə ilə nəticələnmişdi. Dünyanın ilk təyyarəçi-kosmonavtı həlak olmuşdu.

# KOSMONAVT

Pyotr Klimukla Ulduz şəhərciyində yaşadığım ikinci gün tanış olmuşdum. Kazinoya səhər yeməyinə gəlmişdi. Ortaboylu, qanışirin, gülərüz idi. Əynində aviasiya polkovniki forması var idi. Yaxasında kosmik uçuşlarına görə təltif olunduğu iki Sovet İttifaqı Qəhrəmanının ulduzu parıldayırdı. Birincisini 1973-cü ildə Lebedevlə birgə "Soyuz" kosmik gəmisində yerinə yetirmişdi. Kosmosda səkkiz gün olmuşdular. "Orino - 2" teleskopu vasitəsilə astrofiziki tədqiqatlar aparmışdılar. İkinci uçuş 1975-ci ildə baş vermiş və ona rekordçu adını qazandırmışdı. Bort mühəndisi Sevastyanovla birgə "Soyuz-18" gəmisi ilə "Salyut-4" orbital stansiyasına yollanaraq, onun bortunda 64 gün qalıblar.

Klimuk ən gənc kosmonavtlardan biri idi, lakin mühüm vəzifəni yerinə yetirirdi – Mərkəzin rəhbəri general Bereqovoyun müavini idi. Bundan əvvəlki uçuşuna görə aldığı "Volqa"nı qürurla idarə edirdi. Uçuşun nömrəsi 0028 idi. Bu onun SSRİ-də 28-ci kosmonavt olmasına işarə idi. Söhbət zamanı öz uçuşu haqqında danışarkən, cəsarətsiz və həyəcanlı görünürdü. Arada polyak sözlərini də istifadə etdiyinə fikir verdim. Həyat yoldaşı Lilya və oğlu Mişa ilə birgə kosmonavtlar üçün olan on iki mərtəbəli binanın birində yaşayırdı. Düz Yuri Qaqarinin abidəsinin yanında yerləşən ilk binada birinci Qaqarin yığmasından olan kosmonavtlar yaşayırdı: Leonov, Titov, Bıkovski, Tereşkova Nikolayevlə. İkinci binada gənc nəsildən olan kosmonavtlar yaşayırdılar. Mən də 1977-ci ilin ikinci yarısından burada yaşamağa başladım, gözəl, geniş üç otaqlı mənzil almışdım. Klimuk bir mərtəbə yuxarıda yaşayırdı. Ona görə də onunla "işə" gedərkən tez-tez görüşmək fürsətim var idi. Bağlı didaktik sahəyə qədər birgə on dəqiqəlik gəzinti hər zaman maraqlı söhbət üçün imkan idi. Həmin müddətdə onu daha yaxından tanıdım. Klimuk çətin müharibədən sonra atasız keçirdiyi uşaqlığı haqqında danışırdı: arzu edirdi ki, onun əsgər məzarını tapsın. Pyotr Belarus, Ukrayna və Polşanın sərhədində, Buqun şərq tərəfində, Vlodava[56] ilə üzbəüz yerləşən kiçik Komarovka kəndində polyak uşaqları arasında böyü-

[56] Vlodava - Polşada şəhər

müşdü. Pyotrun Lebedevlə ilk uçuşuna həsr edilən qəzetdə yumoristik şəkildə şimallı balaca oğlanın ayaqyalın, əlində şələ, arxasınca isə təəccüblü inək sürüsü getdiyi təsvir olunmuşdu. Həmin yolçu çobandan soruşur: "Ulduz şəhərciyinə aparan yol hansıdır?" Pyotr xahiş edirdi ki, onunla polyak dilində danışaq və gülərək əlavə edirdi: "Ya kak sobaka, vsyo ponimayu, no qovorit ne moqu" (Mən it kimi hər şeyi başa düşürəm, lakin danışa bilmirəm). Yavaş-yavaş aramızda dostluq yaranırdı. Həmin dostluq ailələrimizə də keçdi. Bioqrafiyalarımızda çox məqamlar oxşar idi. Yaşıd idik, hər ikimiz atalarımızı müharibə vaxtı itirmişdik. Pyotrun atası 1944-cü ildə Radomu azad edəkən həlak olmuşdu. Onun məzarı həmin şəhərdə yerləşir. Çoxuşaqlı ailələrdən idik. Bizi eyni uçuş həvəsi birləşdirirdi. Həyat yoldaşlarımız elə bil xüsusi olaraq bizim üçün dünyaya gəlmişdilər – mənim yoldaşım 23 avqust tarixində - Polşa Aviasiyası günündə, onun arvadı Lilya isə – 18 iyulda, Sovet Aviasiyası günündə anadan olmuşdu.

Bir il sonra məndən guya sözarası kiminlə uçmaq istəməyim barədə soruşanda, tərəddüd etmədən Pyotru qeyd etdim. Daha sonra bildim ki, həmin gün eyni sualları rusiyalı kosmonavtlara vermişdilər. Pyotr da şübhə etmədən mənim adımı çəkmişdi. Beləliklə, bir-birimizə təyin olunmuşduq. Hələ rəsmi qərar olmadan bizi artıq ekipaj kimi qəbul edirdilər. Ənənəvi olaraq kosmonavtın – missiyanın komandirinin öz radio kodunu saxladığına görə, bizi "Qafqazlar" adlandırırdılar. Pyotr əvvəlki tapşırıqlarda "Qafqaz-1" kriptonimindən istifadə edirdi, buna görə mən də "Qafqaz-2" çağırış kriptonimini qəbul etdim.

Həyat yoldaşlarımız və oğullarımız da dostlaşdılar. Şəhərcikdəki oğlanlar bir məktəbə gedirdilər, dərsdən sonra isə birgə velosiped sürürdülər. Mirek daha böyük idi, ona görə də pedalları o fırladırdı, Mişa isə daldakı oturacaqdan çərpələnglər buraxırdı. Bir dəfə isə, ilk yağışdan sonra şəhərciyin bütün əsas meydançalarında görünən suyun rəngini dəyişən tozu dağıtmışdı (onu atasının xilasedici komplektindən "əldə etmişdi"). Məsələni araşdıranlar  günahkarları tapa bilmədi, çünki toz evə çatana qədər artıq bitmişdi.

Pyotrla gözəl tandem təşkil edirdik. Bir yerdə tennis partiyası oynayırdıq, bir yerdə oxuyub dincəlirdik. Yorğun şəkildə onun kabinetində döşəmə və ya masaya uzanırdıq ki, bir neçə dəqiqə mürgüləyək.

Bir dəfə kabinetə qəflətən marşal Yefimov daxil oldu – dəli kimi tullandıq. Pyotr hər şeyi başa salmağa başladı. Marşal da təəccüblü halda bizi sakitləşdirdi və yarım saata qayıdacağını, ya da, ümumiyyətlə, enmə meydançasında bizimlə görüşəcəyini dedi və sözünə əməl etdi.

Uçuşumuzdan sonra Pyotr general-mayor rütbəsini almışdı və ekipajların uçuşa hazırlanması vəzifəsini yerinə yetirirdi. 1991-ci ildə

Mərkəzin rəisi vəzifəsinə təyin olunmuşdu və bu çox mühüm funksiyanı general Şatalovdan qəbul etmişdi. O, çox işgüzar və yenilikçi rəhbər idi. Mərkəzi yenidən təşkil etdi, yeni kosmik proqramları reallaşdırdı və tezliklə kosmosda əməkdaşlığa çevrilən geniş beynəlxalq əlaqələr yaratdı. Ulduz şəhərciyinə Yaponiya, Almaniya Federativ Respublikası, İngiltərə, Fransa, Çin, ABŞ və digər ölkələrdən namizədlər gəlirdi. Onun rəhbərliyi müddətində rusiyalı kosmonavtlar Amerika kosmik bərələrində, amerikalılar isə Rusiyanın orbital stansiyasında uçurdular. XXI əsrin stansiyası – İSS-də rus-Amerika birgə missiyaları hazırlamaq məqsədi ilə perspektivli əməkdaşlıq yaranmışdı. Klimukun sayəsində kosmosa ilk kosmik turist Denis Tito uçmuşdu. Dinamik inkişaf edən elmi fəaliyyət yeni strukturun yaranması ilə nəticələnmişdi. Hazırda KHM – Kosmonavtların Hazırlıq Mərkəzi - Kosmonavtların Hazırlanması üzrə Rusiya Dövlət Elmi-Tədqiqat və Təcrübə Mərkəzi adını daşıyır. Pyotr texniki elmlər namizədi dərəcəsini aldı və general polkovnik rütbəsinə qədər qulluq etdi. 2003-cü ildə ehtiyata göndərilmişdi. Yeni rəis isə onun tələbəsi, kosmonavt, general Vasili Tsıbliyev oldu.

Pyotrla indiyə qədər dostluq əlaqələrini qoruyub saxlayırıq.

# KOSMONAVTLARIN BAYRAMI

Ümumdünya Kosmonavtika Günü 12 aprel tarixində qeyd edilir. Ulduz şəhərciyində həmin gün hər zaman təntənəli idi. Bayramdan bir neçə gün öncə şəhərcikdə canlanma müşahidə olunur. Hər şey səliqəyə salınır, qəsəbə bəzədilir. Zabitlər Evində Yuri Qaqarinin böyük şəkli yerləşdirilir. Həmin gün istirahət günüdür. Zabitlər heyəti parad formasında gəzir, kosmonavtlar isə yaxalarındakı çoxsaylı medallarla fərqlənirdilər.

Qaqarinin abidəsinin önündə hər il yığıncaq və hərbi parad təşkil olunur. Daha sonra tədbir Zabitlər Evində davam edir: ən məşhur rusiyalı müğənnilərin çıxışı ilə konsert proqramı olur.

1977-ci ildə ilk dəfə belə bir tədbirin iştirakçısı olmalı idim. Biz namizədlər xüsusilə xoş qarşılanırdıq. Aviator formalarında çıxış edirdik: çexlər göy rəngli, biz polyaklar isə gümüşü rəngli formalarda. Tədbiri təmtəraqlı ziyafət bağlayırdı. Banket zamanı bizi tanınmış kosmonavtların analarına təqdim edirdilər. Onların arasında Anna Timofeyevna – Yuri Qaqarinin anası da var idi. Görüş qısa, nəzakət  xarakterli idi. Qaqarinin anasını şəkillərdən xatırlayırdım. Çox xoş qadın idi, söhbəti davam etdirmək istədiyini hiss etdim, lakin, təəssüflər olsun ki, bizdən konsert zalına keçməyimizi xahiş etdilər. Gedərkən mənə dediyi sözləri eşitdim: "Miroslav, səni bizə dəvət edirəm, gələrsən". Dəvətə görə təşəkkür etdim.

Bir neçə il sonra, Qaqarinin uçuşunun 20-ci ildönümündə, artıq kosmonavt olaraq Kosmonavtika Gününə həsr edilən tədbirə dəvət olunmuşdum. Zabitlər Evinə tələsirdim. Foyedə bir neçə həmkarımla - sovet kosmonavtları, həmçinin bir qrup beynəlxalq namizədlərlə qarşılaşdım. Hər zaman olduğu kimi, ilk olaraq Aleksey Leonov çıxış edirdi. Hər qonağı mehribanlıqla salamlayırdı, üstəlik hələ zarafat da edirdi. Bizdən pərdə arxa-

sına keçməyimizi xahiş etdilər. İnsanlarla dolu zaldan güclə keçə bildik. Əlimi kiminsə tutduğunu hiss elədim. Fikirləşdim ki, növbəti avtoqraf istəyənlərdən biridir. Döndüm və Anna Timofeyevnanın tanış simasını gördüm. “Heç salamlaşmaq da istəmirsən”, – eşitdim. Məni utandırdı, axı onu necə görmədim. Sakitcə illər öncə əyləşdiyi yerdə oturmuşdu. “Oğlum, söz vermişdin ki, gələcəksən”, - əlavə etdi. Onunla mehribancasına salamlaşdım, eyni zamanda bəraət qazanmağa çalışdım. Söz verdim ki, Akademiyadakı təlimdən sonra Qaqarin şəhərciyinə gələcəyəm (hazırda Qjansk şəhəri adlanır – ilk kosmonavtın doğma şəhəri). Anna Timofeyevna bir neçə dəqiqədən sonra cavab verdi: “Yura artıq yoxdur. İndi siz kosmonavtlar mənim övladlarımsınız. Qoca qarını yaddan çıxarmayın. Hər birinizi oğlum kimi qəbul etməyə hazıram”.

Polşaya təlimlərdən sonra qayıdaraq, həyat yoldaşımla Yuri Qaqarinin doğma evinə getməyə qərar verdik. Görüşün qısa olmasını planlaşdırırdıq. Moskvadan yüz iyirmi kilometr yol getdikdən sonra səfərin məqsədi olan yerə çatdıq. Kiçik birmərtəbəli bina idi, qarşısında Yurinin hədiyyə kimi aldığı “Volqa” durmuşdu. Bağda işləyən Anna Timofeyevna bizi görən kimi yüksək səslə çağırdı: “Zoya! Tamara!”. Onlar simalarından Qaqarin nəslinə aid olduqları bilinən Yurinin bacısı və bacısı qızı idi. Bir dəqiqəlik skamyada oturduq ki, xatirə şəkli çəkdirək. Anna Timofeyevna hər şeylə maraqlanırdı, sağlamlığımız və uşaqlar haqqında suallar verirdi. Həmçinin anama da salam göndərdi. Məlum oldu ki, anam ona məktub göndərib. Bu, Anna Timofeyevnanın Kosmosa startımdan sonra Voluva göndərdiyi təbrik məktubuna cavab idi.

Mənzil kiçik və sadə, lakin son dərəcə səliqəli idi. Divarlarda ailə şəkilləri, Yurinin, raket və peyklərin yaradıcısı, Qaqarinin uçuşunun əsas rejissoru Sergey Korolyovun portretləri asılmışdı. Yurinin otağına daxil olarkən qəribə hisslər yaşadım. Otağa baxarkən elə təəssürat yaranırdı ki, sahibi bir neçə dəqiqəyə qayıdacaq. Fikrə daldım. Bu vaxt Tamara qaynayan samovarı gətirdi. Ətirli çayın qoxusu gəldi – başqa cür ola da bilməzdi, çünki bu, samovar çayı idi. Anna Timofeyevnanın dediyinə görə, xüsusi hadisələr və xatirələr üçün saxladığı çaxır da gətirildi. Gözəl yemək yedikdən sonra ilk kosmonavta həsr olunmuş muzeyi ziyarət etdik. Orada rəmzi suvenirlər qoyduq. Tamara bələdçi vəzifəsini yerinə yetirirdi. Gözəl anlarda vaxt çox tez keçir. Lakin biz səfərimizə davam etməli idik. Evin sahibəsi

bizim üçün yola buterbrod və termosda çay hazırladı.

Anna Timofeyevanın evinin yanında güllərlə dolu bağ var idi. Vidalaşarkən o bizə zanbaq güllərini hədiyyə etdi. Güllər Polşaya sağ-salamat çatdılar və Varşavadakı bağımda özünə yeni məskən tapdılar.

Yaxşı təəssüratlarla dolu və növbəti görüşə ümid edərək qayıdırdıq. Təəssüflər olsun ki, vaxtı dayandıra bilmərik. Bizə hədiyyə edilən zanbaq gülləri günəş şüalarına sevinirlər, çox gözəldirlər və xatirələri oyadırlar.

# KOSMONAVTIN KRAL TAXT-TACI

1977-ci il sentyabr ayının ortalarında simulyatorlarda bitməyən təlim proqramındakı dəyişikliyi məmnuniyyətlə qəbul etdik. Səhər açılar-açılmaz həkim və Vladimir Remeklə birgə kosmonavtların fərdi və xilasedici vasitələrini istehsal edən fabrikə yollandıq. Orada "Soyuz"da enən aparatın kürsüsündə "fərdi söykənəcəyin tökülməsi" prosedurunu keçməli idik. Moskvanın "Bolşaya Koltsevaya" yolu ilə bir saat yarımlıq səyahətdən sonra olduqca dəbdəbəli görünən fabrikə çatdıq. Diqqətimi "Zvezda" (Ulduz) fabrikinin loqosu, möhkəm təhlükəsizlik sistemi və buraxılış mexanizmi cəlb etdi. Girişdə bizi hündürboy, sağlam bədənli, xurmayı saçlı, gülərüz bir adam salamladı. "Adım Qay Severindir, artıq 15 ildir ki, bu fabrikin direktoruyam". Müdirin otağında əvvəlki təxminlərimin təsdiqini tapdım. Çoxsaylı vitrinlərdə müxtəlif növlü katapult kürsülərin modelləri, divarlarda isə təchiz olunacağımız "Sokol" və üzərində "Zvezda" şirkətinin loqosu olan gəmidən kənar işləmək üçün "Orlan" skafandrlarında kosmonavtların şəkilləri asılmışdı. Qısa ünsiyyət və fabrik haqqında məlumat aldıqdan sonra mütəxəssislərə təhvil verildik. Əvvəlcə həkim müayinəsindən keçdik, daha sonra qısa şortlarda ilk baxışdan heykəltəraş emalatxanasını xatırladan otaqda durduq. Ətrafda hər yerdə ağ toz, gipslə dolu torbalar, çörəkçilikdə istifadə olunan, kütləni qarışdırmaq üçün ağaclar var idi. Otağın mərkəzində heyət tərəfindən içinə kürəklə gips kütləsinin növbəti porsiyası tökülən vanna durmuşdu. Böyük ağ ekranda qırmızı tor nümayiş olunurdu. Məni üzü ekran tərəfə göstərilən zolaqlara uyğun qoydular. Tərpənməyən, böyük, qeyri-adi bədənimi və ruh kimi tərpənən bir neçə daha böyük eybəcər surəti gördüm. Önlüklərin ətəkləri qanadlara, əllərində tutduqları alətlərsə qəribə cisimlərə çevrilirdi. Həmin vəziyyət məni əyləndirdi, liseydə qızlar tərəfindən ifa olunan Konrad Valenrod tamaşasını xatırlatdı. Onda aktyorlar, daha doğrusu, onların kölgələri mələfənin üstündə eynilə atla-

nırdılar. Bu, ifaçılar və işıqlandırma ekran arxasında olduğuna görə baş verirdi. İndi teatrda deyil, fabrikin məxfi emalatxanasında idim. "Aktyorlar" qırmızı rənglə onurğa sütunum boyunca xətt çəkdilər, nöqtələrlə kürəklər, baş, çənə və korpusumun aşağı hissələrini qeyd etdilər. Rənglənmiş və vazelinlə sürtülmüş vəziyyətdə yerimi tutmağa, yəni gips kütləsi ilə olan vannaya uzanmağa hazır idim. Amma bunu necə etməli idim? Tavandan turniketlə kran asılmışdı. Əlimlə qarmaqcıqdan tutdum, ayaqlarımı zəncirli kövşənə qoydular və belə vəziyyətdə məni vannaya salmağa başladılar. Gips yaş və soyuq idi. Bu mazın içində embrion vəziyyətində idim. Üzümdəki ifadə, deyəsən, birtəhər idi, çünki mütəxəssislər mənə ürək-dirək verirdilər: "Qorxma, indi isti olacaq". Doğrudan da, bir neçə dəqiqədən sonra istilik, daha sonra isə qaynarlıq hiss etdim. "Qorxma, bişməzsən, sevin ki, belin tüklü deyil, yoxsa pulsuz epillyasiya olacaqdın", - zarafat edirdilər. İstilik yüksəlirdi, əzələlərimi tərpətməyə cəhd etdim, lakin alınmadı – heç bir sərbəstlik yox idi. Məni betonladıqlarını düşünməyə başladım. Məni qaldırmağa cəhd göstərdikləri zaman şübhələrim daha da böyüdü. Yenidən zəncirlərdən yapışdım. Kran qıcırdamağa başladı, əl əzələlərim kəndir kimi bərk idi. Hazırda tikinti blokuna bənzəyirdim. Üçüncü dəfədən mütəxəssislərin köməyi sayəsində bədənimin sərt neqativindən ayrıla bildim. "Heykəltəraşlar" işə başladılar. Bədənimdən sonra qalan çuxurdan bütün əyrilikləri seçib, yaranan krateri çılpaq deyil, skafandrda uçacağıma görə 7-8 millimetrə qədər genişləndirdilər. İş təxminən iki saat davam etdi. Çimməyə, dincəlməyə və düzü mənim olmayan, lakin ölçülərinə görə mənə uyğun gələn skafandrı geyinməyə imkan tapdım. Yenidən vannadakı yerimi tutdum. Yer çox dar idi. "Heykəltəraşlar" yorğun idilər, mənsə hərəkətsizlikdən bezmişdim. Düzəlişlər ediləndən sonra məni yenidən bağladılar – düz bir saat ərzində uzanmalı idim. Yaxşı idi, bədənimin yükü ideal olaraq bölünürdü. İki həftədən sonra ölçməyə getdim. Kosmik kürsünün metal çanağında kifayət qədər bərk köpükdən düzəldilmiş söykənəcəyim var idi. Artıq öz şəxsi skafandrımda yenidən uzandım. Elə bil yaxşı idi, lakin başım dərinləşməyə daxil oldu və onurğa xəttindən çox əyilirdi. Uğursuzluq. Bütün proseduru yenidən keçməli oldum.

Skafandr da, kürsü də eyni fabrikdə istehsal olunmuşdu. Onu düz ölçülərimə uyğun "tikmişdilər". "Dərzilər" ölçülərimizi çox dəqiq götürürdülər, bu, həmçinin qollara da aiddir. Onların ərsəyə gəlməsi üçün ovcumdan 18 müxtəlif ölçü götürülmüşdü.

Kosmik skafandrın təyinatı adi uçuşlardan ayrılır. Onda yüklənməyə qarşı funksiya yoxdur. Onun əsas tapşırığı kosmik gəminin germetizasiyasının pozulduğu halda yaşama şəraitinin yaranması və Yer kürəsinə qayıdana qədər fəaliyyət göstərməni təmin etməkdir. Skafandr həyatın saxlanılması üçün göyərtə sistemləri tərəfindən bəslənir. Həmin sistem çox ağıllı qurulub, konstruksiyası yumşaqdır, şəffaf dəbilqə ilə birgə monolit təşkil edir, yalnız əlcəklər çıxarıla bilər. Çəkisi ağırdır. 40 əsas element və yüzlərlə kiçik hissədən ibarətdir. Xarici örtüyün altında istilik keçirməyən lay və germetik örtük var. Qapaq, daxili təzyiqə nəzarət edən monometr, ventilyasiya teli, orqanizmin fəaliyyəti və radio rabitəsinə nəzarət edən elektrik sisteminin qurğusu kənara çıxarılıb. Skafandrın üz tərəfində tənzimedici və gücləndirici lentlər, "İnterkosmos" emblemləri, sol qolda ağ-qırmızı bayraq, yaxada isə qartal gerbi görünürdü.

Skafandr rezin torbanı xatırladan avadanlıq vasitəsilə geyinilir, əvvəl ayaqlar, sonra isə qollara əllər salınır. Bundan sonra başa şlemin metal halqası taxılır. "Girişi" sadə üsulla kip bağlanır. Torba kimi yığılır və rezin iplə bağlanılır. Alınan düyün qasıq hissəsinə düşür və skafandrın çöldəki örtük hissəsi ilə qaytanlanır. Aşağı hissədə bir dənə də daha kiçik "çıxış" var. Bu çıxış lazım olduqda skafandrı çıxartmaq üçündür.

Rəyimi aldıqdan və bir neçə düzəliş icra olunduqdan sonra "Zvezda" fabrikinə bir daha sınaqdan keçmək üçün dəvət olunmuşdum. Kürsüm aşağı təzyiq kamerasında məni gözləyirdi. Detallı həkim müayinəsindən keçdim. Detektorlarla "bəzədildim", xüsusi alt paltarı geyinib, üzərindən bu qeyri-adi təsir bağışlayan paltarı geyindim. Kürsüdə startda olduğu kimi uzanılı vəziyyətdə yerimi tutdum. Mütəxəssislər kürsüdəki kəmərləri, ayaqlarımı bağladılar və əsl kosmik gəmidə olduğu kimi qurğuya qoşdular. Kürsüdə uyğunlaşdırma ideal idi. Sanki pərqu balışda uzanmışdım. Böyük polad qapılar bağlandı və qaranlıq, dəmir silindrdə tək qaldım. Qulaqcıqlarda tədqiqatçının səsini eşidirdim. Əlcəkləri taxdım və şlemin üzlüyünü bağladım. Skafandrın germetikliyinin yoxlanılması proseduru başladı, onu dəfələrlə hava ilə doldururdular. Startdan öncəki komandalar verilirdi, nəhayət, "yandırma" və "poydyom" (gedək) əmrləri səsləndi. Uçuşa başladım. Radio komandaları və səs effektləri real uçuş zamanı eşitdiklərimlə eyni idi. Yüksəliş güclü idi. Tullanma nəticəsində gəminin germetikliyinin itməsi qərara alındı. Hündürlük artdıqca (kameradan havanın sorulması nəticəsin-

də), gəminin içərisindəki təzyiq aşağı düşürdü. Eyni zamanda skafandrdakı təzyiq yüksəlirdi. Bir dəqiqədən sonra artıq stratosferdə idim, skafandr isə mərkəzdə mənimlə birgə uçan balona bənzəyirdi. Yüksəliş davam edirdi. 60 kilometr hündürlüyündə yüksəliş dayandırıldı. Demək olar ki, vakuumda idim. Çətinliklə əllərimi tərpədib, təzyiqsalma klapanını yoxladım. Yer kürəsində olmağıma baxmayaraq, skafandrın partlamasından qorxurdum. Saniyə bəs edərdi ki, bədənimin bu təzyiq və temperaturunda qanım bişsin, orqanizmimdə milyonlarla hava qovuqcuqları yaransın. Hətta kameranın dərhal açılması məni həyata qaytara bilməzdi. Bu qorxu sınağın sonunadək məni müşayiət edirdi. Fikirləşmək üçün vaxtım çox idi, 60 km hündürlükdə 40 dəqiqə ərzində qalmışdım. Fikrimcə, bu üsulla yalnız skafandr deyil, psixikam da yoxlanılırdı. Sınaqdan öncə bütün çətinlik və narahatlıqlara fikir verməyim məsləhət bilindi. Dizlərimin altında məni çox ağrılı nəyinsə sıxmasına baxmayaraq, özümü yaxşı hiss etməyim barəsində məlumat verirdim. Çətinliklərdən qaçmaq istəyərək, sınaqdan sonra dərimin göyərtisini görən həkimlərin ehtiyatlarını təsdiqləmirdim. Mütəxəssislər məni “əsarətdən” xilas etdilər və gülümsəyərək dedilər: “Onun ayaqları indiyə kimi olan kosmonavtların ayaqlarından uzundur”. Skafandrı təhvil götürməyim barədə protokolu məmnuniyyətlə imzaladım.



Ulduz şəhərciyi bizi gözəl mənzərə ilə qarşıladı. Dekabr 1976. Müəllifin arxivindən.



Mərkəzdə ilk məşğələlərə hazırlıq. Sol tərəfdə almanlar: Köllner və Yen, müəllif, Pelçak, Remek. Rus dilində anlaşmağa çalışırıq. Müəllifin arxivindən.




Kosmik texnikadan dərslər. Fonda "Soyuz" gəmisinin istiliyin tənzimi sisteminə aid plakat. Sol tərəfdə: müəllif, Köllner, Yen, Yankovski və Pelçak. Müəllifin arxivindən.




Dərsi özümüz keçirik. Pelçak antena və detektorların "Soyuz" gəmisinin korpusunda yerləşməsi haqqında məruzə edir. Müəllifin arxivindən.




Kosmonavtikada da aerodinamika var. Şəxsi təhlükəsizliyimizi fikirləşərək, enmə problemlərinə olduqca çox diqqət yetirirdik. Şəkildə kapsula təsir edən aerodinamik qüvvələr (Yer kürəsinin atmosferindən çıxış sürəti 35Ma təşkil edir). Müəllifin arxivindən







Orbital uçuşun naviqasiya və dinamika sirləri. Rus dilində yazılan qeydlər müəllifin on dəftərindən birinin səhifəsindən təqdim olunub.



Orqanizmin fiziki vəziyyətinə çox diqqət yetirirdim, Ulduz şəhərciyi 1977. Müəllifin arxivindən.



Kosmonavtların çoxu tərəfindən sevilməyən barani kürsüsündə (vestibulyar sistemin stimullaşdırılması üçün istifadə olunan cihaz) vestibulyar aparatın yoxlanması. Müəllifin arxivindən.



Çəkisizliklə ilk görüş. "Tu-104 A" təyyarəsinin göyərtəsində Zıqmuntla birgə təlim. Müəllifin arxivindən.



Vestibulyar aparatı məşqinin digər növü  nistaqmın yoxlanmasıdır. Müəllifin arxivindən.



Vestibulyar aparatın təkmilləşdirilmiş məşqi. Xilov yelləncəyinə başın sağa-sola əyilməsini məşq etmək üçün fırlanan kürsü yerləşdirilmişdi. Müəllifin arxivindən.



"Qanın beyinə vurmaması üçün" "Çıbis" vakuum şalvarı. Müəllifin arxivindən.



Professor Baranski məşqlər zamanı mənimlə birgə həyəcanlanırdı. Şəkildə erqometr vasitəsi ilə orqanizmin gücünün yoxlanılmasına dair sınaq göstərilib, Ulduz şəhərciyi, 1978. Müəllifin arxivindən.




"Soyuz-30" ekipajı "Salyut-6" orbital stansiyasının simulyatorunda "Fotonlar" – Kovalyonok və İvançenkovla birgə məşq zamanı. Müəllifin arxivindən.



Missiya müddətində komandirim və hər zaman dostum olan gülərüz  Pyotr İliç Klimuk. Şəkildə 1975-ci ildə orbitdə 63 gün keçirdikdən sonra. Müəllifin arxivindən.



Kosmodroma yollanmazdan əvvəl son dəqiqələr. Şəhərcikdə ailəmlə gəzinti zamanı. Fonda Qaqarinin abidəsi, iyun, 1978. Müəllifin arxivindən.


АКАДЕМИЯ НАУК СССР
ОТДЕЛЕНИЕ МЕХАНИКИ И ПРОЦЕССОВ УПРАВЛЕНИЯ

А. А. ШТЕРНФЕЛЬД

# ВВЕДЕНИЕ В КОСМОНАВТИКУ

Второе издание

Przyszłemu pierwszemu Kosmonaucie polskiemu dedykuję tę książkę, napisaną w latach 1932-1933 w Polsce, a zawierającą koncepcje, z których wiele już znalazło urzeczywistnienie w praktyce.
Ary Szternfeld

Moskwa, kwiecień 1977 r.

ИЗДАТЕЛЬСТВО «НАУКА»
МОСКВА 1974

İlk Kosmonavtika Bayramımda xoş sürpriz; Ulduz şəhərciyi, 12 aprel 1977. Müəllifin arxivindən.



12 aprel 1978 – Ulduz şəhərciyində hər zaman təntənəli surətdə qeyd olunan Ümumdünya Kosmonavtika Günü. Soldan kosmonavtlar: Zudov, Kovalyonok, Klimuk, Artyuxin, Nikolayev, Leonov, Mərkəzin rəisi Bereqovoy, Filipçenko, Volınov, Rojdestvenski, Dyomin. Fonda yaşadığım bina. Müəllifin arxivindən.



İlk kosmonavtika bayramım. Şəkildə hər zaman gülərüz olan Mərkəzin rəhbəri general Georgi Bereqovoy və Pyotr Klimukla, 12 aprel 1978. Müəllifin arxivindən.



Yurinin anası Anna Timofeyevna Qaqarinanın evində. Şəkildə ev sahibəsinin mənə hədiyyə verdiyi zanbaqlar görünür. Həmin güllər bu günə qədər bağımda böyüyürlər. Sağ tərəfdə Zoya – Yurinin bacısı və Tamara – ev sahibəsinin nəvəsi. Müəllifin arxivindən

# "SOYUZ" OD ARABASI
# VƏ
# "SALYUT" KOSMİK ALAQAPISI

Kosmik missiyanın proqramı üzrə "Soyuz" raketi ilə ikinəfərlik ekipajın "Soyuz" kosmik gəmisi ilə yerətrafı orbitə çıxışı, onun düzəlişinin, yaxınlaşma və "Salyut" orbital stansiyası ilə birləşmə prosedurasının icra olunması, göyərtəsində elmi proqramın reallaşdırılması və Yer Kürəsinə "Soyuz" gəmisinin kapsulunda qayıdışı nəzərdə tutulmuşdu. Missiyanın müddəti səkkiz sutka idi.

Üç mərhələli "Soyuz" transportyor raketi S.P.Korolyovun pioner konstruksiyası olan tanınmış R-7 raketindən əmələ gəlib. Onun əsasında Korolyov "Sputnik" raketini yaradıb (ilk "Sputnik-1" peyki orbitə qalxmışdı). Növbəti modifikasiya "Vostok" raketi idi ("Vostok" kosmik gəmisi orbitə ilk kosmonavtı çatdırmışdı). Hazırkı variant yerətrafı orbitə "Soyuz" ekipajlı gəmiləri və "Proqress" yük gəmilərini çatdırmaq üçün istifadə edilir.

Raketin ilk mərhələsi raket tiplidir. Dörd blokdan, daha doğrusu, maye material dolu baklar, bəsləmə sistemi və hərəkət qüvvəsi 0,821 MN (84 000 kq) olan, neft və maye oksigen, həmçinin iki ədəd birkameralı idarə olunan motorla işləyən RD-107 dördkameralı raket mühərriki olan muxtar raketlərdən ibarətdir. Bloklar ikinci mərhələnin həlqəsini simmetrik olaraq sarıyır. Onlar konus formasındadır, uzunluğu 19,8 metr, diametri isə 2,68 metr təşkil edir. Başlanğıc kütləsi 43 tondur, burada 39 ton ötürücü materialdır.

İkinci mərhələ silindir formasındadır, uzunluğu 28,5 metr, diametri isə 3 metrdir. Başlanğıc kütləsi – 100 ton, burada 93 ton ötürücü materialdır, dördkameralı RD-108 mühərrikin dörd idarə olunan motoru var, hərəkət qüvvəsi isə 79 000 kq təşkil edir.

İkinci mərhələnin zirvəsində şəbəkənin üstündə uzunluğu 7 metr, diametri 2,6 metr olan üçüncü mərhələ yerləşdirilib. Başlanğıc kütləsi 25,5 tondur, burada 22,7 ton ötürücü materialdır. RD-0110 dördkameralı mühərrikin hərəkət qüvvəsi dörd ədəd idarə

olunan motorla 30 ton təşkil edir.

Üçüncü mərhələdə hərəkət qüvvəsi 76 ton, uzunluğu 13 metr olan xilasedici raket sistemli (Dİ QXS – distansiya idarəetmə qəza xilasetmə sistemi) blok yerləşib. Ballistik örtük altında "Soyuz" ekipaj gəmisi yerləşdirilib. Bloklardan dörd xarakteristik, mürəkkəb torlu stabilizatorlar görünür (qəza vəziyyətində xilasedici raketlə birgə işə düşürlər).

"Soyuz" raketinin hündürlüyü 49 metr, diametri 10 metr təşkil edir. Başlanğıc kütləsi 274 ton, konstruksiyasının kütləsi isə ancaq 33,7 ton təşkil edir. Mühərriklərin startdakı birgə hərəkət kütləsi 413 tondur. Orbitə kütləsi 6850 kq olan "Soyuz" gəmisinin çatdırılması 8 dəqiqə 50 saniyə tələb edir.

"Soyuz" kosmik gəmisi qısamüddətli, bir neçə günlük və 2-3 nəfərlik müstəqil orbital uçuşların, hər şeydən öncə isə, ekipajın orbital stansiyaya çatdırılması, həmçinin Yer Kürəsinə qayıdışının təmin edilməsi üçün layihələndirilib. Gəmi üç hissədən ibarətdir: enmə kapsulu adlandırılan, eyni zamanda qayıdış kabinəsinin funksiyasını yerinə yetirən idarəetmə kabinəsi, yaşayış bölməsi (orbital), raketin transmissiya bölməsi.

Enmə kapsulu zəng (fincan) şəklindədir, germetikdir, gəmi və ekipajı Yer Kürəsinə qayıdan zaman yüksək temperaturdan qoruyan istiyədavamlı qatla əhatə olunub. Kapsulun forması atmosferdə enmə trayektoriyasının idarə edilməsi üçün mühüm olan qaldırıcı qüvvənin yaranmasını təmin edir; kapsulun aerodinamik keyfiyyəti[57] 0,35 təşkil edir. İçərisində ekipajın kürsüləri, ekipajın start, yaxınlaşma, birləşmə və Yer Kürəsinə qayıdan zaman istifadə etdiyi idarəetmə elementləri, həmçinin yaşama funksiyalarının qorunmasını təmin edən, atmosfer tərkibini nizamlayan qurğular, termorequlyator, müşahidə, radio aparatı, sanitar sistemi, su və ərzaq ehtiyatları ilə konteynerlər, həmçinin yaşama üçün qəza komplekti, əsas və əlavə paraşütlər var. Kapsulun yuxarı hissəsində orbital hissəyə keçid üçün germetik lyuk yerləşdirilib. Xarici korpusda enməni idarə edən mühərriklər, illüminator, komandirin periskopla viziri, istiyədavamlı dibin altında isə yumşaq enmə mühərrikləri yerləşdirilib.

Yaşayış hissəsi kürə şəklindədir, diametri təxminən 2,2 m təşkil edir. Elmi aparat və qurğuların nəqlini, bəzi eksperimentlərin keçirilməsini, həmçinin istirahət zonası funksiyasını yerinə yetirir. Həmin hissə bir neçə metrlik elektron örtükdən qurulub və Yer Kürəsinə qa-

---

[57] Aerodinamik keyfiyyət – qaldırıcı qüvvənin havanın təyyarəyə (raketə) qarşıdan göstərdiyi müqavimətin nisbətidir

yıtmaq üçün nəzərdə tutulmayıb. Ön hissədə germetik keçid lyuku, orbital stansiya ilə birləşməni və daxili rabitəni təmin edən bağlama aqreqatı yerləşir. Orbital bölmədə həyatın təhlükəsizliyini təmin edən qurğular, beş günlük ərzaq, su ehtiyatları, ayaqyolu, havatənzimləyicilər, nəzarət qurğuları, elmi, kino və foto aparat, həmçinin iki illüminator yerləşdirilib. Bölmənin xaricində iki antenna: radio, 5AO yaxınlaşma və GSN manevr sistemi, həmçinin birləşmə sisteminin TV kamerası var.

Mərmi bölməsində səmti müəyyənləşdirmə sisteminin ölçü cihazlarının elementləri, jiroskoplar, telemetrik qurğular, bort akkumulyatorları, uzaq məsafəli rabitə blokları və elektrik cihazları yerləşdirilib. Kip olmayan hissədə əsas və ehtiyat mühərrik üçün ötürücü material bakları, həmçinin həmin bölmənin xaricində yerləşən səmti müəyyənləşdirmə və birləşmə mühərriklərinin sistemi, qısadalğalı radio antennaları yerləşdirilib.

Daşıyıcı raket və kosmik gəmi birdəfəlik istifadə üçün nəzərdə tutulub. Çox böyük başlanğıc kütləsindən geriyə yalnız göyərtəsində insanlar olan iki tonluq kapsul qayıdır.

29 sentyabr 1977-ci il tarixində Baykonur kosmodromunun katapultundan Proton daşıyıcı raketin vasitəsi ilə “Salyut-6” növlü uzunmüddətli yerətrafı yeni nəsil orbital stansiyası orbitə daxil olur. Apogey[58] 355 km, perigey[59] isə 260 km təşkil etmişdi. Orbitin səthinin ekvatora qarşı enişi -51,6°. Yerətrafı dövrənin müddəti 89,1 dəqiqə, stansiyanın kütləsi 19 830 kq, uzunluğu 13,5 metr, ən böyük diametri 4,15 metr, günəş batareyalarının məsafəsi 17 metr, iki ədəd ekipaj gəmiləri ilə birgə kütləsi – 32 500 kq, uzunluğu isə 29 metr təşkil edir. “Salyut-6” sələfindən iki bağlama düyününün olması və bunun sayəsində “Soyuz” növlü iki ədəd ekipaj gəmisi və ya bir ekipaj gəmisi və bir ədəd “Proqress” növlü yük gəmisini qəbul edə bilməsi ilə fərqlənirdi. Ümumi konsepsiyasına görə sələfləri ilə eyni idi. Şəklini dəyişməsində əvvəlki missiyalar zamanı alınan təcrübə və yeni tələblər nəzərə alınıb. Yeni stansiyanın funksiyalarının sayı, ekipajın rahatlığı, hər şeydən öncə isə, elmi-tədqiqat imkanları olduqca artıb.

“Proqress“ yük gəmiləri ekipajın orbitdə bir neçə ay müddətində fəaliyyəti üçün tələb olunan müxtəlif növlü ləvazimatı, ilk əvvəl, düzləşdirici və manevr mühərrikləri üçün ötürücü materialları, ehtiyat hissələri, elmi avadanlıq, su, ərzaq və poçtu çatdıra bilirdi. Lokallaşdırmanın yeni, daha mükəmməl radiolokasiya, yaxınlaşma və bağla-

---

[58] Apogey - Ay orbitinin yerdən ən uzaq nöqtəsi;

[59] Perigey - Ay orbitinin yerə ən yaxın nöqtəsi

ma sistemi sayəsində bu əməliyyat daha professional və təhlükəsiz şəkildə icra olunmağa başladı. Orbital stansiyanın ekipajının yardımı ilə avtomatik və manual üsulla birləşmə mümkün olur.

Stansiya silindr şəkildə olan üç germetik seksiyadan ibarətdir. Həmin bölmələrdə ayrı-ayrı şöbələr - keçid, iş, təsərrüfat və iki kip olmayan: elmi avadanlıq və ötürücü qrupun aqreqatları şöbəsi var. Korpusda müşahidə və şəkil çəkməyə imkan yaradan 20 ədəd illüminator yerləşdirilib.

Uçuş zamanı içəridə Yer Kürəsinə yaxın olan meyarlarda atmosfer saxlanılır, nəmişlik və temperatur isə ekipaj tərəfindən tənzimlənə bilər. Ekipajın işinin daha rahat olması məqsədi ilə bortda ikitərəfli rəngli televiziya rabitəsi, naviqasiya sistemi, suyun regenerasiya sistemi, effektiv sanitar-gigiyena sistemi, hava ionizatorları, erqometr[60], qaçış cihazı, həmçinin duş, videomaqnitofon və s. quraşdırılıb. Çöl tərəfdən böyük ətalətli jiroskoplar və üç oxa uyğun olaraq səmti müəyyənləşdirmə mühərrikləri, həmçinin dəyişmə, xüsusən yüksəliş və orbit üçün istifadə olunan mühərriklər  yerləşdirilib.

Ekipajın işinin asanlaşdırılması üçün stansiyada məsafədən idarəetmə, sistem və elmi avadanlığın nəzarəti üçün 5 mövqe yerləşdirilib. Ən əsası birincisidir, o, iş bölməsinin mərkəzində yerləşdirilib. İki kosmonavt üçün nəzərdə tutulub, nəzarət pultu, optik səmti müəyyənləşdirmə viziri, rabitə aparatı, idarəetmə dəstəkləri ilə təchiz olunub. Digər mövqelər yardımçı xarakterlidir və əsas mövqedən uzaqda yerləşən aparatla iş üçün istifadə oluna bilərlər. Hər birində Yer Kürəsilə daxili rabitə var. Ekipaj stansiyanı xüsusi mexanizmin köməyi ilə idarə edir. Burada idarəetmə cihazları, ötürücü qurğular, radio məlumatlarının çatdırılması sistemi, televiziya, "Zarya" (Şəfəq) radio-telefonu, telemetrik, energetik, həyatın təmin olunması sistemi və s. var.

Stansiyanın göyərtəsindən radio üsulu ilə orbitin ölçüləri, hər kosmonavtın orqanizminin iş parametrləri, konstruksiyanın ayrı-ayrı elementlərinin, aqreqat və stansiyaya bağlanan gəmilərin temperaturu, bağlama sisteminin və daxili keçidlərin vəziyyəti, elektrik enerji ehtiyatları, ötürücü materiallar və s. nəzarət olunur.

"Salyut-6" stansiyası olduqca səmərəli istifadə edilirdi. Onun göyərtəsində on yeddi ekipaj vardı: beşi uzunmüddətli, on ikisi isə qısamüddətli. Burada doqquzu İnterkosmos layihəsi çərçivəsində beynəlxalq ekipajlar olmuşdu. Stansiyaya on beş ekipajsız gəmi bağlan-

---

[60] Erqometr - orqanizmin işləmək qabiliyyətini və işlədiyi zaman onda əmələ gələn funksional dəyişiklikləri tədqiq etmək üçün cihaz

mışdır, onlardan on ikisi “Proqress” yük gəmisi və ekipajsız gəmilər idi: “Soyuz-34”, “Soyuz-T1” və “Kosmos 1267” peyki. Yekun balans orbitdə 1764 gün, yəni demək olar ki, 5 ildir.

1982-ci ildə “Salyut-6” stansiyasının yanında orbitdə onun davamçısı “Salyut-7” yerini tutur. Təkmilləşdirilmiş stansiya 6 fevral 1991-ci ilə qədər fəaliyyət göstərir. Onun yerini əfsanəvi “Mir” stansiyası tutur (20 fevral 1986-cı ildən 22 mart 2001-ci ilə qədər). 15 il ərzində “yaşayıb”.

Hazırda bəşəriyyətin gələcəyə olan ümidi ilk elementləri yerətrafı orbitdə hələ 1998-ci ildə olan, inşası isə hələ də davam edən beynəlxalq İSS kosmik stansiyası ilə bağlıdı.

# SƏMAYA APARAN PİLLƏKƏNLƏR

Payız aylarında təlimlər daha da sürətləndi. Finalın yaxınlaşdığını hiss edirdim. Artıq öz fərdi skafandr və kosmonavt kürsüm var. Fırlanan oturacaqda reallaşdırılan müvazinət sistemi təlimlərini rahatlıqla keçirəm. "Salyut-6" stansiyamız artıq orbitdə fəaliyyət göstərir. Kovalyonokla Ryumin – "Fotonlar" – "start hesabatları"nda öz anlarını gözləyirlər. Rusiyalıların gözlədiyi Oktyabr inqilabının 60-cı ildönümü yaxınlaşır. Yaxında "İnterkosmos" ekipaj uçuşları proqramının işə düşəcəyini gözləyirik. Pyotrla mən favoritlər arasındayıq. Bu haqda şəhərciyin mütəxəssisləri və TASS jurnalistləri danışırlar. Dediklərinə görə, onlar daha çox bilirlər və heç vaxt səhv etmirlər. Təlimlərimiz bizi "Fotonlar"la birləşdirməyə başladı. Onlarla birgə qəza vəziyyətlərini məşq etmişdik, Kosmosda isə tamamilə başqa vəziyyət baş vermişdi. Kovalyonokla Ryumin çaşmışdılar. Missiyalarını uğursuzluqla bitirmişdilər. Yer kürəsinə iki gündən sonra qayıtdılar. "Salyut-6" stansiyası ilə bağlı uçuşlar proqramı dondurulmuşdu. Uğursuz uçuşun nəticələri az qala bizə də toxunmuşdu.

Bir oktyabr günü, axşam saatlarında Klimuk evimə gəldi. Gözləri qızarmışdı, elə bil xəstələnmişdi. Səbəbsə daha pis idi. Hələ qapıdan dedi: "Ekipajımızı ayırmaq istəyirlər, uzunmüddətli missiyaya komandir lazımdır, məni də o proqrama cəlb etmək istəyirlər". Ayaq üstə dura bilmirdim. "Bu fikir kimin ağlına gəldi?" – soruşdum. "Konstruktor Qluşkonun qrupunun" – bildirdi. Rəngim ağardı. Anladım: deməli, Kubasovun ekipajını irəli çəkmək istəyirlər. Yeni komandir, öyrəşmə və uçuş üçün şanslar az idi. "Suxoy zakon"u (içki qadağanı) pozduq. Səhərə kimi söhbət etdik. Əsəbi vəziyyət növbəti günün axşamı həll olundu. Leonov bizi sakitləşdirməyə gəldi. Növbəti gecəni də yatmadıq. Söhbətlər uzun və maraqlı idi. Gecənin yarısından sonra Leonov 1965-ci ildə Belyayevlə Kosmosa ilk uçuşu haqqında danışmağa başladı. Ona qulaq asarkən özümü xüsusi insan hiss edirdim, eyni zamanda da pərt olurdum. Onun uçuşu uğurlar zolağı kimi tərənnüm edilirdi. Kosmonavtika tarixində ilk dəfə insanın gəmidən qırağa çıxması, əlbəttə ki, uğur idi. Bu iş çox mürəkkəb olub və indiyə qədər də elədir.

Jurnalistlər və dilçilər üçün ən çətini bu vəziyyətin təsvir olunmasıdır. İnsanın "gəzməyi" və ya "orbitləndiyi" haqqında fikirləşirlər... Əsası odur ki, bacardı və bu, artıq hər zaman belə olacaqdır.

"Bu tədbirin həyata keçirilməsi məqsədi ilə, - Leonov danışmağa başladı, – amerikalıların həmin eksperimenti reallaşdıracağından ehtiyat edərək, "Vostok" gəmisinin şəkli dəyişdirildi. Oraya kabinədən yatabla çıxışı mümkün edən şlüz əlavə olunmuşdu. Təlim üçün vaxtımız az idi. 14 yanvar tarixinədək nəzəri imtahanları verib, aşağı təzyiq kameralarında skafandrı texniki baxımdan yalnız 37 kilometr hündürlüyə qədər sınaqdan keçirmək vasitəsilə təlimlərə başladıq. Sonradan belə hündürlükdə təlim keçməyimiz gözlənilməyən hadisə ilə qarşılaşmağımızla nəticələnmişdi. Komandirim tamamilə etibar etdiyim dostum Pavel Belyayev idi. Tapşırıq çox çətin idi. Mərkəzdə simulyatorlar yox idi, buna görə də təlimləri tikilən gəmidə keçirirdik. Vaxt azlığı, təlimlər və tələsməyimiz hətta yeddi təhlükəli vəziyyətin yaranmasına səbəb oldu. Onlardan üçü həyatımız üçün təhlükəli idi. 18 martda "Vosxod-2" adlandırılan gəmi ilə Baykonur kosmodromuna yollandıq, – Leonov davam edirdi. – Startdan saat yarım sonra, yəni ikinci dövrənin əvvəlində gəmidən çıxmağa cəhd göstərdim. Pavel məni sığortalayırdı. Çətinliklə enmə aparatından şlüzə çata bildim. Darısqallığa görə yalnız başım öndə çıxa bilirdim. Pavel enmə aparatının lyukunu bağladı. Tək qaldım. Hava buraxan klapanı açdım və şlüzdə tam boşluqla qarşılaşdım. Skafandrımdakı havanın təzyiqi içimi şişirdirdi. Əllərim əlcəklərdən, ayaqlarımsa ayaqqabılardan çıxırdı. Tənzimləmə lentlərini dartmam yardımçı olmadı. Əl və ayaqlarımın hərəkət etmələri çox çətin idi. Buna baxmayaraq, şlüzün lyukunu açıb, bir neçə dəqiqədən sonra içəri keçdim. Yer kürəsinin yaxınlığında gəminin təsviri məni heyrətləndirdi. Gəmi ilə məni olduqca möhkəm bağlar birləşdirirdi.

Onlar üzməmi çətinləşdirirdi. Gəmidən artıq 5 metr məsafədə idim, bu haqda Yer kürəsinə məlumat verdim. Mənə elə gəlirdi ki, yaxınlıqda bədənimi parça-parça edəcək meteorlar uçur. Sabit mövqeni saxlaya bilmirdim. Gəmiyə qayıdışa başladım və təəccüblə şlüzün lyukuna yerləşmədiyimi anladım. Bir neçə dəqiqədən sonra vəziyyət daha da pisləşəcək. Yer kürəsi ilə məsləhətləşmələr üçün vaxtım yox idi. Risk etdim və təyinatlara rəğmən şlüzə lazım olduğu kimi, yəni ayaqlarımla deyil, başımla girməyə çalışdım. Xarici lyuku bağladım. Şişmiş skafandrda içərini bütünlüklə tutmuşdum və hərəkət edə bilmirdim. Ümidsizlikdən skafandrdakı təzyiqi 600-dən 270-ə qədər azaltdım. Skafandr balacalaşdı... Çətinliklə diametri 1 metr olan daxili şlüzdən keçə bildim. Çox səylər göstərdim, ürəyim dəqiqədə 190 vuruşla döyünürdü. Pavel bacardığı kimi mənə kömək edirdi. Səylər nəticəsində

istinin vurmasını hiss etdim və boğulmağa başladım. Şlüzün germetik olmasını dəqiqləşdirmədən, tələsik şlemin şəffaf üzlüyünü enmə aparatının açıq lyukuna baxmayaraq açdım. Gözlərimdə tərimin buzunu hiss etdim. Enmə aparatının lyukunu bağladıqdan sonra içəridə hava təzyiqi artmağa başladı. Norma 160 idi, cihaz isə 460 millimetr və daimi yüksəliş göstərirdi. Ən kiçik qığılcımdan belə partlayışın baş verə biləcəyini bilirdik. Səylərimiz – temperatur və rütubətin azaldılması – kömək olmadı. Yorğun və əsəbi halda yuxuya getdik. Oyanandan sonra əziyyətlərimizin səbəbini təyin etdik. İstəmədən skafandrı gəmi ilə birləşdirən tellə təzyiqi yüksəldən qoşucunu birləşdirdim".

"Bununla problemlərimiz bitmədi, – Leonov davam edirdi. Ona diqqətlə qulaq asırdıq. Uçuşundan indiyə qədər həyəcanlandığı görünürdü. – Yer kürəsinə qayıdış proseduruna başladıq, lakin mühərrik səmti müəyyənləşdirmə sisteminin detektoru zədələndiyindən işə düşmədi. Növbəti dövrəyə keçdik. Yer kürəsindən manual enmə prosedurunu istifadə etməyimiz məsləhət görüldü. Bunu ilk olaraq biz etdik. Enmə punktunu seçdik, lakin rabitə sahəsində olmadığımıza görə, bu haqda Yer kürəsinə məlumat verə bilmirdik. Enməmiz haqqında dörd saat ərzində xilasedici vertolyotun Şimali Uralda tayqada paraşüt görməsinə qədər heç bir məlumat yox idi. Skafandrımın ayaq hissələrində su - mənim tərim idi. Elə bilirdim ki, soyuqdan öləcəyəm. Skafandrları çıxarıb, alt paltarlarımızı sıxdıq. Yenidən geyindik. Çox şaxta idi, ona görə də enmə aparatından istilik saxlayan folqanı çıxarıb paraşütə büründük, beləliklə, üç soyuq gecəyə davam gətirə bildik. Sahə çətin idi, yardım üç gündən sonra gəlib çatmışdı. İsti geyim geyinəndən sonra isti yemək yedik və bir stəkan konyak içdik. Sevinc və həyat nəşəsi yenidən qayıtdı".

Öz səmimi hekayəsi ilə Leonov yaşadığımız stresə görə bizi mükafatlandırmaq istəyirdi. Təkrar edirdi: "Diqqətli olun, Kosmosa aparan yol asan deyil. Rəqibləriniz də var. Məndən yardım istəyə biləcəyinizi yadınızda saxlayın". Bu, düzgün sözlər idi. Bir ay sonra, noyabr ayının son on günündə həkimlər sağlamlığım və əhval-ruhiyyəmlə çox maraqlanmağa başladılar. Özümü çox yaxşı hiss edirdim, buna görə də əlavə müayinə təklifini təəccüblə qəbul etdim. Həkimlərimizdən əlavə, Moskvadakı Tibbi-Bioloji Problemlər İnstitutunun mütəxəssisləri də var idi. Müayinə uğurla bitdi, lakin hökm məni mat qoydu: "Miroslav, badamcıq vəzlərin şişib və irinləyib", – "yad" həkim dedi. O dəqiqə özümü ələ aldım: "Axı mən angina xəstəliyini keç vaxt keçirməmişəm, bircə dəfə qriplə xəstələnmişəm". "Narahat olma, baxarıq, nə isə edərik". – bitirdi. "Öz" həkimimizin yanına qaçdım. Artıq bu haqda məlumatı var idi. Məni dinləyib müayinə etmədi, əlavə etdi

ki, larinqoloq deyil, məni isə yüksək dərəcəli mütəxəssislər müayinə etmişdilər. Məndən narahat olmamağımı istədi. Başımla divara dəydiyimi başa düşdüm, lakin onu necə dağıdacağımı bilmirdim. Mübarizə aparacağıma qərar verdim. Səhər təlimi zamanı xüsusilə seçilməyə çalışdım. Simulyatorlardakı təlimlərimi dayandırmadım. Bir həftədən sonra məsələ sakitləşdi. Bir gün dekabr ayının ortalarında Pyotrla artıq bir neçə saat ərzində "Soyuz" simulyatorunda məşq edirdik. Məşqçi birdən mənim üçün xəbəri olduğunu dedi. Səsdən "himayəçilərimiz"-dən biri olduğunu başa düşdüm. O, katiblikdə xəstə olduğuma görə kənarlaşdırıldığımı düşünüb, məni məşqdə gördüyündən təəccübünü bildirdi və dərhal həkim otağına getməli olduğumu dedi.

Kabinetdə məni bir neçə həkim gözləyirdi. Məni təriflədilər. Yüksək hərbi rütbəli gəlmə həkim nəyə görə məhz mənim uçacağımı başa salırdı. Varşava belə istəyirdi, onlar isə bu istəyi tamamilə dəstəkləyirlər. Badamcıq vəzlərimin hazırda sağlam olduğu ilə razılaşdılar, lakin uçuşdan öncə necə olacağını bilmirdilər. Yeganə çıxış yolu əməliyyat idi. 2-3 aydan sonra uça biləcəyimə mənə söz verdilər. "Uzun müddətdir", – dedim. "Düzdür, lakin əmin olmalıyıq", – bildirdilər. Pambıq ayaqlarımla evə gəlib çatdım. Həyat yoldaşımla yardımı Varşavada axtarmağın lazım olduğuna qərar verdik. Professor Baranski təcili gəldi, özü ilə baş hərbi kardioloq professor Aleksandrovu da gətirmişdi. Onlar məni diqqətlə müayinə etdilər. Əlavə olaraq erqometrdəki yoxlanışı da uğurla keçdim. "Sənə görə rahatam. Nəticələr çox yaxşıdır", – professor dedi. Lakin nahardan və rusiyalı həkimlərlə söhbətdən sonra rəyini dəyişdi. "Mirek, gələcəyini fikirləşərək, onların variantını qəbul etməliyik". Qapı bağlandı. Razılaşmalı idim.

Evdə bayramlara hazırlaşırdıq. Milad bayramını həmişə olduğu kimi, təntənəli və ənənəvi şəkildə qeyd edirdik. Həb və 13 yemək növü, yaxındakı meşədən şam ağacı və hədiyyələr var idi. Kolyadkaları[61] oxuyurduq. O zaman növbətçi həkim gəlib dedi ki, səhər dərslərə getməyəcəyəm, çünki təcili yardım maşını ilə Moskvaya xəstəxanaya yollanacağam. Bayramların mənim üçün çox mühüm olduğunu və ailəmlə keçirtmək istədiyimi başa salmağa çalışdım. Lakin bayram- filan olmadığını, ailəmin isə yanıma gələ biləcəyini dedi.

Burdenko adına xəstəxana köhnə, məncə, XIX əsrdən qalan binalar kompleksidir. Boz və baxımsız idi – bu isə əhvalıma heç yaxşı təsir göstərmədi. Dörd gün ərzində xüsusilə detallı müayinələrdən keçirdim. 29 dekabr tarixində əməliyyat olunacağım qərara alındı. İsti və gözəl palatada, hələ müharibə zamanından Sovet İttifaqı Qəhrəmanı

---

[61] Kolyadka - milad bayramında oxunan mahnı

olan general Dmitri Koveşnikovla birgə “yaşayırdım”. Mənə müharibə haqqında, alman tanklarının əsgərləri torpağa basması, özünün az qala öləcəyi, bir neçə metr məsafəsində qumbaralarla hücumdan sonra dörd tankın partlaması və eşitmə qabiliyyətini itirməsi barədə danışırdı. Öz hekayəsinə zarafatlar da qatırdı. Ona qulaq asaraq, sabah haqqında fikirləşirdim. Onun tanklarla mübarizə apararkən qorxduğu kimi mən də qorxurdum.

Badamcıq əməliyyatını yaşlı kişi, müharibə iştirakçısı olan ordinator keçirirdi. Əməliyyatı apararkən əynindəki geyimində qəssaba oxşayırdı. Uzun, boz rezin önlük düz yerə kimi idi, əlləri qüvvətli, qara və tüklü idi. Başında papaq, gözlərində qalın mənfi linzalı eynək var idi. Artıq qaçmağa hazır idim, lakin o dedi: “Sənə nə olub? Qızlar sənə kosmonavt kimi baxırlar”. Assistentlik edən tibb bacılarının üzləri bağlı idi, yalnız gözləri görünürdü və and içə bilərəm ki, bu gözlərdə mənə qarşı gözlədiyim mərhəmət yox idi, yalnız gülümsəyirdilər. Məğlub edilmiş halda kürsüyə əyləşdim. İki qara gözlü və gözəl qaşlı qızlar əllərimi yavaşca bağladılar. Özümü elektrik stulundakı kimi hiss etdim. Gözlər gülümsəmirdilər, artıq qəhqəhə ilə gülürdülər: “Baxın, qəhrəman belə olar e”. Həkim yaxınlaşanda dondum. Mənə baxdı, ağzını açdı – mən də təkrarladım. Boğazıma borucuqları salmağa başladı, daha sonra isə yekə bir şpris, qayçı və kəlbətinə oxşar aləti. Özümü çox pis hiss etdim. Boğulurdum, onun isə önlüyü və eynəkləri qırmızı rəngə boyanırdı.

Yarım saatdan sonra badamcıq vəzlərim yanıma qoyulmuşdu. Həkim dedi: “Artıq buradadırlar. Birincisini yarım böldü, diqqətlə əvvəl ona, sonra da mənə baxdı, tələsik ikincisi ilə də eyni hərəkəti təkrarladı. Yenə mənə baxdı və elə bil şübhələnərək dedi: “Miroslav, düz demişsənmiş, xəstə deyillər”.

Gecə ağız suyunu udmaq istəyərkən ağrıdan oyandım. Yastığa dirənərək oturdum. Həyat yoldaşım səhəri gün məni bu mövqedə gördü. Yemək yeyə bilmirdim, ona görə də mənə gətirdiklərini digər xəstələrə verdi. Hətta çətinliklə danışırdım. Vəziyyətimdən narahat idi, lakin mənə elə gəldi ki, ondan çox dostum narahat idi. “Miroslav, tez sağal, çünki sabah Yeni ildir. Bu səbəbdən yaxşı konyak içməliyik”, – məni ürəkləndirirdi. 1977-ci ilin son günü, Yeni il gecəsində ilk dəfə uddum, bu, konyakın 25 qramı idi. Koveşnikov sevincindən bilmirdi nə etsin, mənsə ulamaq istəyirdim, sanki duzlu kvas içmişdim. Həkimlər və tibb bacıları yeni il arzularını deyirdilər. Xoş təskinlik sözləri və Kosmosa sağ-salamat uçmaq arzularını eşitdim. Koveşnikovun müharibə haqqında inanılmaz hekayətlərinə və himayəçim olan, vaxtilə isə cəbhədə işləyən tibb bacısının bir vedrədən yaralılara sıyığı necə yedizdirməsi barədə hekayələrinə qulaq asırdım. Onlar üçün sağlamlıq-

larını itirmələri və ya əlil olmaları deyil, müharibədə düşmənlə döyüşə davam etdirə bilməməkləri böyük bir problem idi. Qonaqlar yeni il axşamına gözəl mahnılar oxuya-oxuya davam edirdilər. Hətta qarmon da tapıldı. Bütün xəstəxana oxuyurdu. Daha sonra mənə həmin gecənin kosmonavtlar tərəfindən necə keçirildiyi haqqında danışmışdılar. Ənənəvi olaraq  ikinci və dördüncü bloklar arasında yeni il bayramı təşkil olunmuşdu. Rəqslər, kiçik konsert, zarafatlar, müsabiqələr və sağlıqlar var idi. Gecə yarısından sonra söz Leonova verildi. Sağlığın sonunda dedi: "Biz burda əylənirik, Miroslavsa aramızda yoxdur, bildiyiniz kimi, o xəstəxanadadır. Onun sağlığına içək, – və özünəməxsus məzə ilə əlavə etdi, – srağagün badamcıq  əməliyyatını keçirdi, o isə hələ övlad sahibi olmaq istəyirdi".

Yaralarım çox gec sağalırdı. Boş vaxtdan istifadə edib, nəsə öyrənmək istəyirdim. Kosmosda baş verənlər haqda xəbərlərə qulaq asırdım. 2 yanvar tarixində Yer kürəsinin tapşırığına əsasən, 10 dekabrdan "Salyut-6" stansiyasının göyərtəsində olan kosmonavtlar Romanenko və Qreçko orbitdə dəyişikliklər etdilər. Bu mənim üçün nəsə olacağı barədə siqnal idi. 10 yanvarda Canibekov və Makarovla birgə "Soyuz-27" start etdi. Qrupdakı yoldaşlarım Baykonurdakı startı müşahidə edirdilər. Mənsə ağ-qara televizorda izlədim. Öz həyatımı da həmin rənglərdə görürdüm. Xəstəxanaya yanıma gələn kosmonavtlar Leonov və Klimuk mənə ürək-dirək verirdilər. Həkimlər tezliklə sağalacağımı deyirdilər. Tezliklə, yəni 11 yanvarda. Sirr olaraq öyrəndim ki, əməliyyatdan öncə antibiotik verilmədiyinə görə orqanizmimdə iltihab var!

Xəstəxanadan çıxandan artıq iki gün sonra təlimlərə başladım. Çox böyük gecikməm var idi. Metodist və təlimatçım Yura Şmakov planı mənə təqdim etdi: günortaya kimi nəzəriyyə və idman, nahardan sonra isə gecə yarısına, hətta gecə birə qədər nəzəriyyə və məşqlər. Tezliklə normaya qayıtdım. Yorğunluq hiss etmirdim. Son imtahanlar artıq yaxınlaşırdılar. Yanvarın son günündə - məşq, yaxınlaşma, birləşmə (qəza vəziyyətləri ilə birgə) – Pyotrla imtahanı əla nəticə ilə veririk. Yorğun vəziyyətdə skafandrları çıxarandan sonra Mərkəzin baş həkimi gəldi. "Miroslav, qanın çox azalıb, xəstəxanaya getməliyik", – eşitdim. Qulaqlarıma inanmadım. "Getməyəcəyəm, artıq orada olmuşam", – qışqırdım. Sakitləşmək üçün bir ovuc həb aldım və onları içdim. Pyotrun evində nəyi var içdim. "Çox pisdir..." – Pyotr dedi, – nəsə burda başa düşmürəm... ya başa düşürəm", - əlavə etdi. Üç fevral tarixində böyük şərəfə layiq görülmüşdüm. Haradansa gələn professor Aleksandr M.-in iştirakı ilə erqometrdə detektorlarla yapışdırılmış vəziyyətdə sınaqdan keçirdim. Onun sifətindən hər şeyi bildiyi və heç vaxt səhv etmədiyi oxunurdu. Hava Qüvvələrinin baş terapevti və önlüklərinin



Bizim əlli metrlik daşıyıcı raketimiz (sxemi). Çox mürəkkəb idi, lakin bizi yarı yolda qoymayacağına əmin idik. Müəllifin arxivindən.



“Salyut-6” – bizim kosmik evimiz və laboratoriyamız. Onun göyərtəsində Yer kürəsinin 7 gününü keçirtdim, bu 112 kosmik gün və gecə deməkdir. Müəllifin arxivindən.



“Alovlu araba” – bizi orbitə aparan və ilk gecə bizə sığınacaq verən “Soyuz-30”. Bir dəfə olsun belə bizi pis vəziyyətdə buraxmamışdı, onun kapsulunda alovlu plazmanı keçdik və sağ-salamat Yer kürəsinə qayıtdıq. Müəllifin arxivindən.



Təyyarədən katapult ilə atılma məşqlərindən sonra. Soldan: müəllif, Pelçak, Yankovski, Remek, Yen, Köllner, Müəllifin arxivindən.



Həmin qrup "Miq-21"-də uçuşdan əvvəl təyyarənin göyərtəsində məşq zamanı. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.




Növbəti uçuş məşqinə başlamamışdan əvvəl fikirlərimi cəmləşdirdiyim an. Çkalov hava limanı, Ulduz şəhərciyinin ətrafı, 1977-ci ilin iyul ayı. Müəllifin arxivindən.




Simulyatorlar zalı. İlk planda “Soyuz” kosmik gəmisinin (şaquli vəziyyətdə) məşq simulyatoru görünür; uzaqda Salyut-6 orbital stansiyanın maketi üfüqi vəziyyətdə qoyulmuşdur. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



“Qafqazlar” yaxşı keçmiş məşqlərdən sonra. Kosmonavtların Təlim Mərkəzinin arxivindən




Planlaşdırılmamış ərazidə məcburi, yalançı enmədən sonra göldən "tutulanlar". Sağ qalma məşqlərindən biri. Ulduz şəhərciyinin ətrafı, 1977-ci ilin iyul ayı. Müəllifin arxivindən.



Skafandrın geyinilməsi mürəkkəb əməliyyatdır. Mənim yeni köməkçim – Miruş. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Sanki marşla addımlayarıq. Mireklər dərsə - ata Mərkəzə, oğul məktəbə, Emilkalar isə yazın görüşünə tələsirlər. Ulduz şəhərciyi, 1978-ci il. Müəllifin arxivindən.



Ulduz şəhərciyində, 1978-ci il. Müəllifin arxivindən.




"Soyuz-30"-un heyəti həyat yoldaşları ilə birlikdə Leonovlargildə kabab qonaqlığında. Soldan: həmişə zövqlə geyinmiş Svetlana – Alekseyin həyat yoldaşı, özü isə ovçu üslubunda. Lilia Klimuk, Müəllif və Emiliya, 1977-ci ilin yazı. Müəllifin arxivindən.



“Salyut” orbital stansiyasında “mühüm” nəzarət. Müəllifin arxivindən.




Atanın  və oğulun fəxri – “Soyuz” stimulyatorunun pillələrində. Müəllifin arxivindən.



Məşqlərdə qonaqlıq. Mütləq atalarımıza oxşamalıyıq. Soldan: sifəti böyük Mişa – Pyotrun oğlu, sağdan, daha hündür mənim oğlum Mirek. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Qubarev və Remek uçuşa hazırdırlar, 1978-ci il, fevral. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Bağların ən vacib bağlama mərasimi... hava limanı, oradan isə Kosmodrom yoluna. Məni yola salan kosmonavtlar: polkovnik Volınov, general Popoviç və Mərkəzin rəisi general Bereqovoy qayğı ilə Emilkanın ayaqqabısının bağı ilə necə bacaracağıma tamaşa edirlər. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.

altından qırmızı zolaqlı yaşıl şalvar görünən yeddi nəfər tanımadığım həkim də iştirak edirdilər. Şəhərcikdən olan həkimlər divar boyunca durub diqqətlə izləyirdilər. Tamaşaçım çoxdur – düşündüm. Var-gücümlə pedalları fırladırdım, nəbz və ürək döyüntüm norma daxilində olduğundan yükləməni artırırdılar. Əsl velosipeddə, yəqin ki, Gevonta[62] qədər çatardım. Beşinci dəfə dağ mərhələsini təyin etdilər. Tərdən gözlərim heç nə görmürdü. Müşahidəçilər arasında canlanma və sevinc hiss etdim. EKG-nin nəticələri olan kağız lentinə yaxınlaşdılar. Döşəmədə artıq onlarla metr kağız var idi. "Alındı", – eşitdim. Digəri əlavə etdi: "Azdır". İki tək-tək əlavə ürək spazması oldu. Təyin olunan yüklənmədə 12 tək-tək əlavə və üç seriyalı spazma ola bilər. Qüsursuz professor "xvatit" dedi, yəni kifayətdir. Qərar verildi. Həmin gün "mənim yaxşılığım üçün" yenidən xəstəxanaya göndərilmişdim, bu dəfə Sokoliniki rayonunda yerləşən aviasiya xəstəxanasına getdim. Səhər çexlər – Remek və Pelçakın son imtahanlara başladıqlarını öyrəndim. Müalicəm gündəlik müayinə və həblərin içilməsindən ibarət idi. Hər iki gündən bir qan analizi verirdim. Nəzəriyyə üzərində bir daha çalışmağa qərar verdim. Növbə ilə bir gündən bir təlimatçılar avtomobillə, həyat yoldaşım isə uşaqlarla qatarla gəlirdi. Yaxşı fiziki formada qalmaq istəyirdim. Çöl çox soyuq olduğundan, zalda saat yarım ərzində "qaçırdım". Bu da həkimlərin gözündən yayınmadı. Yanıma iti baxışı, dağınıq saçları və dəri çantası olan olduqca qəribə bir şəxs gəldi. Özünü elə təqdim etdi ki, heç nə başa düşmədim. Otağa, vanna otağına, pəncərələrə baxdı, qeydlərini oxuyandan sonra burada nə etdiyimi soruşdu. "Oxuyuram", – dedim. "Bəs nəyə görə burada?" – soruşdu. "Bilmirəm", – yenə sakit cavab verdim. Sərt baxdı və yuxularımın necə olmasını, ilanlar və ya hoppanan meymunları görüb-görmədiyimi soruşdu. Təəccüblə görmədiyimi dedim. Yarasa gördüyümü dedim. "Harada?" - soruşdu. "Sizin pırtlaşıq başınızda", – dedim. Barmağımla qapıya göstərdim ki, buradan çıxıb getsin, daha doğrusu, rədd olsun. Leonova zəng etdim. Həyat yoldaşım və uşaqlarla gəldi. Xəstəxana rəhbərliyi tərəfindən heç kimin gəlməsinə tapşırıq verilmədiyini dedi. "Sabahdan başqa cür oxuyacaqsan", – dedi. Səhəri gün pijamada iki təlimatçını gördüm. "Nə olub?" – soruşdum. "Zalda səninlə birgə xəstə olacağıq", – gülərək dedilər. Hər gün səhər həkim müayinəsindən sonra axşam saatlarına qədər sxem, kitablarla kosmik nəzəriyyəni oxuyurduq. Axşam oxumağa davam edirdim, müəllimlərimsə dincəlməyə gedirdilər. Səhər nəticələri hiss edirdim. Soğan, sarımsaq və yenə nəyinsə qoxusu hiss edilirdi. Klimuk tez-tez gəlirdi və bizimlə birgə oxuyur-

[62] Gevont – Qərbi Tatralarda dağ massivi (Polşa)

du. Bilikləri uğurla qəbul edirdim, lakin qanım çoxalmırdı. İki gündən bir analiz verirdim. Tanış laborant xanım sirr olaraq telefon vasitəsilə mənə cavabları dedi. Qanımın daha da azalmasını gördük. Müayinə zamanı həkim ikiqat arzu olunmayan doza verdi. Səhv etdiyini fikirləşirdim. Növbəti üç müayinə zamanı eyni şey təkrarlandı. Ürəyimə pis fikirlər gəldi. Əsəblərim sakit olmalı idi, ya da ümumiyyətlə, olmamalı idi. Bunlara dözdüyümə özüm də təəccüblənirdim.

13 fevralda xəbər aldım – Klimuk UİM-da idi (Uçuşu İdarəetmə Mərkəzi) və "Salyut"un ekipajı ilə danışmışdı. Qreçko taleyimdən çox narahat idi, salamlar göndərirdi. Əhvalım günü-gündən yaxşılaşırdı, nikbinliyim geri qayıdırdı, həkimlər isə hər şeyin yaxşı getdiyini deyirdilər. Sakit halda xüsusi həkim komissiyasının qarşısına çıxdım. Otaq həkimlərlə dolu idi. Mərkəzi yerdə "qüsursuz" professor M. əyləşmişdi. Məni zalın mərkəzində kətildə əyləşdirdilər. Özümü istintaqda hiss etdim. Girişsiz professor mənə müraciət etdi: "Nəhayət ki, sona gəlib çatdıq". Nəhayət ki, sevindim. "Sizin üçün pis xəbərim var", – bir dəqiqədən sonra eşitdim. Professor davam edirdi: "Siz kosmonavt, təyyarəçi kimi deyil, insan kimi xəstəsiniz". Dondum. Elə bildim ki, yuxudayam. "Başa düşmədim, nəyə görə?" – dedim. Cavab olaraq eşitdim: "Anadangəlmə ürək qüsurunuz var, klapanlar axıra kimi bağlanmır". "Ürəklə heç bir problemim olmayıb", – özümü müdafiə etməyə çalışırdım. "Səsdən sürətli təyyarə pilotuyam", - əlavə etdim və hansı müayinənin bu fikri təsdiqləyə biləcəyini soruşdum. Professor imtina etdi: "Bu xəstəlik sizdə çoxdan var, EKG etmək kifayətdir ki, sizi inandıraq". "Axı bir neçə gün bundan öncə bu müayinədən keçmişdim, nəticə yaxşı idi, hətta surəti də məndə qalıb", – dedim. "Qüsursuz" qızardı və az qala qışqırdı: "Kim etmişdi?" Həmin an yaxınlıqda əyləşən həkim-poruçik səs-küylə sənədlərim olan qovluğa baxmağa başladı, sonra isə sevinərək dedi: "Yoldaş professor, buradadır, nəticələr yaxşıdır". "Sizdən kim soruşurdu?" – professor çığırdı. Fasilə elan olundu. Həkimlərdən biri yanımdan keçərək çiynimdən çimdiklədi və dedi: "Afərin!" Fasilədən sonra professor səs tonunu dəyişdirdi.

Həkim-poruçik də yox idi. Ürək haqqında deyil, artıq orqanizm barədə danışırdılar. Bir az gözləməlisən. Şans var. Təskinlik üçün mənə yeni vitaminlər yazdılar – onları gündə üç dəfə qəbul etməli idim. Komissiyanın iclasından sonra general Bereqovoy və Klimuk gəldilər, bir neçə quru balıq və bir şüşə konyak gətirmişdilər. "Sənin sağlığına Miroslav, – Bereqovoy təklif etdi, – iç, sabah müayinən olmayacaq, kitablardan da dincəl. Bilirəm ki, biliklərin çoxdur, lakin çox arıqlamısan". İçdik. Çexlərin kosmodroma yola düşdükləri haqqında məlumat alandan sonra təkrarən içdik. Onlar gedəsi oldular!

Növbəti günlər daha sakit idi. Nəticələrin əvvəlki səviyyədə olmasına baxmayaraq, işlərin yaxşı istiqamətdə getdiyi haqqında danışırdılar. Guya orqanizmimin yaxşı olduğunu mənə başa salırdılar. Məsələn, çilli insanların gözəl olmadığı, lakin dəyərli olduğunu mənə sadəlövhlüklə anladırdılar.

Fevralın sonunda gözlənilmədən ilk dəfə yanıma xəstəxananın rəisi gəldi və dedi: "Yanına çoxsaylı qonaqların, həyat yoldaşının uşaqlarla gəldiyini bilirəm. Gəl bu kiçik otağı böyüyü ilə əvəz edək". Bunu birigün, yəni 23 fevralda – Sovet Ordusu Bayramında daha çox qonağım olacağı ilə əsaslandırdı. Yeni otaq xüsusi xəstələr üçün nəzərdə tutulmuşdu. Gözəl mebellə və xəstəyə lazım olan hər şey, yəni iki televizor, soyuducu, içində müxtəlif ölçüdə büllur qədəhlər olan bufetlə təchiz edilmiş üç otaqdan ibarət idi. General Yaruzelskinin qonaq gələcəyi haqqında eşidəndə qorxdum. Onun kimi asketin mənim belə şəraitdə xəstə olduğumu görsə, nə fikirləşəcəyini ancaq güman edə bilirdim. Əvvəlki yerə qayıtmağımı istəyirdim, lakin otaq artıq məşğul idi. Tibb bacılarından qədəhlər olan bufeti bağlamaq üçün mələfə istədim, bir neçə xəstəxana avadanlığı qoyduq.

Gərginliklə xüsusi qonağımı gözləyirdim. Onunla birgə Polyak Ordusunun Baş Qərargahının rəhbəri, Baş Siyasi İdarənin Rəhbəri və dörd nəfər general, həmçinin rusiyalı həkim, generallar dəstəsi və Kosmonavtların Təlimi Mərkəzinin direktoru gəlmişdilər. General sərt sima ilə mütəxəssislərin rəylərinə qulaq asırdı, bir saatdan sonra dedi: "Nə vaxt çıxacaq?" Cavab gəldi ki, gələn həftə. Rahat nəfəs aldım.

"Bu gün Miroslavı yeməyə dəvət edə bilərəm?" – general iclası bu sualla bitirdi. "Bəli", – sədr cavab verdi. Otaq boşalandan sonra Pyotrla qucaqlaşdıq və "Volqa"sı ilə şəhərciyə yollandıq. Nazirin qarşısına xəstəxana geyimində çıxmaq yaxşı deyil. Evə gəlməyim həyat yoldaşım və uşaqlar üçün sürpriz idi. Klimukla birgə generalın Lenin təpəsində yerləşən bağ evinə getdik. Xəstəxanaya düşəndən görmədiyim Yankovski də artıq orda idi. Məhz elm və məşqlərlə məşğul olduğu haqqında danışırdı. General hazırlıqlarla maraqlanırdı, Klimukun mənə və ailəmə göstərdiyi yardıma görə təşəkkür etdi. Son həftələrin problemlərini unutmağımı mənə məsləhət gördü. Onun bura gəldiyi və dediyi sözlərə görə minnətdar idim. Nahardan sonra şəhərciyə qayıtdıq, orada həyat yoldaşlarımız şam süfrəsi arxasında bizi gözləyirdilər. Hamımız bir az rahatlaşdıq. Axşam Pyotr məni xəstəxanaya apardı, amma artıq sürücü ilə. Hələ bir neçə gün ərzində "xəstə" olmalı idim.

Çex Remekin kosmosa startını xəstəxana apartamentimdə kosmonavt Pavel Popoviçin həyat yoldaşı, tanınmış pilot, dəfələrlə dün-

ya rekordçusu - Marina Popoviç və məşhur sınaqçı-təyyarəçi, qorxu bilməyən, tanınmış aviakonstruktorun oğlu - general İlyuşinlə birgə izləyirdim. Marina mənimlə eyni gündə hava qüvvələrində artıq xidmət edə bilməyəcəyini öyrənmişdi. Yanıma ağlamaq üçün gəlirdi, öz bioqrafiyasının bir cildini mənə hədiyyə etdi. Bu gün yaxşı konyakla gəldi, çünki indi onun üçün yaxşı qərar qəbul edilmişdi. Bu xüsusi yoldaşlıqda gecəyə qədər "uçurduq". Qubarev və Remekin gəmisinin birləşməsini artıq yoldaşlarla Ulduz şəhərciyində izləyirdim. Hadisələrin inkişafını qabaqcadan deyim – Marina növbəti illərdə, deyəsən, dünya üzrə on iki uçuş rekordunu vurdu, mən kosmosa uçdum, professor M. isə tibbi avtoritet olaraq xidmətlərinə görə pensiyaya çıxdı.

Yenidən transa düşdük: oxuyuruq, məşq edirik, azad günlərdən imtina edirik. Şənbə və bazar günləri təlimatçılar, müəllimlər və bütün məşq bazası bizim xidmətimizdə idilər. Heç kəs şikayət etmirdi, öz biliklərini bizə ötürə bildiklərinə görə sevinirdilər. Ab-hava çox gözəl idi. Səmti müəyyənləşdirmə və dinamik proseslərin idarə olunması sisteminin problemlərini təkmilləşdirirdik. Biliklərimizi simulyatorlarda bərkidirdik. Günümüz çox gec bitirdi. Evə başımız dik qayıdırdıq. Pyotr mənə bürclər haqqında suallar verirdi. Evə gəlib çatana qədər növbəti gündə həll edəcəyimiz altı, bəzən isə səkkiz problem haqqında sual verirdi. Xəstəxanada olmağım biliklərə dair əsaslarımın daha da çoxalmasına səbəb oldu.

8 mart tarixində tempi azaltdıq. Səhər gizli olaraq həyat yoldaşlarımıza əvvəlcədən sifariş etdiyimiz güllər və hədiyyələr üçün Moskvaya yollandıq. Həmin gün Rusiyada İnqilab Günü və ya Qələbə Günü ilə müqayisə oluna bilər. Dükanlar və küçələrdə əllərində gül və hədiyyə olan kişi dəstəsi var idi. Gözəl geyimli, gülümsəyən qadınlarsa əllərindəki gülləri – daha çox "polyak qərənfili" olurdu - bayraq kimi tuturdular. Xanımlarımız nəzakətli hərəkətimizdən çox razı idilər. Şam yeməyi əsl rus üslubunda idi. Masada kürü, fəsəli, ənənəvi olaraq çox dadlı pelmenlər, zapekanka, həyat yoldaşımın hazırladığı polyak sırniki[63] və tort, həmçinin çox-çox dadlı şampan var idi. Qadınların bayramından sonra müvazinət sistemi üçün nəzərdə tutulan məşqlərdən boyun qaçırırdıq. Növbəti günlər çox işgüzar keçdi. 10 mart günündə gecə məşqlərdən qayıdarkən, Qubarevun həyat yoldaşının yanına getdik ki, rus-çex missiyasının bitməsi münasibəti ilə onu təbrik edək. Qonaqlar evə güclə sığışırdı. Qonaqlıqda bir az çox qaldıq. Remek subay idi, ona görə də Volodyanın sağlığına onun komandirinin evində içirdik.

Pasxa (26 mart) bizi gözəl, qış geyimi ilə qarşıladı. Günortaya qə-

[63] Sırnik - kəsmik və pendirdən hazırlanan şirniyyat

dər skafandrda müstəqil olaraq məşq edirdim. Simulyatordan it kimi yorğun çıxdım, tərli idim, elə bil doğrudan da indicə göydən endim. Təlimatçılar qəza enməsi zamanı gözlənilməz hadisələr istəmirdilər.

Həkim müayinələri formallıq idi. Qanazlığım normasına döndü. Polyak qəzetləri, uçuşun iyun ayında gözlənildiyi barədə yazırdılar. Son imtahanlardan öncə aşağı təzyiq kamerası, 5000 m oksigensiz və 12 000 v maskada – yalnız formallıq. Şəhərcikdə jurnalistlərin sayı getdikcə artırdı. Təlimlər zamanı reportajlar hazırlayırdılar, ailələrlə də söhbət edirdilər. Yekun imtahanlarından öncə formanı tər- təmiz etdik. Ekipajımız dörd ekipaj arasında: Kubasov Yankovski ilə, Bıkovski Yen ilə və Qorbatko Kölner ilə - kompleks təlim üzrə ən yaxşı qiymətləri aldı. Bu tərkibdə Moskva yaxınlığında olan, kosmik gəmilər və orbital stansiyaların yarandığı yeri - Podlipkidəki Energiya EİB-ni (Elmi İstehsalat Birliyi) ziyarət etdik. Baş konstruktor Valentin Qluşko tərəfindən qarşılandıq. O, hündürboy, arıq, olduqca mülayim, saçı ağarmış kişi idi. Bizi salamladı, hər birimizin nailiyyətlərini qiymətləndirdi və məni təəccübləndirərək dedi: "Düzünü desəm, Miroslavın çox müsbət rəyləri var, yaxşı məşq edir, lakin uzun zamandır xəstəxanada olmasını nəzərə alsaq, onu yekun imtahana buraxmağın heç bir mənası yoxdur". Elə bildim ki, yuxudayam, lakin "Orionlar"ın simalarında gülüşü görəndə başa düşdüm ki, bu, reallıqdır. Əzablarımın xəstəxanada bitəcəyini fikirləşirdim, lakin gələcək mənə göstərirdi ki, bu gün baş verən epizod səmaya aparan nərdivanın son pilləsinin olmayacağını göstərməli idi.

Yekun imtahanlar xarakterik təntənə ilə keçirilirdi. Komissiya onlarla hərbi və mülki mütəxəssisdən ibarət idi. Komissiyanın sədri baş konstruktorun müavini idi. Şəhərcikdə olan Mərkəzin hərbçiləri və "Energiya" şirkətinin mülkiləri arasında qeyri-sağlam rəqabət ab-havasını hiss edirdim. Narahat vəziyyətdə komissiyanın qarşısına çıxdım, lakin fənlər üzrə suallara problemsiz cavab verirdim. İkinci gün ən çətin mövzu blokunu verirdik. Burada kosmik gəminin idarə olunması, səmtin müəyyənləşdirilməsi və orbital stansiya ilə birləşməyə dair suallar var idi. Əvvələr olduğu kimi, imtahan biletini təsadüfi olaraq seçdim. Üç çox çətin sual var idi. Xəstəxanada olduğum müddətdə əldə etdiyim biliklər yerinə düşdü. Dolğun cavab verdim. O zaman həmin fənni deyən – gözəl insan, lakin hər zaman əsəbi olan müəllim dedi: "Cavab çox yaxşıdır, heç bir etirazım yoxdur, lakin xəstəxanada olduğuna görə, bu cavabı ilkin olaraq qəbul edəcəyəm". Bu qeydə görə komissiyanın hərbi hissəsi narazılıq bildirdi. Komissiyanın sədri heç bir cavab vermədi. Əlavə olaraq qırx iki suala cavab verdim. Hər sual məni məğlub etməli idi. 5 minus qiymətini aldım, lakin qalan 28 fəndən həmin qiyməti minus işarəsiz aldım.

Baş konstruktor Qluşko ilə növbəti dəfə görüşən zaman, qiymətlərimə baxarkən bu fakta belə rəy bildirdi: "Miroslavın bütün qiymətləri eynidir, buna baxmaq belə xoş deyil. Yaxşı qiymətlərin olması kifayət eləmir, yaxşı kosmonavt olmaq lazımdır". Leonov məni müdafiə edərək buna reaksiya göstərdi. Daha sonra bildim ki, belə xoşa gəlməyən "kompliment"ə görə baş konstruktor "vıqovor" (töhmət) alıb.

Kosmodroma aparan yol artıq açıq idi.

# FİNİŞ – GERİYƏ SAYIM BAŞLADI

27 aprel tarixidir, artıq dörd saatdır ki, Pyotrla "Soyuz TDK/2S" simulyatorundayıq. Fasilələrdə göyərtədə olan mətbəxə gedirik. İştahamız pisdir, buna görə də zəifləmişik. Skafandr tərdən bədənimizə yapışır. Gözlənilmədən məşqçi təlimin bitməsi haqqında məlumat verdi. Pis şeylərin olacağını hiss edirik. Bizi tələsdirirlər. Dərhal qonşuluqda yerləşən didaktik binaya getməliyik. Tələsik yuyunduq, formaları yolda düymələyirdik. İstirahət otağına çatdıq, orada isə çexlərlə vidalaşma mərasimi keçirilirdi. Özünəməxsus zarafatcıllıqla general Leonov əlində şampan qədəhi yoldaş Remek və Pelçak üçün sağlıq deyirdi. Otaq ağzına qədər dolu idi. Gələn qonaqlar arasında kosmonavtlar Volınov, Qubarev, Qlazkov, Zudov, Lazarev, Xryunov, Nikolayev, Popoviç və kosmonavtlar şöbəsindən rusiyalı namizədlər var idi. Kuba, Bolqarıstan, Monqolustan, Macarıstan və Rumıniyadan yeni namizədlər də var idi. Toplananların simasından bunun onların ilk sağlığı olmadığı oxunurdu. Gərgin məşqdən sonra sağlığın məzmunu deyil, soyuq şampanın dadı yadda qalır. Volodya Remek təşəkkür edərək sağlıq dedi, şampan mənim və digər kosmonavtların sağlıqları üçün kifayət idi.

Çexlər fəxr hissi ilə aldıqları hədiyyələri göstərirdilər – sovet kosmonavtlarından üzərində yazı olan gözəl ov tüfəngləri.

Gözlənilmədən Leonov bildirdi: "Mirek, Pyotr – düz iki aydan sonra, yəni 27 iyunda siz uçursunuz". Mat qaldım və çox sevindim. Növbəti sağlıq bizə həsr edilmişdi. Şampan daha gözəl dadırdı. Həmin günü artıq məşq etmədik.

Planlaşdırılan uçuş haqqında məlumat həyat yoldaşımı sevindirmədi. Neçə vaxtdır ki, özünü pis hiss edirdi. Həkimlər diaqnoz qoya bilməmişdilər. Daha sonra ürək deyil, öd daşları və stresin ağrılara səbəb olmasını öyrəndik. Leonov məhz bu səbəb barədə çoxdan düşünürdü. Onun gözəl həyat yoldaşı Svetlana Miliya kömək etmək istəyirdi. Leonovlar ailəsi bizi qonaq çağırırdılar, meşədə "kabab" təşkil edirdilər, eyni hərəkəti Lilya – Klimukun həyat yoldaşı da edirdi. Onların yardımı ən yaxşı dərman idi.

May ayında jurnalistlərin hücumuna məruz qaldıq. Burada yeganə polyak olmadığımı deməyim məni xilas etmədi. “Kiminlə işləmək lazım olduğunu bilirik”, – deyirdilər. Növbəti günlərdə təlimlər çoxalırdı. Bir neçə günlük profilaktoriyə göndərilmişdik və ailələrimizdən ayrılmışdıq. Üç gün və üç gecə xüsusi müayinələr keçirilirdi. Cərrah onurğa sütunuma baxarkən narahat idi, onurğa köklərinin iltihabı olduğunu düşünürdü. Larinqoloq mənə əziyyət verirdi, üç dəfə 15 dəqiqə olmaqla fırlanan kürsüdə seans keçirdi, müvazinət sisteminin Koriolis qüvvəsinə qarşı müqavimətini yoxlayırdı. Xoşbəxtlikdən sınaqdan çox yaxşı çıxdım. Xilov yelləncəyində fırlanan kürsünü yerləşdirdikdən sonra əlavə, otuz dəqiqəlik sınaqdan da keçdim. Orada yellənərkən və fırlanarkən həyatıma nifrət etməyim üçün məndən başımı əyməmi və sağa-sola baxmağımı xahiş etdilər. Dəhşətli idi. Bir neçə dəfə qaz mübadiləsi sınağını keçirdim – 60 dəqiqə ərzində böyük torbayla nəfəs alırdım – saat 23:00, sonradan isə səhər 5 və 11-də. Sonda aparata görə bacarmadığımı dedilər. Yükləmə sentrifuqasında iki dəfə yükləmə ilə mübarizə aparırdım. Sınaqları xüsusən bu məqsəd üçün Varşavadan gələn polkovnik həkim Stanislav Baranski müşahidə edirdi. Nahardan sonra uzun gözləmə vaxtı idi, Hava Qüvvələrinin Baş həkimi general Rudnı başda olmaqla, komissiya müzakirələr aparırdı. Bizi növbəyə düzdülər. Kubasov qalib sifəti ilə çıxdı. Klimuk gülümsəyərək qayıtdı. Sağlamlığımla bağlı komissiyanın heç bir şübhəsi yox idi. Növbəti çətin mərhələni keçdik. Günü Pyotrun evində gözəl və uzun şam yeməyi ilə bitirdik.

Simulyatorlarda məşqlərin metodikasını tamamilə dəyişdilər. Hər dəfə yeni qəza vəziyyətlərini təşkil edirdilər. Təlimatçı və məşqçinin rəyləri daha da çoxalırdı. Əməkdaşlıq etmək bacarığımıza fikir verirdilər. Bizi bu vaxta qədər olduğu kimi, fərdi qiymətləndirmirdilər, artıq ekipaj olmalı idik. Operativ əməliyyat çərçivəsində qarşılıqlı nəzarət metodikasından istifadə etməyimizi tələb edirdilər. Bunu artıq çoxsaylı kosmik missiyaların təsdiq etdiyi təhlükəsizliyi artırmaq üçün edirdilər. Bununla heç bir problemimiz yox idi. Bir-birimizi sözsüz başa düşürdük. Bir jest cümlələrdən daha çox məna kəsb edirdi.

Bir gün kompleks məşq zamanı işıqlar söndü və mexanizmlər işləmədi. Göyərtənin içində qalmışdıq və lyuku açmaqları üçün divarlara vurmağa başladıq. O zaman məşqçi bizi sakitləşdirdi: “Özünüzü normal uçuş vaxtı kimi aparın”. Bir-birimizə baxdıq. Fənəri götürdüm və “Qəza vəziyyətləri” kitabını vərəqlədim. Bü-

tün elektrik cihazlarını söndürdük. Qəza elektrik mənbəyinə keçməyə cəhd göstərdik. Hərəkətlərimizi azaltdıq ki, oksigendən çox istifadə etməyək. Manual olaraq hava sistemindəki kondensatı çəkdik. Belə vəziyyətdə neçə vaxt qala biləcəyimizi hesablamağa başladım. "Yaşamağımıza" bir neçə saat qalıb. Orbital hissəyə aparan keçid lyukunu oradakı havadan istifadə etmək məqsədi ilə açmağı planlaşdırırdıq. Son ehtiyat skafandrları gəmidə germetikləşmənin boşalma vəziyyəti üçün nəzərdə tutulan və Yer Kürəsinə qayıdışa imkan yaradan azot-oksigen qarışığı idi.

Qısa müddətdən sona işıqlar yandı – məşqi çox çətin vəziyyətdə davam etdirdik. Gəmini canlandırmalı idik, bütün yarımçıq qalmış prosedurları yenidən həyata keçirməliydik. Rabitə sahəsinə daxil olandan sonra Pyotr mövcud vəziyyət, hərəkətlərimiz və icra olunacaqlar barəsində məlumat verdi. Düzgün işləyirdik. Əlavə balları əldə etdik.

Bu çox mühüm səkkizsaatlıq yorucu məşq idi. Əvvəlki təəssüratlar azmış kimi, məşq haqqında müzakirə apardıqdan sonra məxfi laboratoriyada xoş qonaqlar gördük - həyat yoldaşlarımız və uşaqlarımızı. Oğullarımız Mişa və Mirek, dərhal bizim hələ isti olan kürsülərimizə əyləşdilər, orbital hissədəsə yeməyə başladığımız naharımızı yedilər. Həyat yoldaşlarımız qızım Emiliya ilə kosmonavtlar deyil, modellər kimi şəkil çəkdirirdilər. Sevinc və emosiyalar aşıb-daşırdı. Bu xoş görüşdən sonra kosmik ailələrin gözəl şəkilləri yadigar qaldı. Müvafiq xidmətlər bu görüşün günahkarını axtarırdılar, çəkdirdiyimiz şəkilləri əldə etmək istəyirdilər, lakin məğlub oldular. Bizdən sonra gələnlərə həmin yerdə ailələri ilə şəkil çəkdirməyə icazə verilməyib.

Son günlərin əməyi nəticəsində Pyotr soyuqladı. Səhər səsi xırıltılı idi. Həkimlər 39 dərəcə qızdırması olduğunu dedilər. Növbəti günlərdə kosmik gəminin komandir olmadan (məhz belə!) Yer Kürəsinə qayıdışına dair müxtəlif qəza vəziyyətlərini təkcə məşq edirdim.

12 iyun tarixində təlimatdan sonra bizimlə böyük təntənə ilə sağollaşırdılar. Kosmonavtlar və ailələrimizin müşayiəti ilə Çkalovskaya hava limanına yollandıq. Üzümüzdən məmnuniyyət, bizi yola salan həyat yoldaşlarımızda qayğı və kədər, uşaqlarımızda isə maraq hissi oxunurdu. Üçyaşlı Milyam diqqət mərkəzində idi. İlk olaraq Leonovun qollarındaydı, sonra isə kosmonavtlar Bereqovoy, Volınov, Sevastyanov və Şatalovun qucağına keçdi. Şatalov ağ yasəmən budağını qırıb ona verdi. Qızım isə gülü

anasına ötürdü. Oğlum Mirek Mişa ilə nəyisə müzakirə edirdi. Danışılası vacib məsələləri var idi. Zarafat edir, gülürdülər. Hava çox gözəl idi. Hava limanı meydançasında iki sərnişin təyyarəsi gözləyirdi: TU-134 və TU-104. Ailəmlə vidalaşmam çətin idi, üç həftəlik ayrılırdıq, göz yaşlarsız keçinmədik. Ən çətin günlərimdə həyat yoldaşımın dəstəyi mənə lazım olacaqdır. Hər gün zəng etməyə söz verirəm.

Pyotrla birinci təyyarədə yerimizi tutduq. Dublyorlar ikinci təyyarədə arxamızla uçurdular. Uçuş uzun idi – dörd saatdan çox çəkdi. Buna görə də Şəhərcikdə keçdiyim yol haqqında fikirləşməyə fürsətim var idi. Çətin, lakin çox maraqlı yol idi. Buludların arasından bitməyən şəhər, meşə, çay və göllərə baxırdım. Pilot kabinəsi üçün darıxdığımı hiss etdim. Bir neçə dəqiqə ərzində təyyarəni idarə etməyimə icazə verdilər. Vaxt keçdikcə mənzərə və hava da dəyişirdi. Fırtına və müxtəlif növlü buludların üzərindən uçurduq. Volqa çayı Tolyatti, Samara və Novokuybışevsk ərazisində ildırım işığında çox gözəl görünürdü. Aşağıdakı ərazi daha müxtəlif formalar alırdı. Uzaqda Ural dağları və eyni adlı çay parlayırdı, üstündən isə Orenburq görünürdü. Orsk üzərində olarkən pilot təyyarəni cənuba döndərdi. Asiya üzərində idik. Şəhər və yollar gözdən itdi. Yalnız sadə təsərrüfat binaları olan xutorlar görünürdü. Hörümçək toruna bənzəyirdi bu xutorlar. İllüminatorda sahili qurumuş səhra olan Aral gölü görünürdü. Şərqdən nazik axınla Sırdərya çayı gölə tökülürdü. Səfərimizin məqsədi olan və Yer Kürəsinin ən məxfi yerlərindən biri – məşhur Baykonur kosmodromu məhz onun üzərində yerləşir.

# BAŞQA DÜNYAYA APARAN DƏHLİZ

Baykonur və onun ətrafındakı şəhərcik əvvəllər Zorya qəsəbəsi idi, sonra isə Ulduz şəhərciyi, illər keçdikdən sonra Leninsk kimi tanınmışdı. Həmin şəhər qazax kəndi Türa-Tamın yanında çayın sağ tərəfində yerləşirdi. Ondan şimalda, 7 min km məsafədə yaşayış olmayan boş çöllükdür. Həmin məkan təhlükəsizlik və konspirasiya baxımından əlverişli idi. Xəritələrdə bu obyekti axtarmaq mənasızdı. Sadəlövh inam var idi ki, yer sirr olaraq saxlanılacaq və buna görə həqiqi obyektdən şimala, üç yüz kilometrdən uzaq məsafədə, çöllükdə, nə maşın yolu, nə də dəmir yolu olmayan yerdə Baykonur adlı nöqtə qeyd edildi. 1955-ci ildə nəhəng layihəyə start verildi, qəsəbə və kosmodromun inşası başladı. Əvvəllər ordunun gücündən istifadə edildi. Tikintidə 25 min adam iştirak edirdi. Çox sərt yaşayış və iqlim şəraitində. İnsanlar çadır və qazmalarda yaşayırdılar, barakda yaşamaq komfort sayılırdı. Yayda hava quru və dəhşətli dərəcədə isti idi, qışda isə qar, çovğunlu soyuqlar və şiddətli küləklər... Həmin şəraitdə mümkün olmayan şeylər yaradılırdı. Avtomobil yolu, dəmir yolu, enerji, istilik, rabitə, su ilə təchizat, hava limanı və s. kimi infrastrukturlar planlaşdırılımış və tikilmişdi. Adamsız çöllükdə yeni sakinlər, mühəndislər, mütəxəssislər və onların ailələri yaşamağa başladı. Məktəb, bağça, xəstəxanalar tikildi. Bir sözlə - çollük yeni, müntəzəm start götürən raketlərin gürültusu ilə ölçülən ritmlə yaşamağa başladı.

Kosmodromun (yəni raket meydanının) görünməmiş tikilmə tempi Kosmosa olan sevgidən irəli gəlmirdi. Ona malik olma zərurəti soyuq müharibə zamanı silahlanma yarışmasının nəticəsi idi. Güclü, uzağa uçan raket siyasətçilər üçün çox böyük əhəmiyyət daşıyırdı. Müxtəlif tipli raketlər üçün işəsalma sistemlərindən əlavə, rabitə qovşaqları, ölçü-müşahidə məntəqələri, texniki xidmət kompleksləri də yaranırdı. Eləcə də həmin gizli sektorda xüsusi məxfiliklə gələcək nüvə enerji ehtiyatlı strateji raketlər üçün bunkerlər tikilirdi.

SSRİ-də maye raket yanacağı ilə işləyən ballistik raketlərin ilk sınaqları kosmodromun tikilişindən lap əvvəl, artıq 1948-ci ildə alman

texnikinin fikrinə və əldə edilmiş V-2 (Verner fon Braun) raketinə əsaslanaraq aparılıb. Raket R-1 adlandırılırdı. 1949-cü ildə modifikasiya edilmiş raket 110 km yüksəkliyə çata bildi. Həmin raketlə elmi cihazlardan başqa, itlər və digər canlı məxluqlar kosmosa göndərilib. Bir il sonra təkmilləşdirilmiş R-1 raketi konstruksiya edilib və o, 1.5 ton çəkisi olan başlığı 590 km yüksəklikdə olan məqsəd nöqtəsinə aparıb. R-1 və həmin raketlərin startı müvəqqəti poliqonlarda keçirilib.

İlk strateji təyinatlı ballistik və qitələrarası raket ikimərhələli 280 tonluq R-7 idi – bütövlükdə sovet konstruktorları tərəfindən layihələndirilib. Və məhz bu raket daimi xüsusi infrastrukturu olan böyük poliqonun tikintisinin səbəbkarı olub.

Həmin raketin ilk startı 1957-ci ilin may ayında baş verib, lakin ondan əvvəl, hələ 1956-cı ildə baş konstruktor Sergey Korolyov Yer kürəsinin süni peykinin (SzSz) layihə işlərinə başlayıb. 4 oktyabr 1957-ci ildə dünyaya sensasiyalı məlumat yayıldı ki, Sovet İttifaqı Yer kürəsinin SzSz – “Sputnik-1” adlı süni peykini səmaya buraxdı, bir ay sonra isə, kosmosa Layka adlı it göndərildi. Həmin uğurun müəllifi bütün heyətli missiyaların birgə müəllifi olan məşhur “yeddi” idi. 4 oktyabr 1957-ci ildən bəri Baykonur poliqonuna – Baykonur Kosmodromu deyilir.

Sovet kosmonavtikasının uğuru kosmodromla assosiasiya edildiyinə görə, həmin təsviri möhkəmləndirməyə çalışırdılar. İctimaiyyətə ancaq müsbət hadisələr haqqında məlumat verilirdi, uğursuzluqlar haqqında danışılmırdı. Əvvəlki müddətdə alınmayan startlar, raket partlayışları və yanğınlar olurdu.

Kosmodromun tarixində ən faciəvi gün 24 oktyabr 1960-cı il-də olub. R-16 yeni qitələrarası raketi starta hazırlanmışdı. Gözlənilmədən partlayış baş verib. Partlayış nəticəsində 74 nəfər raket texnikasının yüksək səviyyəli mütəxəssisləri, artilleriya marşalı Nedelin və kosmodromun əməkdaşları həlak olublar. 53 nəfər ağır yaralanıb.

Test edilən “yeddi” uğurlu raket idi və böyük qüvvə ehtiyatı vardı. Onun sayəsində növbəti peyklər orbitlərdə asanlıqla yerləşdirilmişdi. “Sputnik-2”-nin 500 kq, üçüncüsünün isə (1958-ci ilin may ayı) 1327 kiloqram çəkisi var idi. 1959-cu ilin yanvar ayında Ay istiqamətində Luna-1 zondu göndərilib, zond isə öz hədəfindən 5 min kilometr uzaqlıqdan uçub. Həmin ildə bir neçə başqa zondlar göndərilib, onlardan biri Aya çaıb, Luna-3 isə onun arxa tərəfinin foto şəklini çəkib.

Kosmodromun tarixində həqiqi uğur ilk insanın – 12 aprel 1961-ci ildə Yuri Qaqarinin kosmosa uçması idi. Həmin günü Baykonur kosmodromunu bütün dünya tanıdı.

Müstəsna hissləri yaşamış, Yer kürəsini başqa bir perspektivdən görmüş və geri dönmüş Kosmik qardaşlıq – Qaqarin, Leonov, Armst-

ronq və digər səksən yeddi nəfərə qoşulmaq üçün kosmodroma gedirdim. Bunu çox arzulayırdım.

İyunun 13-də Baykonurda başqa bir aləmə daxil oldum. Starta 14 gün qalmışdı. Pyotrla "Kosmonavt" otelində bir otaqda qalırdıq. Günün işləri missiyanın tələblərinə uyğun dəyişilirdi. Oyanma saat 11-də, 12-də səhər yeməyi, nahar saat - 18:30-da, şam yeməyi - 23:30-da, saat 2:00-da isə yatmaq zamanı. Əmrlərə əsasən tapşırığı yerinə yetirməyə çalışırdıq, lakin orqanizm öz bioloji günlük ritmini dəyişmək istəmirdi. Ancaq bir neçə gün keçdikdən sonra yeni şərtlərə öyrəşə bilirik. Bir növ karantində yaşayırıq, oteldə ancaq icazə verilən hissələrə keçə bilirik. Özümüzün xüsusi mətbəx, laboratoriya və trenajor zalımız var. İnsanlarla əlaqə mümkün qədər məhdudlaşdırılıb. Həkim Reznikov bizdən bir addım belə ayrılmır, səhərki oyanış, yemək vaxtı, məşğələlər, dərs, gəzinti və tennis oyunu zamanı bizimlədir. İvan xoş, mehriban və gülərüzdür, buna görə onun yanımızda olması bizi yormur. Öz-özümdən soruşurdum ki, görəsən, o nə vaxt yatır. Həkimlər bizim müvazinət aparatımızı və ürək-damar sistemimizi çəkisizlik effektinə qarşı gücləndirmək üçün çox vaxt ayırırlar. Yastıqsız, baş tərəfə 4,5 dərəcə aşağı salınmış çarpayılarda yatırıq. Bir neçə gün sonra əyilmə yeddi dərəcəyə çatdırılır. Hələ Ulduz şəhərciyində başladığımız texnoloji, tibbi və geofizik elmi eksperimentlər aparma metodikasını "Salyut-6" stansiyasının gələcək əsas heyəti olan V.Kovalyonok və A.İvançenkov ilə məşq edirik. Nikbinik və əhval-ruhiyyəmiz əladır. Onların startı sabah yox, o biri günə təyin edilib.

15 iyunun axşamı istidir. Həyəcan ab-havası hiss edilir. "Soyuz-29"-un heyəti -"Fotonlar" kosmodroma getməyə hazırdır. Gülərüz, gül dəstələri ilə gedən kosmonavtlar onları yola salanlarla vidalaşıb avtobuslara əyləşirlər. Onların arxalarınca gedirik. Gecə baş verəcək gözəl startı böyük həyəcanla gözləyirəm. Yeni kosmik əfsanə alov dənizi və qulaqbatıran mühərriklərin gurultusu ilə yaranırdı. Yer titrəyirdi, nəfəslər kəsildi. Raketi gözdən itənədək, səmada milyonlarla parıldayan ulduza oxşar nöqtəyə çevrilənədək izlədim. Heyət tərəfindən arxayınca məlumat verilməsi eşidilirdi. Təəssüratlardan ayılanadək onların orbitə çatdıqlarını xəbər verdilər. Həmin gecəni yuxuya gedə bilmirdim. Startadək hələ on iki uzun gecə və gündüz qalırdı. Növbəti günlərdə gəminin sənədləri üzərində işlədik, tez-tez düzəlişlər və dəyişikliklər etmək, metodikanı təkmilləşdirmək lazım gəlirdi. Orbitdə planlaşdırdığımız eksperimentləri keçirirdik və gün ərzində iki dəfə, bir saatdan çox davam edən ortostatik sınaqlar aparırdıq. Tədqiqat üçün uzandığım masa üfuqi vəziyyətdə idi, bir neçə dəqiqə ərzində qan dövranı sisteminin parametrləri yoxlanılırdı, sonra isə masaaşağı -15, -30 və -45

dərəcə aşağı, və +15, +30, +45 dərəcə yuxarı qaldırılırdı. Hər bir vəziyyətdə ölçü götürülürdü və məlumat qeyd edilirdi. Tədqiqat böyük ciddiliklə aparılırdı. Günlərin birində seans zamanı yuxuya getmişdim, həkimlər bunun müsbət təzahür olduğunu bildirmişdilər.

Startdan əvvəlki son üç gün xüsusi ilə isti idi. Gün ərzində temperatur 40 dərəcəyə çatırdı. Bəzi məkanlarda soyutma sistemi yoxdur, buna görə tibbi laboratoriyalarda böyük həvəslə vaxtımı keçirirəm. Məndən və Pyotrdan qan götürülməsini kamilliklə yerinə yetirirəm . Həkimlər yeni fikir əlavə etdilər. Gün ərzində üç dəfə çex "istilik mübadiləsi" eksperimentini məşq edirik. Ölçü iynələrini tez-tez dəri altına yeridirik və analiz üçün qan götürürük. Fırlanan kresloda aparılan uzun müddətli məşqlər rahat keçir. Bir il bundan öncə başqa cür idi. Yorğunluq üzündən – bəlkə də mədənin hansısa nasazlığından – fırlanan kresloda müvazinət aparatının məşqlərini yarımçıq qoymalı oldum. Qusmağa başladım, həkim İlya Tarasov problemi həll etdi, lakin xəbər yayıldı. Dəstəyə ehtiyacım var idi, amma onun yerinə istehza və göstərişlərlə üzləşdim. "Yaxşısı budur, bu gün məşqə getmə, heç yaxşı görünmürsən" – tanışım gülərək məsləhət verirdi. "Mən on beş dəqiqə dözdüm, sənsə ancaq iki, bunun axırı pis olacaq" – guya dərdimi bölüşərək deyirdi. Mən həkimə problemim barədə ətraflı məlumat verdim. "Mən də pilot olmuşam, qırıcılarda deyil, döyüş təyyarələrində, problemlə tanışam. Səni bundan qurtaracağam", əminliklə dedi. Bir həftə sonra yenidən məşqlərə başladıq. Lap başdan. Rəsmi olaraq İlya məşqlərin yaxşı keçməsi haqqında məlumat vermişdi. İki gündən bir İlya evdən laboratoriyaya gəlirdi, mənimlə uzun-uzadı söhbətlər aparırdı, sonra isə məşqlərə keçirdik. Üç aydan sonra İlya məni stresdən qurtardı. Müvəffəqiyyət əldə etdiyinə görə, mənim qədər sevinirdi.

Təhlükəsizlik baxımından tennis oynamaq və suyun 27 dərəcə isti olmasına baxmayaraq, yaxınlıqdakı hovuzda çimmək qadağan edilmişdi. Dublyorlar bizə əlçatmaz olan komfortdan istədikləri qədər istifadə edirdilər. Qaranlıqdan sonra təbii planetariyaya, yəni otelin damına gedirdik. Çöllükdə səma olduqca aydındır.

Son vaxtlar televiziya qrupları daha tez-tez məşqlər zamanı utancaqlıqla müsahibə tələb edirlər, "çünki onda sifət yaxşı düşür" deyirdilər. Axşamkı gəzintilərin ancaq özümüz üçün olmasına nail olduq. Hər gün gecə yarısından sonra əlimə kitab götürürəm. Oxumaq aclığını hiss edirəm. Sakitliyə ehtiyacımız var. Özümüzü startda duran idmançılar kimi hiss edirik. Emosiyalar artır. Starta dörd gün qalıb. Qabaqda ancaq dörd gün və son tibbi komissiya - yəni gün ərzində yoxlamalar və dövlət komissiyası qalıb. Bu gün – 24 iyun tarixində gəmimizi yoxlamağa son dəfə gedirik. Böyük anqarda şaquli vəziyyətdə durub və

xidməti platformalarla əhatə edilib. Hər tərəf steril təmizdir, xidmətçilər isə əməliyyat otağındakı tibbi heyətə oxşayır. Simvolik əşyalarla olan baqajla tanış oluruq. "Polyak Kosmosda" medalını seyr edirik – onun üzərində mənim və Pyotrun profilləri var. Gəmidə bizim inisiallarımız olan şəxsi avadanlığımız qablaşdırılıb, onların arasında orbitdə işləmək üçün ağ-qırmızı bayraqlı və sinəsində qartallı yun kostyumlar, istilik yaradan hidrokombinezonlar, fərdi sensorlu tibbi kəmərlər var idi. Əvvəlcədən razılaşdırılmış çəkiyə yaxın öz xırda-xuruş əşyalarımızı veririk.

Daşıyıcı, boz, nəhəng və gözəl raket xüsusi dəmir yolu platformasında qalıb. Volovda saatlarla tamaşa etdiyim lokomotivə oxşayır. Mühərriklər tərəfindən baxanda xüsusi ilə fotogenikdir. 20-yə yaxındır. Qırmızı rəngli forsunkalar parıldayırlar, onların hamısı 20 ton dartma qüvvəsinə malikdir. Birlikdə 400 ton – təsəvvür edilməz qüvvə. Hələ bu gecə raket və gəmi  işə salma sisteminə gətiriləcək.

25 iyun – starta iki gün qalıb. Qəribədir, sürət aşağı salınıb. Günü gəzinti üçün istifadə edirik. Boynumuzda fotoaparatlar asılıb. Bir neçə rulon plyonka çəkməliyik. Mövzu çox idi. Otelin ətrafındakı təbiəti, hər kosmonavtın qayıdandan sonra bir ağac əkdiyi Şöhrət Xiyabanını böyük həvəslə çəkirdim. Bu xoş tapşırıqların məqsədi bizim rahatlaşmağımız və axşamkı tədbirdən fikirlərimizi yayındırmaq idi. Düz saat 20:00-da, xidmət işçiləri və jurnalistlərlə dolu konfrans zalında dövlət komissiyasının iclası başladı. Bütün üzvləri tanımıram. Baş konstruktor V.Qluşkonu, general G.Bereqovoyu, general V.Şatalovu, Rusiya Elmlər Akademiyasının üzvü V.Petrovu, Tibbi-Bioloji Problemlər İnstitutunun direktoru, professor O.Qazenkonı, Aviasiya Ordusunun baş həkimi və general Leonovu tanıyıram. Tanımadığım insanlar yəqin ki, digər əhəmiyyətli üzvlərdir – onları tanımaq üçün nə vaxtım, nə də imkanım olmamışdı. Raketin texniki vəziyyəti, onların starta hazırlanma hormonoqramı, poliqon infrastrukturunun hazırlığı haqqında uzun-uzadı məlumat verildi. General Şatalov bizim, şüşənin arxasında oturanların xüsusiyyətlərini təqdim etdi, xüsusi elmə yiyələnməkdə inkişafımız və sağlamlığımız haqqında məlumat verdi. Komissiyanın rəhbəri təşəbbüsü öz üzərinə götürdü. Əsaslar gətirərək dedi, "tipləşdirmədə heç nə dəyişilməyib, komissiya tapşırığın yerinə yetirilməsini Klimuk-Hermaşevski heyətinə etibar edir". Zalda olanlar yerlərindən qalxdı və bizi alqışladılar. Komissiyanın qərarı mənim üçün gözlənilməz deyildi, lakin bədənimin hər nöqtəsində emosiyalar hiss edirdim. Missiyanın uğurlu və təhlükəsiz olmasında əlimizdən gələni edəcəyimiz haqqında əminliklə danışdı. Mən həkimlərə, mütəxəssislərə, mühəndislərə və müəllimlərə heyətimizin hazırlanmasına sərf etdikləri

zamana və enerjiyə görə təşəkkür etdim. Bizim xalqlarımızın dostluğu, Polşanın qəhrəmanlığı haqqında danışdım. Sonda isə əlavə etdim ki, ən böyük arzum Vətənimi yüksək orbitdən görmək, ölkədə olan və bütün dünyada yayılmış həmyerlilərimi salamlamaqdır. Bizi yenidən alqışladılar və təbrik etdilər.

Tez telefonu götürüb həyat yoldaşıma bu məlumatı çatdırmaq istəyirdim, lakin jurnalistlərin əhatəsinə düşdük. Sualları və hər şeylə maraqlanmaları bizi ən çətin məşqdən daha çox yordu, dəstənin başçısı TVP-dən redaktor, gülərüz Stefanoviç idi. Günün bitməsindən əvvəl baş konstruktor Qluşkonun qonaqları olduq. Şampan badəsini qaldıraraq, özü dediyi kimi, "Soyuz"un sürücülük vəsiqəsini – yer kürəsinin istənilən nöqtəsində kömək və təhlükəsizliyi təmin edən sənədi bizə təqdim etdi. Böyük sevinclə  skafandrın qoluna taxa biləcəyimiz rezin kəmərli eleqant və mürəkkəb saatları qəbul etdik. Qluşko bizimlə söhbət etdi, bir çox xeyirxah sözlər dedi. Özünün cavanlıqda raket inşa etmək arzularını yada saldı. Yalnız bir neçə ildən sonra çətin mühitdə yaşaması və çəkdiyi əzablardan xəbər tutdum.

Axşamı təlimatçılar və əvəzedicilərin əhatəsində keçirdik. "Zubrovka" və "Moskovskaya" araqları peyda oldu. Söhbətlərin sonu görünmürdü. İcazəsi olan içdi, bəziləri lap çox. Pyotrla mənim fikirlərimiz uzaqlarda idi. Gecə Ulduz şəhərciyinə zəng edə bildim. Həyəcanla komissiyanın iclasının gedişatı və son hökm barədə həyat yoldaşıma dedim. Mənə cavab verdi: "Niyə belə sevinirsən, onsuz da çoxdan hamı bunu bilirdi". Belə deməklə sanki həyəcanımın üzərinə sərin su çilədi, amma buna baxmayaraq, gecə dəhşətli idi. Bir il yarım ərzində olanların hamısını yuxuda gördüm, bir neçə dəfə oyanmışdım. Səhərki əhval-ruhiyyəm dünən qonaq gəlmək istəyənlərlə eyni idi. Pyotr heç olmadığı qədər çox pis idi. Səbəbsiz məni danlayır və tələsdirirdi. Mən dəhşətə gəlirdim. Nahardan sonra Pyotr özünə gəldi.

Startdan əvvəl axırıncı axşamı tənhalıqda keçirdik, hərə öz fikirləri ilə. Otelin damına qalxdıq. Burdan çöllüyün hüdudsuzluğu, Leninsk şəhəri, əvvəlki illərdə olduğu kimi, balaca Türa-Tam kəndi, buxarlanan elektrik stansiyası və Sır-dərya çayı görünürdü. Səma mavi idi. Günortanın istiliyi axşam küləyinin ani şiddətinə qarışırdı. Mənzərə çox gözəl idi. Günəş üfüq tərəfə enirdi. Onun şüaları ətrafda olan hər şeyi qızılı parıltı ilə rəngləyirdi. Tvardovskinin fiqurunu, qızımın hədiyyəsi olan gəlincikləri və cib saatını yığdım. Əqrəbin Moskva saatı ilə 18:27-ni göstərməsini gözləyirdim. Sabah dəqiq həmin saatda məchulluğa uçacağıq. Ovsunlanmış kimi günəşin enməsinə baxırdım və sakitlikdə onunla vidalaşırdım, sadəcə ona əl elədim və dedim: "Kosmosda görüşənədək". Günəş gizləndi, özündən sonra üfüqdə qırmızı iz və

buludlarda qızılı rəng qoydu. Gecə tez gəldi. Ulduzlar peyda oldu. Planetariumdan tanıdığım səliqəli ulduz toplusunda onlarla danışırdım. Səma ilə danışırdım. Mənim yaxınlarımı- həyat yoldaşım, uşaqlarım, anam, bacılarım və qardaşlarımı qorumağı xahiş edirdim. Bu gün burada olmağım üçün minnətdar olduqlarımı qorumağa. Oradan axan mehribanlıq və gümrahlığı hiss edirəm. Özümü daxilən güclü hiss edirəm və rahat yuxuya gedirəm. Yuxum dərin oldu.

# BEŞİNCİ

## HİSSƏ

Ulduz görürəm, milyonlarla ulduz



# BAYKONUR KOSMODROMU –
# 27 İYUN - “2 SAYLI PERRON”

Məkanda rahat uçuram. Ətrafım mavi və qırmızıdır. Tam sakitlikdır. Böyük konstruksiyanın yanı ilə üzüb keçərək, onun hansısa elementinə ilişirəm. Şaqqıltı, sonra isə səs-küy eşidirəm, intensiv rənglər itir və qəflətən kiminsə üzünü görürəm. Həkimin yumru, mehriban və gülərüz sifətini tanımağa başlayıram, mənimlə Pyotru iki həftədən artıq günün istənilən saatında müşayiət edən İvan Reznikovdur. “Miroslav, oyanmaq vaxtıdır” – deyir. Nəyin baş verdiyini, haralarda uçduğumu hələ tam anlaya bilmirəm. Niyə intensiv rənglər itdi və əvəzinə üstünlük təşkil edən ağ, qəhvəyi və bej rənglər peyda oldu? Baykonurdakı otağımı tanımağa başlayıram. Pəncərədəki pərdənin arxasından günəş otağa dolur, onun kəskin parlaq şüaları məkanı işıqlandırır. Otaq işıqlıdır. Hər şey görünür. Növbəti gün isti olacaq. Saata baxıram – əqrəblər altını göstərir. “Məni niyə belə erkəndən oyatdın?”, – soruşuram, fikrimsə yuxuda gördüyüm fantastik dünyadan ayrılmır. “Hamı artıq gözləyir”, – eşidirəm. “Kim?”, – yenidən soruşuram. “İxtisaslı həkimlər”, – Reznikov cavab verir.

Deyəsən, on iki nəfərdir, hamısı ağ geyinib. Birdən mənə çatır ki, axı artıq bu gündür. Bu, son gecə idi. Deməli, artıq başladı. Cəld qalxmaq istəyirəm, lakin həkim məni dayandırır. “Sakit uzan”, - deyir. Əlimi yavaşca tutur, nəbzi axtarır. Saata baxır, hesablayır. Əlimi tutduğu yerdə nəbzimin yüngülcə döyünməsini hiss edirəm. Otağı nəzərdən keçirirəm. Masada həyat yoldaşımın və uşaqların şəkli var, çöl gülləri və “tikan” isə – Pyotrla dünənki gəzintimizin bəhrəsidir. Deməli, fiziki məşqlər olmayacaq. Səkkiz saatdan çox yatmışam, amma başım bir az ağırdır, üzümdə şişkinlik hiss edirəm – hamısı həkimlərin tövsiyyələrinə əsasən, yastıqsız və yeddi dərəcə aşağı salınmış çarpayıda yatmaqdandır. Məlum rahatsızlıqları artıq bu gün üzləşəcəyim çəkisizlik tələb edir. Başlandı. Yavaş-yavaş narahatlıq yaranır. Özümə sual verirəm – bu çətin imtahandan necə keçəcəm? Ulduz şəhərciyində keçdiyim bir il yarımlıq hazırlıqları ildırım sürəti ilə yada salıram – həmin vaxtdan lazımı dərəcədə istifadə etdimmi? Axı gərgin tədris, iş və məşqlər dövrü olmuşdu. Mən özümü həmin xüsusi tədbirə hazırlayırdım - əvvəl planer, sonra isə təyyarənin kabinəsinin dadını bilən çoxlarının ən cəsarətli arzusu olan hadisəyə. Mən isə bu gün onların adından həmin arzunu həyata keçirməliyəm. “Nəbzin həmişəki kimi sakitdir”, – məni fikirlərdən ayıran həkim deyir. Radionu qoşuram və hər gün etdiyim kimi, Varşava stansiyasını tutmaq

istəyirəm. Səs əla gəlir. Kənd təsərrüfatı ilə məşğul olanlar üçün xəbərlər verilir, doğum günləri olan Marıla və Vladislav təbrik edilir. Bir neçə həftə əvvəl qardaşım nə vaxt uçmağımızı öyrənmək istəmişdi. Cavab vermişdim ki, öz ad günündə məndən xüsusi və Polşada olmayan hədiyyə alacaq – anladı. Buna görə daha sual vermədi. Pyotr gəlir və bu günün qeyri-adi olduğunu polyak dilində bir neçə sözlə qeyd edir. Pyotr əla komandir və dostdur, həmişə gülərüz, mehriban və pozitiv enerjilidir. Mənimlə bağlı heç bir problemi yoxdur və ona baxanda dəqiq bilinir ki, məhz mənimlə uçmasından razıdır. Pyotr Belarusda, polyak sərhədlərinin lap yaxınlığındakı Komorovka kəndində anadan olub və polyak uşaqlarının arasında böyüyüb. Bizim işimizdə əhəmiyyətli olan qarşılıqlı anlaşmanın yaranmasına bəlkə məhz bunlar səbəb olmuşdu. Yüzlərlə yerüstü və sualtı hazırlıqlar və məşqlər, birgə ailə görüşləri və həyat, tarix, aviasiya, ən önəmlisi isə kosmonavtikaya dair bitib-tükənməyən söhbətlər zamanı sınaqlardan keçmişik.

İxtisaslı həkimlər dörd nəfər tərkibdə üç qrupa ayrılaraq, xüsusi tədqiqatlara başlayırlar. Nevroloq yuxu dərmanlarından istifadə etmədiyimdən çox məmnundur. Həmin dərmanları dünən axşam bizim heyətin həkimi  "etibar edərək" hər ehtimala qarşı vermişdi. Terapevt ürək döyüntüsünə qulaq asır, nəbzi və təzyiqi ölçür. "İki həftə dəyişikliksizdir, – qərara gəlir, – parametrlər həmişəki kimi, nəbz dəqiqəyə 58 vurğu, qan təzyiqi isə 120/70. Uça bilərsən", – gözümün içinə baxır. "Təşəkkür edirəm", – söyləyirəm. Həmin an bundan artıq söz deməyə qadir deyiləm. Psixoloq çox sual verir, yuxum haqqında soruşur, qulaq asandan sonra gülümsəyir. Mənə çiynimdən yavaşca vuraraq deyir: "Otliçno" (Əla). Digər mütəxəssislər də tədqiqatların nəticələrindən razıdırlar. Hamısı necə yatdığımı və özümü necə hiss etdiyimi soruşurlar. Müsbət cavablarım onları qane edir. Bundan əvvəlki gecə haqqında bir söz də demirəm. Uzun və ağır gecə idi, son həftələrdə baş vermiş hadisələri həyəcanla xatırlayırdım. Bir çox hadisələr baş vermişdi. Məşqlər və həkim tədqiqatları çox intensiv idi və məni yormuşdu. Hər şey və hər kəs haqqında düşünürdüm. Tezliklə raketə daxil olmaq istəyirdim. Otaqda soyutma sisteminin olmasına baxmayaraq, gecə lap intensiv həyat sürən çölün quruluğunu və istiliyini hiss edirdim. Minlərlə cırcırama oxuyur, gecə quşları və heyvanları isə onların səsinə dəstək verərək cıvıldayır və uğuldayırdı. Buludsuz səmada milyonlarla ulduz parıldayırdı, mənsə onu qaydaya salınmış bir sistem kimi görürdüm. Ulduzlar topası, onların forması və əfsanələri barədə biliyi bizə planetariumda gözəl müəllim və hekayəçi Valentin Varlamov vermişdi. Kosmos onun üçün ancaq xəyal olaraq qalacaqdır, çünki suya ehtiyatsız tullanış və nəticədə zədələnmiş onurğa

onu ilk namizədlər qrupundan xaric etmişdi. Onun bəxti gətirmədi, bəlkə elə buna görə öz gerçəkləşməmiş arzularını bizə bacardığı qədər ən yaxşı tərzdə təqdim edir. Çöllük oxuyurdu, ulduzlar parıldayırdı, mənsə - heç vaxt çata bilməyəcəyimi düşündüyüm məqsədə daha da yaxınlaşıram. Məgər bu, həqiqətən, mümkündür, məni seçdikləri həqiqətdir?

Baş həkim gəlir, o da stereotip suallar verir və əlavə edir: “Sənin üçün sürprizim var”, – sözünü sonadək bitirə bilmir, çünki sürpriz özü peyda olur. Salamlamaq üçün qaçıram. Bu, professor Baranskidir, keçmiş “əhliləşdirici”lərdən biri. O, onlarla namizəd arasından kosmonavt seçməli idi. Tanınmış alim, hamıya qarşı mehriban olan insan mənim himayəçimdir. Həmişə əlindən gələni edirdi. Salamlaşaraq deyir: “Səndən narahat deyiləm, sağlamlığına dair heç bir problem yoxdur. Sükanı belə saxla”. Bunu demək asandır, lakin özün bu tədbirdə iştirak etdiyin zaman düşünmək çətindir.

Həkimlər bizi, yəni heyəti gün ərzində müşayiət edəcəklər. Bu gücləndirilmiş eskort bizim üçün əziyyətlidir və bir az utandırıcıdır. Yeməkdən sonra bizi tək buraxırlar. Pyotrla sükut içində öz əşyalarımızı çamadanlara qablaşdırırıq. Ən yaxınlarımın şəkillərini qırağa qoyuram, özümlə aparacağam. Ənənəyə sadiq olaraq, ailələrimizə qısa məktub yazırıq. Təlimatçım Yura bizim startdan dərhal sonra məktubları göndərəcək. Dörd məktub yazdım - üçünü Ulduz şəhərciyinə həyat yoldaşıma, qızım Mila və oğlum Mirekə, birini isə Volovda yaşayan anama. Şəxsi xəzinəmiz olan xırda-xuruşları raketə qoymaq üçün yığıram. İki nəfərə iki kilo yarım limit verilib, limiti aşmaq qəti qadağandır. Ən yaxınlarımın foto şəkillərini, Dombrovskinin mazurka musiqisi ilə olan açıqcaları, kiçik ağ-qırmızı bayraqları, hərbi pilot işarələrini, metal aviasiya qartalını, qızım Emiliyanın verdiyi yumşaq oyuncaqları, həyat yoldaşım və uşaqlar üçün olan hədiyyələri, *Pan Tadeuşun* miniatür kitabını, Uşaq Sağlamlıq Mərkəzinin iki qızıl döş nişanını və bir az da filatelistik suvenirləri qoyuram. Bizə ayrılmış vaxt çox tez ötür. İllər ərzində uçmağa hazırlaşan heyətlərin, indi isə bizim əhval-ruhiyyəmizi yüksəltmək üçün ənənəyə uyğun olaraq *“Səhranın bəyaz günəşi”* filminə dəvət edirlər. Hamı gülür. Mən də gülürəm, lakin açığı cənubluların ənənələrinin incəliklərini təqib edə bilmirəm, çünki filmə fasilələrlə baxırıq – səhər yeməyindən dərhal sonra bizi imalə etmişdilər. Qalan vaxtı gəminin sənədlərinin öyrənilməsinə sərf edirik və yenidən, bəlkə yüzüncü dəfə start mərhələsində, orbitə çıxış və ya Yer kürəsinin ətrafında ilk fırlanma zamanı baş verə biləcək qəza vəziyyətlərini araşdırırıq. Təlimatçılar bizə startdan əvvəl son tövsiyyələri verirlər. Elmi

eksperiment mövzusunu mənimsəmiş hesab edilirik.

Nahar təmtəraqlıdır, lakin ümumilikdə kədərlidir. Bizi general Aleksey Leonov, həkimlər və təlimatçılar müşayiət edirlər. Kosmos haqqında danışırıq.

Kosmosu tədqiq etməklə insan bir çox yeni təzahür tanıdı, onları anlamağı öyrəndi, yaxın keçmişdə cəsarətli arzular sayılan yeni texnologiyalar tətbiq etdi. İnsan kosmik gəmilər, orbital stansiyalar inşa etdi, Kosmosda bir neçə ay ərzində yaşamağı və işləməyi öyrəndi. İnsan Ayın üzərinə də uçdu. Kosmosa uçuş, demək olar ki, "normal" bir şeydir, məhz buna görə narahatlıq hiss edirəm. Bu, müasir reaktiv maşınlarda ilk uçuş zamanı pilotu müşayiət edən hisslərə bənzəmir. Bu emosiyalar böyük məsuliyyət şüurunu ehtiva edir, bəlkə də əsasdır. Həmin uçuşu bəşəriyyət naminə həyata keçiririk. Bunu elmin inkişafı və tərəqqisi naminə edirik. Bizim uçuşumuz sadəcə böyük macəra deyil, bu, çətin, yeni, tanınmamış və təhlükəli mühitdə birgə işdir. Bu, həmçinin yenilikçi və qeyri-adı bir hadisədə iştirak fürsətidir, hazırlıq işləri üzərində işləmiş dünya şöhrətli alimlərin elmi eksperimentlərinin həyata keçirilməsində iştirak etmə imkanıdır. Alimləri məyus, qohumlarımın ümidlərini puç edə bilmərəm.

Nahardan sonra əvəzedicilər və təlimatçılarla görüşmək üçün bir az vaxt tapırıq. Söhbətimiz nədənsə alınmır. Əvəzedicilər ruh yüksəkliyimizi bölüşmürlər, kədərlidilər. Buradakı ənənəyə uyğun olaraq, şampan şüşəsi açırlar. Həmkarlar uğurumuz şərəfinə içirlər, bizə ancaq baxmaq qalır, düşüncələrimizsə buradan uzaqdadır. Leonov deyir ki, qayıdandan sonra əvəzini çıxarıq. Bunun üçün saxladığı qızıl mayeli şüşəni təqdim edir. Araya çökmüş sakitliyi Leonov pozur: "Oğlanlar, vaxtdır". Qalxırıq ki, qədim rus ənənəsinə uyğun olaraq yenə oturaq. Fikirlərimizi bir yerə toplayaraq susuruq, bizi gözləyən "uzaq səfərimizi" düşünürük. Bu, gözəl və təsirli ənənədir. Kosmosa uçan hər kəs həvəslə buna əməl edir. Çıxarkən papağımı başıma qoyuram, çünki polyak pilotunun mundirini geyinmişəm. Çıxış qapısının üzərində bu günkü 27 iyun 1978-ci il tarixi ilə öz imzamı qoyuram. Çöldə laboratoriyanın bütün işçiləri və "Kosmonavt" otelinin xidmətçiləri bizi qarşılayırlar. Havanın dəhşətli dərəcədə isti olmasına baxmayaraq, camaat bizi yola salır, əhval-ruhiyyə yüksəkdir və təntənəlidir. Gül dəstələri, gülüş və mehriban sözlərlə əhatə olunmuşuq. Əfsuslar olsun ki, bir-birimizə əl verə, əllərimizi sıxa bilmərik – həkimlərin tələbi belədir. Bu prinsip haqqında Baykonura gəldiyimiz ilk gündən bizə deyilmişdi. Oteldə heyət üçün böyük bir hissə ayrılıb. Bizimlə bilavasitə əlaqə yarada biləcək insan sayı məhdudlaşdırılır. İndi, özünəməxsus ikihəftəlik karantindən sonra ilk dəfə görüşürük. Vidalaşma qısa və

körtəbii alınır. Şüşə ilə bölünmüş iki sərnişin kabinəsinə malik xüsusi avtomobildə yerimizi tuturuq. Arxa kabinədə təlimatçılarımız və start komandanlığının xidməti işçiləri əyləşir. Həkimlər və general Leonovun müşayiəti ilə sürücünün arxasındakı kabinədə əyləşirik. Avtomobilin içi sərindir, soyutma sistemi əla işləyir. Sürücünün narahat olmasını görürəm. Onun köməkçisi videomaqnitofonunda Canavar və Dovşan haqqında filmə baxmağı təklif edir. Məmnuniyyətlə razılaşırıq.

Bir azdan iki balaca televizorda həmin məşhur qəhrəmanlar cürbəcür hoqqalar çıxarırlar. Bu aksiyaları təqib edə bilmirəm. Çöldə çox maraqlı hadisələr baş verir. Vidalaşanların sayı daha da artır. Bizi aparan milis maşınları və motosikllər bütün xəbərdarlıq siqnallarını qoşurlar. Yola düşürük. Bəli, kosmosa aparan yolun əvvəli həqiqətə çevrildi. Vidalaşanlar bizə yaxşı uçuş arzu edirlər. Təntənəli əhval-ruhiyyə var. Qadınlarını gözü dolub, deyəsən, elə bizim də. Boğazım quruyur. Sakit qalmaq və üzümdəki ifadəni gizlətmək istəyirəm, çünki gözümün ucu ilə operatorlar və fotoreportyorların intensiv işlədiklərini görürəm. Yolumuzun üstündən keçən maşın və insanlar dayanırlar. Şəhərin küçələri ilə gedərkən bizə əl edən yüzlərlə insan görürəm və emosiyalar daha da artır. Rəsmi olaraq heyətin yola düşməsini heç kəs elan etməyib. Lakin bütün sakinlər bunu bilirlər. Sakinlərin böyük hissəsi kosmodromda işləyir. Səkidə duranlar, balkondan, evin damından, hətta dirəyin üstünə qalxanlar təbriklər göndərirlər. Ağacların üstündə heç kəsi görmədim. Burada, çöllükdə ağac müqəddəs sayılır. Böyük çətinliklə, süni şəkildə plantasiyaları suvararaq, hətta gözəl ağaclar yetişdirmək olar. Yaşıllıq burada simvol dəyərindədir və yazılmamış qanunla qorunur. Yerli insanlar bitkilərin dəyərini həmişə anlamırlar, adət-ənənələrinə əsaslanan vərdişlərinə sadiqdirlər. Neçə illik səydən sonra bir kənddə qovaq ağacları böyüyür. Bu ağaclar sakinlərin iftixarına çevrilmişdi, lakin yaşlı sakinlər gecə ilə onları kəsirlər, çünki ahılların dediklərinə görə, "çöllüyə tamaşa etməyə mane olurdu". Elə məhz qazax torpaqlarında bəşəriyyətin arzuları həyata keçir, Kosmosa insanlar uçur. Yerli sakinlər bundan agahdırlar, bununla fəxr edirlər.

Sakitcə gedirik. Düzənliyin içi ilə aparan yolu hərə bir cür yaşayır. Düzənlik qızmar günəşdən yanıb, qonur-kərpici rəngə boyanıb. Torpaq çat-çatdır və ancaq bəzi yerlərdə çox az, ota bənzər bitkilər var. Qoyun sürüsü və yerindən qımıldanmayan, sanki mənzərənin gözəlliyini tamamlamaq üçün durmuş bir neçə dəvə görürəm.

Birdən anlaşılmaz hadisə baş verir. Sürü tərəfdən yola, bizə tərəf, mühafizəyə fikir verməyən bir insan qaçır. Elə geyinib ki, sanki düzənlikdə 42 dərəcə isti deyil, şaxta var. Yun paltar, ağır ayaqqabı və böyük qara papaq! Kortejdə balaca çaşqınlıq duyuram. Lakin həmin

çoban yolun kənarında dayanır və bizə ən dərin hörmətini bildirərək əyilir. Onu xatırladım. Bir neçə gün bundan əvvəl məşqlərdən qayıdanda düzənlikdə görüşdük. Bu sadə insan, yəqin ki, bundan əvvəl gördüklərini raket startı ilə assosiasiya edirdi. Onun hərəkəti mənə unudulmaz təsir bağışladı. Buna əlavə isə yolda bizi görən digər insanların həmçinin baş əymələri idi.

Kosmodrom hər dəfə daha yaxındır. General Leonov bəlkə də fikrə getdiyimi görüb, özünün düzənlikdəki ovları və heyvanların adətləri ilə məni maraqlandırmaq istəyir. Fikirlərim isə uzaqda, doğmalarımın yanındadır. Mənimlə olmadıqlarına çox heyfsilənirəm. Uzaqda olduqlarından yəqin daha çox həyəcan yaşayırlar. Bircə Mila cəsarətini itirməsin. Bu, çətin olacaq. Amma bacarmalıdır. Uşaqlar onun reaksiyasın baxacaqlar. Oğlum Mirek, yəqin ki, fəxr edəcək, qızım Milutka isə hələ baş verənləri anlamır. Bu gün səhər onlarla danışdım və qızım soruşdu: "Atacan, sən artıq kosmosundan mənə zəng edirsən?" Mən güləndə əlavə etdi: "Amma mənə ordan canlı ulduz gətir". O vəziyyətdə mənim üçün ən vacib tapşırıq məhz bu ola bilərdi. Sevimli balalarım, indi məndə ancaq sizin şəkilləriniz var.

Uşaqlar atalarının kosmosa uçuşlarını fərqli tərzdə, bəziləri çox ciddi yaşayırlar. İkiqat təcrübəyə malik olan Mişa Klimuk oğlum Mirekə Kosmos haqqında kişisayaq biliklər verirdi. Volodya Canibekovun qızı çox maraqlı reaksiya vermişdi. O, Kosmosdan atası haqqında növbəti reportaja baxanda demişdi: "Atam artıq üç gündür ki, televiziyada işləyir". Uşaqların təxəyyülləri zəngindir. Lakin bizi qabaqda gözləyənlər, deyəsən, daha fantastik olacaqdır.

Uzaq üfüqdə böyük binalar görünür. General Leonov göy səmanın fonunda düz yuxarı tuşlanmış raketi mənə göstərir. "Bax, bu odur" – deyir. "Oyuncağa oxşayır", – söyləyirəm. Pyotr da söhbətə qatılır: "Lakin insanın icad edə bildiyi ən möhtəşəm oyuncaqdır". "Möhtəşəmdir, amma elə də kiçik deyil, – Leonov əlavə edir, - əlli metr yüksəklik böyük bir şeydir". İldırım sürəti ilə onun parametrlərini yadıma salıram. Üç dərəcə, burada dörd start bloku, hərəsində dörd kameralı səksən ton qüvvəyə malik raket mühərriki var. Start zamanı ikinci dərəcədəki mühərriklər də işləyəcəklər. Hamısı birlikdə, saniyəyə bir ton yarım itələyəci maddə yandıraraq, "cəmi" 300 ton çəkisi olan raketin ümumi çəkisindən çox, dörd yüz tona yaxın qüvvəyə malik dartma gücünü yaradacaqlar. Bunun iki yüz yetmiş tonunu itələyəci maddə təşkil edir – oksidləşdirici maye oksigen, yanacaq isə - neftdir. Həqiqətən, dahi rus sadəliyidir, lakin polyak texniki fikrinə söykənir – Lukaşeviç və Olşevskiyə, çoxdərəcəli raketlərin uçuş nəzəriyyəsini isə Sibirə sürgün edilmiş Konstantin Çolkovskinin oğlu riyazi formulda hesablamışdı.

Raketin ən yüksək hissəsində, ballistik qoruyucunun altında müasir texnikanın möcüzəsi yerləşir – bizim "Soyuz-30" kosmik gəmimiz. Yeddi tona yaxın olan gəmidə iş yerimiz və alimlərimizin ümidi – onlar tərəfindən eksperimentlər üçün hazırlanmış materiallar var.

Texniki bloka yaxınlaşırıq. Həyətdə bizi, demək olar ki, bütün heyət qarşılayır. Burada da güllər, lap çox gül var - ən gözəlləri ekzotik düzənlik gülləridir.

Binaya həkimlər və mühəndislərin müşayiəti ilə daxil olduqdan sonra böyük salona keçirik. Yaxından salon daha böyük görünür. Burada bir neçə gün bundan əvvəl Pyotrla raketi seyr edirdik. Dəmir yolu platformasında qoyulmuşdu – nəhəng və əzəmətli idi. Yaxınlıqda mütəxəssislər raketin üçüncü dərəcəsini sınaqdan keçirirdilər. Raket çox effektli görünürdü, buna görə onun fonunda şəkil çəkdirdik. Yadımdadır ki, sol tərəfdə, şaquli vəziyyətdə, taxtabəndlə əhatə edilmiş gəmimiz durmuşdu, ətrafında müxtəlif mütəxəssislər fırlanırdılar, bizsə son məşqləri keçirdik.

Bu gün bura boş və kədərli idi. Gələnlərdən kimsə deyir: "Sabah yenə səs-küylü olacaq. Növbəti raket artıq yoldadır. Burada günlər boşuna getmir". Kiçik bir yerə keçirik, burada üst geyimdə və ağızlarında maska olan həkimlər bizi gözləyirlər. Startdan əvvəlki tədqiqatları yenidən keçiririk. EKQ xidmətinin əməkdaşları xahişimlə mənə yazılı kaset bağışlayırlar. Duş qəbul edirik, həkimlər bədənimizi spirtlə yuyurlar və orqanizmimizin fəaliyyət parametrlərinə nəzarət edəcək xüsusi sensorlu kəmərlər taxırlar. Mütəxəssislər onların işlək olduqlarını yoxlayırlar və bundan sonra xüsusi uçuş alt paltarını geyinirik. Bizi bir saniyə belə tək buraxmayan həkimimiz masa ətrafında firlanmağa başlayır. Boşqabları düzür və termosları gətirir. "Yaxşıca yoruldunuz. Azacıq dincəlin və ağzınıza bir-iki tikə atın, sizi uzun yol və çoxlu iş gözləyir", – deyir. Həqiqətən də, yüngül aclıq hiss edirəm, çünki səhər bizə startdan əvvəl imalə edilmişdi. Vanyanın gətirdiyi yemək haqqında fikir aclıq hissimi artırdı. Bu, dadlı, sevimli əriştə ilə bulyon və sobada tərəvəzlə bişirilmiş toyuq idi. Pyotr dadmağa dəvət edir: "Ye, orda ancaq "dadlı" konserv və pastalar olacaq". Mən hətta əlavə də istədim. Sonra isə çəkisizlik vəziyyətinə keçməmişdən əvvəl bu qədər çox yemək düzgün idimi deyə narahat oldum. Həmkarlarım bədənin müxtəlif reaksiyaları haqqında elə əhvalatlar danışıblar ki...

Qısa istirahətdən sonra skafandrları geyinməyə başlayırıq. Xüsusi masalarda bir- birimizin yanında, sanki hansısa sərgidən atılmış manekenlər kimi uzanıqlı vəziyyətdə qoyulub. Onları səhv salmaq mümkün deyil. Böyük "boy" fərqinə malikdirlər, sol tərəfdə döşdə sahibinin adı polyak və rus dillərində yazılıb. Dövlət gerbləri və

“İnterkosmos” proqramının emblemi əhəmiyyəti və əzəməti artırır. Skafandrların qeyri-adi görünüşü var, sanki hansısa məxluqun soyulmuş dərisinə oxşayır. Onları geyinəndən sonra canlanır. Hətta gözəgəlimlidir, əminliklə deyə bilərik ki, rahatdır. Skafandrları geyinərək, onların işlək olduqlarını yoxlamaq üçün növbəti zala keçdik. Burada isə gur işıqdan gözlərimiz yumulur, fotoaparatlar və kameralar bizi çəkir. O biri otaqda, şüşənin arxasında onlarla insan, jurnalist və fotoreportyorları görürəm. Hamısının fikri bizdədir. “Bir neçə müddət belə olacaq”, – Pyotr pıçıldayır. “Deyəsən, heç vaxt buna öyrəşməyəcəyəm”, – cavab verirəm.

Xidməti işçilərin köməyi ilə gəmidəkinə oxşar kreslolara əyləşirik. Əslində kreslolar daha çox yeni doğulmuş körpələri çimizdirmək üçün nəzərdə tutulmuş vannalara bənzəyir. Ayaqlarımı qatlayıb uzanmaqla kresloya sıxan kəmərləri bağlayırıq, əlcəkləri geyinirik və dəbilqənin şəffaf alın hissəsini aşağı salırıq. Skafandr içində mərhələli şəkildə təzyiq artırılır. Nəfəs salmaq çətinləşir. Skafandr sərtdir və top kimi hava ilə doludur. Bizim hərəkətlərimiz yöndəmsizdir və böyük səy tələb edir. Dizimin altında sürüşkən basılma hiss edirəm, lakin gülərək hər şeyin yolunda olmasını deyirəm. Hər ehtimala qarşı sınaqlar aparırlar, çünki orbitdə gəminin kabinəsində təzyiq düşdüyü anda skafandr Yer kürəsinə qəza dönüşü üçün tələb edilən vaxt ərzində lazımı şərait yaradacaqdır. Həmin sınaq zamanı yenidən EKQ qeyd edildi.

Yüngül yorğunluq hiss edirəm. İndi isə sadə kreslolarda üzümüz yığışanlara tərəf əyləşirik. Projektorlar sönəndə sürpriz olaraq görürəm ki, şüşənin arxasındakı otaqda qonaqlar sırasında başda Milli Təhlükəsizlik Naziri Voyçex Yaruzelski olmaqla dövlət nümayəndə heyətinin üzvləri əyləşib. Qorxu, həyəcan hiss etdim. Bir zabit kimi ən ali komandirim tərəfindən qiymət alacağımı bilirdim. Əsgər üçün bu, yüksək şərəf, həm də ən böyük sınaqdır. Çox gerginəm, lakin fikrimi toplamağı bacardım. Deyəsən, emosional vəziyyətim üzümdən oxunur, çünki general mənə və Pyotra adla müraciət edərək, əvvəlcə çox astadan, lakin ürəkdən danışır. Gərginlik qəflətən itir. Gözəl danışır, həyəcanlı olduğunu görürəm. Baş verəcəklərin Polşa üçün necə əhəmiyyətli olduğu barədə danışır. Həmçinin ardıcıl olaraq bilavasitə hər ikimizə müraciət edir. Özümüzü necə hiss etdiyimizi soruşur. Uçuşun proqramı ilə maraqlanır. Bizi əmin edir ki, bütün polyaklar haqqımızda xoş sözlər deyir. Ruhlandırıcı sözlərə görə minnətdaram və sağ əlimdə yerləşən dəbilqənin bağlanılmasına nəzarət edən kiçik güzgünü çıxardıb, generala xatirə olaraq təqdim edilməsini xahiş edirəm. Hamımız təsirlənirik. Görüş üçün ayrılmış vaxt tez keçir, buna görə generalla sağollaşaraq, tapşırığın yerinə yetirilməsinə hazır

olmağım barədə hesabat verirəm. Hazırlıq binasında bizi gözləyən avtomobilə keçərək, Zeniki, əvəzedicimi görürəm. Kədərlidir. Onu yaxşı başa düşürəm. Mənim kimi şansı var idi, amma əfsuslar olsun ki, ikimizdən ancaq biri uça bilər. “Ümidini itirmə. Bəlkə tezliklə”, – onun könlünü almağa çalışıram. Cavab vermir.

Avtomobillə start yerinə gedərkən raket mənə daha da nəhəng görünür. İlk süni peykin uçduğu yerdə dayanıb. Həmin işəsalma sistemindən on yeddi il bundan əvvəl Yuri Qaqarin uçmuşdu. Naməlum bir məkana start götürdüyü zaman nə hiss etdiyi, nə düşündüyü haqda tez-tez fikirləşirdim. Bizə yol açmış insan bizim üçün nümunə və rəmzdir. Pyotr heyətin başçısı kimi, Dövlət Komissiyasının sədrinə qısa hesabat verir. Ona cavab olaraq, bizə tapşırığı düzgün həyata keçirməyi və doğma Yer kürəmizə sağ-salamat qayıtmağı arzu edirlər.

Raketədək hələ bir neçə on metr beton yolu qalıb. Bu yol şairlər tərəfindən rəmzi olaraq 40 addım kimi adlandırılır. Məsafəni bizi yola salan böyük insan kütləsinin müşayiəti ilə qət edirik. Yanımda Kosmos Araşdırmalar Komitəsinin sədri, professor Rıxlevski gedir. Əlində çəkilməmiş siqaret var, söhbət edirik, lakin fikir verirəm ki, siqareti sanki yandırıbmış kimi tutur. Gülərək deyir: “Özünə yaxşı bax. Hava əladır”. Yalnız havanın onsuz da bizə təsiri olmayacaq – raket təyyarə deyil. Çoxu dostcasına çiynimizdən vurur. Skafandr sərbəst hərəkət etməyə imkan vermir. Raketin aşağısından platformanın pilləkənləri ilə qalxırıq. Bir neçə metr yüksəklikdən bütün yola salanları görürük. Jurnalist və reportyorlar çoxdur, texniki heyətlərin üzvləri və hər yerdə olan həkimlər də burdadır. Pilləkənlərdə yenidən Zenikə ürək-dirək vermək istəyirəm. Qeyri-müəyyən bir jestlə cavab verir. Bu mehriban insanlardan üzümü döndərəndə, raketimlə göz-gözə görüşürəm. Mənə böyük təsir bağışlayır. Qənaətə gəlirəm ki, o, şaquli vəziyyətdə daha da nəhəngdir. Onu baxışımla əhatə edə bilmirəm, çünki bazasının diametri doqquz metrdir. Yanında elə balacayam ki. Buxar buludlari ilə əhatə edilib. Bu, oksidləşdiricidir – maye oksigeni buxarlandırır. Anbarların üst hissəsi qalın şaxta və buzla örtülüb. Temperaturdakı böyük fərqə görə buz əriyir və gurultu ilə ayağımızın altına düşür. Skafandrda havalandırma sisteminin olmasına baxmayaraq, belimdən tərin axmasını hiss edirəm. Raketə tərəf ilk addım atanda, ani olaraq ayaqlarımda təsvir edə bilməyəcəyim ağırlıq duydum. Məlum reaksiyanın səbəbini tapa bilmədim. Bu məni gözləyən məsuliyyət və ya əzəmətli raketə olan hörmətdir, yoxsa sadəcə insan qorxusudur? “Gəl liftə gedək”, – Pyotr yada salır. Yuxarı qalxarkən boz kombinezon, altından yaşıl mundir və başında beret olan liftə xidmət edən cavan oğlan dünən tutduğu balıq haqqında bizə danışır. Yuxarıda olanda,

onun mehriban yalanını tuturam – çünki burdan bütün düzənlik görünür və kiçicik göl belə gözə dəymir. Gəmiyə girməmişdən əvvəl ancaq 40 rəmzi addımı keçmək üçün xidmət göstərmiş ayaqqabılarımızı soyunuruq. Beynimdən fikir keçir: nə qəşəngdir bu ayaqqabılar, kimsə bunları xatirə olaraq götürəcək? Bir neçə toplu gəmi sənədlərini götürürəm və ilk əvvəl heyvanlar kimi dörd ayaq üstə yumru girişlə gəminin "yaşayış" hissəsinə keçirəm. Bir neçə dəqiqə ərzində baqajın bərkidilməsini və xidmətimdə olan cihazları, aqreqat və mexanizmləri yoxlayıram. Hər şey qaydasındadır. Soyutma sistemi də işləyir. İçəridə xoş sərinlik var. Artıq lazımsız olan çamadan ventilyatorunu çıxardıram və çölə verirəm. Pyotru çağıraraq, aşağı, yaşayış hissəsinin altında yerləşən eniş kapsulasına ensiz girişlə keçməyə cəhd göstərirəm. Sən demə, Yer kürəsində dəfələrlə məşq etmiş olsaq da, elə də asan bir iş deyilmiş. Kapsul daxildən sanki daha balacadır, çünkü imkan olan hər bir yerə orbitdə yaşamaq və işləmək üçün tələb edilən bütün əşyalar qoyulub.

Sıxlaşaraq öz kreslom tərəfə keçirəm və otururam. Bərkdir, lakin ideal rahatlığı var, çünki bədənimin formasına uyğun olaraq düzəldilib. İşıqlandırma sistemini, skafandrın havalanma sistemini, tibbi bağlayıcıları qoşuram, start komandanlığı nöqtəsi ilə əlaqə yaradıram, şəxsi əşyalarımı gizlədirəm, alət panelinin üzərində isə qızım Emiliyanın verdiyi kiçik oyuncaqları asıram və ağır nəfəs alaraq dincəlirəm.

On saatlarla məşq etdiyim tanış otağa baxıram. Önümdə böyük alətlər lövhəsi var, üzərində ekranlar, siqnalizatorlar, monometrlər və idarəetmə üçün bütün düymələr yerləşib. Qreypfrut böyüklüyündə, 1:60 000 000 miqyasında olan kiçik qlobusu naviqasiyayönəldicinin işçi masasında görürəm.

Parametrləri yoxlayıram – ilkin nöqtə kimi orbiti göstərirlər. Yanında gəmi saatı var (mexaniki möcüzə), onun əqrəbləri saat 18.35′05″ üstünə qoyulub – artıq hesab edilmiş orbitə daxil olma vaxtı – bu zaman saat işləməyə başlayacaq. Sağ tərəfdə əsas iş masam – gəminin bütün sistemlərinin vəziyyətinə nəzarət və onları idarə edən mexaniki-elektrik cihazdır. Onun üzərində çoxlu siqnalizator və düymələr var – bəlkə iki yüzə yaxındır. Üzbəüz gəminin sürücülük sisteminin nəzarət ekranı, mühərrikin işinin rəqəmsal məlumatları daxil etmək üçün blok və digər cihazlar yerləşir. Sağ tərəfdən düz üzümün yanında odadavamlı şüşədən illüminatordur – indi ballistik pərdə ilə bağlıdır. Onun altında komandirin periskopunun böyük linzası üçün cib var. Kreslom sağ böyürdə və kapsulun ehtiyat paraşütü olan böyük konteyner arasında sığışdırılıb. Sol, mərkəzi tərəfdə Klimukun kreslosu yerləşir, onun

qabağında, sağ tərəfdə kosmik gəminin üfüqə nisbətən mövqeyini təyin etmək üçün istifadə edilən, eləcə də orbital stansiyaya birləşmə zamanı işlədilən periskopun vizoru qoyulub. Kresloları xilasetmə konteyneri ayırır (istənilən iqlim zonasında və yerdə qəza enişi zamanı sağqalmanı təmin edir), o biri konteyner kreslomun sağ tərəfində yerləşdirilib. Klimukun illüminatoru gecə görmə naviqasiya cihazları ilə örtülüb. Atmosferin tərkibini, temperatur, təzyiq, nəmlik və $CO_2$ miqdarını yoxlayıram. Belimi kresloda rahatlaşdırıram, ayaqlarımı kreslonun dəstək hissəsinə qoyuram və birdən yadıma düşür – gəncliyimdə mavi səmalara uçan pilot kimi özümü hiss edim deyə, taxtın üstünə kresloları qoyurdum və indiki vəziyyəti alırdım.

Pyotrun öz tabeçiliyində olan avadanlığın elementlərini yoxladığını eşidirəm. Bir azdan onun ayaqlarını görürəm, ehtiyatla kapsulun aşağı hissəsinə düşür, ortada yerləşən kresloda əyləşir və dincəlir. Cəld skafandrın havalanma nəqlini ona verirəm və öz işçi masamdakı ventilyatoru qoşuram. Mənə təşəkkür edir, üz-gözündən rahatlıq yağır. Yuxarı girişdə yola salanların üzləri peyda olur. Onlarla sağollaşırıq, bir azdan isə yerüstü xidmətçilər yaşayış hissəsinə girişi çöldən bağlayırlar. Bağlanan lyukun gurultusu eşidilir. Bir o qədər də xoş hiss deyil, çünki pis fikirlərlə assosiasiya edilir. Hormonoqrama uyğun olaraq, cəld işlərə başlayırıq. Pyotr bizi yaşayış hissəsi ilə ayıran lyuku bağlayır, sonra germetizasiya edirik. Boyuma uyğun olmayan bir məkanda qalırıq.

İşimiz çoxdur, iki saatdan çox vaxt aparar, çünki elə bir o qədər vaxtımız var. Komandanlıq bunkeri ilə daimi əlaqə saxlayırıq. Narazılığımız yoxdur. Kosmik gəminin və raketin bütün sistemləri düzgün işləyir. Gəmi germetikdir. Skafandrlar da eləcə. Ardıcıl olaraq (mən də rus dilində) hökumətimiz və partiyanın rəhbərliyinə bizə göstərdikləri etimada görə minnətdarlığımız barədə start əvvəli hesabatları veririk. Bu missiyanı yerinə yetirmək üçün əlimizdən gələni əsirgəməyəcəyimizi söyləyirik. Baş konstruktor – Valentin Qluşkodan təbrikləri qəbul edirik.

Starta on beş dəqiqə qalır. Onu idarə edən instruktor Viktor Suvorov xəbər verir: “Ya 16-3 (mən on altı-üçüncü) SAS vzvedyon”, yəni qəza xilasetmə sistemi qoşulub. Starta on beş dəqiqə qalıb. Rahatçılıq hiss edirəm, çünki iki saat yarım xilasetmə imkanı olmadan bir vulkanda oturmuşduq. İndi isə ciddi qəza zamanı gəminin yuxarısında yerləşdirilmiş xilasetmə raketi bizi işəsalma sistemindən təhlükəsiz hündürlüyə və məsafəyə atacaqdır.

Son gerisaymanı gözləyirik. Vaxt uzanır. Yer kürəsi musiqi səsləndirir. Rodoviç “Rəngarəng yarmarkalar”ı oxuyur. Anna German isə geoloqların, əsasən də kosmonavtların sevdikləri “Ümid” mahnısını ifa edir. Onun gözəl, büllur səsi, həqiqətən də sakitləşdirir. Musiqinin

fonunda son gerisayma əmrini eşidirik. "Mən 16-3 beş dəqiqəli hazırlığı elan edirəm". Əvvəlcədən sözləşmiş kimi, eyni vaxtda dəbilqəmizin şəffaf hissəsini aşağı salırıq, kreslolarda bərkitmə kəmərlərini yoxlayırıq və kəmərlərlə ayaqlarımızı bağlayırıq. Pyotr əmrə cavab verir: "Mən "Qafqaz"am, beş dəqiqəlik hazırlığı anladım, skafandrlar germetikdir". Sonra eşidirik: "Açar starta". Pyotr əmri təsdiqləyir. Starta hələ uzun beş dəqiqə qalıb. Gözləmək mümkün deyil. Birdən Pyotr polyak dilində danışır: "Siz nə edirsiniz?" O dəqiqə cavab verirəm: "Bunun artıq nə vaxt baş verməsini gözləyirəm. Bəlkə fikirlərindən döndülər", – zarafat edirəm.

Bir neçə saniyədən bir növbəti əmrlər səslənir:

- PROTYAJKA ODİN (dartılma bir)
- PRODUVKA (havalandırma)
- KLYUÇ NA DRENAJ (açar drenaja)
- PUSK (start)
- PROTYAJKA DVA (dartılma iki)

Bədənim boyu ürəyimin döyüntüsünü və raketin titrəməsini hiss edirəm. Raketi enerji və oksidləşdirici ilə təmin edən dirəklər artıq lazımsız olduğundan aşağı salınır. Yüksəkdən sanki təntənə ilə eşidirəm:

- ZAJİQANİYE (alışdırma)

Kreslolara basılırıq. Saniyələr çox yavaş keçir. Qeyri-iradi olaraq kəmərləri sıxıram.

- İLKİN (qüvvə).

Ucalan səsləri və yüngül titrəmə hiss edirik.

- ORTA.

Gurultu əlavə edildi, titrəmə artdı.

- ƏSAS.

Əmr hərəkətlərimizə sanki qadağa qoyur. Bədənlərimiz boyu raketin canlanmasını hiss edirik. Bizdən əlli metr aşağıda nələrin baş verməsini təsəvvür edirəm. Orada alov dənizi və qeyzerləri yaranıb. Saniyəyə bir ton yarım yanacaq yanır. Qüdrətli mühərriklərin qüvvəsi artır, raket güc eləyir. Artan vibrasiyanı hiss edirəm, çoxalan səs-küy sonunda qulaqbatıran nərəyə çevrilir. Beləcə təbiətin hüquqları bir-biri ilə mübarizə aparır. Eşitdik: - Podyom! (Start)

Tərpəndi. Hərəkət hiss etdim. İstəmədən, təlimata uyğun olmayaraq, polyak dilində dedim: "Tərpəndik, gedirik", bir an keçəndən sonra isə, Pyotr hər bir sözü vurğulayaraq hesabat verdi: "Ya Kavkaz – yest podyom, (Mən Qafqaz – start baş tutdu), heyət özünü yaxşı hiss edir". Moskva vaxtı ilə 27 iyun 1978-ci il dəqiq saat 16:27'21" göstərir. Tanınmayam məkana, həyatımızın ən böyük macərasına uçuruq.

# KABİNƏDƏ HƏBS

Kabinədə yarıqaranlıqdır. Cihazlar lövhəsində nəzarət lampaları yanıb-sönür. Göstəricilərin əqrəbləri fırlanır. Skafandrda olan ventilyatorların yüksək səsini eşidirəm. Qulaqcıqlarda bizim uçuş nəzarətçisi Suvorovun sakit səsini mühərriklərin artan uğultusu batırır. Hər şey, raket, bədənimiz və saplardan asılmış oyuncaqlar titrəməyə başlayır. Əzələlərimiz və sinirlərimiz gərgindir.

Kovalyonok və İvançenkov ilə iki həftə bundan öncə uçmuş raketi gözümün qabağına gətirirəm. Alov qeyzeri, mühərriklərin dözülməz, dəhşətli nəriltisi və qalxan raketi gizlədən toz və buxar buludu. Sanki raket bir anlıq havaya qalxdı, sonra isə yenidən partlayan vulkana oxşayan işəsalma sisteminə düşdü.

Mənə elə gəlir ki, bizim raketimizdə nəsə problem var, deyəsən, arxaya əyilib, düşürük. Daha da büzüşürəm. Xilasetmə raketinin şiddətli açılmasını gözləyirəm. "Ya 16-3 – 10 sekund, polyot normalnıy" (Mən on altı-üçüncüyəm, 10 saniyə, uçuş normaldır) - Suvorov məlumat verir. Bu xəbər məni sakitləşdirir. İllüziyalar itir. Birdən anlayıram ki, raketdə uzanıqlı vəziyyətdəyik və belimdə təyyarədə olduğundan fərqli yüklənmə hiss edirəm. Klimuk qoşulur: "Ya "Kavkaz"– rabota dviqateley na slux ustoyçivaya" (Mən "Qafqaz" -mühərriklərin işi səsə görə sabitdir). Radio vasitəsi ilə əlavə edirəm: "Ya Kavkaz 2" – raket rəvan gedir, artıq yüklənmə baş verir". Tək radiostansiya düyməsi olan idarəetmə dəstəyini iki əllə sıxıram. Bütün xırdalıqlaradək əzbər bilsəm də, sol əlimin altında orbitə çıxma trayektoriyalarının müvafiq sxemləri ilə olan lövhələri tuturam. Orada həmçinin qəza baş verdiyi zaman bizim etməli olduğumuz hərəkətlərin ardıcıllığı qeyd edilib. Yaddaşım xəbər verir: əgər qəza indi baş verərsə, 288 saniyəyədək aran yerlərə enəcəyik; 282-dən 512 saniyəyədək – enmə dağlıq zonasında baş verəcək, ondan bir az sonra isə Sakit okeanda; 494-dən və 510-dan 512 saniyəyədək – enmə SSRİ ərazisində baş verəcək. Ən böyük narahatlığı 494 və 510 saniyə arası olan müddət yaradırdı, məhz onu sarı ilə qeyd etdim – Çin ərazisində enmə, bəlli səbəblərdən bunun olmasını istəməzdik.

İlk səkkiz saniyə ərzində raket əzəmətlə şaquli vəziyyətdə qalxır, bundan sonra tədricən əyilərək şərqə yönəlir. Titrəmələr artır, yavaş-yavaş artan yükləmə artıq bezdirməyə başlayır. Kosmodromla daimi əlaqə saxlayırıq. Yer kürəsi tez-tez mühərriklərin işi və uçuşun gedişatı haqqında məlumat verir. Biz də əhval-ruhiyyəmiz, qeydlər və kosmik gəminin texniki vəziyyəti barədə hesabat veririk. "Ya 16-3 – 26 saniyə, uçuş düzgündür" – deməli, bir kilometr yarım yüksəklikdəyik – pis deyil. Növbəti məlumat: "60 saniyə - yanma kameralarında təzyiq normadadır, stabilizasiya düzgündür" – stratosferə çatdıq, yüksəklik 12,5 km. Səs baryerini keçirik. Gəmini əhatə edən havanın səs-küyü azalır. Yüksələn yüklənmə bizi kreslolara daha da sıxır, nəfəs almaq çətinləşir, havanı udum-udum alıram. Qarnımın əzələlərini daha da bərk sıxıram. Oyuncaqlar yüklənmə nəticəsində asıldıqları ipi tarıma çəkir, titrəməyə və narahatlıq yaradan şiddətli sıçrayışlara uyğun olaraq atılıb-düşür. Yan dərəcələrdən birinin qopmasından qorxuram. Yüklənmə 5G-yə yaxındır. Sinə və qırtlaqda dəhşətli sıxılma hiss edirəm. Ətrafda olan hər şey titrəyir, səs də eləcə. Deyəsən, hər şey pisdir. Tanrım!!! Uçuşun 118-ci saniyəsi – quru çartıltı eşidirəm. Yüklənmə itir, bizi dəhşətlə qabağa atır, pərçimlənmiş kəmərlər bədənimizi kəsir. Uçuşun sonu – düşünürəm. Heyf. Planşetə baxıram – QƏZA siqnalizatoru yanmır. Klimuk rahat-rahat I dərəcənin ayrılması haqqında xəbər verir. İnana bilmirəm. Sakitlik. Lakin görünməyən bir qüvvə tərəfindən yenidən kresloya sıxıldığımı hiss edirəm, belimlə titrəməni duyuram – böyük deyil, lakin əhəmiyyətli tezlikdədir. Deməli, hər şey qaydasındadır. Klimuka baxıram. Gülümsəyir. Əl ilə işarə edirəm: ƏLA! və II dərəcənin mühərriklərinin sabit işi haqqında hesabat verirəm. Yaddaşımdakı məlumatları xatırlayıram: yüksəklik 46 kilometr – qət edilmiş məsafə 44 kilometr, sürət saniyədə 1700 metr.

Kosmodromdan bizim uçuşu müşahidə edənlər həmin məqamda yüksəkdə, mavi səmada birinci dərəcənin bloklarını yana düşən işıqlı xaç kimi görürdülər. Birinci dərəcəyə məsuliyyət daşıyan texniklər və mühəndislər artıq yabanı araqla, çöl yabanı bitkilərindən düzəldilmiş texniki spirtlə sağlıq deyirlər. İşəsalma sisteminin xidmətçiləri öz işlərini görərək artıq iki dəqiqədir ki, arağın dadına baxırlar. Yazıqlar, üçüncü dərəcənin xidmətçiləri haqqında fikirləşirəm, onların öz vaxtları var, hələ yeddi dəqiqələri qalıb. Həqiqi "əzab"dır.

Saniyəölçəni təqib edirəm. 157-ci saniyə yaxınlaşır. Birdən yavaş, lakin ucalan nərilti eşidilir. Bu, artıq lazımsız olan raket xilasetmə sisteminin düşməsi deməkdir. Dörd saniyə sonra yenə partlayış eşidirik, güclü titrəmə və sankı kəsilən metal səsi gəlir. Məhz bu ssenari ilə incə gəmimizi dinamik hücumdan qoruyan 3,5 ballistik

örtük ayrıldı. İçəri işıqlanır, günəşin şüaları cihazlar lövhəsinə düşür. Radio vasitəsi ilə dedim: "Günəş dovşanı" içəri girdi". Klimuk rəsmi qaydada təsdiqləyir: "Örtüyün atılması oldu, illüminator açıqdır". Bu artıq 84 kilometrdir, belə hündürdə hələ olmamışdım. Başımı qaldırıb yer kürəsinə baxmaq üçün cəhd göstərirəm. Əbəs işdir, çünki yüklənmə başımı kresloya yaxşıca "bərkitmişdi". Ancaq qara kosmosu görürəm, çünki uçuş trayektoriyasının əyilməsi nəticəsində qeyri-adi vəziyyətdə idik - ayaqlarımız yuxarıda, başımız isə aşağıda, yer kürəsinə tərəf əyilmişdi.

Uçuş sabitdir. Yüklənmə böyük deyil – 2,5G-yə yaxın, lakin sistematik tərzdə artır, rahatlıq gəlir. Özümüzü yaxşı hiss edirik. Vaxtaşırı məcburi hesabatlar veririk - əsasən də vaxtı aparmaq üçün. Arada zarafat edirik. Klimuk kəskinliklə nikbinliyimi öldürür. "Günəş dovşanı" əvvəlki yerdə qalıb, deməli, uçuş sabitdir. "Hər şey ola bilər. Ayıq ol", – Klimuk xəbərdarlıq edir. Yəqin 288-ci saniyəni, yəni bizim raketimizin ikinci dərəcəsinin ayrılma məqamını nəzərdə tutur.

1975-ci ildə kosmonavtlar Lazarev və Makarov "Soyuz 18A" kosmik gəmisində bizim kimi uçurdular... Onda ikinci dərəcə ayrıldı. Lakin üçüncü dərəcə işləmədi. Gəmi saatda 25 km sürəti ilə Yer kürəsinə düşürdü. Kapsul uçuş trayektoriyasında partladı. Telemetriya hər iki kosmonavtın həlak olduğunu xəbər verdi. 21 G yüklənmə qeyd edilmişdi. Onlar isə sağ qaldılar. Danışmağa mövzuları bitmirdi. Lazarevə zarafat olaraq raketlə evə uçan kosmonavt adı verildi. O, Altay diyarından idi və Baykonurda start götürəndən 20 dəqiqə sonra elə məhz orada endi. Qəzanın nəticəsi tezliklə tapıldı – Ulduz şəhərciyi mərkəzinin işçisi, qadının işəsalma sistemində icazə verilməyən mövcüdluğu imiş. Kosmik mühəndislər, kosmonavtlar da köhnə dənizçilər kimi inanclara etibar edirlər.

Yavaşca şaqqıltı, yellənmə, yüklənmənin aşağı düşməsi bizi 167 kilometr yüksəkliyinə qaldıran, 3700 m/saat sürəti ilə təmin edən və kosmodromdan 440 kilometr uzaqlaşdıran ikinci dərəcənin düşməsi deməkdir. Klimuk Yer kürəsinə hesabat verir, cavab gəlmir. Rabitə ilə problemimiz var. "Üçüncü dərəcədə bu normaldır" – bu da Klimukun izahı. Rahatlanıram. Mühərriklərin səsi, demək olar ki, eşidilmir, incə titrəmə, raketin əyildiyi kanalda balaca yellənməsini və ikinci dərəcədə olduğundan daha tez artan yüklənməni hiss edirəm. Uçuş davam edir.

Raket bizi hələ 35 kilometr yüksəkliyə aparacaq və gəmini saniyədə 7800 metr sürətinə çatdıracaq. Bunu 1200 kilometr məsafədə, dörd dəqiqə ərzində edəcək.

Uçuşun səkkizinci dəqiqəsi keçir. Klimuka yüksəlmə qrafikini göstərirəm və əlavə edirəm "Sarı zonanı keçirik". Əl edir və

gülümsəyir – "Ondansa Taiti zonası olanda deyərsən. Bir şey olsa, azacıq əylənərik orda". Raket yüngülcə yellənir. Uçuş sabit olsa da, bu dəli uçuşun məni yorduğunu hiss edirəm. Tezləşmə daim artır. Dördə (4G ) çatdığımızı qeyd edirəm. Yenə qırtlağım sıxılır. Mənə elə gəlir ki, qaranlıq Kosmosa həmişəlik uçuruq. İndi orbitə çatacağımızı qeyd edərkən Pyotr deyir: "Sən sevinmə. Hələ elə sıxılacaqsan ki, hazır ol". "Bu bir az sonra olacaq, indi isə burda olanlara sevinməliyik". Son saniyələri hesablayıram. Gözlənilməyən şaqqıltı, belim tərəfə zərbə və yüklənmənin qəfildən itməsi gəminin raketdən azad olması deməkdir. Sanki uçuruma, qaranlığa düşürük, işıqlanma sönür, gəminin saatı işləməyə başlayır – bunların hamısı eyni zamanda baş verir və məni bir anlıq iflic edir. Nəfəsimi tuturam. Məlumat lövhəsi rəngarəng siqnalizatorlarla işıq saçır. Sirenanın şiddətli səsi məni hərəkətə gətirir. Bu cəhənnəm səs-küyünü yaradan cihazı söndürürəm. Pyotr FM rabitəsinin təkmilləşdirilməsini tələb edir. Radiostansiya və antenləri qoşuram. Pyotr "Zorya" – UİM-ə, yəni Moskva yaxınlığındakı Uçuşu İdarəetmə Mərkəzinə raketin ayrılması, bucaq sürətinin qarşısının alınması və gəminin stabilləşməsi haqqında məlumat verir. Saat 18:35′5″-dir.

Qeyri-adi və qəribə yüngüllük hiss edirəm. Məkanda asılılığı görürəm və duyuram. Kosmosun insanda hörmət hissi yarafdan qaranlığı fonunda mavi Yer kürəsini seyr edirəm. Sanki böyük sabun köpüyünün içindəyəm. Mənim gəmi kreslosundakı vəziyyətim dölün ana bətnindəki mövcudluğunu xatırladır. Birdən belə müqayisə ağlıma gəlir. Mən döləm – Ana, Yer kürəsinin övladıyam. Onun yaxınlığını və qayğısını hiss edirəm. Rahatam və hər şey yaxşıdır.

Klimukun səsi məni fikirdən ayırır: "Miroslav. Parametrləri oxu". Televizor monitorunu qoşuram və birbaşa yer kürəsi üçün oxuyuram: "SİO – (yön və birləşmə mühərrikləri) - əsas 235/15 atm., ehtiyat – 281/110; SKDU – (korreksiya mühərriki) - əsas 260/4,5, ehtiyat – 280/4,5; SA-da (kapsul) təzyiq – 820, BO-da (yaşayış hissəsi) təzyiq – 800". Gözümün ucu ilə lovitsk paltarlarında olan oyuncaqların üzümün yanından üzüb keçməsini görürəm, birdən metal çip peyda olur. Onu tuturam və skafandrımın cibinə basıram. Mənim üçün bu, BİLİNMƏYƏN şəraitdə insana xas olanı, özümüzkünü, adi gerçəkliyi anlamaq üçün rasional çərçivə yaradan bir şey idi. Yer kürəsinə qayıtdıqdan sonra baş konstruktora maraqlı bir hadisə kimi metal çip tarixçəsini danışdım. Amma o heç də gülmədi, məsələni çox ciddi qəbul etdi. Çipin verilməsini istədi. Anladım ki, kiminsə problemi olacaq. Hər ehtimala qarşı, yalandan "baş qəhraman"ı itirdiyimi söylədim, lakin anlayırdım ki, bu cür əşyalar orbitdə adi bir şey deyil və böyük

problemlərə səbəb ola bilər.

Pyotr konteynerin qapağı ilə mübarizə aparır. Sonunda naviqasiya cihazını çıxardır. Radio vasitəsi ilə təbrikləri qəbul edir. Sənədləşmə əlindən qaçır və sürətlə ventilyator tərəfə üzür. Üzən zaman bəzi səhifələr qəribə tərzdə açılır və böyük kirpini xatırladır. Ventilyatora çatır, ordan geriyə üzür və sol illüminatoru bağlayır. Pyotr nəticəsiz olaraq onu tutmağa çalışır. Kəmərləri açır və ... əks tərəfə üzür. Nədənsə tutmağa çalışır – faydasız. Onun ayaqlarını tuturam və kreslonun belinədək dartıram. Pyotr kəmərləri götürür, hərəkətsizləşir, dərindən nəfəs alır, itən sənədləşmə isə birdən onun gözlərinin önündə peyda olur. Gəmi saatının yavaş tıqqıltısını eşidirik. Həqiqət qayıdır. Mənə elə gəlir ki, gəmi yavaş-yavaş arxaya əyilməyə başlayır. Əminəm ki, başım daha da aşağıda olan bir vəziyyətdəyəm. Nəbzim normaldır. Ürəyimin hər bir döyüntüsü bu təsəvvürü gücləndirir. Ürəyimi gözlərim və gicgahlarımda hiss edirəm, sanki ürəyim başıma keçib, çünki burda daha tez döyüntüləri və artan sıxıntını hiss edirəm. Artıq bezdiricidir. Bir neçə saniyədən sonra mənə elə gəlir ki, bütün kabinəni tutmuş böyük bir başam. Əlimi, bədənimi, nə də ayaqlarımı duymuram. Sanki təkəm və məkanda yarasa vəziyyətində asılmışam. Özümü qəribə tərzdə hiss edirəm. Həmkarlarımın tapşırdıqlarını yada salaraq, daxili qulaqları qıcıqlandırmamaq üçün yavaşca və astaca başımla tərpədirəm. Səhhətimi nəzarət altında saxlayıram, ürəkbulantısı, lap pis vəziyyətdə isə qusmanı gözləyirəm. Bu vəziyyətdən qorxuram, lakin təhlükə hələ yoxdur. Nə vaxt pis olacaq? İndi, yoxsa bir saatdan sonra? Bəlkə Valera Bıkovski danışdığı kimi, uyğunlaşmanı bilmədən keçəcəm. Hələlik yaxşıdır, amma ehtiyatlı ol – öz-özümə deyirəm. Hansısa qüvvə mənim baxışımı sağa çəkir. İllüminatordan baxıram və anlaya bilmirəm – axı mən hansı vəziyyətdəyəm, amma buna baxmayaraq, planetimizin sanki böyründəyəm. Sağ çiynimin arxasında tünd qırmızı-mavi halədə Yer kürəsinin əyriliyini, onun altında isə üfüqə tərəf yönələn qızmar Günəşi müşahidə edirəm. Aşağıda, Yer kürəsində artıq gecədir, biz isə - gözlərimizi işıqdan aça bilmirik və əzəmətlə, hə, məhz əzəmətlə uçuruq, deyəsən, eyni zamanda üç oxun ətrafında fırlanırıq. Hansısa fantastik, qeyri-adi bir yuxudayam. Bəlkə bu, növbəti yuxudur? – öz-özümdən soruşuram. Birdən Pyotr səslənir: “Budur, Miroslav, artıq kosmonavtsan”. Dostcasına əlimi sıxır və əlavə edir: “İllüminatoru bağla, tamaşa etməyə hələ çox vaxtımız olacaq”. Bir daha sağa baxıram. Günəş Yer kürəsinin konturu arxasında gizlənir. Və biz sərhədsiz qaranlığa qərq oluruq. Daxili işıqları qoşuram. Gəmi saatı tıqqıldayaraq saniyələri ölçür. Saat 18:35-dir. Yer kürəsi bizi çağırır, səhhətimiz barədə suallar və mümkün qəza enməsi üçün

məlumatlar verir. Bir neçə dəqiqə ərzində "Qəza vəziyyətləri" təlimini "Qəza enişi" səhifəsində açıq saxlayıram. Məlumatları qeyd edirəm və verilmiş dəyərləri təkrarlayıram. Klimuk yazışmanı aparır. Yer kürəsi növbəti təbriklərini göndərir, lakin sözlərini bitirməmiş rabitə kəsilir. Qulaqcıqlarda vahid bir gurultu peyda olur – üfüqdə gizlənirik. Qəbuledicini söndürürəm və saatı qeyd edirəm 18:39.

Gizli cibdən ulduz linzasını götürürəm və illüminatorun çərçivəsinə quraşdırıram. Həmin cihaz sadə pilot görünüşlü nişangaha oxşar bir cihazdır. Dərin məkanda onun atdığı sarı kölgələrə tamaşa edirəm. Pyotrın mənə verdiyi ulduzlu səmanın fraqmenti ilə yumru xəritəni tuturam, həmin fraqmenti illüminatorda görməliyəm. Persey bürcünü tapmağa çalışıram. Onun ulduzlarından biri bizim gəmimizin orbitinin qütbünü göstərir. Bu parametr digər yön cihazlarının sıradan çıxması və orbitin dərhal tərk edilməsi zamanı son xilasetmə sistemidir. Ulduzları görürəm, çoxlu ulduz görürəm. Bürclərdən birini də tapa bilmirəm, amma onları planetariumda əla tanıyırdım. Narahat olmağa başlayıram – axı məşqlər zamanı onları səhv etmədən taoa bilirdim. Mənə nə olub? Gəminin altına baxıram və Kasyopeyi görürəm, Perseyə az qalıb çatmağa. Digər topluları da tanımağa başlayıram, lakin marağımı sakitləşdirmək üçün yenə də yuxarı, bayaq tanımadığım hissələrə baxıram. Və birdən mənə çatır – axı bu, bürclər deyil, bu, Yaponiyanın işıqlı şəhərləridir.

Bu məlumatı Klimukla bölüşürəm, o isə sakitcə deyir: "Hələ sən o qədər nələr təəccüblənəcəksən ki" və sonra əlavə edir: "Deyəsən, orbitə yaxşı çıxdıq. Obyekt germetikdir". Sonunda Perseyi tapıram və müvafiq ballistik məlumatları qeyd edirəm. Şəffaf dəbilqələrin qulaqcıqlarını açırıq. Gəmi saatının uca səsli tıqqıltısı eşidilir. Həmin saatın lazımsız mexaniki mürəkkəbliyi məni həmişə təəccübləndirirdi. Əlcəkləri hər ehtimala qarşı bağlı saxlayırıq.

Ulduz şəhərciyində, bizim mənzildə gərginlik burdakından az olmazdı. Emiliya və Lilya Klimuk iki həftədir ki, vaxtlarının çoxusunu birlikdə keçirirdilər. Axşamlar telefonlara daha yaxın olmağa çalışırdılar. Telefon zəngi Baykonurla əlaqə ümidini artırırdı. Söhbətlər səmimi deyildi: "Salamatçılıqdır", "Az qaldı", "Uşaqlar necədi, səhhətləri?" Emiliyanın səsindən necə çətin anlar yaşadığını anlayırdım, lakin özü hər şeyin qaydasında olduğunu təkrarlayırdı. Bizim kosmosa uçduğumuz andan Emiliyaya münasibət mühüm dərəcədə dəyişdi. İnsanlar daha mehriban, nəzakətli oldular, sorğu-sual verib maraqlanırdılar, kömək təklif edirdilər. Ən böyük dəstəyi ona Lilya verir, onun kosmonavtın həyat yoldaşı təcrübəsi artıq var. Emiliyanı sakitləşdirmək istəyirdi, lakin öz emosiyalarını da gizlədə

bilmirdi. Leonovun arvadı Svetlana və on ikinci mərtəbədə yaşayan qonşular Lida və Tolya Berezovoy tez-tez Emiliyaya baş çəkirdilər.

27 iyunda günortadan sonra Emiliya və Lilya televizorun ekranına gözlərini zilləyərək, Baykonurdan birbaşa çəkilişi uşaqlarla birgə sakitlikdə gözləyirdilər. Oğlum Mirek və Mişa da diqqətli idilər, qızım məqamın ciddiliyini hiss edirdi, çünki sualları pıçıldayaraq verirdi.

"Start dəhşətli dərəcədə gözəl idi – sonra mənə həyat yoldaşım dedi - əllərimi elə sıxmışdım ki, uzun müddət ağrıdı". Biz orbitə hələ çatmamış telefonlar zəng çaldı, ilk qonaqlar və teleqram gətirən poçt işçiləri gəlmişdilər. Lilya tələsik öz evinə qaçdı, çünki birinci mərtəbəyə gedən qonaqların səsi artıq eşidilirdi. Emiliya gələnlərlə məşğul olmağa macal tapmırdı, çünki telefon dayanmadan zəng çalırdı, gələn xanım qonaqlar ona kömək edirlər. Baş çəkənlər mehriban və coşqulu idilər, özləri ilə bişirdiklərini, hədiyyələr və digər "lazımlı" əşyalar gətirirdilər. Təbrik edənlər Lilyagilə gedirdilər, bəziləri hər iki mənzil arasında qalmışdılar. Elələri də vardı ki, orbitdən yeni xəbərləri bəhanə edərək yenidən qayıdırdı. Sağlıq deyilir, badələr qaldırılır, mahnı oxuyurdular, şən və maraqlı idi bu proses. Leonov da zəng edə bildi. Orbitdə olan son saniyələr barəsində dəqiq hesabat verdi, üstəlik mənim uşaqlarımla söhbət etdi. Kosmonavt ailələri, müəllimlər, mühəndislər, həkimlər, Mərkəzdən tanış olmayan işçilər və "İnterkosmos" yeni beynəlxalq qrupdan namizədlər gəlirdilər. Həyat yoldaşım əvvəlcədən bizim evə gələnlər üçün xüsusi albom hazırlamışdı. Gələnlər öz təəssüratlarını, arzularını, xoş sözlərini qeyd edirdilər, bəzən də gülməli şəkillər çəkirdilər. "Salyut" stansiyasının inspeksiyasından bir neçə ay bundan əvvəl qayıtmış Volodya Canibekov belə yazmışdı: "Kainatın sərhədi yoxdur. Xəyalların da sərhədi yoxdur. Orbitə çıxmağını təbrik edirəm. Sən və Sənin gözəl ailənə xoşbəxtlik arzu edirəm. Növbəti arzuların həyata keçsin".

Kosmonavtların evlərində qonaqlıq ənənəyə çevrilib. Adətən, üç mərhələdən ibarət idi. Birincisi start günü, ikincisi orbital stansiya ilə qoşulduqdan sonra, üçüncüsü isə Yer kürəsinə qayıtdıqdan sonra.

Növbəti gün gecikənlər səhər açılandan Emiliyaya baş çəkirdilər, axşam birləşmə haqqında xəbərlərin verilməsindən sonra mənzilin qapısında sevincli qrup yığışıb, gecə saatlarınadək davam edən məclis də öz yerində. Albomda yeni yazılar peyda olur: "Mirek, bu gün UKP-də (məşq idarəetmə nöqtəsi) sizin "Stıkovka" zamanı necə işlədiyinizə tamaşa edirdik və eşidirdik. Bunu əla bacardınız. Fikrim Sizin yanınızda idi, amma yalan deyə bilmərəm, Sizə paxıllıq edirdim. Sizi "Ulduz"da gözləyirik. Yaxşı əhval-ruhiyyə ilə qayıdın. Anatoliy (Berezovoy)".

Axşam vaxtı kosmodromdan qayıdan böyük qrup Leonov başda

olmaqla evə baş çəkirlər. Onları görəndə Emiliya telefonu götürür, qonşularına zəng edir və zorla deyir: "Tolya, Lida xilas edin". Tolya və onun arvadının Emiliyanın sağlamlığında olan problemlər haqqında xəbərləri var idi və ona gizlicə nəzarət etməyə söz vermişdilər. Ən pis fikirlə - lifti gözləmədən – Tolya on ikinci mərtəbədən aşağı qaça-qaça düşür. Qapını geniş açır və təng-nəfəs, uzun qırmızı şalvarda çaşqın qonaqların önündə dayanır. Tolya çox komik görünürdü. Hamı gülməkdən uğunub gedir.

Emiliya üçün əsəbi gözləmə vaxtı gəldi. Növbəti yeddi gün ərzində tək deyildi. Çoxları kömək təklif edirdilər. Polşadan telefon zəngləri sakitləşdirirdi, jurnalistlərin isə təkidli vizitləri isə əksinə. Leonov hər gün qonaq gəlirdi, uşaqlar üçün həmişə xırda-xuruş hədiyyələr, şirniyyat, arada isə pişik və it gətirirdi. Qızım üçün gülməli səhnələr çəkirdi və balaca qızcığazla onun üçün kosmosda ulduz axtaran atanın telefon danışıqlarını təqlid edirdi.

# GERÇƏK, YOXSA YUXU

Startın dinamik mərhələsini artıq geridə qoyduq, gərgin əzələləri və əsəblərimi yavaş-yavaş sakitləşdirirəm. Doqquz dəqiqəyə yaxın bir müddətdə oturacağa yapışmış halda həddən ziyadə yüklənmə və qorxu hissimizin öhdəsindən gəlirdik. Emosiyalarımız və sürət üçün 300 ton yanacaq yandırılması bahasına raket bizi Yer kürəsinin orbitinə gətirir.

Gərginlik yavaş-yavaş azalır. Raketin qəzaya uğraması haqqında fikirlər haradasa yoxa çıxır, lakin bir azdan sonra yenidən qayıdır, çünki qəzanın nəticələri ciddi ola bilər.

Bu fikir raketin yanında, start platformasında duranda məni müşayiət edirdi. Gəminin ən yüksək nöqtəsində olan oturacağımda əyləşəndə, yaxın iki saat yarım ərzində qəza baş verəcəyi halda xilas olma şanslarının olmadığını yaxşı anlayırdım. Raketin heyəti xilasetmə sistemini xidmət işçilərinin işəsalma sistemindən bir neçə yüz metr aralıda olmadığı halda, startdan on beş dəqiqə əvvəl qoşa bilər. Sistem avtomatik və ya uçuşu idarəetmə mərkəzinin tapşırığı ilə qoşula bilər. 60-cı illərdə bir hadisə baş vermişdi. Kosmik gəminin pilotsuz versiyası starta hazır idi, geri hesab başlamışdı. Planlaşdırılmış startdan beş dəqiqə əvvəl prosedur dayandırılır. Raketin xidmət platformasına çox sayda mütəxəssis qayıdır. On beş dəqiqədən sonra diqqəti işdə olan insanların üzərinə raketin xilasolma sisteminin mühərrikindən alov dalğası düşür. İşlənmiş qazların zərbə dalğası külə dönmüş meyitləri bir saniyəyə süpürüb atır və çöllüyə yayır. Ümidsiz və geri qaytarılması mümkünsüz itkilər. Faciənin səbəblərini bilmək üçün çox gözləmək lazım oldu, həmçinin qəsdən olması ehtimalı nəzərdən keçirilirdi. Laboratoriyalarda həmin mərhələ raketlərin həqiqi cihazlarında testdən keçirilirdi. Aşkar oldu ki, cihazlar xilasetmə sisteminin elə həmin anda qoşulmasına səbəb olan komandanı işləyib hazırlamışdı. Test dəfələrlə təkrar edilmişdi. Nəticə həmişə eyni idi. Gizli impuls raketin şaquli vəziyyətini izləyən jiroskoplardan gəlirdi. Laboratoriyada onların vəziyyəti dəyişməz idi. Həmişə olduğu kimi, tapmacanın cavabını cavan mühəndis tapdı. Baş verən hadisələrin eyni ilə keçməsi onu təəcübləndirmişdi. Test dəfələr-

lə aparılmışdı – jiroskopların bloklarının yanına qoruyucu qoyulur. Və yenə də razılaşdırılmış startdan 15 dəqiqə əvvəl jiroskoplar blokdan çıxarılaraq  azad buraxıldı. Mexanizmlərin tədqiqat masalarına yaxşıca bərkidilməsinə baxmayaraq, jiroskopların oxunun tədricən hərəkət etməsi nəzərə çarpdı. Və budur, "Cənablar, axı Yer kürəsi fırlanır". Jiroskop Yer kürəsindəki nöqtələrə nisbətən deyil, məkandakı nöqtələrə əsaslanaraq, öz oxlarının vəziyyətini müəyyən edir. Yer kürəsinin öz oxu ətrafında fırlanmasının nəticəsində işəsalma sisteminin yerləşmə məkanının bucaq yayınması baş vermişdi. Jiroskop bu vəziyyəti raketin əyilməsi nəticəsində yıxılma təhlükəsi kimi "təfsir etmişdi". Dəyər 7 dərəcəyə çatanda, qısaqapanma baş verir və mühərrikin odlayıcısına cərəyan gəlir. Bu səhv bir neçə insan həyatına son qoydu.

Rabitənin əhatə dairəsinin xaricindəyik, radiosakitlik adlanan zonada. Qurğuların texniki vəziyyətini və gəminin germetikliyini yoxladıq. Bir neçə dəqiqədən sonra ekvatoru keçəcəyik. Bu cür təcrübə həyatımda ilk dəfədir. Pyotrdan, dənizkənarında böyümüş adamlarda olduğu kimi, hər hansı sürpriz gözləyirəm. Amma heç nə, o, sadəcə orbital stansiyaya qoşulma aqreqatının saz olmasının test edilməsi və orbitin yüksəldilmə və korreksiya manevri üçün məlumatların hazırlanmasını xahiş edir. İllüminatoru bağlayan yapışqanla birləşmiş balaca pərdəni açıram. Üfüqün daha da işıqlandığını görürəm. Heç 33 dəqiqə çəkməyən kosmik gecə sona çatır. Günəşə doğru uçuruq. Yer kürəsinin əyriliyi qırmızı xətlə və üzərindəki maviliklə aydın sezilir. Orbital sürətə görə görüntü dəyişir. Sanki rəssamın fırçası altında üfüq işıq saçır, rənglər çoxalır, onların intensivliyi artır. İlk kosmik sübh daha zəngin rəng və forma dəstini mənə göstərir. Günəşi görəcəyimi fikirləşdiyim yer tünd qırmızı və bənövşəyi rənglər saçır. Geniş açılmış bəbəklərlə Günəşin sankı diametrinin yarısı boyda güzgüdəki əksinin çıxmasını görürəm, lakin o, bir azdan yenə üfüqdə itir. Faktiki olaraq Günəş üfüqün arxasındadır, refraksiya - şüanın atmosferdə sınması sayəsində peyda oldu. Bu zaman üfüqdən birdən-birə sanki nəhəng alov saçır və bütün rəng çalarlarının əhatəsində şar kimi çıxır. Günəş yuxarı qalxdıqca balacalaşır, qırmızılığını itirir. Qızılı rəngi hopdurur, rəngi açılır. Kabinə işıqlanır, hətta gözlərimiz ağrımağa başlayır, işıqlandırmanı söndürürük.

Günəşin çıxma prosesi valeh edir. Qeyri-adi və fantastikdir, dünyaya yeniliyin gəlməsi ilə assosiasiya olunur. Bu təzahürü gün ərzində on səkkiz dəfə görmək imkanı da qeyri-adidir. Həmin təəssüratlar çəkisizlik hissini və böyük sürətin anlamını zənginləşdirir. Orbitin işıqlı tərəfinə keçdik, Yer kürəsində isə gecə vaxtı idi. Günəş yer kürəsini tədricən işıqlandıraraq yavaş-yavaş qalxırdı. Qaranlıq itdi, bozluq ağardı,

buludların ağlığı və planet səthinin maviliyi peyda oldu, bizsə bu qeyri-adi, heyranedici görüntülərdən həzz alırdıq. Tanımadığım başqa bir ölçüyə düşdüm. Beynimin külli miqdarda təzahürləri yadda saxlaya biləcəyinə şübhə edirdim. Bəlkə onları şərh edib unudacaqdır.

Terminator altımızdadır – Günəşlə birgə hərəkət edən gecə ilə gündüzün sərhədi. Tezliklə Yer kürəsi tamamilə işıqlandı. Mavi-laciverd okeanın üzərindən uçuruq, çoxlu böyük və balaca adaları sezirəm. Onlardan bəziləri solğun yaşıl şəfəqlə əhatə edilib. Bu, Samoa və Kuk adalarıdır. Burada bir neçə il əvvəl Leonid Teliqa öz yaxtasında böyük çətinliklə və təkbaşına okeanla mübarizə aparırdı. Buludları seyr edirəm, fərqli fiqurlarda, bir-birinə birləşmiş, toplu mozaika yaradan buludlar. Bir baxışla atmosfer təzyiqinə aid olan spiralvarı sistemləri görürəm. Ağlığı görürəm, lakin aydın konturlarla və başqa, sanki tanış formalarda. Xəritəyə baxıram və növbəti kəşfi edirəm. Bu, Cənubi Amerikadır, Horn burnu və Odlu Torpaqdır. Bir az cənub tərəfdə - Antarktida. Bütövlüklə ağdır, çünki orada, cənubda qış ağalıq edir. Ağ – qar deməkdir, özüm üçün aydınlaşdırıram. Heyrətamizdir! Orbitin cənubunda, ən uzaqda yerləşən nöqtəni keçdik. Şimal-şərq tərəfə istiqamət götürürük. Cənubi Amerikanın sahili boyu cənubi Atlantik okeanını keçirik. Pataqoniyanın rəngarəng sahilinə tamaşa edirəm. Şimal tərəfə getdikcə ağ rəng bozarır və qar daha da azalır. Okean boz – sarı-yaşıl rəngini itirərək, daha canlı rənglərə keçir. Körfəzin xarakterik formasını müəyyən edirəm və başa düşürəm ki, oralarda hardasa Buenos-Ayres yerləşir. Qonşu Montevideo buludlardan azaddır. İki dəqiqədən sonra Rio de Janeyro görünür, artıq burada gur bitkilərin yaşıllığı görünür. Gözüm okeanın dəyişkən çalarlarına sevinir, ekvatorun yaxınlığında sarı-yaşıl rəngi seçirəm. Ekvatoru 51,6° bucaq altında keçirik, çünki orbitin əyilməsi belədir.

Çağırış siqnalı həmin valehedici hissləri yarımçıq qoyur. Əlaqə seansı yaratmaq vaxtıdır. Qvineya körfəzinə çatırıq, onun sularında KVK kriptonimli (Kosmonavt Vladimir Komarov) qoruyucu gəmi növbə çəkir. Gəmi retranslyator xidmətini yerinə yetirir. Bu cür altı gəmi var, onlar Kubanın sahili yaxınlığında, Meksika Körfəzində, Braziliyanın sahili yaxınlığında, Biskay Körfəzində və Yapon dənizində növbə çəkirlər. Klimuk Moskvanın yaxınlığında yerləşən UİM-lə əlaqə yaradır. Bizi ürəkdən salamlayırlar. Çoxlu təbriklər qəbul edirik. Məncə, Polşada insanlar sevinirlər və fəxr edirlər. Bizsə özümüzü yaxşı hiss etdiyimizi əminliklə bildiririk. Kosmik gəminin texniki parametrləri haqqında əvvəlcədən hazırlanmış uzun məlumat vərəqini oxuyuram. Bir az darıxdırıcıdır, amma mütləqdir. Məni daha çox Afrika maraqlandırır – Qara Torpağı axtarıram. Sahilə yaxın qəhvəyi, qitənin içində

isə sarı-yaşıl və boz rənglər məni təəccübləndirir. Saxarada müxtəlif çaları olan sarı-kərpici rəngə fikir verirəm və Aralıq dənizini görürəm. Yerdən çoxlu suallar verilir, sonunda gəminin germetikliyini təsdiq edirlər və orbital hissəyə keçməyə, skafandrları soyunmağa icazə verirlər. KF qəbuledicidən müxtəlif radiostansiyaların fərqli dillərdə qırıq məlumatlarını eşidirik, soyadlarımızı səhv tələffüz edirlər. Qəribə hissdir. Otaqlar arasında təzyiqi bərabərləşdiririk. Pyotr yuxarı hissədə yerləşən lyuku açır. Məni kresloda tutan kəmərlərdən azad oluram. Bu məqamda hansısa qüvvə məni incəliklə yuxarı aparır. Yerimdə qalmaq üçün kabinədə əlimə keçən cihazlardan tutmaq istəyirəm. Pyotrun üzərək lyuku keçib gözdən itməsinə tamaşa edirəm. Digər tam bərkidilməmiş elementlər yüngülcə havaya uçur və yuxarıda firlanır. Kreslonun kəmərləri və tellər dəniz otları kimi dalğalanmağa başlayır. Mən də sərbəstcə yuxarı qalxıram. Yüngüllük, daxili doluluğu hiss edirəm və mənə elə gəlir ki, baş-ayaq dayanmışam. Yumaq kimi yığılıram və yuxarı, Pyotra tərəf hərəkət edirəm. Baxışımı ona yönəldirəm, sonra ayaqlarıma baxıram ki, görüm nəyin üstü ilə “addımlayıram”, yenə də qayıdıb yuxarı baxıram və... daxili tanıya bilmirəm. Həmkarımın üstümdə olmadığından böyük təəssüratlar yaşayıram. O isə əksinə, sanki quyunun dibinə girmişdi, öz hərəkətlərimi isə suya başvurmuş kimi görürəm. Orbital hissəyə üzüb keçirəm və buranı da tanıya bilmirəm, sanki yerini dəyişib və yellənir. Kabinə, əlbəttə ki, sabit idi, məni hər tərəfə çəkən çəkisizlik idi. Bir-birimizə kömək edərək, hərəkətlərimizə mane olan skafandrları çıxarırıq, onlara qurudan ventilyatorları qoşuruq və müvəqqəti olaraq belə qoyuruq, hər an bizə lazım ola bilərlər. Əl və ayaqlarımı uzadıram. İndi dördlükdə olmağımıza fikir verirəm. Skafandrların içinə hava dəymədiyindən, mənzərə bir az qorxunc idi. Alt paltarımızı dəyişib, idman geyiminə oxşar yüngül uniforma geyinib kapsula daxil oluruq.

Kosmik gecə idi. Nə Avropanı, nə də ki, Günəşi görə bilmədim. Bozluq mənimlə qalır. Mənə elə gəlir ki, uçuruma, bəlkə də dəhşətli qara dəliyə gedirəm. Birdən bir azdan yaşamasam, o zaman nə olacaq? Bədənim soyuq materiyanın atomlarına dönəcək? Bəs ruhum və fikirlərim nə olacaq? – özüm-özümdən soruşuram. Naviqatorun kiçik qlobusu Baykal gölü sahəsində olduğumuzu göstərirdi. Saat 8-i ötmüşdü. Bir anlıq fikrə daldım. Yer kürəsi ətrafında 90 dəqiqə ərzində dövr etdik, Jül Vernin romanındakı kapitan Nemoyasa dünya ətrafında dövrə vurmaq üçün 80 gün lazım olmuşdu. Bir dövrə zamanı eyni vaxtda şimalda Günəşin batmasını - gecəni, cənubda isə doğuşu – gunortanı gördüm. 90 dəqiqə ərzində bir günü yaşadım, eləcə də yay və qışı, yəni ilin bütün fəsillərini görmüşdüm. Bu necə ola bilər? 90

dəqiqədə bütün ili yaşadım.

Yer kürəsi ətrafında ikinci dövrəyə başladıq. Uçuşun gedişini ümumiləşdirmək üçün fikirlərimi toplayıram. Sabahkı yanalma üçün bağlamanı hazırladıq, "İqla" yaxınlaşdırma radiolakasiya sistemi, avtomatik və manual iş sahəsindəki bütün oriyentasiya və nəzarət sistemlərini yoxladıq. Komandirin işini izləyirəm – Pyotr gərgin və dəqiqdir, nə elədiyinə əmindir – bu artıq onun üçüncü missiyasıdır. Sabah baş verəcək orbital stansiyaya qoşulma əməliyyati ilə əlaqədar bu günə çoxsaylı tədbirlər nəzərdə tutulub. Stansiya orbitdə 363 kilometr hündürlüyündədir və o, on iki min kilometr önümüzdədir. Biz ən aşağı orbitdəyık – perigeum 137 km, apogeum 260 km. Mərkəzdəki ballistiklər (orbitlərin hesablanması və uçuşun dinamikasına cavabdeh olan mühəndislər – red.) stansiyaya yaxınlaşmaq üçün 18 dövrə ərzində aşağı orbitdə qalmalı olduğumuzu hesabladılar. Gecə yarısında, beşinci dövrə zamanı ilk iki impulslu yüksəliş və orbitin düzəlişi manevrini icra edəcəyik. Artıq indidən hazırlıq əməliyyatlarına başlamışıq. Yer kürəsinin üfüqü və sürət vektoruna nisbətən gəminin yerini öyrənmək məqsədi ilə infraqırmızı şüalarla işləyən cihazları və ion səmtləşmə sistemini qoşuruq. Pyotr manual idarəetməni və sabitləşmə jiroskoplarının işini sınaqdan keçirir. Gəmi sabit uçur, lakin Yer kürəsinə baxmaq üçün vaxt yoxdur. Bu əməliyyatı keçirdiyimiz zaman - saat yarım tez keçir. Yorğunuq, çəkisizlik bizi əldən salır. Gəminin içərisinin coğrafiyasını iki cür başa düşdüyümü anladım. Müşahidəçi kimi – Yer kürəsində təlimlər zamanı olduğu kimi – döş-bel istiqamətində vertikalı qeydə alıram, lakin fikrimi yayındırsam və ya gözlərimi yumsam, o dəqiqə elə təəssürat yaranır ki, 90 dərəcə döndüm. Bu hadisənin daimi olaraq peyda olması başgicəllənmə və əlavə yorğunluğa səbəb olur.

Sənədləşməni qaydaya salıram və qeydləri tamamlayıram. Müntəzəm olaraq əvvəldən gündəlik yazmağı planlaşdırırdım. Belə başa düşürəm ki, sözümü tuta bilməyəcəm. Qələmi dizlərimin üstünə "qoydum", lenti saldım və illüminatora baxdım; bir saat əvvəl olduğu kimi, yalnız su sahəsi və buludları görürəm. Dəqiqələr gedir, mənsə itmiş dənizçi kimi daha böyük həsrət və ümidlə torpaq axtarıram.

"Sən orada nə edirsən? Gəl bura, nahar vaxtıdır", – Pyotr məni orbit bölməsinə çağırır. Ehtiyatla lyukdan keçirəm, orada itirdiyim avtomatik qələmimi görürəm, oğlumun hədiyyəsidir, fürsətdən istifadə edib rezin plombu yoxlayıram. İki illüminatorla işıqlandırılan aydın otağa çatıram. Günəş çox qızdırır. Klimuk gülümsəyərək, əhvalımı öyrənir və çox dinamik hərəkət etdiyimə fikir verir. Əllərində inisiallarım olan nahar paketini tutub. Onu mənə verir. Paket üzür, yavaşca fırlanır. Onu götürürəm, lakin bu hərəkətim bütün bədənimi əvvəlki şaquli vəziy-

yətimdən çıxarır, Pyotra dəyirəm və o, tavanın altına gedir. Onun ayağından tuturam, özüməsə ayaqlarımla kömək edirəm və bir dəqiqəyə yenidən "normal" vəziyyətə qayıdıram, lakin hardasa 30 dərəcə bucağında. Ayaqlar və belim üçün dirək tapa bilirəm. Tərpənmirəm və astaca öz yeməyimə tərəf gedirəm. Əfsuslar olsun ki, yemək soyuq olacaq. İstisini sabah orbital stansiyada əldə edəcəyik. Pyotr hər dəqiqə mənə dəyir. Yalnız ona tərəf baxanda, səbəbini başa düşdüm. Gülməyə başladım. Məndən bir az balaca olan Pyotr butılkanın tıxacı kimi üzürdü, "döşəmədən" "tavana" gah başı, gah da ayaqları ilə dəyə-dəyə üzürdü. Yeməyə diqqətlə yanaşıram. Meyvəli kəsmiklə dolu tübiki açıram. İçindəkindən bir az sıxıb çıxardıram, uduram, keçdi. Ləzzətli dad və ətir hiss edirəm. Ehmalca yeyirəm ki, boğazımda qalmasın. Pyotr hind xoruzu əti ilə konservi açdı və kifayət qədər böyük porsiyanı mənə verdi. "Ağzını aç", – dedi. Porsiya alnıma tuşlandı. Qalxıb onu tuturam, konserv çox dadlıdır. Həmkarlarımın mədəmi ilk gündən doldurmamaq haqqında xəbərdarlıqlarını xatırlayaraq çox yemirəm. İçməyə qarağat şirəsi seçdim. Kəsmiklə olduğu kimi, mayeni tübikdən sıxıb çıxardım. Şirə çıxarkən maraqlı tünd qırmızı rəngdə çalxalanan şar şəklinə düşür. Bu şarı dərhal sorub içdim.

Dördüncü dövrə zamanı Polşanın üzərindən keçəcəyik. Bunu fikirləşərkən, uzaqda olmağıma baxmayaraq, qəribə həyəcan hissi keçirdim. Atlantikada mənzərəli Madera, Kanar adaları və mənim üçün təəccüblü olsa da, Afrikada Atlas dağlarında və İspaniyanın cənubunda qar görürəm. Görünmə dərəcəsi əladır. Şimalda parlayan La Manş boğazı, İngiltərə, Şotlandiya yarımadası, daha yaxında Paris. Mərkəzi Avropa buludlarla örtülüb, lakin bizim sahilin bir hissəsi Baltikin boz sularından ayrılır. Polşada gecə düşür. İllüminatora yapışıb, Qdansk körfəzinə baxıram, Bıdqoşçun işıqlarını tanıyıram. Visla çayı günəş şüalarının təsiri ilə işıq saçır. Varşavanın üstündən uçuruq və növbəti, dördüncü kosmik gecəyə dalırıq. Pyotr işıqlanan gözlərimi görəndə soruşdu: "Orda nə gördün?". "Polşa, Polşanı və Varşavanı", – qışqırdım. Təbəssümlə əlavə etdi: "Sabah hava daha yaxşı olacaq". Bu məsələyə dair Polşanın Xəbər Agentliyi məlumat verdi: "Kosmik Uçuşların İdarəetmə Mərkəzi məlumat verir: "Soyuz-30" kosmik gəmisi Yelenya Qura sahəsində sərhədi keçərkən saat 21:02-də Polşa üzərindən uçmuşdur. Saat 21:02′20″ Miroslav Hermaşevskinin yaşadığı Vrotslav şəhəri, 40 saniyə sonra isə Varşava üzərindən uçmuşdur. Mərkəzi Avropa vaxtı ilə saat 21:03′20″. Polşa üzərində yalnız 80 saniyə olduq, lakin bu saniyələr ərzində o qədər təəssürat yaşadım ki, nəbzim startdakı nəbzimdən iki dəfə yüksək idi.

Növbəti kosmik gecə düşdü. Bayır tərəfdə ulduzlar, çox ulduz var

və Yer kürəsində işıqların ayrı-ayrı topluları görünür. Hardasa Asiya üzərindəyik. Pyotr məni işə çağırır. Mənim kimi boşluqda sallanıb. Saçları daranıb və o, elə hey kostyumun köynəyini düzəldir, çünki çiyinlərimiz yuxarı qalxır. Ona deyirəm ki, üzü şişib. Güzgünü göstərir. Mənim də "kökəlməyimə" fikir verirəm. Üzüm və gözlərim şişdir. Pis deyil, çünki fikirləşirdim ki, böyük baş görəcəm. "Bütün tapşırıq boyunca belə görünəcəksən", – Pyotr deyir. Enən aparat kapsuluna keçirik. Oturacağımda yer tutmağa çalışıram, bədənimlə mübarizə aparıram, çünki hələ də əyləşə bilmirəm. Təhlükəsizlik kəmərləri yardımıma çatır. "Özünü necə hiss edirsən?" – Pyotr soruşur. "Daha pis olacağını düşünürdüm", – cavab verirəm, amma yüngül başgicəllənmə, gicgahlar və diafraqmada nəbzin döyüntüsünü hiss edirəm. Dincəlirik və proqramın növbəti bəndində fikrimizi toplayırıq. Önümüzdə orbitin yüksəldilməsi, yəni 1 nömrəli manevr durur.



Baykonurda “Kosmonavt” mehmanxanası, startdan əvvəl iki həftə orada qaldıq. Müəllifin arxivindən.




Baykonurda, "Kosmonavt" mehmanxanasında dövlət komissiyasının iclası, 25 iyul 1978-ci il. İnterkosmosun sədri, akademik prof. Boris Petrov məruzə ilə çıxış edir. Uzaqda, izolyasiya edilmiş otaqda qərarı gözləyirik. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



“Sizə kosmik uçuşun icra edilməsi həvalə olunur”. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



İşəsalma sistemində məşqlərə getdiyimiz zaman çöllükdə görüş. Məhz bu qazax , biz uçmaq üçün raketə getdiyimiz zaman, otardığı sürüdən uzunqulaqdan enib qəflətən bizi salamlayacaq. Müəllifin arxivindən.



Dənizdə məşqdən əvvəl, hələ bizi nələrin gözlədiyini bilmirik... Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Bir andan sonra “Abşeron”un nəhəng kranı bizi coşmuş dalğalara atacaq. Kapsulaya ciddi narahatçılıqla daxil oluram. Feodosiyada  Qara dənizdə məşq. 1977-ci il, yay. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Bircə batmayaq. Bizim qayğımıza qalan dalğıcın sifətini heç vaxt unutmayacam... Kosmonavtların Təlim Mərkəzinin arxivindən.




Dənizdə manevrlər. Dalğaların yelləndirdiyi kapsuldan xilas ediləndən sonra. Mənim sağ əlimin yanında suda batırmaq istədiyim uğursuz paket. Dalğıclar təhlükəsizliyimizi qoruyurlar. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



“Fotonlar”ın “Soyuz-29” kosmik gəmisi ilə gecə səyahəti. Kovalyonok və İvançenkov start platformasının pillələrində, 15 iyul 1978-ci il. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Son istirahət, startdan iki gün əvvəl. Sonra isə tennis raketkalarını həqiqi birgə raketə dəyişəcəyik. Foto. P.Klimukundur.




Kosmonavt German Titovdan cəsarətləndirici sözlər. Müəllifin arxivindən.



Startdan əvvəl axşam – Pan Tvardovski ilə səmimi söhbət. Müəllifin arxivindən.



Birlikdə sevinclə... Müəllifin arxivindən.



... ərlər olmayanda isə kədərli və qeyri-müəyyəndir. Çkalov hava limanında kosmodroma uçuşdan əvvəl vidalaşma, 12 iyul 1978-ci il. Müəllifin arxivindən.



Kişi söhbəti. Müəllifin arxivindən.



Bizim daşıyıcı raketimiz 2 saylı işəsalma sisteminə aparılan yolda. Fotoqraf Tadeuş Zaqojdjinski.



Skafandrları taxmamışdan əvvəl yemək mərasimi. Sinəmdə orqanizmin işinə nəzarət edən sensorlu kəmər bağlanıb. Bizim həkim İvan Reznikov ofisiant rolunda. Müəllifin arxivindən.



Uniformaya "qablaşdırılmışlar", fikirlərimiz isə buradan uzaqdadır. Mavi dəridən olan ayağımızdakı zövqlü yüngül çəkmələr bizə ancaq avtobusdan start platformasına keçmək üçün lazımdır. Raketə daxil olmamışdan əvvəl onları soyunmaq lazım idi. Çöldə qalaraq, suvenir yığanların dəyərli ovuna çevrilirdilər. Bunun oxşarını Ulduz şəhərciyində balıq tutan balıqçıda görmüşdüm. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.

Bizi orbitə yola salandan sonra starta məsuliyyət daşıyan xidməti işçilər Ulduz şəhərciyinə gecə ilə qayıtdılar. Əlbəttə ki, Emiliyanı ziyarət etdilər. Bu isə məzəli rəsmdir ”Mireklə görüşə hazırlaşırıq”. Pani Mila və qızı. “Bizim əzizlərimiz, sizə görə çox şadıq. Qoy hər şey yaxşı keçsin. Sizin ailələriniz ən yaxşısına layıqdır. Ən dərin hörmət hissi ilə.
A. Leonov”.





Милые наши ребята, мы очень рады за Вас и самое большое наше желание — пусть будет всё хорошо! Ваша семья заслуживает самое доброе и земное! Мы все с Вами!

С глубоким уважением!

# DƏNİZ VƏ ORBİTDƏ MANEVRLƏR

Səhər 18-ci dairədə bizi orbital stansiya ilə çətin birləşmə əməliyyatı gözləyir, lakin artıq bu gün orbitin yüksəlmə (iki impulslu manevri adlanır) manevrini yerinə yetirməliyik. Baykonurdan start götürəndə, stansiya 363 km yüksəklikdə və bizdən 12 min kilometr uzaqda dairəvi orbitdə yerləşirdi. Startımızın vaxtı məhz onun yerləşməsindən asılı idi. Ballistiklər tələb edirdilər ki, onun orbitinin səthi start edəcəyimiz yerdən mümkün qədər yaxınlıqda yerləşsin.

160 km-ə yaxın alçaqlıqda yerləşən orbitdə daha böyük orbital sürətimiz var idi və təbii üsulla həmin stansiyaya yaxınlaşırdıq. Həmin stansiyada 12 gündür ki, "Fotonlar" – kosmonavtlar Vladimir Kovalyonok və Aleksander İvançenkov qalırlar.

Montaj orbitini yaratmaq üçün mümkün qədər yüksəkliyi artırmağı planlaşdırırdıq. Sabah səhərki manevr zamanı gəmimizi əvvəlcədən hesablanmış məkandakı nöqtəyə çatdırmalıyıq və bu nöqtədə bizim gəmidəki naviqasiya sistemləri orbital stansiya ilə radiolokasiya əlaqəsi yaradacaq.

Gəminin sistemlərinin işlək olmasını növbəti dəfə yoxlayırıq. Öz işçi masamdan ardıcıl olaraq – jiroskopu, üfüq və Yer kürəsinin səthinə nəzarət etmək üçün xüsusi periskopu, üfüqün infraqırmızı skanerini, ion yönəlmə sistemini qoşuram, eləcə də kiçik manevr mühərriklərini hazırlıq mərhələsinə gətirirəm. Pyotrun rəhbərliyi altında bütün tələb edilənləri yerinə yetirdim, o isə gəminin göyərtəsindəki təlimatdan əmrləri ucadan oxuyaraq öz-özünü yoxlayırdı və məndən onun hərəkətlərinə nəzarət etməyi xahiş edirdi. Mənə verdiyi işarəni anladım – başla deyirdi. Hər iki radiostansiyanı qoşdum – KF və UKF. Qulaqcıqlardakı səs sürətlə azalır. Pyotr işə başlayır. Mərkəzlə əlaqə yaradır, səhhətimiz və texniki vəziyyət barədə təkrar məruzə edir.

Məruzəni yekunlaşdırır: ""Zorya" – "Qafqazlılar" nömrə 1 manevri yerinə yetirməyə hazırdırlar". "Zorya" mənə müraciət edərək, manevrin yerinə yetirilməsi üçün məlumatlar verir, onları qeyd

edirəm. Jiroskopların X və Y kanallarındakı qayıdışı üçün rəqəm dəyərlərini dərhal rəqəmsal bloka qeyd edirəm. Cədvəldə qeyd edilmiş əməliyyatın vaxtı haqqında məlumatı komandirə təqdim edirəm. Pyotr iri əlləri ilə kiçik idarəetmə dəstəyini incəliklə tutur, daha doğrusu, sadəcə barmaqları ilə toxunur və gəmini Yer kürəsinin üfüqü ilə yönəltməyə başlayır. Kiçik mühərriklərin səsi gəlir. Pyotr gəminin yerləşməsinə nəzarət edir, onun sağ tərəfində düz mənim sol dizimlə üzbəüz yerləşən periskopun görüntülərinə baxır.

Məşğələlərdən onun qeydlərini xatırlayaraq, dərhal ayağımı sağa çəkirəm. Bizdən aşağıda Yer kürəsini görürəm, lakin o yavaş-yavaş sola çəkilir və gəminin altında itir.

Naviqasiya göstəricisi Atlantik okeanın üzərində olduğumuzu göstərir – hələ cənub yarımhissəsindəyik. Gəmi sürət vektorunun istiqamətinə uyğun vəziyyət alır. Onun vəziyyətini jiroskoplarda qeyd edirik və Pyotr mühərriki qoşur. Balaca titrəmə kreslonu itələdi. Səs-küy, vibrasiya və impuls sayğacının çıqqıltısı eşidilir, əsas və kiçik, tənzimləyici mühərriklərin işi haqqında xəbər verən siqnalizatorların yanıb-sönməsinə tamaşa edirəm. Sürəti 12 m/saat yüksəldirik. Mühərrik sönür – yenə "üzürük". Gəmi elliptik orbitə getdi. Əlli beş dəqiqə sonra, artıq saat 01.03'00"-da prosesi təkrar edirik. Bu dəfə mühərriki ən əsas məqamda qoşuruq və növbəti 38 metrə artırırıq. Gəmi ən yüksək dairəvi orbitə getdi. Onun parametrləri ilə ancaq səhər, ballistiklər növbəti manevr üçün məlumat verəndə tanış oluruq. "Bu günlük bu qədər", – Pyotr elan edir.

Çox yorğunuq. Gəminin konservasiyası və yır-yığış bir saat aparır. Buna baxmayaraq, özümü bir o qədər pis hiss etmirəm. İş vaxtı çəkisizliyin nəticələri haqqında unutmuşdum.

İllüminatorda günorta, gəminin saatında isə gecə saat ikidir. Sadə şam yeməyini yeyirik, iştaham zəifdir, bəlkə də bilərəkdən – həkimlərin tövsiyələrini yadda saxlayaraq mədəni ağırlaşdırmaq istəmirəm, lakin susuzluğumu yatıra bilmirəm. Yavaş-yavaş içirəm, şirənin necə "yuxarı" çıxmasını anlamaq istəyirəm. Mədəm boğazıma yaxın olsa da etiraz etmir. Pyotrun nəzakəti sayəsində orbital hissədə olan mini tualetimizin işlək olduğunu birinci yoxlayıram. Birinci mərhələdə yaxşıdır, ikincisinə ehtiyac olmadı. Startdan əvvəl imalənin niyə edildiyini indi anladım.

Pyotr dediyi kimi, yaxşı və əla işə görə mənə təşəkkür edir, səhhətim və təəssüratlarım barədə xüsusi soruşur. Onun mənə qarşı daimi qayğısını görürəm. Hiss edirəm ki, bu, standart yanaşma deyil, dostluq əlaqələrindən irəli gəlir. Pyotr dincəlmək üçün yer seçməyimə imkan verir. Orbital hissədə qalmağı qərara alıram. Burada yer

boldur və iki mini illüminator var. Pyotr şirin yuxular arzulayaraq kapsulaya düşür. Yorğunluq və saatın göstərdiyi vaxt dincəlməyə sövq edir, lakin Yer kürəsinə baxmaq tamahı məni yoldan çıxardır. Dənizdəki mayak hərəkətlərinə oxşar bir tərzdə uçuruq, aşağıda Yer kürəsi, Pyotr kapsulda, mən isə üst hissədəyəm. Buna baxmayaraq başım sanki sıxılır, sanki nəsə məni Kosmosun qaranlığına və sərhədsizliyinə sorub, hopdurmaq istəyir. Səhhətimdə problemlərin olmamasından razı qalaraq ayaqlarımı yığıram, əllərimi sinəmə sıxıram və fırlanmağa başlayıram. Fantastikdir. "Yatmaq lazımdır – Pyotr yada salır – gün çətin keçdi, səhər bundan asan olmayacaq, işsə çox məsuliyyətlidir". "Axı bu mənim kosmosda ilk günümdür – deyirəm, – necə gedib yata bilərəm? Heyf". "Lazımdır, lazımdır – Pyotr israr edir – lap yorulacaqsan". Və əlavə edir: "Bəlkə, Qara dənizi xatırlayasan..."

Keçən ilin yay aylarında "Tu-104"-lə Qara dənizə, Feodoziyaya uçmuşduq. Orada suya planlaşdırılmamış enmə baş verdiyi halda, heyətin hərəkətlərini məşq etməyə getmişdik. Dalğalar böyük idi, məşqləri başqa vaxta saxlamaq istədilər, lakin vaxt az qalırdı. Çarəmiz yox idi, razılaşdıq. Mühərrikli qayıq bizi böyük hidroqrafik gəminin trapının yanına gətirdi. Yan tərəfində yazı var idi: "Abşeron". Trapla gedərək, dünyanın bütün hərbi donanmalarına xas olan səs-küy eşitdim. Klimuk göyərtədə olanda, krem rəngli mundiri komandir nişanları ilə dolu olan zabitdən hərbi salam aldı. O özünü bu vahidin rəisi kimi təqdim etdi və qulluğumuzda hazır olduğunu bildirdi. Salamlama mərasimi bitdikdən sonra göyərtənin altına keçdik, orada isə bizi həkimlər və axtarış-xilasedici xidmətinin əməkdaşları gözləyirdi. Tədqiqatlar aparandan sonra bizimlə enməzdən öncə və sonra edəcəyimiz hərəkətlərin proseduru müzakirə edildi. Avadanlıq və onunla işləmə üsulları ilə tanış olduq. Skafandrları geyinərək göyərtənin yuxarısına çıxdıq və orada "Soyuz"un kapsulasını gördük. Etibarlı həkimimiz Reznikov yanıma gəldi və gizlincə əlimə nəsə qoydu. "Halın pis olsa udarsan",– dedi. Mən donurdum, göyərtənin qırağındakı dalğalar isə böyüyürdü. Bu cür yellənməyə necə tab gətirəcəyimi bilmirdim. Qdınyanın yanında, Babi Dolda qırıcı aviasiyada xidmət göstərdiyim vaxt həmkarlarımın təkidi ilə Körfəzə üzdük. Hava lap sakit idi. Yarım saatdan sonra dənizdən də, balıqlardan da bezmişdim, inanmırdım ki, sağ-salamat sahilə üzüb çata biləcəyəm. Yaxşıca biabır olmuşdum. Havada istənilən şıltaqlıq edə bilərəm, dənizə isə hörmətlə yanaşıram.

Məşqin başçısı kosmonavt Jevgeni Xryunov idi. Bizim narahat sifətlərimizi görəndə, məşqi başqa vaxta saxlamağı təklif etdi. Qə-

tiyyətlə “Yox” dedim. Kosmosda daha pis ola biləcəyini, deməli, məşqin labüdlüyünü qətiyyətlə, lakin könülsüzcəsinə əsaslandırdım. Pyotr məni göyərtədən atmaq istəyirmiş kimi baxırdı. Başqa çarə yox idi. Kapsulun altına nərdivan qoyuldu. Birinci getdim və içəriyə daxil oldum. O an hiss etdim ki, burada artıq kimsə məşq eləyib. Bütün mümkün ventilyatorları və skafandrın ventilyatorunu qoşdum. Pyotr da içəri daxil olan kimi bizdən əvvəl kiminsə olduğunu hiss etdi. Bizi kreslolara bağlayan kəmərləri bərkitdik. Ayaqlarımızı yuxarı qaldıraraq, bu vəziyyətdə aqibətimizi gözləyirdik. Əlcəkləri taxdıq və girişin germetikliyini yoxladıq. Pyotr heyətin məşqə başlamağa hazır olduğunu xəbər verdi. Cırıltı və şaqqıltı səsi gəldi – göyərtənin kranı bizi xətlə aparırdı. Bizdən uzaqlaşan hidroqrafik gəmini görürdüm. Birdən yellənməyə başladıq və kapsulun dənizə düşdüyünü hiss etdik. Kapsul sağa və arxaya əyilmişdi. Mənim illüminatorumu su bağlayırdı. Yaşıl suda müxəlif formada və rəngarəng meduzaları görürdüm. Dalğa vurub bizi sağa fırlatdı, üstümüzdən keçdi, növbəti dalğa isə bizi əks tərəfə atdı. Daxili qulağım bu rəqsi işgəncə kimi qəbul edirdi. Belimin istiləşməsini hiss etdim. Pyotr tərpənmədən uzandığı yerdə zəif səslə məşqin rəhbəri ilə məktublaşırdı. Onun alnında tər damcılarını və rənginin ağardığını gördüm. Düz oturmaq üçün kreslonun kəmərlərini açdım. Zorla qalxıb kreslonun oturacağında əyləşdim. Pyotr da bunları etdi. “Özünü necə hiss edirsən?” – dişlərini aralamadan soruşdu. “Rəngin ağardı” – dedi. Vəziyyət pisdir, dərmanı yada saldım, amma onu götürmədim. Nə qədər dözə biləcəyimi müəyyən etmək istəyirdim. Dalğa bizi yenə atdı, fırlatdı, yellənmənin sonu yox idi. Diafraqmanın altında sıxılma və istiliyin artdığını hiss etdim, bu, hələ məşqlərin otuzuncu dəqiqəsi idi. Əlcəyimi çıxartdım və həmin xilasedici dərmanı axtarmağa başladım. Kombinezonun cibinə laqeydliklə atdığım balaca sellofan paketi əlimdə hiss etdim. Düz vaxtında, artıq dözə bilmirdim. Ancaq “bağışla” deməyi çatdırdım. Utancaqlıq, ağrı, ürək bulanması və keylik, hamısı bir-birinə qarışdı. Pyotr mənim paketimi əlimdən almağa çalışırdı. Axırda aldı. Fikirləşdim ki, yaman əsəbiləşib mənə, lakin o da sellofan paketi qarşısında tutdu. İndi paket mənim deyildi, bizim idi, əldən-ələ keçirdi. Qəflətən enerji hiss etdim və özümü elə apardım ki, guya ən pisi keçib getdi. “Yer kürəsi” növbəti fərziyyələr göndərdi. Bayaqdan bizimlə radio rabitəsi kəsilmişdi. “Özünüz xilas olun, gəmilər sizin tərəfə gəlir” – eşitdik. Özümüzü necə hiss etdiyimiz barədə soruşdular, Pyotr isə həmin an “xoroşo” (yaxşı) cavab verdi. Prosedura uyğun olaraq əlcəkləri çıxartdıq və skafandrları əynimizdən soyun-

mağa çalışırdıq. Hətta normal şəraitdə bu çətindir, burada isə, ensiz, hərəkətli, qeyri-real idi, çünki heç düz durmağa da imkan yox idi. Pyotr böyük səylə, skafandrımın iplərini açmağa kömək etdi. Yarım saatdan sonra artıq ancaq alt paltarda idim, lakin tərdən hamısı yaş idi. Pyotrda daha yaxşı alındı. Bizim atılmış skafandrlarımız onsuz da balaca olan yeri lap kiçiltmişdi. Yan cibdən qalın isidici yun kostyumları çıxartdıq və bacardığımız qədər tez geyindik. Lap isindik. Bir az dincəldik. Xilasedicilər bizi gördüklərini xəbər verdilər. Dalğalar artırdı. Qulaqcıqlardan eşitdik: "Su elektrik sistemini basdı". Elə bu anda işıq və ventilyatorlar söndü. Dəhşət. Güc-bəla ilə rezin, sıx (əlbəttə ki, ventilyatorsuz) kombinezonları, əlcəkləri və xilasedici jiletləri geyindik. Daha dözümümüz qalmamışdı. Hava ağır, rütubətli, isti və oksigensiz idi. Boğulurduq. Kombinezon da nəmli idi, daha doğrusu, suyu hiss edirdik. Pyotr yuxarı qalxdı və böyük təkəri fırladaraq lyuku açdı. Altı və yarım dövriyyə etməli idi, lakin yorğunluqdan bunu üç dövriyyəyə etdi. Lyukun qapağını bir az çəkən kimi xilasedici, təmiz hava bizi özümüzə gətirdi. Pyotr kreslosunun üstünə qalxdı. Başı artıq çöldə idi. Ona paxıllıq edirdim. Mənə "NAZ-ı çıxar" deyə xatırlatdı. Kresloların arasından içində insan olmayan yerdə yaşamaq şansı verən əşyalarla olan üçbucaq ağır metal konteyneri çıxartdım. Dalğanın zərbəsi onu əlimdən aldı. Lyukun qapağının altı ilə keçdim. Pyotr dalğaya atıldı. Düz durdum və onun arxasınca ağır qəhvəyi konteyneri atdım. Konteyner az qala batmışdı. Dərhal onun kimi və prosedura uyğun olaraq, arxamı çevirib suya düşdüm. Sanki cənnətdə idim. Əvvəl xilasedici olmuş, indi isə uğursuz selofan paketi batırmağa çalışırdım. Üzə çıxırdı. Yanımda üzən akvalanq nəyisə itirdiyimi düşünərək, cəld selofan paketi tutdu və mənə verdi. Pyotr germetik konteyneri açmağı bacardı, radiostansiyanı çıxardı və rabitə yaratmağı çalışdı. Mənə siqnalizasiya raketini verdi, onu dərhal yandırdım. Fişəng paraşütdə asılıb qaldı. Qayıdış zərbəsi sinəmə dəyib incitdi. Əlcəyimin içi islandı. Suyu rəngləyən tozu tapdım və yaydım. İki siqnalizasiya şamını yandırdım – işıqlı və buxarlını. Yanıb qurtarmış hissələri bizim selofan paketə qoydum. Batdı. Bizi müşayiət edən pantonun göyərtəsinə qaldırdılar. Ovlanmış suitilər kimi uzanmışdıq, tərpənmirdik, ağır nəfəs alırdıq. Sonra bizi ABŞERON gəmisinə apardılar. Trapın üstü ilə sürünürdük. Bizi gəminin gülərüz kapitanı və heyətin üzvləri qarşılayırdılar. Çimməndən sonra tibbi yoxlamalardan keçdik. "Cəmi" üç kilo yarım atmışdım. Qısa istirahətdən sonra yorğun halda kapitanın kayutuna getdik. Kapitan qonaqlara çox sevindi. Masanın üzərində böyük qabda soğanlı rinqa balığı, qara çörək, su

dolu qrafin və stəkanlar düzülmüşdü. Rinqa balığına heç baxmadım, gözlərim qrafində qalmışdı. Kapitan başa düşüb suyu stəkana süzdü, hamısını başıma çəkdim. Kapitan mənə təəccüblə baxdı, mənsə boğazımda alov hiss etdim, gözlərim az qala yerindən çıxsın. Nəfəsimi saxladım və uddum. Sən demə, bu, su deyil, spirt imiş. "Nu, molodets" (Afərin) – kapitan yekunlaşdırdı. Məşqim uğurlu oldu. Səhərədək yatdım.

"Yaxşı, gedirəm yatmağa", – cavab verdim. Kapsulaya baxdım. Pyotr öz kreslosunda uzanmışdı. "Gecən xeyrə qalsın" – deyirəm, Pyotr isə "Yer kürəsini görəsən"- deyə cavab verir. Ətrafda qucaqlamaq üçün bir şey axtarıram, bəlkə, "durduğum" yerdə yatım. Ayaqlarımı yığıram. Gözlərimi yumuram, lakin məni yuxarı və yana aparanda açıram. Başım nəyəsə dəyir. Yox, bu rahatlıqdan imtina edirəm. "Servant"ın rəfində oturuiram, hava regeneratorunun isti konteynerini əllərimlə qucaqlayıram. Onun ventilyatorunun səsini eşidirəm və dərhal yuxulayıram.

İllüminatorda kapitan Nemo göründü. Saqqalı ağarmış, lakin qıvrım saçları qaradır. Onun üzü sərtdir, amma gülümsəyəndə, Klimukun sifətini tanıdım. Üzərək yanıma gəldi, əlinin içi böyük və isti idi. Məni suitinin böyük, tüklü dərisi ilə örtdü və yatmaq əmrini verdi. Sonra isə yox oldu.

Birdən şaqqıltı eşidildi və şırıltılı su səsi gəldi. Şok vəziyyətində oyandığımdan alnımı nəyəsə bərkdən vururam. Ani olaraq harada olduğumu müəyyənləşdirə bilmirəm. Yarısönük işıqda yanımda üzən əşyaları görürəm. Mən də üzürəm. Nəfəsimi tuturam, çünki artıq batmış sualtı gəmidə olduğumdan əminəm. Yavaş-yavaş reallıq qayıdır, yenə də başıaşağı çəkisizlikdəyəm, həmin səs-küysə sağ üzüm yapışmış işlək ventilyatorun səsidir. Sakitləşdim. Kapsula baxdım. Mənim Nemom yatır. Yenidən əvvəlki yerdə əyləşirəm, lakin bu dəfə özümü rezin lentlərlə bağlayıram və yuxuya gedirəm.

Saat onda oyanıram. Orbitdə gecədir. Rabitə seansına hələ bir saat qalıb. Pyotru oyatmamaq üçün səssizcə hərəkət edirəm, çəkisizlikdə bu o qədər çətin deyil. Gizlincə tualetdən istifadə edirəm. Əl-üzümü yumaq üçün xüsusi nəmləndirilmiş quru dəsmallar hazırlamışam, onların iyini Yer kürəsində çətinliklə qəbul edirdim. Burda lizol (dezinfeksiya dərmanı – red.) iyi gəlirdi, məni yaman qıcıqlandırırdı. Anladım ki, bu qəfil baş vermiş dəyişikliklərə qarşı bədənin etirazidir - çəkisizlik şəraitinə alışmanın başlanğıcı deməkdir. Mənə əvvəlcədən deyilmişdi ki, hissiyyat eləcə emosiyalarda güclənəcək. Heç kefim yoxdur. Yuxusuzam, başım sanki nəhəng şardır, üstəlik sanki daima baş-ayaq sallanmış kimiyəm. Pyotru oyatmaq qərarı-

na gəlirəm. Ehmalca saldo eləyirəm ki, komandirin yatdığı kapsula üzüb çatım. Bu vəziyyət, hətta xoşuma gəlir, çünki hiss etdiyim kimiyəm. Lyukda baş-başa dəyirik. Sən demə, Pyotr çoxdan oyanıb və gizlincə məni seyr edirmiş. Görürəm kefi pis deyil.

İçəri işıqlaşır, lakin qırmızı rənglər daha çoxdur, çünki Günəşin doğmasına az qalıb. Üstü şəkərlənmiş fındıq ləpəsi və ballı quru meyvələri xırtıldadıram, tübikdən kakao içirəm. Cibimə iki balaca şokolad bağlaması qoyuram. Hər şokolad bağlamasında kərpic formasında on ədəd şokolad var, jelatindən düzəldilmiş örtüyə bükülüb. Ağıza qoyulmamışdan əvvəl örtük çıxardılmır. O öz-özünə əriyir, heç bir dad hiss edilməsə də qırıntıların ətrafa yayılmasına da imkan vermir. Sadə və səmərəli.

İllüminatordan görünən üfüq yuxarı keçdi, yəni indi, həqiqətən də, baş-ayaq uçuruq – güya normaldır, əslində isə... İllüminatora baxmaq və qeyri-adi mənzərələri seyr etmək əvəzinə Pyotr göyərtədəki sənədləşməyə, "Stıkovka" mərhələsinə (orbital stansiya ilə birləşmə) baxmağı təklif edir. Çətin əməliyyatdır, prosedurla tanış olmağı, heyətin birgə işləməsini və bəxtimizin gətirməsini tələb edir. Onun uğurlu keçməsindən elmi eksperiment proqramının icra edilıb-edilməməsi asılıdır. Bu əməliyyata hazırlaşıb, simulyatorlarda onun müxtəlif gedişat ssenarilərini məşq etdik, qəza vəziyyətində hərəkətlərimizi araşdırdıq. Üzərimizdəki məsuliyyətdən xəbərdarıq, lakin özümüzə çox əminik. Amma yenə də, ürəyin lap dərinliyində balaca qorxu var. Kosmos Yer kürəsində əvvəlcədən ağla gəlməyən vəziyyətlər yarada bildiyini dəfələrlə göstərib. Bu bir çox heyətlərin başına gəlib. Hələ 1971-ci ildə "Soyuz-10" heyəti (V.Şatalov, A.Yeliseyev və Rukavişnikov), həqiqətən, "Salyut-1" stansiyası ilə birləşmişdi, lakin giriş lyukunu aça bilməmiş və missiya yarımçıq bitmişdi. Növbəti heyət, "Soyuz-11" (G.Dobrovolski, V.Volkov, V.Patsayev) stansiyanın göyərtəsinə çatdı. Kosmonavtlar 24 gün işlədilər, yanğından keçdilər, lakin Yer kürəsinə qayıtdıqları zaman kapsulun germetikliyinin itməsi nəticəsində həlak oldular. Skafandrsız idilər, çünki gəminin son dərəcə təhlükəsiz olması adi fakt kimi qəbul edilmişdi. İnsanın eqoizmi cəzalandırıldı. "Soyuz-15"-in də birləşməsi 1974-cü ildə alınmamışdı (G.Sarafanov, L.Dyomin). "Soyuz -12A" ilə uçan V.Lazarev və O.Makarov orbitə çatmadılar. Raketin üçüncü bölməsində qəza baş vermişdi, dəhşətli yüklənmədə möcüzə sayəsində sağ qalmışdılar. V.Zudov və V.Rojdestvenski 1976-cı ildə "Soyuz- 23"-də dəhşət yaşadılar. Avtomatikanın sıradan çıxması nəticəsində rahat yanaşma mərhələsi problem yaratdı. Ancaq heyətin ağılla hərəkət etməsi

nəticəsində toqquşmanın qarşısını almaq oldu. Obyektlər bir neçə metr məsafədən böyük sürətlə yan keçdilər və.... yenidən bir-birinin üstünə uçmağa başladlar. Elektrik cərəyanının söndürülməsi ölüm rəqsini dayandırdı. Sanki bunlar az imiş kimi, kapsul çox çətin hava şəraitində, çovğunlu gecədə donmuş Tenqiz gölünün buzu altına düşdü. Evakuasiya dramatik idi, lakin bir neçə saatdan sonra uğurla nəticələndi. Xilasedicilər son məqamda yetişdilər, elektrik elementləri tükənəndə. Hava regeneratorları söndü, radio susdu. Kapsulun içi soyumağa başladı, şaxta isə güclənirdi. Helikopterin pilotunun səyi ilə kapsul gölün sahilinə yedəkdə çıxardıldı. Sonralar zarafat eləyirdilər ki, bədbəxtliyi əvvəlcədən təxmin etmək olardı, çünki Rojdestvenski hərbi dəniz donanmasında sualtı akvalanqçı kimi xidmət etmişdi. Bu dəfə texnika günahkar idi, insan isə qalib gəldi. 9 oktyabr 1977-ci ildə isə vəziyyət başqa cür idi. Bu dəfə texnika qüsursuzdu, günahkar insan idi. "Soyuz-25"-in heyətini əla cütlük - V.Kovalyonok və V.Ryumin təşkil edirdilər. Neçə aylar idi ki, bir yerdə məşq edirdilər. Birincisi polkovnik-leytenant, dolu bədənli, xoş xasiyyətli, əla idmançı idi. İkincisi mühəndis, bir az qarınlı, dişləri arasında daim papirosla gəzirdi. Əla hazırlıqlı, nikbin, kefləri kök və zarafatcıl idilər. Onlar uzunmüddətli, 100 günlük uçuş üçün seçilmişdilər. Bu uçuş xüsusi olaya çevrilməli və Oktyabr inqilabının 60-cı ildönümü üçün hədiyyə olmalı idi – adət belə idi. Onların startını Uçuşu İdarəetmə Mərkəzində müşahidə edirdim. Kabinədə diqqətli və sakit idilər. Harmonik işləyirdilər. Növbəti gün "Salyut-6" orbital stansiyaya yaxınlaşmasının gedişatını təqib edirdik. Heyətin hesabatlarına qulaq asıb, onların hərəkətlərini fikirlərimdə qabaqlayırdım. İdarəetmə zalında olanların üzündən məsuliyyət yağırdı. Yaxınlaşma prosesini böyük ekranda izləyirdim. Stansiyanı kosmonavtlar kimi görürdük. Birləşməyə bir neçə dəqiqə qalmış səslərində narahatlıq yarandı. Kovalyonok əllə idarəyə keçdi. Aralarında məlumat mübadiləsi xaotik və sinirli oldu. Stansiyanın görünüşü bir az sola və bir neçə dərəcə yana çəkildi. Yaranan səhvi yavaş-yavaş düzəltməkdənsə, Kovalyonok Ryuminin təklifinə etibar etdi və bu səhvi daha da dərinləşdirdi. Düzəlişlər etmək üçün artıq gec idi. Toqquşma baş verdi. Avtomatika dərhal arxa mühərriklərini qoşdu. Obyektlər bir-birindən uzaqlaşmağa başladı. Zalda hamı donmuşdu. Kosmonavtlar kölgə və rabitə olmayan bölgəyə keçdilər. Bir neçə növbəti səy uğursuz alındı. Yanacaq bitmək üzrə idi, proqram yarımçıq kəsildi. İki gündən sonra heyət Yer kürəsinə qayıtdı. Çox yazıq, solğun görünürdülər, gözlərinin altında kölgə, başları qırxılmış, gözlərindən özlərini

günahkar hiss etdiklərini görmək olardı. Uğursuzluğun səbəbini onlardan heç cür öyrənə bilmədik. Bir-birini günahlandırmırdılar. Heç olmasa bir daha yenidən uçmağa, uğursuzluq ləkəsini silməyə hazır olduqları bilinirdi. Bir neçə ay sonra etimada layiq olduqlarını isbat etdilər, özü də necə. Ulduz şəhərciyində şayiə yayılmışdı ki, nöqsanlı yanalma düyünü uğursuzluğun səbəbkarı idi. Problemi aydınlaşdırmaq üçün ümid heyəti Y.Romanenko və Q.Qreçko "Soyuz-26" ilə göndərilmişdi. Onlar stansiyanın texniki vəziyyətini qiymətləndirməli idilər. Qüsursuz olan düyün tərəfdən uğurlu birləşmə əməliyyatı aparılmışdı. Bir neçə gün sonra, xüsusi skafandrlarda uğursuz düyünün daxili yoxlanması aparılmışdı. Təəccüblü və sevindiricidir ki, nə zədələnmə, nə də texnoloji nasazlıq aşkar edilməmişdi. Gəzən şayiələrdən birinə görə, məhz texnolji nasazlıq mexaniki birləşməyə imkan verməmişdi.

Romanenko və Qreçko orbitdə 96 gün qaldılar. Öz uçuşları ilə "Salyut-6" stansiyasının orbitində uzunmüddətli işləmə ənənəsini yaratdılar.

Bəs tale bizə hansı nəsibi - bəxtəvərlərin, yoxsa uğursuzların arasında olmağı yazıb?

Pyotrla ikimiz də razıyıq ki, bu raundda biz qələbə qazanmalıyıq.

# ÖZÜNƏMƏXSUS GÖRÜŞ

*"Salyut-6"* stansiyası ilə birləşmək üçün hazırlıqlara başlayırıq. Təhlükəsizlik üçün köməkçi skafandrlarımızı geyinirik. Hərə öz kreslosuna əyləşir, kəmərləri yüngülcə bağlayırıq. Nəbzim elə bil başımda vurur, yenə də baş-ayaq vəziyyətdə olduğumu hiss edirəm və bu hiss məndən əl çəkmir. Mümkün olan bütün parametrləri yoxlayıram və onları cədvələ qeyd edirəm. Birləşmə zonasından hələ çox uzaqdayıq. Bizdən aşağıda okean və buludlar var. Artan həyəcanı hiss edirəm. Uçuşun çox məsuliyyətli, çətin, lakin həm də maraqlı mərhələsi yaxınlaşır. Bacarığımıza inanıram. Texniki qüsurlar da çətin yaransın. Əlcəkləri taxandan və skafandrların germetikliyini yoxladıqdan sonra hazır vəziyyətdə qalırıq. Divarlarda, görünən məsafədə cədvəlləri və yaxınlaşma prosedurunun qrafiklərini asıram. Onları hələ Yer kürəsində olanda işləmişdim. Rənglənmiş cədvəl və qrafiklər boz-yaşıl məkana rəng qatır. Yardımçı olacaqlarına inanıram, çünki müxtəlif gözlənilməyən variantları ehtiva edirlər. Orbiti bir az qaldıracağıq. Onun stansiyanın orbiti məkanında müəyyən nöqtədə birləşməsi üçün Yer kürəsindən məlumat veriləcək. 40 kilometr aralıqda avtomatik axtarış və aparma sistemini qoşacağıq. Yer kürəsindən gələn siqnalı alan stansiya kodlaşdırılmış radioya öz siqnallarını göndərir. Gəmimiz siqnalları alandan və tanıyandan sonra avtomatik olaraq çox az sürətlə birləşmə düyününü stansiya tərəfə fırlatmağa başlayacaq. Dəqiq altı dərəcəyə çatdıqda, gəmimizin antenləri radiosiqnallar göndərəcək, stansiyanın aparatları da onları qəbul edəcək. Bu zaman stansiya öz birləşmə düyününü bizim tərəfə yönəldəcək. Qarşı-qarşıya "baxan" hər iki obyekt öz orbitlərində hərəkət edərək bir-birinə yaxınlaşacaq. "Soyuz"un radiolakasiya sistemi stansiyanın yerini müəyyən etdikdən sonra onun hərəkət parametrlərini təyin edəcək, logistik sistem isə müvafiq əmrləri işləyəcək. Əgər həmin məsafə üçün yaxınlaşma sürəti kiçik olarsa, "üz-üzə" vəziyyətində sürətartırma adlandırılan sistem daha böyük sürət əldə etmək üçün korreksiya mühərrikini qoşacaq. Sürət yüksək olduğu zaman gəmi arxasını stansiya tərəfə döndərəcək ki, mühərrikin impulsları ilə sürəti azaltsın. Yan sürət yarandığı zaman gəmi həmin sürəti korreksiya mühərriki ilə aradan qaldırmaq üçün müvafiq vəziyyət

alır. Birləşmə mərhələsində gəmi stansiyaya doğru öz vəziyyətini bir neçə dəfə dəyişə bilər. Periskop və TV kamerası ancaq önə baxdıqlarına görə, heyət stansiyanı daimi olaraq izləyə bilmir – bu isə vəziyyəti çətinləşdirir. Pyotr xahiş edir: "Linzanı ekrana tax". Periskopun üzərindən mat ekranı çıxarıram, böyük, deyəsən, 20 sm diametrli linzanı isə yaylı siyirmədə bağlayıram. Dizlərimin önündə yerləşən persikopun videoarayıcısı da bağlıdır. Pyotr əsəbiləşir, lakin onu əmin edirəm ki, bu tərəfə baxan kimi, ayağımı sağa çəkəcəm. Birləşdirici kəmərləri boşaldıram, sol ayağımı tutan kəmərisə bərk sıxıram. Avtomatikanın onlarla elementlərini, rabitəni, logistik sistemləri və hər şeyi saatla və göyərtə təlimatının "Stıkovka" bölməsinin kartlarında göstərilmiş ardıcıllığa uyğun olaraq qoşuram. Pyotr bir neçə dəfə radioqəbuledicini qoşmağı yadıma salır. Onu artıq qoşduğumu deyirəm və göstərirəm. Lap əvvəldən onun qulaqcıqlarında problem var. Saat 19:33′09-da avtomatik yaxınlaşma sistemini qoşuram. Nəzarət cədvəli par-par yanır, yönəlmə mühərrikinin işləməsini göstərən siqnalizatorlar yanıb-sönür. Göyərtə saatının dayanmayan tıqqıltısından əlavə mühərriklərin impulsunun işinin taqqıltısı gəlir. Bizim gəmi hələ görünməyən orbital stansiyaya tərəf firlanmaqdadır. Növbətçi lampalar "sürətartırma zonası" vəziyyətinin alınması, o biri yaşıl isə "Salyut"un radiolakasiya əlaqəsi haqqında xəbər verir. Dərhal məlumatları oxuyuram. Pyotr hesabatı hələlik maqnitofonun lentinə yazır: "Məsafə 18 km, yaxınlaşma sürəti 25m/s". Növbəti hesabat: "Məsafə 17, sürət 23".

Stansiyanın bucaq sürətini işləyən blokun ekranından elektron nöqtə itdi. Pis haldır, çünkü bu, mühüm məlumatdır. Göstəricilərin olmaması diqqətimizi çəkir, səbəbi tapmağa çalışırıq. Aparatı dəfələrlə yandırıb-söndürürük – nəticəsiz. Əməliyyatımızı "Fotonlar" stansiyasının həmkarları yarımçıq qoyur: "Sizin parametrlərinizi monitorinq edirik".

Bu isə birləşmə əməliyyatındakı göyərtə maqnitofonunun faktiki yazısıdır. Vaxt az olduğundan əmrlər qısaldılmışdı.

Klimuk: məsafə 10, sürət 15, bucaq sürətlərinin göstəricisi yoxdur.

Fotonlar: Bizdə belədir 0,0457s.

Klimuk: Sizi Yer kürəsinin fonunda işıqlı nöqtə kimi görürük.

Mən: Sürət bir az yüksəkdir, ucluq impulsla işləyir. Əyləc tərəfə dönüşün başlanğıcı.

Klimuk: Miroslav, ekranda elektron nöqtə yoxdur.

Mən: Bir daha çevirirəm.

Kömək etmir və bu məqamda ekranlı qutunu, sanki köhnə televizoru döyəcləyən kimi vururam və qəribədir, ekranda nöqtə peydə olur.

Klimuk: Əyləci basırıq.

Mən: 4 saniyə olacaq. Qurğularda təzyiq dəyişməyib.

"Fotonlar": Yaxşı gəlirsiniz, görürük.

Klimuk: Elektron nöqtə peyda oldu. Miroslava doğru, məsafə 14 km, sürət 17.

Mən: 12 olmalıdır.

Klimuk: Birləşməyə nə qədər vaxt qalıb?

Mən: 2.05. təzyiq və işlədilmə dəyişiməyib.

Fotonlar: Sizin bucaq sürətiniz 0,05.

Klimuk: Rabitəni qoş.

Mən: Əvvəldən qoşuludur, bax – nəzarət lampasını göstərirəm.

Klimuk: "Fotonlar", deyəsən, sizi Yer kürəsinin fonunda görürəm. İşıqlı nöqtə, məsafə 10, sürət 10.

Mən: Qrafiklə gedirik, təzyiq düzgündür 220/15.

Klimuk: 9-un 14-ə (yəni məsafə 9 km, yaxınlaşma sürəti isə 14 m/s) BUS-u qoş (yaxınlaşmanın idarəetmə bloku).

Mən: BUS qoşuludur, işıq verir, ucluq işləyir.

Klimuk: 7-nin 14-ə, sürətartırma zonasına gedirik.

Yer kürəsi: prosesə nəzarət edirik, gedişat düzgündür.

Klimuk: məsafə 4, sürət 14, dalğalanma 0, sürət artır.

Mən: SKD-nın (korreksiya mühərriki) BUS-a qoşulmasının icazəsi var, fırlanır, dönüş var.

Klimuk: "Yan tərəfin qarşısının alınması" var (yan sürəti) – korreksiya mühərrikinin işləməsi və impuls sayğacının şaqqıltısı gəlir.

Mən: Qoşuldular, 4 saniyə olacaq, təzyiqlər normadadır.

Klimuk: 700/2.

Mən: 500 olan kimi antenna siqnalının azadılmasını qoşacam.

Klimuk: Sürət 0, sürətlənmə zonasına dönmə gedir.

Mən: 6 saniyə verməliyəm.

Klimuk: Görürəm, məsafə 500, stansiya 35° sola fırlanıb, SKD qoşuldu, 5 saniyə

Mən: Uyğunluq, təzyiqlər normada.

Klimuk: Yaxınlaşma qrafiklə, stansiyanı linzada görürəm, 45° əyilmə var.

Mən: Ehtiyatlar normada.

Klimuk: Əyləc zonasına gedirik, məsafə 300, sürət 0,5, düşür.

Mən: SKD-nın BUS-dan qoşulmasına icazə var, işıq yanır .

Klimuk: SKD qoşulması oldu, yanalma diapazonudur.

Mən: SKD-nın BUS-dan birləşmə icazəsini söndürürəm, söndü. - Korreksiya mühərrikini söndürdüm. İndi isə yaxınlaşma prosesi ancaq kiçik – yön və yanalma mühərriklərinin istifadəsi ilə keçəcək.

Klimuk: Məsafə 280, sürət 0,5.

Mən: 5AO antenanını götürürəm. – Sirena işləməyə başlayır, həyacan siqnalını söndürürəm.

Klimuk: Sonadək linza ilə gedəcəm, yaxınlaşma sabitdir, yuxarıdadır.

Mən: 200 metr.

Klimuk: Hesablanılıb.

Mən: "Zorya", idarəni öz üzərinizə götürün. KRL-i söndürürəm, telekameraları qoşuram.

Klimuk: Əyilməni düzəlt.

Mən: Ensiz obyektivi qoşuram və filtri seçirəm.

Klimuk: 120 metr, sürət 0,8 m/s, reflektorları unutma, 90 metr, işığını və qoruyucusunu görürəm (stansiyanın), sabit gedirik.

Mən: Pyotr, xahiş edirəm, dövrəyəalmanı qoş, 50 metr, sürət 0,7 m/s.

Klimuk: Birləşmə cəftəsi ekranın mərkəzinə .

Mən: Genişbucaqlı obyektiv götürürəm, stansiya və işıqları aydın görürəm, əyilmə yoxdur.

Klimuk: Miroslav, kölgəyə girməsinə nə qədər qalıb? Fənər işıqlarını qoş.

Mən: 5 dəqiqə, fənərlər qoşulub, filtri dəyişəcəm.

Klimuk: Yaxşı, sabitləşmə dəyişməyib, 9 metr, 0,3 m/s, 5 metr, 1,5 metr.

Toxunmanı gözləyirik, kəskin taqqıltı eşidilir.

Mən: Əlaqə yarandı, mexaniki tutma oldu, qoşulma mühərriklərinin siqnalizasiyası yanıb-sönür.

Klimuk: "Zorya" - "birləşmə" oldu, "mexaniki tutma" oldu; Mirek, vaxtı qeyd et: 20:07′50.

Gəminin yüngül yellənməsini (balansvurmanı) seyr edirik

Klimuk: Birləşmə reallaşdırıldı. Miroslav, təbrik edirəm.

Mən: Mən də səni, afərin sənə.

Kölgəyə keçdik.

Fotonlar: Birləşməni təbrik edirik, gözləyirik.

Mən: Volodya, lampasları (şalvarın yanlarına tikilən rəngli parça zolağı – red.) axtar.

Kovalyonok: nə lampaslar ?

Mən: Pyotrun general şalvarı üçün.

Gülüş – biz, "Fotonlar" və Yer kürəsi gülürük. Ancaq indi gərginliyin azalmasını hiss edirəm.

Yer kürəsi: Sakitləşin, hər ikinizdə 120-dən (nəbz) yüksəkdir!

Dərindən nəfəs alırıq, sevinirik, dincəlirik. Dəyərdi – özümə deyirəm. Elmi proqramı icra edəcəm. Elektrik mühərriklərinin səsini və

kilidlərin şaqqıltısını eşidirəm. "Soyuz" və "Salyut"un birləşdirilmiş, vahid bir konstruksiyaya çevrilməsi prosesi reallaşdırılır.

Son yaxınlaşma manevri zamanı "Salyut-6" stansiyasından 260 metr aralıqda, Baykonur kosmodromunun üzərindən uçduq. Birləşmə Baykal gölü zonasında baş verdi. Əməliyyatın son fazasında emosional gərginlik artmışdı, çünki gecə yaxınlaşırdı. Çatdırdıq. İndi isə biz "Soyuz-29" – "Salyut-6" – "Soyuz-30 "orbital elmi-tədqiqat kompleksini təşkil edirik.

Saat 23:06-da yenidən Polşanın üzərindən uçuruq. Gözümün ucu ilə baxmağa belə vaxtım yoxdur. Stansiya ilə birləşmənin germetikliyini yoxlayırıq. Bu proses iki bütöv fırlanma vaxtını alır.

Gəmi və stansiyanın keçid düyünü germetikliyi saxlayır. Yorğun halda skafandrları soyunuruq. Mavi, rahat, sinənin sol tərəfində ağ şahin şəkli olan iki hissəli paltarı geyinirəm. Sonunda stansiyaya keçid lyukunu açırıq. Elektrik mexanizmi bunu yavaş-yavaş, sanki təntənə ilə edirdi. "Fotonlar"ın bizi uca səslə dəvət etdiklərini eşidirəm. Anlaya bilmirəm, stansiyaya üfüqi, başım aşağı, yoxsa yuxarı vəziyyətdə üzüb keçəcəm. Məkanda vəziyyətə dair illuziyalar güclüdür. Stansiyaya birinci üzüb keçirəm, düz Volodya Kovalyonokun qucağına. Bərk-bərk qucaqlaşırıq. Sevinc böyükdür, poçt və hədiyyələri çıxaranda isə lap artır. İdarəetmə mərkəzi ilə öz emosiyalarımızı bölüşürük. Rabitə seansı saat 21:21-də bitir. Enerjinin artmasını hiss edirəm və işə başlayıram. Gəminin elektrik və hidravlik cərəyanını stansiyaya keçiririk. Göyərtənin təchizatını söndürürük və baxış keçiririk. Stansiyaya 8 su ilə dolu qab, yemək ehtiyatları, eksperimentlər aparmaq üçün materialları gətiririk, nəhayət, ventilyasiya borusunu gəmiyə keçiririk və işləri saat 3.30-da bitiririk. Yataq kisəsini tuturam, həmkarlar onu divarda "baş-ayaq" bağlamağa kömək edirlər. Öz yataq kisələrini da divara bərkidirlər, lakin "üfüqü" şəkildə. "Çarpayı"ma üzüb daxil oluram, belimin arxasında hansısa kabelləri hiss edirəm, lakin məni heç nə əzmir. Kimsə lətifə danışır. Bir an içində ailəmlə vidalaşma səhnəsini görürəm... və əllərimi uzatdığım vəziyyətdə oyanıram. Bədənimin yarısı kisədən çıxıb. Özümə "Məni burdan kim asıb?" sualını verirəm.

Göyərtədə həyat artıq qaynayır. Volodya radioqramı qəbul edir, Saşa sənədlərin üzərində yorulmadan işləyir, Pyotr isə tualeti zəbt edib – üzqırxanın səsini eşidirəm. Baramamdan azad oluram. Dostlar məni ürəkdən salamlayırlar. Tavanla döşəmənin arasında sallanaraq, gimnastika hərəkətləri etməyə çalışıram. Hava burulğanına düşürəm və bununla bütün cəhdlərim sona çatır. Dezinfeksiyaedici mayeli nəm dəsmallarla tez əl-üzümü yuyuram. Güzgüyə baxıram və "artdığımı" hiss edirəm. Üzümü qırxmağı sonraya saxlayıram, çünki məni birgə

səhər yeməyinə dəvət edirlər. Masanın arxasında irəli çəkilmiş oturacaqlara "əyləşirik" və kəmərləri yüngülcə bağlayırıq. Hərə öz ritmi ilə aşağı və yuxarı hərəkət edir – yadıma düşür ki, Slupskda "pod Kluka" mehmanxanasının barında olan qonaqlar atın yəhərinə oxşar bir şeyə əyləşirdilər və barmenin idarə etdiyi mexanizmin cırıltısına uyğun olaraq, buna oxşar tərzdə yellənirdilər. Həmkarlarım üçün sürprizim olacaq, lakin onu şam yeməyinə saxlayıram.

Stansiyadakı ilk gün uyğunlaşma günü idi. Birinci rabitə seansı zamanı həmişəki kimi sağlamlıq haqqında suallar, qəza enməsi üçün ballistik məlumat, sonsuz təbriklər, rəsmi və şəxsi teleqramlar verildi. Onlardan biri məni xüsusən təəccübləndirdi. Müəllifi, Oleşnitsada planer kursundan qrup yoldaşım, Ziqmunt Borislavskinin yaşlı, mehriban atası idi: "Pan Mirek, Demblində 1964-cü ildə Aviasiya məktəbinin bitirilməsi ilə əlaqədar Sizə kosmik karyera arzu etdikdə heç bilməzdim ki, tale bunu hərfi mənada qəbul edəcək. Ziqmunt mənə sizin cavanlıqda, planerlə uçmağı birgə öyrəndiyiniz zaman xüsusi istedad nümayiş etdirməniz haqqında danışırdı. Kosmos nailiyyətlərinə görə Sizi çox-çox təbrik edirəm. Öz ailəmin adından növbəti ulduz uğurları arzu edirəm. Vlodimej Sava-Borıslavski". Görürsənmi, ən fantastik arzular belə həyata keçə bilər. Burada, sonralar görkəmli mühəndis, planer kursunda məndən yaxşı oxuyan və birinci olaraq "Vağ" planeri ilə təkbaşına uçan Ziqmunta ehtiramımı bildirmək istərdim.

Elə də doyumlu olmayan səhər yeməyindən sonra Pyotrla birlikdə "Test" eksperimentini aparırıq (çəkisizlik vəziyyətində psixoloji və uyğunlaşma tədqiqatları), bir neçə səhifəlik suallara cavab verirəm. Fürsət düşəndə bayıra baxıram – gördüklərim darıxdırıcı bəndlərdən maraqlıdır. Baxışımla planetimizin minlərlə kilometrlərini əhatə edə-edə özümü dünyanın hökmdarı kimi hiss edirəm. Cənubi Amerikanın qərb sahilinin görünüşündən ləzzət alıram. Amazonka hövzəsinin tropik meşələrinin və onun Atlantikaya olan geniş, şərqi istiqamətdə 300 kilometrədək qəhvəyi lillə əhatələnmiş çay mənsəbinə böyük zövqlə tamaşa edirəm. Braziliyada Natalın üzərindən keçdim, altı dəqiqə yarımdan sonra isə artıq Afrikanın Dakar rayonundakı sahillərindəyəm. 1933-cü ildə ilk, tənha polyakın, kapitan Stanislav Skajınskinin qət etdiyi həmin yolla uçurdum. Həmyerlim polyak istehsalı olan RVD-5 balaca turist təyyarəsi ilə Seneqalda St.Luisdən Braziliyadakı Maçeiodək məsafəni (3582 km) qət edərək, o zaman 450 kiloluq təyyarələr üçün rekord vurdu. Atlantikanın üzərində on yeddi saatdan çox uçarkən, hava şəraiti, tənhalıq, texniki problemlər, yuxusuzluq və öz-özü ilə mübarizə edəndə nə hiss edirdi görəsən? Bu uçuş qəhrəmanlıq idi və bu uçuşda kosmik nəsə vardı.

Hava şəraitinin, istiqamətin və ilin bəzi aylarında əsən passatların gücünün təhlilinə əsaslanan marşrutun uzunmüddətli metodik hesablanması nəticəsində, naviqasiya alətləri qismində ancaq qol saatı, pərgar və sürət sayğacına malik olan adam belə nəhəng məsafədə planlaşdırdığı yoldan yalnız 12 kilometr kənara çıxmışdı.

Naharadək test tapşırıqlarını həll edirdim. Nahar sürprizdir. Yer kürəsi məni çağırır – "Qafqaz-2, sənin üçün sürpriz var". Kodla deyirlər: " +y oxunda, 7 nömrəli dolabda, B sektorunda, 42 nömrəli bağlama – sənin üçündür". Sürprizi axtarmağa "gedirəm", qida anbarını tapıram, bağlama 42 – bu, polyak yeməyi bigosdur. Regenerasiya sistemindən paketə qaynar su tökürəm və bir neçə dəqiqədən sonra bıçağın köməyi ilə qida əlçatan olur. Hamının fikrincə, başqa yeməklərdən fərqli olaraq, ətri və dadı mükəmməldir. Kovalyonok əlavə edir: "Bu cür yeməyi xarab edirik". Polyak mətbəxi üçün bu, xoş komplimentdir. "Şam yeməyinədək gözlə" – ürəyimdə fikirləşirəm. Acı xörək həzmi düzəldir. Özümü daha yaxşı hiss edirəm, ən azından, ürəyim bulanmır.

Uçuş proqramında polyak və sovet alimləri tərəfindən hazırlanmış bir neçə eksperimentin aparılması nəzərdə tutulmuşdu. Bu, tibbi-bioloji, geofizik və texnoloji eksperimentlər idi. Həmçinin əl aparatı ilə fotoşəkil və filmlərin çəkilişi, eləcə də seçilmiş elmi mövzuya əsasən telereportajın aparılması tapşırılmışdı. Axşama planlaşdırılmış civə (Hg), kadmium (Cd) və tellur (Te) yarımkeçirici materialların mikroqravitasiya şəraitində kristallaşmasına əsaslanan maraqlı təcrübəm var. Eksperimentin adı Sirenadır və Polyak Elmi Akademiyasının Fizika İnstitutu tərəfindən hazırlanıb.

Hg, Cd, Te elementləri atom ağırlığı ilə fərqlənir. Qravitasiyanın təsiri şəraitində və konveksiya nəticəsində əridilmiş komponent qeyri-vahid struktur yaradır, vahidliyi isə yarımkeçiricilərin fiziki xassələri müəyyən edir. Qravitasiyasız şəraitdə əldə edilmiş yarımkeçiricilər böyük dərəcəli vahidliyə malikdirlər, buna görə də yüksək həssaslıq və aşağı inersiya ilə səciyyələnir, bu, infraqırmızı şüalanmanın əla detektorlarıdır. Buludlar, buxar, atmosferdə tozlama bu şüalanmaya maneə olmurlar. Eksperimenti Aleksandr İvançenkovla aparıram. Tavanda iki şlüzdən birinə montaj edilmiş "Splav" – stansiya göyərtəsinin elektrik cihazından istifadə edirik. Xüsusi ampulalara qoyulmuş tətbiq edilən materialları onun içində əridirik. Sonra isə həmin materialı 47 saat davam edən yavaş və nəzarətli soyutmaya məruz qoyuruq. İki ampulam var, deməli, eksperimenti iki dəfə icra etməliyik. O biri ampulanı da bu cür qızdırırıq, lakin 16 saat yarım davam edən passiv (avtomatik temperatur nəzarətindən istifadə etmədən) soyutma aparırıq. Eksperimen-

ti reallaşdırdığımız müddətdə “Salyut” stansiyası azad orbit uçuşunda idi, konstruksiyanın titrəməsinə və ya tezləşməyə səbəb ola biləcək bütün cihazlar söndürülmüşdü. Biz də, heyət də xüsusi ehtiyatla hərəkət edirik. “Fotonlar” öz proqramlarını reallaşdırırlar. Bioloqların göbələklərin vəziyyəti haqqında sorğu-sual etdiklərini eşidirdim. Onlara tamaşa edirdim, şəffaf qablarda böyüyürdülər. Çəkisizlik onları ənənəvi geotropizmdən məhrum etmişdi. Bütün istiqamətlərə böyüyürdülər. Bəzilərinin papaqları aşağı, torpağa istiqamətlənmişdi, hamısı formasını itirmişdi. Gələcəkdə çəkisizlikdə uzun müddət keçirəcək kosmonavtlar haqqında fikirləşdim – görəsən, onlar da belə təəccüblü məqamlarla rastlaşacaqlar? Ev sahibləri hər gün qaçış və veloergometr idman alətlərində məşq edirdilər. Qan-tərə batınca özlərini yorurdular. Bu zaman şəffaf şirlənmə ilə örtülmüş mum fiqurlarına oxşayırdılar, təri isə gülərək dəsmallarla yığırdılar. Fiziki məşqlər gündəlik çətinlikləri unutmağa və gərginliyi azaltmağa kömək edirdi. Onlar məşq edib, stansiyanı əsdirdikləri zaman mən illüminatordan Günəşin batmasına baxmağı xoşlayırdım. Stansiyanın ətrafında, qara səmanın fonunda sanki kometa hörüyünü və ya qar çovğununu müşahidə edirdim – bu, minlərlə yanıb-sönən, parıldayan işıqlar idi. Həmin parıltıları stansiyanı istiləndirən bir neçə qat alüminium folqadan ibarət olan örtük salırdı – termik örtük, demək olar ki, termos funksiyasını yerinə yetirirdi – istiliyi xaricə buraxmırdı, təhlükəsizlik üçün isə perforasiya edilmişdi ki, qəfil sürətli qalxma baş verdikdə start zamanı təzyiqin düşməsi nəticəsində cırılmasın. Günəş küləyi ilə qovulan alüminium parıltılar gözəl vizual təzahür yaradırdı. Hər gün qeyri-adi bir şeyə tamaşa edirdim. Bir kosmik gecə zamanı (Yer kürəsində gündüz idi) iki-üç işıqlı nöqtə gördüm. Bir azdan ikisi də göründü. Prosedura uyğun olaraq, heç bir fikir irəli sürmədən Pyotra illüminatordan baxmağı xahiş etdim. Bir neçə anlıq şüşədən qopmadı. Xeyli müddət tamaşa etdi. Əlini çıxardı, dörd, sonra isə beş barmağını göstərdi. “Yeddi” anladım. Mən də baxdım. Həqiqətən də, yeddi “obyekt” var idi. Stansiyamız ətrafında əzəmətlə uçub fırlanırdılar. Avropanın üstündə olanda, Yer kürəsindən bizim rayonda hər hansı obyekti görüb-görmədiklərini soruşduq. Yer kürəsi inkar etdi. Günəş batdığından, ora tamaşa etmək qeyri-mümkün oldu. Böyük narahatlıqla növbəti gecəni gözləyirdik. Obyektlər yenə də bizi müşayiət edirdi. Özümüzü narahat hiss etdik. Kovalyonok obyektlərin trayektoriyasını təsvir etməyə başladı. Növbəti əlaqə zamanı Yer kürəsi obyektlərin necə hərəkət etməsi barədə soruşdu, bəzilərisə antenləri çıxartdı və işıq indikatorlarını qoşdu. Belimdə soyuq tər

hiss etdim. Məktublaşmanı Kovalyonok aparırdı. Uzun məlumat mübadiləsindən sonra Yer kürəsi soruşdu: "Yeddi ədəd görürsünüz?" – Bəli, yeddi. Yer kürəsi - "Stansiyalar sağdan sola fırlanırlar?" – Bəli, yenə də stansiyanın başçısı təsdiq etdi. "Onda narahat olmayın. Ötən gün Miroslavla Saşanın Kosmosa buraxdıqları zibil konteynerləridir". Hamı gülməyə başladı. Öz təsəvvürüm məni çaş-baş salmışdı, ONLARın olmaması isə məni məyus etdi.

Bəzən əyləncə üçün məkanda sərbəst üzən suyun özünü necə aparmasını müşahidə edirdik – ağırlıq qüvvəsi ona təsir etmir, yerüstü gərginliyin sayəsindəsə sferik, yəni şar formasını alır. Verilmiş həcmdə ən az sahəli formanı. Bunu öz gözlərimlə görməyə fürsət tapmışdım. Avropanın seçilmiş rayonlarının şəkillərini çəkirdik. Aparatın yanında olmağım mütləq idi. İş uzanırdı, mənsə tualetə getmək istəyirdim. Müvafiq anı çox gözləyəsi oldum. İşdə iki və ya üç dəqiqəlik boş vaxtdan istifadə etmək istəyirdim. WC-yə tərəf enerji ilə üzdüm. Tələsik lazımi cihazı tapdım. Qarnımın altına söykədim. Bir azdan xoşbəxt rahatlıq hiss etdim. Cihazın sərt xortumu məni otağın içindəki bütün künclərə aparırdı. Tavanın altında fikir verdim ki, sifətimin yanında tərpənən iri bir qəhvəyi-bej şar asılıb qalmışdı. Səksəndim, lakin heç bir şübhəm yox idi. Bunlar sidik kisəmin içindəkilər idi. Sadəcə sorucu nasosu qoşmağı unutmuşdum. Bir saniyəyə tələb edilənləri qoşdum və gözəl, canlı təzahür qıfın içində itdi.

Yer kürəsində qravitasiya şəraitində qabda olan su onun formasını alır, çəkisizlik şəraitində isə yan divarlara yapışır, orta boş qalır. Su ilə hava qarışmasın deyə, qablarda elastik bölücü membran var və elə məhz bunun sayəsində suyu qablardan çıxarda bilirdik. Membranın altına hava buraxırdıq, o isə suyu yuxarı basırdı. Suyun təzə saxlanılması üçün onu gümüş ionlarla təmin edirdilər. Niyə məhz gümüş? Çünki uzunmüddətli uçuşlar planlaşdırılanda, suyun saxlanılması mümkün olmur. Qablarda saxlanılaraq bir müddətdən sonra öz təzəliyini itirirdi, su köhnəlirdi və içində yosunlar peyda olurdu. Distillə edilmiş su isə kosmonavtları qane etmirdi. Kimsə qeyd etmişdi ki, kilsədən olan dəyişdirilməmiş müqəddəs su təzəliyini uzun müddət saxlayır. Həmin suyun nümunəsi götürüldü. Gümüş ionları aşkar edildi. Laboratoriyada adi su gümüş ionları ilə zənginləşdirildi – effekt gözlənilməz oldu, su təzəliyini uzun müddət saxlaya bilmişdi. Həll tapıldı, lakin laborantları bir sual sakit qoymurdu: gümüş ionlar kilsə suyuna necə düşüb. Müvafiq xidmətlər kilsəni təqib etdilər. Bir həftədən sonra tapmacanın cavabı tapıldı. Keşiş suyu müqəddəs edərək, onun

içinə gümüşü zəncir salırdı və bununla gümüş ionlar suya keçirdi.

Çox su içirdik – günə 1,5 litr. Yemək və isti içkilər hazırlamaq üçün nəfəs aldığımız havada həmişə olan nəmlikdən alınan suyun regenerasiya sistemindən istifadə edirdik. Nəmliksə orqanizmimizdən və istifadə etdiyimiz dəsmallardan yaranırdı.

# KOSMİK SİRR

Startdan iki gün əvvəl Baykonurda "Kosmonavt" mehmanxanasında öz şəxsi "baqaj"ımı yığmağa başladım. Adama 0,8 kilo limit verilmişdi. Klimukun xahişləri, təkidi və polyak arağının təsiri limiti 2 kiloya çatdırdı. Nə etmək olar, Baykonur heyəti ilə kosmonavtlar arasında olan dostluq həmrəyliyi quru qanun, qadağa və əmrlərdən güclüdür. Uşaqlarımın və həyat yoldaşımın şəkillərini, sevdiyim kitablarımın ilk səhifələrini, icra etdiyim bütün uçuşları qeyd etdiyim uçuş kitabçamın ilk səhifəsini, yumşaq oyuncaqları, polyak pilotunun 8 nişanını, Andjey Buqalanın verdiyi məşhur polyak pilotunun "döş nişanı"nı, iki ağ-qırmızı bayraq, himnin musiqisi yazılmış iki açıqca və markaları, həyat yoldaşım, əvəzedicim və orbitdə işlədiyim dostlarımın həyat yoldaşları üçün gümüş kulonlar və Pan Tadeuşun miniatür nəşrini özümlə götürdüm. Ən cəsarətli arzularımda belə onun missiyadan ən vacib xatirə olacağını bilməzdim. İllər keçdikdən sonra, II İohann Pavelin pontifikatının on beşinci ilində, səhra yepiskopu L.S.Qlodjanin təşəbbüsü sayəsində miniatür kitabı Castel Gondolfada çıxışı zamanı Müqəddəs Ataya təqdim etməli oldum. Təklifim onu bir az təəccübləndirmişdi. Kosmik poçtun miniatürün üzərinə vurulmuş möhürünü seyr etdi, Kosmosdan xüsusi xatirə hədiyyəsinə görə təşəkkür etdi. Onu sinəsinə sıxdı: "Bu elə polyak səciyyəli bir şeydir ki, onu papanın kitabxanasına verməyəcəm, öz şəxsi toplularımda saxlayacam", – dedi. Papa qısa söhbətdən sonra yığışanlara müraciət etdi: "Baxın, cənab generalla ikimiz də on beş yaşlıyıq, çünki cənab general Kosmosa uçanda, mən Pyotrun Paytaxtına getdim"...

Həkimlər "Eleu-terakok"adlı spesifik bir vasitənin müəyyən miqdarını aparmağı tövsiyə edirlər. Atom sualtı gəmi dənizçilərinin fırtınalı dənizdə uzunmüddətli reyslərdə əldə etdikləri təcrübə sübut edir ki, bu vasitə vestibülyar aparatın diskomforta öyrəşməsinə kömək göstərir. Jenşen kökü və başqa nədənsə düzəlmiş, konyakın konsistensiyası, rəngi və iyinə malik həmin xüsusi vasitə spirtli ekstrakt idi. Əvvəl həmkarlarımla zarafat etmək və eleuterokok əvəzinə guya kon-

yak gətirdiyimi söyləmək istəyirdim. Sonra isə tamam başqa bir fikrə gəldim. Ulduz şəhərciyində qəşəng bağlamada polyak brendi şüşəsi ehtiyatı varım idi. Xahişimlə həyat yoldaşım həmin şüşəni kuryer təyyarəsi ilə mənə göndərdi. Laboratoriyanın tibb işçilərindən dörd boş plastik şüşəni aldım və hamısının üzərinə brend emblemlər yapışdırdım. Pis alınmamışdı, buna görə həmin qablara yüksək faizli məcunu tökdüm, şüşənisə tez gizlətdim. İdeyam xoşuma gəlirdi. Bu anda qapı gurultu ilə açıldı və arxasında bütün şöhrəti ilə taleyimizin ciddi "kral və tanrısı" peyda oldu – general Şatalov. Tez ayağa qalxdım və bir an sonra yenidən oturdum. Bu sondur – düşündüm. Şatalov baxışı ilə seximi nəzərdən keçirdi və söylədi: "Nədir, Miroslav, dəli olmusan? Göyərtəyə polyak konyakını aparmaq istəyirsən?" Mən zahirən çox sakit, daxildəsə emosiyalardan qaynayaraq cavab verdim: "Axı bu bizim və "Fotonlar" üçün eleuterakokdur, o, konyaka oxşayır. Buyurun, dadına baxın" və şüşəni verdim. Şüşəni aldı, baxdı, "Ağıllısan, – dedi, – amma bu dərmanı, bu zibili içməyəcəm. Konyak olsaydı, başqa məsələ. Hamısını tez qablaşdır, Miroslav, çünki bu gün gəmini yığırlar və yüklə iş bitəcək". Beləliklə, daha bir polyak amili göyərtədə, sonra isə orbitdə peyda oldu. Əlbəttə ki, bütün bunları sirr olaraq Pyotra danışdım, o isə çevikliyimə təəccübləndi, fikrimdən razı qaldı, qaçaqmalçılığı isə təqdir etdi.

Təntənəli salamlama şam yeməyi olacaqdır. Saşa masanı bəzədi, ən yaxşı yemək-içməyi düzdü, hamıya çay dəmlədi və yaxşı əhval-ruhiyyədə yeməyə başladıq. Ərzaqları bir-birimizə mişar kimi düz xətlə verirdik. Onlar isə adətən başımızın üstündən keçirdi, çünki yerdə adət etdiyimiz kimi uçuş trayektoriyasının bucağına düzəliş edirdik. Masa isə müvəqqəti istifadə edilməyən çəngəl-qaşıqları və qida məhsullarını xüsusi taxçalarda və ya bağlanan rezinlərin altında saxlamaq üçündür. Qalanı kabinənin içində azad uçuşurdu.

İtmiş əşyaları ilk gündə əsasən masanın altında və ya yerdə axtarırdım. Lakin bir qayda olaraq arxada və ya üstümdə olurdular. Ət konservlərini açdıq, mənsə duzu çıxardım. Şüşənin birini götürdüm. Heç kəsin marağını oyatmadı – hamının eleuterakokdan zəhləsi gedirdi. Şatalovun hadisəsini danışanda atmosfer gərginləşdi. Volodya Kovalyonok, stansiya və heyətin başçısı kimi şüşəni müsadirə etdi. Orqanizmin necə reaksiya verəcəyini heç kəs qabaqcadan deyə bilməzdi, lakin tamah güc gəlirdi. Kimsə birinci olmalı idi. Ən əvvəl məni kənarlaşdırdılar, çünki xüsusi qayğı altında idim. Pyotr da çıxdı. Kovalyonok içə bilməzdi, çünki hamımıza görə cavabdeh idi. Qaldı Saşa. Eksperimentin baş iştirakçısı olmağa böyük həvəslə razılaşdı. Öncə dili ilə dadına baxdı, gözləri güldü, sonra isə plastik şüşəni sıxdı və 20 qrama yaxın

içdi. Dərindən nəfəs aldı və masanın üstündə asılıb qaldı. Bizsə onu diqqətlə izləyirdik, sanki zəhəri yemək üçün seçilmiş qardaş siçovulun reaksiyasını gözləyərək donmuşduq. Testin əlamətsiz keçməsi eksperimentin qısaldılması haqqında müzakirələrə səbəb oldu. İyirmi dəqiqədən sonra Saşa yenə içmək üçün əlini uzatdı və bununla eksperiment bitmiş hesab olundu, sağlıq demək olardı və dördü deyildi:

– bizim, yəni mənim və Pyotrun, missiyamızın uğurlu keçməsinin sağlığına;
– planetin ilk kosmonavtı Yuri Qaqarinin qəhrəmanlığının şərəfinə:
– Polşa və SSRİ xalqlarının və başçılarının sağlığına:
– ailələrimiz: həyat yoldaşlarımız, uşaqlar və valideynlərimizin sağlığına.

Sonuncu sağlıq mənim idi. Bütün tostlar ciddi və əzəmətli idi və adambaşına 20 qramla möhürlənmişdi. Deməli, 29 iyun 1978-ci ildə heyət tərəfindən yaxşı qəbul edilmiş dostluq və gələcəyə ümid verən jesti etdim. Bəzi növbəti heyətlər fikrimi icra edirdilər, lakin xəbər verildiyinə görə, kimsə hardasa bir az "canfəşanlıq" edənədək. Əvəzindəsə Pyotr mənə çox xoş sürpriz etdi – həyat yoldaşımdan məktub. Ünvan belə idi: "Miroslav Hermaşevski, "Salyut" orbital stansiyası, hardasa Kosmosda". Ən uzaq küncə çəkilib məktubla, ən yaxınlarım haqqında düşüncələrimlə təkbətək qaldım. Oxuyub təsirləndim və həyəcanlandım. Məni heç kəs narahat etmir. Fikir verirəm ki, göz yaşlarım axmır, lakin gözüm dolub. Məktubu bir neçə dəfə təkrar oxuyuram. Minlərlə kilometr burdan uzaqda olsalar da, ailəmin yaxınlığını hiss edirəm.

İkinci gün sona çatır. Yataq torbamın yerini dəyişdirməyi qərara aldım. Tavanda, rentgen teleskopunun üstündə Kovalyonokun razılığı ilə iki metrlik yer tapdım. Dünənki təcrübələri xatırlayaraq, özümü daha çox rezin lentlə təmin edirəm. Hazırda yer kürəsinin rabitə nöqtələrindən kənar bir məkanda yerləşirik. Bu orbit Sibirin, Kamçatkanın, Sakit okeanın sərhədsiz sularından, Şərqi Amerika və Okeaniyanın sərhədlərindən keçir. Asiya və Avropada gecə düşüb. Qaranlıq və tutqundur. Yorğunluğa baxmayaraq, vaxtımı yuxuya sərf etmək istəmirəm. İllüminatorun önündən ayrılmıram, lakin yalnız okean və buludları görürəm, okean və buludları... Yatmağa gedirəm. Yatmaq üçün yerim rahatdır. Üzə-üzə yataq torbasına daxil oluram və rezin lentlərlə möhkəm bağlanıram. Burdan daxili əla görmək olur. Yarasa vəziyyətində yatmış həmkarlarımı görürəm. Döşəmədə olan balaca illüminator mənə mane olur, çünki arada düşən günəş işığı məni oyadır.

Səhər tualetə gedəndə, ən birinci işim həmin illüminatoru qapaqla bağlamaqdır.

Orbitdə üçüncü günümdür – 30 iyun. Yer kürəsi bu gün tibbi eksperimentlər gününün olduğunu xatırladır. Bu eksperimentlər ürək-damar sisteminin fəaliyyət vəziyyətinə, dadbilmə duyğusunun qorunub saxlanılmasına, toxumaların oksidləşməsinə, ətraf mühitlə bədən arasında istilik mübadiləsinə və psixofiziki vəziyyətimə qiymət verməlidi. Bir gün üçün həddindən artıq çoxdur.

Səhər yeməyi zamanı Yer kürəsi yenə məni çağırır. Qulaqcıqları taxıram. Ulduz şəhərciyindən qonşum Anatoli Dedkovun səsini tanıyıram. Bu gün o, növbətçi operatordur. Rabitə əks-səda ilə təhrif edilmişdi (yəqin ki, dalğalar Aydan əks edilir). Deyir ki, işə gedərkən bizə keçdi və Emiliyanı hamamda gördü. “Nə? – soruşuram, – sən orda nə edirdin?” “Getdim... və vannada Mila göstərdi...” – cavab verdi. “Nə göstərdi?” – bir az narahat oldum. Qonşu isə: “Gülləri”. “Hansı gülləri”, – sorğu-suala tuturam. “Hansı, hansı, qızılgülləri, vannada çoxlu qızılgül”. “Bəs Mila da vannada idi?” – artıq əsəbi soruşuram. “Yox, Mila gülləri qoydu vannaya və çoxlu qonaqların olduğunu göstərdi”, – qonşu cavab verir. Ah, bu rabitə... Evdə qonaqları qəbul etmək üçün üçqat fürsət olmuşdur, uçuşum, həyat yoldaşım Emiliya və qızım Emiliyanın ad günləri. Hər ikisi mənim əvvəlcədən gizlin sifariş etdiyim gülləri və hədiyyəni bu gün alıblar.

İlk tapşırığı səhər yeməyində dərhal icra edirik. Mən “təcrübə dovşanı”yam, Pyotr isə icraçı. Yer kürəsində bu eksperimenti dəfələrlə məşq etmişdik. Cihaz dolabçasını açanda, onun içindəkilərin hamısı – tellər, lentlər, sensorlar, rezin şlanqlar – bütün istiqamətlərdə uçub gedir. “Cüllüt quşu” eksperimentinin bir elementi olan təzyiq şalvarını geyinirəm və dolabçanın içindəkilər üzərimdə bağlı vəziyyətdə hazır dururam. Bu eksperimentlə ayaqlarımda qan damarlarının müntəzəmliyini və ürək-damar sisteminin tənzimlənmə qabiliyyətini müəyyən etməli idik. Şalvarın germetik ayaqlarından havanı nasosla çıxartmağa başlayıram. Təzyiq fərqi nəticəsində qan bədənimin yuxarı hissələrindən ayaqlara axmağa başlayır. Rahatlıq hiss edirəm. Başım artıq “aşağı”da deyil, lakin təzyiqi artıranda, bədənin yuxarı hissələrində bir anlıq qanın mövcüd olmamasını hiss edirəm. İstilənirəm, hər şey başıma fırlanır və yayılır. Yer kürəsində olsaydım, indi çoxdan yıxılmışdım yerə, burda isə sadəcə hərəkətsizləşirəm. Mexaniki olaraq klapanı açıram və qanın yenidən başıma axmasını hiss edirəm. “Normallıq”, yəni baş-ayaq vəziyyətdə olmağımın hissləri qayıtdı. Hərbi Aviasiya Tibb İnstitutunun alimləri eksperimenti İdarəetmə Mərkəzindən təqib edirdilər. Hər biri öz fərziyyəsini



Baykonurun çöllük mənzərəsi, “vulkan”ın partlayışından əvvəlki görüntü. Fotoqraf Tadeuş Zaqojdjinski.



Qüvvə cəhənnəmdən yaranır. Tüstü və buxar buludundan bizim raketimiz görünür. Dəhşətli dərəcədə gözəl idi. 27 iyul, 18:27'21''. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



“Salyut-6”-nın heyəti 363 kilometr yüksəkliyində çəkisizlikdə. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.



Anamla təsiredici söhbət. Uzaqda Kovalyonok, yerə rezin lentlərlə birləşmiş vəziyyətdə yerində qaçmaq üçün cihazda əziyyət çəkir. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.




Uçuşun günlük marşrutu, yəni 16 dəfə Yer kürəsi ətrafında. Müəllifin arxivindən.



Gizlin şəkil – kosmosda tyübikdən sağlıq. Foto. V. Kovalyonok.



Sirr olmayan tualet. Müəllifin arxivindən.



528 saniyədən sonra başqa, tanımadığım, əlvan, gözəl dünyada oldum... Müəllifin arxivindən.



Asiyanın üzərində. Buludların altında Baykal gölü. “Salyut-6” göyərtəsindən çəkilmiş şəkil, radiolokasiya yaxınlaşdırma sisteminin parabolik antennası görünür. Müəllifin arxivindən.



“Soyuz-30” kosmik gəmisinin orbitdən düşmə sxemi – qeydlər müəllifindir.



“Soyuz” kapsulunun enməsi. Əsas və qəza paraşüt sisteminin hərəkətəgəlmə mərhələləri və “yumşaq enmə”. Qeydlər Müəllifindir



Paraşütün iplərində həyat. Həyəcanın hələ sonu deyil. Son metrlər, Qazaxıstan, 5 iyul 1978-ci il, 16:33. Kosmonavtların Təlim Mərkəzinin arxivindən.




Yeriməyi ikinci dəfə öyrənirəm. İstilənmiş kapsuldan çıxan kimi. Kosmonavtların Tə-
lim Mərkəzinin arxivindən.




Dərin nəfəs. Həyat yoldaşımın göndərdiyi qızıl gülün ətri reallığı qaytardı. Fotoqraf Tadeuş Zaqojdjinski.



Yer kürəsinə qayıtdığım günün səhəri, Ulduz şəhərciyi öz qəhramanlarını qarşılayır. Müəllifin arxivindən.




6 iyul 1978-ci il - “Soyuz-30” heyətinin şərəfinə verilmiş banket. Şəkildə ilk kosmonavtın həyat yoldaşı Valentina Qaqarina ilə. Müəllifin arxivindən.




Tereşkova ilə söhbət. Müəllifin arxivindən.

yoxlamaq və ya heç olmasa hər hansı sual vermək istəyirdi. Onların istəkləri ilə təzyiqi artırıram və bir neçə dəfə huşumu itirirəm. Özümü pis hiss edirəm, onlar isə heyranlıqla izləyirlər və uşaq kimi sevinirlər. Telemetriya kanalları vasitəsi ilə onlarla metr EKG və EEG qrafiklərini alırlar. Seansın sonunda ürək döyüntüləri tezliyinin artmasına polyak nəzarət cihazı "kardiolider"lə nəzarət edərək, məni məşq etməyə məcbur edirlər.

Yarım ildən sonra mənə həmin qrafikləri göstərdilər, sevinclə qışqıra-qışqıra: " Bura bax, necə gözəl özündən getmişdin". Xalis sadistdirlərmiş. Məlumat aldım ki, HATİ-də düzəldilmiş kardiolider cihazı xəstələr ürək xəstəliyindən sağalandan sonra reablitasiya zamanı istifadə edilirdi.

Həmin gün nahardan sonra orqanizmin çəkisizlik vəziyyətinə uğunlaşması şəraitində elektroqustometrik adlanan metodla dad qavrayışının hüdudunu müəyyənləşdirmək üçün tərcübələr aparırıq. Bu, "dad" eksperimentidir, onun məqsədi isə dadın pozulmasına cavabdeh olan mexanizmlərin tədqiq edilməsidir. Bu fenomenin həqiqətən baş verib-verməməsi, onun səbəbkarını qida və ya qanın yuxarı hissələrə hərəkət etməsi nəticəsində dadbilmə duyğusu reseptorunun həssaslığının dəyişilməsi, yoxsa kosmonavtların psixi sahəsində axtarmaq lazım olduğuna dair suallara cavablar gözlənilirdi. "Dad" eksperimentini dəfələrlə təkrar edirik. Başım hesablamalara qarışdığından, hansı vəziyyətdə olduğumdan xəbərim yoxdur. Arada ayaqlarımı divara və ya tavana söykəyirəm. Olduğum vəziyyət hərəkətimin dəqiqliyinə təsir etmir, lakin ünsiyyəti qəlizləşdirir. Bilavasitə söhbət zamanı adətən danışanın dodaqlarına baxırıq. Kosmosda tez-tez bir-birimizə qarşı fərqli vəziyyətdə oluruq. Qeyri-adi bucaq altında yerləşərək və ya baş-ayaq olaraq, danışanın üzünə baxdıqda, onun ifadə etdiyi emosiyaları anlamaq qeyri-mümkündür.

Çəkisizlikdə stansiyanın işıqsızlığında məkanı başqa cür hiss edirdim. Yer kürəsində, qaranlıq bir otaqda hərəkət edərək əllərimizi qabağa uzadırıq ki, nə iləsə toqquşmayaq, maneəyə dəyməyək. Kosmosdasa qaranlıqda hərəkət edərkən mənə elə gəlirdi ki, stansiya çox böyükdür və heç bir maneə yoxdur. Gözlənilməyən toqquşma ağlımı başıma qaytarırdı.

Kosmonavtlar çəkisizliyi fərdi şəkildə, hərə özünə görə hiss edir. "Fotonlar" stansiyada elə üzürlər ki, sanki akvariumda balıqlardı. Biz ehtiyatla hərəkət edirik, çəkisizliyə hələ təzə-təzə uyğunlaşırıq. Səhər pis deyildim. Bunu həmkarlarıma sübut etmək üçün tavanın altında bir neçə effektli fiqur elədim, lakin bir azdan sonra məzlum və beli bükülmüş vəziyyətdə tez öz gəmimizə yollandım. Bu təcrübədən sonra

başımla şıddətli hərəkətlər etmirdim, yalnız bütün korpusumla fırlanırdım. Nahardan sonra bir az boş vaxt tapıram və Pyotrun təklifinə uyğun olaraq, tavanın altında rezinlərlə bağlanaraq dərhal yuxuya gedirəm. Düz iyirmi dəqiqə möhkəm yatmışdım. Oyanandan sonra özümü güclü hiss edirdim. Yaxşıdır, çünki axşam rabitə vaxtı yaxınlaşır. Jurnalistlər vəd etdiyimiz mətbuat konfransını gözləyir.

Bizi sual atəşinə tuturlar. Özümü ən yaxşı tərəfdən göstərmək istəyirəm. Həmkarlarımın yanında "otururam" və arada bir yüngülcə yuxarı qalxıram – çəkisizliyi nümayış etdirmək üçün, lakin Pyotr qətiyyətlə məni aşağı dartır. Bir neçə dəfədən sonra jurnalistlər buna fikir verirlər. Bu anda növbətçi operator qoşulur və özümü belə şən aparmağıma bəzi səbəblərin olduğunu deyir. "Miroslav, Mərkəzdən hamımız sənə təbriklərimizi göndəririk. Sənin doğma Vrotslav şəhərində 35 milyonuncu vətəndaş dünyaya gəldi – gözəl qızdır" – deyir. O dəqiqə cavablandırıram: "Təbriklərə görə təşəkkür edirəm, amma mənim bununla heç bir əlaqəm yoxdur, çünki il yarımdan çoxdur ki, Ulduz şəhərciyindəyəm". Orada olanların gurultulu qəhqəhəsi eşidilirdi. Uçuşdan sonra bildim ki, növbətçi psixoloq özünü hiss etmə bəndində o dəqiqə 5 qiymətini qoyub.

Axşam Pyotrla təmir işinə başladıq. Çex aləti Oksimetri təkmilləşdirməliydik. Həmin alət zədələnmişdi, lakin tibbi eksperimentləri aparmaq üçün gərəkli idi. Pyotr qırılmış telləri lehimləyirdi. İş gecəyədək uzandı. Alətlə güləşərək, müxtəlif qəribə vəziyyətlərə düşürdük, stansiyanın daxilində uçuşurduq. Bu iş bizi taqətdən saldı və vestibülyar aparatı pozdu. Yorğunluqdan yuxulaya bilmirdim. Qəribə və anlaşılmaz bir şey görürdüm. Gözlərimi yumanda qığılcım, sanki miniatür işartı və hər iki gözümü kəsən parlaq zolaqlar görürdüm. Qorxdum. Mənə elə gəlirdi ki, ağrı hiss edirəm. Pyotrdan yatıb-yatmamasını soruşdum. Cavab verdi ki, o da həmin şeyləri görür. "Narahat olma, bu, stansiyanın örtüyündə olan böyük enerjinin balaca hissəcikləridir, gözün sarı yerinə düşən kimi işıq yaradırlar. Əvvəlki missiya zamanı da bununla qarşılaşdım. Alimlər bunun səbəbini bilmirlər. Zərərli deyil, indi keçəcək. Yat" – deyərək məni sakitləşdirdi. Həqiqətən də, növbəti günlərdə də gözlərimdə parıltıları görürdüm, amma artıq həminki qorxudan əsər-əlamət yox idi.

# SİRLƏR VƏ RƏNGLƏR DİYARI

İlk günlərdə rəngli olanlar mənim diqqətimi çəkirdi. Növbəti günlər daha maraqlı və vizual cəhətdən zəngin idi. Həmkarlarımın köməyi sayəsində yeni xüsusiyyətləri və qeyri-adi obyektləri, gölləri, böyük çayları, meşə zolaqlarını, su obyektlərinin və atmosferin çirklənməsini görüb seçməyi öyrəndim. Coğrafi dərketmə və səmti müəyyənləşdirmə təcrübəsi qitələr, okeanlar və Yer kürəsinin atmosferində baş verən fenomenləri planlaşdırdığım və mütəmadi olaraq müşahidə etdiyim günlərdə yardımçım olur. Bu müşahidələri maraqlandığıma görə deyil, elmi proqramın bir hissəsi olduğuna görə aparırdım. Göyərtənin gündəliyində öz müşahidələrimi qeyd edirdim, gördüyüm təzahürün qısa təsvirini, vaxtı və orbitin ballistik məlumatlarını da yazırdım. Müşahidələrimə əla əl aparatı olan Hasselbladla çəkilmiş fotoşəkilləri əlavə edirdim. Bu, maraqlı məşğuliyyət idi, çünki Kosmosda çox vaxtımı aparırdı. Özüm də bu işə hər boş anımı sərf edirdim. Aparatdan ayrılmırdım.

Volodya Kovalyonok okean cərəyanlarını və gəmilərin keçdikləri yerdə dalğaların dağılmasını göstərdi. Özüm onları yəqin ki, seçə bilməzdim, çünki adi gözlə bütün bunları ancaq uzun məşqlərdən sonra və Günəşin xüsusi işığında görmək olar.

Müşahidələrin aparılması həmişə mümkün olmur, çünki Yer kürəsi tez-tez buludlarla örtülür. Onlar müxtəlif formalarda düzülür və yaddaqalan cizgilər yaradır. Bir baxışla bir neçə barik sistemi əhatə edirəm. Buludlar layı səylə işlənmiş sinoptik xəritə kimi görünür, burada buludların yolunu, onların piral sistemini görmək olur. Tez-tez əsasən tropiklər qurşağında fenomenlərdən ən qorxulusunu – bulud topasının ortasında mavi sonsuz çala olan nəhəng burulğanı – tornadonu müşahidə edirdim. Baxana elə gəlir ki, onun gözü ilə sorulub aparılacaq. Yer kürəsini növbəti dəfə fırlanaraq dəyişiklikləri və artıq müşahidə edilmiş fenomenlərin hərəkət istiqamətini təqib edirik. Gecə həmin rayonlar minlərlə ildırımlarla işıqlanırdı, gündüzsə gecə olmuş fırtınaların nəticələrini göstərirdi - saysız-hesabsız yanğınlar, yüz kilometrlərlə qalxan tüstülər. Gecə fırtınaları fenomenini dəfələrlə müşahidə edir-

dim və özümə sual verirdim ki, görəsən, insan tərəfindən yaradılmış atom kataklizmi necə olardı?

Yer kürəsinin müxtəlif rayonlarındakı geoloji strukturlar sakit və mənzərəli görünürdü. Onun zənginliyi tükənməzdir, buzun və əbədi qarın bəyazlığı ilə örtülmüş boz dağ massivlərindən başlayaraq, qəhvəyi rəngin bütün çalarlarında olan xətti əsərlərdən keçərək, sirli, lakin dənizin və okeanın səthində, və yaxud səhranın qumları altında sistemlər görünür. Sonsuz Tibet öz sirlərinin çoxunu gözlərimin qarşısında açdı. Kamçatka artıq uzaqdan özünün müxtəlif, bəzi hallarda canlı ləl-cəvahiratını – vulkanları təqdim etdi.

Bir neçə gün xəritəsiz və göyərtə yönəldicisi olmadan müşahidələr apardıqdan sonra uçduğumuz sahəni tanıya və müəyyən edə bilirdim. Orbitdəki gecənin öz gözəlliyi və sirləri var. Bir gecə ekvatorial Afrikadan şimal-şərq istiqamətində uçaraq, özümdən çox uzaqda yüzlərlə sarı alov nöqtələrini gördüm. Bu, fantastik mənzərə idi, lakin məndə narahatçılıq yaradırdı. Pyotrdan baxmasını xahiş etdim. O, həmin dəqiqə narahatlığıma son qoydu, çünki bundan əvvəlki missiyalardan zəngin təcrübəyə malik idi. Məni sakitləşdirdi – bu, Dəclə əraziləri idi, burda qara qızılı, nefti əldə edirlər, gördüyüm alov isə yanan qazdır. Həmin andan bu səciyyəvi mənzərə dəfələrlə oriyentir kimi mənə xidmət etmişdi.

Bir neçə il sonra "Mir" stansiyasından həmkarlarım Musa Manarov, Viktor Afanasyev və Yaponiyanın ilk astronavtı Toyohiro Akijama müharibənin məşum tüstüsünü müşahidə edirdilər – yanan neft quyuları və yüzlərlə kilometrə yayılan his. Həmin zaman Uçuşun İdarəedilməsi Mərkəzində idim və bu dəhşətli görüntüləri böyük ekranda görürdüm. Bir neçə gün gördükləri haqqında narahatlıqla danışdıqlarını eşidirdim. Mikrofonu əlimə götürəndə, Musa söhbətin mövzusunu dəyişdi, səsimi tanıdı, sevindi. Mənimlə adi məsələlər haqqında elə sakit danışırdı ki, sanki onun evinə ən yaxın taksofondan zəng etmişdim.

Stansiya fasiləsiz olaraq öz vəziyyətini dəyişirdi, ehmalca fırlanırdı, üfüqi vəziyyət alandan sonra isə ay işığında özümlə paralel buludları gördüm. Bir anlıq elə bildim ki, təyyarədə uçuram və özüm-özümə sual verirdim ki, niyə buludlar parlayan açıq yaşıl çalara malikdir. Həmkarlarımdan kimsə qışqırdı: "Gümüşü buludlar altımızdadır". Bu qeyri-adi fenomeni Y.Romanenko və Q.Qreçko 1977-ci ildə kəşf ediblər. Hamımız eyni anda fotoaparatları götürdük. Pyotr öz fotoaparatına gecə görünüşü taxdı. Həmin gecə görünüşü kosmik gəmisində məkan yönəlməsinin gecə müşahidəsi və nəzarəti üçün xidmət edir, çünki o, işığın gücünü 40 min dəfə artırır. Böyük həvəslə şəkillər çəkdik, buludlar fərqli formalar alırdı – üfüqi böyük toplulardan dolaşıq topalar və

böyük, şaquli vəziyyət almış sütunlaradək. Bu qeyri-adi və gözəl mənzərəni - meteoritlərin son anlarını göstərən onlarla zolaqlar daha da zənginləşdirirdi. Bu "bombalama"nı cənub və şimal yarımkürələrində böyük coğrafi enlikdə müşahidə etmişdim. Yer kürəsinin atmosferindən ancaq yüzlərlə metr aralıda görünən meteoritlərin yanımdan uça biləcəyini yadıma salanda diksindim. Əgər bu, baş versəydi...

Özümü narahat hiss etdim. Üfüqdəki parıltı məni düşüncələrimdən ayırdı, təhlükə hissi harasa yox oldu. Günəş dünyanı rəngləmək qabiliyyəti ilə öyünür, Kosmosun qaranlığı isə rəng qammalarını udur. Təəccüblə fikir verdim ki, xarici antenlər, hətta günəş batareyalarının panelləri gözqamaşdırıcı dərəcədə ağdır. Konstruksiyanın elementlərinə düşən kölgələr onları nizamlanmamış ağ-qara televizordakı kimi tanınmaz hala gətirirdi. Yer kürəsində gecə idi, stansiyanı isə Günəş işıqlandırırdı. Dəqiqələr keçdikcə Günəş Yer kürəsinə və atmosferə işıq salmağa başladı. Günəş üfüqdən yuxarı qalxdıqca, parıltılı ağlıq və dərin qaranlıq itməyə başladı. Atmosferdən əks edilən səpələnmiş işıq stansiyaya çatmağa başlayır. Konstruksiyanın xarici elementləri öz dolğun rənglərini alır, antenlər yaşıl, günəş batareyaları isə mavi–lacivərd rəngdədir. Dörd gözlə baxırdım, buludlar və hüdudsuz okeanın mənzərəsindən həzz alırdım, lakin qayıqçı tək quru axtarırdıq. Elə orbitlər olurdu ki, 60-70 dəqiqə, yəni bütöv kosmik gün ərzində sərhədsiz suları görürdük. Ancaq kosmosdan görmək olur ki, Yer kürəsi quru və dəniz deyil, dəniz və qurudur, çünki onun sahəsinin 71 faizini dəniz və okeanlar tutur, ancaq 29 faizini quru təşkil edir.

Hüdudsuz sulara baxırdım, onun səthinin müxtəlif tipli və fərqli rənglərdə olduğunu görürdüm. Cənubi Amerikanın sahillərində okeanın üzərində sanki yağ ləkəsi nəzərə çarpdı. Həmin faktı göyərtə gündəliyinə köçürdüm, kəşfimi həmkarlarımla bölüşdüm. Kovalyonok qısaca dedi: "Kosmosdan Yerdə görə bilmədiklərini izləyə bilərsən. Bu, Kosmosdan planktonun görünüşüdür". Kiçik şeylərin uzaqdan daha yaxşı müşahidə edilməsi fərziyyəsi yenə də təsdiq edildi.

Okeanda baxıb tapdığımız kiçik ada və ya torpaq hissəsi "Quru" qışqırığına səbəb olurdu. İmkanı olanlar illüminatorların qabağına keçirdi. Yönalma cihazına və xəritəyə baxmaqla artıq bilirdik ki, bu cür görünən Havay adalarıdır, yeddi dəqiqədən sonra isə Şimali Amerika qitəsini görəcəkdik. Əvvəlcə Sietl, sonra isə Böyük Göllər, Kanadaya keçdik, Boston və Nyu-Yorksa bir neçə dəqiqədən sonra görünəcəkdi. Və yenə də su, böyük su – suyun üzərində az-çox 50 dəqiqə uçacaqdıq, sonra Avstraliyanı görəcəkdik.

Qar kəfəni ilə örtülmüş Qrenlandiya ağ rəngdə parıldayırdı. Buludlar azaldı. Onların böyük dəstələri və ya balaca topluları Atlantik

okeanın boz sularını bəzəyirdi. Şimali Amerikanın şimal-şərq sahillərini keçirdik. Avropaya uçan və oradan qayıdan onlarla təyyarələrin atmosferdə qoyduğu kimyəvi izləri müşahidə etdim. Durbinlə təyyarələri görmək istədim. Əbəs yerə. Əvəzində boz okeanın səthindən üzüb keçən və sadəcə qara nöqtələr kimi görünən gəmilərdən sonra dalğaların dağılmasını gördüm. Ağ, tək-tək buludlar diqqətimi çəkdi, çoxu şimalda idi, Nyu-Faunlend tərəfə, cənuba hərəkət edirdilər. "Niyə belə ağ və balacadırlar?" – Pyotrdan soruşdum. Baxdı və dedi: "Bu, buludlar deyil, buz dağlarıdır". Bizdən aşağıda, haralardasa "Titanik"in fəlakəti baş vermişdi.

Avstraliya öz nəhəngliyi və vəhşi təbiəti ilə məni heyrətə saldı. Bu, böyük səhradır, mavi-açıq, yaşıl okeanla toqquşduğu yerdə yaşılla rənglənib. Yarısı qaranlıqda idi. Növbəti kosmik gecə yaxınlaşırdı.

Gecə düşünmək üçün yaxşı vaxtdır, bundan əlavə, milyardlarla ulduzlar görünür, Yerdə olduğu kimi, ancaq başının üstündə deyil, bütünlüklə ətrafında.

Uşaqlıqda səma anlayışı mənim üçün yaxşılıq və ədalətin sinonimi idi, cəhənnəmsə pislik və əzab-əziyyətlə bağlı idi. Cəhənnəm dəhşətli idi, lənətlənmişlər qətranda bişirdilər, oranın yiyəsi iyrənc şeytan idi, onun padşahlığı isə hardasa Yerin dərinliyində yerləşirdi. Əlbəttə ki, cəhənnəmə düşmək istəmirdim, buna görə özümü yaxşı aparırdım. Səma isə yuxarıda olan bir şey idi, mavi və ya ulduzlarla parıldayan qaranlıq idi. Səmada mələklər yaşayırdı və orada cənnət var idi. Səmada buludlar, quşlar və təyyarələr uçurdu. Gecə mənim üçün həmişə sirli idi, parıldayan ulduzlar isə təxəyyülümü zənginləşdirirdi və marağımı oyadırdı. Anama əminliklə deyirdim ki, gecəni mələklər yaradır, çünki səmanı yorğanla örtürlər, ulduzlar isə sadəcə yorğanlarda olan deşiklərdi- mənim yorğanımda xüsusi ilə çox idi.

Yetkinlik yaşımda səmanın daha dərinliyinə baxmaq istəyirdim. Qalileyin sadə teleskopunu linza və eynəkdən düzəltdim. Linzanı bacım işlədiyi laboratoriyadakı mikroskopdan "tapdım". Litseydə astronomiya elmi səmaya marağımı artırdı, bu zaman bəzi ulduzların yanıb-sönməsi, bəzilərininsə təkrarolunmaz bürclərin yaratma səbəbləri haqqında düşünməyə başladım. Bəzən səma müşahidələrini Ayın altında romantik gəzintilərlə əvəz edirdim – həmişə tək olmurdum.

Dostum Henrik Pyotrovski də səma ilə maraqlanırdı. Axşamlar yaxınlıqdakı parkda hündür ağaclara dırmaşırdıq və orada əvvəlcədən hazırlanmış oturacaqlarda başımız yuxarı saatlarla ulduzlu səmanı müşahidə edirdik. Henya ilə kainatın quruluşu, səma cismlərinin hərəkət prinsipləri və bürclər, yəni Kosmosun fizikası haqqında biliklərimlə bölüşməyə cəhd edirdim. Onu isə daha çox Kosmosun fəlsəfəsi

maraqlandırırdı, kainatın necə yaranması, yerimizin harada olması, bu hüdudsuzluqda tək olub-olmamağımız və mövcudluğun hərəkətverici qüvvəsinin nə olduğu haqqında suallar verirdi. Attestat alandan sonra Henya seminariyaya daxil oldu, illər keçdikdən sonra Vrotslavda Ali Ruhani Seminariyasının direktor müavini kimi şərəfli işə nail oldu. Yaxşı dostluq əlaqələrimiz var idi. Onun çoxlu şeirlərindən bir hissəsini yadımda saxlamışam:

Həyatı ilə hələ tam sevinməmiş insan,
Artıq son haqqında düşüncələrlə aşılanır,
Və solğun ölüm təsviri – onun dostuna çevrilir,
Düşünməsə də, daim yaxındadır ölüm.

Dindarlar Henyanı gözəl, işini bilən rahib, başqalarının problemlərinə çox həssas yanaşan təvazökar insan kimi yada salırlar. Henya artıq Ordadır, biz hamımız hələlik Yerdə. Bu gün də Henyanın yanımda olduğunu hiss edirəm.

## BÜTÜN DÜNYA VƏ POLŞA

1978-ci ilin 2 iyul tarixində səhər saat yeddi olmamış gözlərimi açıram və yuxarıdan stansiyanı nəzərdən keçirirəm. Altımda böyük ölçüdə rentgen teleskopu, onun böyründə isə fotocihaz MKF-6 var. Həmin fotocihazla "Yer kürəsi" eksperimenti çərçivəsində bu gün işləyəcəyik. Göyərtədə sakitçilikdir, ventilyatorların asta səsini, göyərtə saatının tıqqıltısını və həmkarlarımın xorultusunu eşidirəm. İsti yataq kisəmdən çıxıram və işçi hissəyə keçirəm, orada isə komandir və "ev yiyəsi" Volodya baş idarəetmə pultunun arxasında artıq eşələnirlər. Göyərtə gündəliklərinin səhifələri yayılmış vəziyyətdə onun yan-yörəsində uçuşur. Məndən halımı soruşur, çünki dediyinə görə, dünən orqanizmimə təsir edən çəkisizliyin nəticələri ilə mübarizə etdiyimi görəndə, mənim üçün narahat olub. "Gedirəm yüngülləşməyə", – cavab verirəm və hər şeydən tuta-tuta tualetə üzüb gedirəm. Pyotr və Saşa yataq kisələrində kabinənin yan divarlarına yapışmış vəziyyətdə hələ də yatırlar. Saşanın əli kisədən çıxıb və qeyri-təbii yuxarı-sola qaldırılmış vəziyyətdədir, Pyotrun qara gur saçı isə bütün istiqamətlərə yayıldığına görə, onun başı əjdaha başına oxşayır. Nəm salfetlərlə cəld əl-üzümü "yuyuram", dişimi sürtürəm, üzümü isə sonra qırxacam, çünki günəşin çıxması yaxınlaşır və mən onu mütləq seyr etməliyəm. Lakin fikrimi dəyişirəm və səhər yeməyinin hazırlanmasında Volodyaya köməyimi təklif edirəm. Həmkarlarımın nə xoşladıqlarına artıq bələdəm. Bir neçə ərzaq bağlamasını açıram. Əlbəttə ki, içindəkilərin hamısı uçuşub gedir, mən də onların arxasınca fırlanmağa başlayıram. Sonunda vəziyyəti ələ alıram. Masanı açıram, xüsusi taxçalara çörəklə paketləri, meyvə şirələrilə tübikləri, şəkərlənmiş meyvə və balla fındıqları qoyuram. Yatağanlar hərəkətlərimi və mətbəx iyini hiss edirlər. İsti qəhvə ilə tübikləri onların "yatağına" verirəm. Qəhvəni içib özlərinə gəlirlər və əhval-ruhiyyələri qalxır. Saşa isə təşəkkürlə qeyd edir ki, hətta evində, Yerdə belə lüks şərait yoxdur. Səhər yeməyi polyak musiqisi fonunda xoş keçir, kefimiz kökdür. Bir-birimizi qonaq edirik, tikələri elə veririk ki, ünvan sahibinin düz ağzına üzüb düşsün. Xoş ab-havanı göyərtə qələminin səs-küyü yarımçıq qoyur. Volodya lenti götürür, bir an oxuyur və deyir: "Mirek, sənin üçündür". Oxuyuram,

Yer kürəsi qəza nəticəsində gəmini tərketmə məcburiyyəti baş verdikdə, gəmimiz üçün ballistik məlumatlar göndərir. Sonra salamlamalar və bir neçə sütun rəqəmlər gəlir, həmin rəqəmləri cəld xüsusi cədvəllərə qeyd edirəm – bu, rabitə seansları, Günəşin doğması və batması vaxtı, həmçinin əsas və yaxud hava şəraiti bizi məcbur etsə, ehtiyat rayonlarının fotoşəkillərini çəkmək üçün ilkin məlumatlardır.

"Yer kürəsi" eksperimentinin başlanmasına az vaxt qalıb. Vaxtı itirmədən işə başlayırıq. Daşınan cihazları saxladığımız şkafa üzüb yaxınlaşıram. İçəri səliqəlidir, içindəkilər yüngülcə dalğalanırlar, kamera üçün lent rulonları sanki dalğaların vurması nəticəsində ritmik hərəkət edən meduzalardır. Qabları ardıcıl götürüb Pyotra verirəm. O, köhnə kasetləri cihazdan artıq çıxarmışdı. Yer kürəsində ağır idilər, burda isə rahat daşımaq olur. Lakin elementlərə nəzarət etməliyik, sonra uçuşsalar gözdən itəcəklər, bizsə onların axtarışına xeyli vaxt sərf edəcəyik. Bir-birimizə kömək edirik, həm də mane oluruq, çünki çəkisizliklə mübarizə aparırıq. Birinci kaseti çətinliklə yerinə qoyduq. Bu tədbiri altı dəfə təkrar edirik ki, hər altı obyektiv üçün müvafiq lent tapaq. Kasetlərin yerləşdirilməsini bitirəndən sonra azad uçuşda olan kasetləri "tuturuq" və cihazın korpusuna ardıcıl olaraq birləşdiririk. Bu, asan fəaliyyət deyil, çünki birləşmə metodu bir o qədər yaxşı işlənməmişdir, çox narahat və vaxt aparandır. Kameranın hərəkət müvazinətləşmə blokunu söndürürəm və bütün obyektivlərdə linzaların müvafiq dəyərlərini qoşuram. Cihazın kompleks yoxlanışına başlaya bilərik.

Volodya və Saşa bu zaman idarəetmə pultunun önündə diqqətlə dayanıblar, göyərtə sənədlərini öyrənirlər və "Salyut"u orbital yönalma adlanan quruluş üçün vacib olan manevrlərə hazırlaşdırırlar. Yəni stansiyanın aşağısı qabağa keçməli idi, çünki Yer kürəsinin mərkəzinə yönəlmiş kamera orada quraşdırılıb. Uzununa olan ox sürət vektorunun istiqaməti ilə uyğun olmalıdır. Bu vəziyyət eksperiment davam etdiyi bütün vaxtda saxlanılmalıdır, yəni stansiya qabağı (uzununa olan oxa uyğun) saniyəyə dörd dərəcə sürəti ilə əyilməlidir. Bu isə orbital bucaq sürətinə cavab verir.

İşə hazır olaraq rabitə seansını gözləyirik. Rabitə mənə bir saat yarım bundan əvvəl verilmiş vaxtda saniyə dəqiqliyi ilə yaranır. Yer kürəsi son fotoqrafik parametrlərdə düzəlişlər edir. Məlumatların böyük hissəsi mənə ünvanlandırılır. Fotoşəkilləri çəkəcəyimiz orbitin nömrəsini, kameranın yandırılma və söndürülmə vaxtını, ekspozisiya parametrlərinin dəyişmə vaxtını, bucaq müvazinətləşməsinin sürətini və torpaq örtüyünün faizini qeyd edirəm. Volodya yönalmanı həyata keçirmək üçün tələb edilən parametrləri hesablayır, Saşa isə onları "Salyut"un yönalma və istiqamət sisteminə daxil edir. Hamımız hazı-

rıq. Dəqiq qeyd edilmiş vaxtda Volodya və Saşa işə başlayırlar. Fikirlərini cəmləşdirərək, "Soyuz"da klaviaturada mənim həyata keçirdiyimə oxşar oyuna başlayırlar. Onların əmrləri qısa və dəqiqdir. Saniyəölçən onların diqqət mərkəzindədir. İstiqamətləndirmə sistemini qoşurlar. Volodya vizörə baxaraq əllə idarə edir. Saşa texniki vəziyyət və dəyişən parametrlər barədə hesabatlar verir. Qəribə səs-küy, taqqıltılar, sanki çəkiclə vurma səsini eşidirəm. Küt, lakin güclü və aydın səs gəlir. Gəmimizin orbital hissəsinə yaxın gedirəm. Oradakı illüminatordan kiçik manevr mühərrikləri hissəsinin işini müşahidə edirəm. Effektli və valehedicidir. Onların başlıqlarında ardıcıl işartılar yaranır, sonra isə ildırım sürəti ilə sferik şəkildə məkanda yayılırlar və itirlər. İllüminatorda üstümdə, qaranlıqda böyük göl yerini dəyişir. Gözəl və sirlidir. Xəritədən aydın olur ki, bu, Balxaşdır. Bir az sonra cənubda gözəl, qarla örtülmüş Himalay dağlarının zolağı görünür. Haradasa oralarda Yerin ən hündür zirvəsidir. Stansiya yavaş-yavaş horizontal vəziyyət alır. Yerdəki gecənin artıq orta saatlarıdır. Qırmızı çalarlarla parıldayan Günəş üfüqdə gizlənir. Bənövşəyi, sumağı, mavi və göy olan izi öz intensivliyini dəyişir. Qaranlıqda infraqırmızıya həssas olan detektorlar yerin görünməyən üfüqünü əks edirlər. Onlar stansiyanın aşağısını bizim planetimizin səthinə şaquli vəziyyətə dəqiq istiqamətləndirmək üçün idarəetməni qəbul edir, digər ionlu sensorlar sürət vektorunun yerləşməsini müəyyənləşdirir, logistik sensorlarsa həmin parametrləri mühərriklərə göndərilən impulslara çevirir. Həmin mühərriklər stansiyaya hərəkət istiqamətinə uyğun şəkildə istiqamət verəcəklər.

Pyotr məni işçi hissəyə çağırır və MKF-6 fotocihazını sınaqdan keçirməyə tələsdirir. Öz iş yerimə üzüb keçirəm, ətalət ayaqlarımı yuxarı qaldırır. Əlimə gələn cihazlardan tuturam ki, cihazın idarəetmə pultuna yaxın olum. Qoşuram. Pyotrla hər ikimiz sınağın keçməsini müşahidə edirik. Qiymətləndirmə müsbətdir. Müvafiq, sabit vəziyyətdə qalmaqda problemlərlə mübarizə aparıram. Problemlər tək məndə deyil. Pyotr  yuxarıda sallanıb qalıb, Volodya stansiyanın əsas idarəetmə pultunun yanında üfüqi şəkildə döşəməyə yapışıb, Saşa isə sağ divarda sənədləri gözdən keçirir və məlumatları öz komandirinə uca səslə oxuyur. Mənim xidmət edəcəyim idarəetmə pultu rentgen teleskopunun böyründəki sağ divarda, döşəmədəki illüminatorun yanındadır. Pulta yaxınlaşanda və stansiyanın konstruksiyasına bədənimlə toxunanda, baş verən reaksiya nəticəsində həmin an tavanın yanına uçuram. Sonunda rezinlə bağlanıram və vəziyyəti ayaqlarıma uyğunlaşdırıram. Sol illüminatorda üfüq aydınlaşır. Kovalyonokun yanına aktual məlumat üçün üzüb gəlirəm, bu zaman Volodya avtomatik sistemləri söndürür və idaəretməni üzərinə götürür. İdarəetmə dəstəklərini in-

cəliklə əyərək, stansiyanın önünün sürət vektorunun istiqamətinə uyğun şəkildə yerləşməsini nəzərə alıb, stansiyanın şaquli ox ətrafında yavaş-yavaş hərəkət etməsinə nail oluram. Yönalma mühərrikləri daha tez-tez vurur. Volodya maksimal dərəcədə toparlanaraq, optik vizirlə stansiyanın vəziyyətini müşahidə edir. Üfüqə nisbətdə olan mövqe vizirin mərkəzinin ətrafında şəfəqvari yerləşən kiçik pəncərələrdə əks edilir. Mərkəzi hissədə Yerin səthinin hərəkət istiqamətini görmək olur, indi dəqiq 0-180° istiqamətindədir. Orbital yönalma uğurla başa çatdı. Volodya müəyyən edilmiş yönalmanı təqib edən və qoruyub saxlayan sistemi qoşur. Məmnunluqla bizim tərəfə çevrilir və deyir: "Vsyo, teper rabotayte vı" (vəssalam, indi siz işləyin). Kağızları qoltuğumun altına qoyuram, Saşanın verdiyi durbini götürürəm və öz iş yerimə üzüb keçirəm. Bir neçə vaxt bundan əvvəlki təcrübəni xatırlayaraq, divardan əlavə rezin lentləri götürürəm. Düz illüminatorun yanında, yerdə özümü bərkidirəm. Qıraqda qalmış sənəd kitabı silindr formasını alır. Bəzi vərəqlər bir-birindən eyni məsafə uzaqlıqda şəfəq formasındadır. Unudulmaz səhnə. Üzüm illüminatora tərəf uzanaraq, yeri müşahidə edirəm. İntensiv olmayan, tək-tük görünən buludlar Amazonun mənsəbinədək, haradasa cənubi-şərqədək uzanır. Atlantika təmizdir. Ümid edirəm ki, Polşada hava yaxşı olacaq. Kameranın istilik sistemini qoşuram və illüminatorun çöldəki örtüyünü açıram. Həmin illüminatorun üstündə obyektivlər yerləşir. Bu sektor ventilyatorlar tərəfindən havalandırılır ki, optik sistemlərin tərləməsinin qarşısı alınsın. Stansiya ideal üfüqi vəziyyəti qoruyub saxlayır, vaxtaşırı yönalmanı təmin edən mühərriklərin tıqqıltısı gəlir. Pyotr üstümdən sallanıb, daxil etdiyim məlumatları soruşur və onları qeydlərlə müqayisə edir. Əla sakitləşdirici musiqiyə qulaq asırıq. Atlantikanın ortalarındayıq, Polşayadək hələ çox vaxt var, lakin bu yolu biz cəmi on üç dəqiqəyə qət edəcəyik. Artan gərginliyi hiss edirəm. Vaxtı öldürmək üçün durbini götürürəm və gözəl, üzüb gedən gəminin izini  görürəm. Üçbucaq dalğada işığın sınması aydın seçilir, onun zirvəsində isə, nəinki reallıqda, daha çox təxəyyül olaraq gəmini nöqtə kimi görürəm. Görəsən, o, haralara baş alıb gedir, mənim üç, dörd dəqiqəyə çatacağım quruya o, neçə günə çatacaq? Yaşıl Burun Adalarının dağlıq adaları sağ tərəfdə qalır, arxamızda Afrikanın qərb sahili, qabağımızda Kanar adaları və böyründə Madera yerləşir. Azor adaları qismən buludlarla örtülüb. Pyotr yerlə danışıqlar aparır və işə başlamağa hazır olduğumuzu bildirir. Bir neçə anlıq Pireney yarımadasının cənub hissəsinə diqqət edirəm – Cəbəllüttariq boğazını və həmçinin dənizə çıxan start yolunu görürəm. Xatırlayıram ki, general Sikorskinin faciəsi məhz burada 1943-cü ildə baş vermişdi. Sierra Nevada dağlarının zolağı qarla örtülüb, aranda

isə yaşıllıq, qəhvəyi – yayın bütün rəngləri var. Madridin ətraflarında qismən buludluğun fonunda kondensasiya vasitəsilə alınmış onlarla iz görürəm. Onlardan çoxu Atlantikanın mərkəzinə, digərlərisə Avropanın mərkəzinə və həmçinin Aralıq dənizi tərəfə istiqamət götürüb.

Pyotr Hasselblat cihazına nəhəng teleobyektiv quraşdırdı və döşəmədəki illüminatorun solunda yer tutdu. Cihazı yer kürəsi tərəfə tuşlayır və olduğu vəziyyətdə qalmaq üçün mübarizə aparır. Ona bərkidici lentlər verirəm. Onlardan birini tutur, illüminatorun yanında bərkidir və artıq viziri gözünə yaxınlaşdırmaq istəyəndə, yuxarı üzüb gedir. Fotoşəkillərin çəkilməsini saxlamadan, dişləri ilə lentin ucundan tutur və beləcə də ayaqları yuxarı qalxmış vəziyyətdə öz işini davam edir. Sonra isə gülüşlə şəkillərin xüsusilə gözəl çıxacaqları haqqında əminliklə deyir. Aşağıda artıq Fransadır, Paris və Britaniya adalarının bir hissəsi buludlarla örtülüb. Polşanın üzərində görüntünün necə olacağı haqqında fikirləşirəm. Yer kürəsi hazır olub-olmamağımız barədə soruşur. Təsdiq cavabı verirəm və eyni zamanda illüminatora mümkün qədər yaxın olmağa çalışıram. Pyotr kimi yuxarı qalxıram. Onun fəndi – dişlə saxlayıb tutmaq – özünü doğruldur. Durbinin gözlüyündə keçdiyimiz şəhərləri, çayları görürəm, lakin harada olduğumu dəqiqləşdirə bilmirəm, xəritəyə baxmağa isə vaxt yoxdur. Çəkisizlikdə iş yerimdən xeyli yuxarı qoyulmuş elektron saata baxıram. Onun göstəricilərini oxumaq üçün başımı yuxarı qaldırmalıyam. Bir neçə dəfə belə etdikdən sonra başımın hərləndiyini hiss edirəm. Tərslikdən cihazın idarəetmə pultu sağ tərəfdən qoyulub. Vestibülyar aparatım artıq dözmür, ürəyim bulanmağa başlayır. Pyotr son saniyələri ucadan sayır: 4, 3, 2. Emosiyaların artmasını hiss edirəm. “Sıfır” əmrini eşidəndə fotocihazı qoşuram və fotoşəkilçəkmə prosesinin gedişatını təqib edirəm. Cəftənin cırıltısını və müvazinətləşmə mexanizminin səs-küyünü eşidirəm. Nəzarət pultunda müəyyən qaydada lampalar yanır. Kamera kasetlərlə birlikdə ritmik yellənir ki, şəkilləri çəkilən, hərəkətdə olan obyektlərin bucaq sürətini müvazinətləşdirə bilsin. Kovalyonok qışqırır: “Mirek, Polşa”. İnstinktiv olaraq kardioliderin səs siqnalizasiyasını qoşuram. Həkimlərin xahişi ilə ürəyimə nəzarət edən cihazı stansiyada olduğum müddət ərzində sinəmdə gəzdirməliyəm. Aydın “ciyilti” eşidirəm, bu, ürəyimin döyüntüsüdür. Nəbz dəqiqəyə 80 vurğu, əməlli-başlı artıb, startda olduğundan da yüksəkdir. Durbini gözümə yaxınlaşdırıram, hansısa dağlar, çay, böyük şəhər, avtomobil şossesini və hava limanını görürəm. Hava limanını tanıyıram. Axı bu mənim Vrotslavımdır. Detalları tanımağa başlayıram. Odranın şırıltısını, Aşağı Sahildəki dambanı, böyründə uşağlığımın şəhəri Volovu görürəm. Pyotru çağırıram, qışqırıram və gördüklərimi göstərirəm, o isə

mənə heç baxmır, başı tamamilə fotoşəkillərin çəkilməsinə qarışıb. Bir baxışımla bütün Polşanı əhatə edirəm. Bü görüntü sadəcə fantastikdir. Qdansk körfəzi, Bıdqoşç və Varşavanın üzərində bulud yoxdur. Visladan şərqə Yer kürəsini yenə də buludlar örtür. Gəmimizin dəlicəsinə böyük olan sürətini yenidən yadıma salıram. Vislanı keçirəm. Pyotrun ipucuna uyğun olaraq, ekspozisiyanın parametrlərini dəyişirəm, çünki Yerin şərqi istiqamətdə işıqlanması hər dəfə zəifləyir. Sərhədi keçirik. Saata baxıram. Doqquz saniyədən az vaxt ötüb. Özümə sual verirəm – Polşa belə balacadır, yoxsa biz bu cür tez uçuruq?

Fotoşəkilçəkmə əməliyyatının təsiri altındayam. İşin nəticələrini sənədlərdə qeyd edərək, yenidən Polşanın üzərindən uçuşu yaşayırdım və hər dəfə belə idi. MKF-6 cihazı ilə işləmək mənə böyük zövq verirdi, bu, komanda çalışması idi. Missiyanın sonunadək Avropa, Afrika, Asiyanın şərq rayonları, Mərkəzi Atlantika və Hind Okeanının 2500-ə yaxın fotoşəklini çəkdik.

Çoxspektorlu fotokamera MKF-6M dəqiqliyi ilə tanınan Almaniya Demokratik Respublikasında, Karl Tseiss Yenin optik fabriklərində Moskva Kosmik Tədqiqatlar İnstitutunun mütəxəssisləri ilə birgə "İnterkosmos" proqramının çərçivəsində istehsal edilmişdi. Kamera birgə müvazinətləşdirmə platformasında yerləşdirilmiş altı müstəqil kameradan ibarətdir. Şəkillər sinxron çəkilir, yəni altı diapazonda birdən – görünən orta dalğalı şüalanmadan başlayaraq qırmızı işığadək. Bu çox effektiv həll oldu, çünki alınmış spektr çıxarışları (ağ-qara lentdən) müvafiq rəngli filtrlərlə birgə ekranda göstəriləndə, şəkli çəkilmiş məzmunun dəqiq izah edilməsini mümkünləşdirən müxtəlif rəngbərəng obrazlar verir. Cihazın üstünlüyü ondan ibarətdir ki, burada stansiyanın orbitdə yüksək sürətlə (7,9 km/s) hərəkət etməsinə görə şəkli çəkilən obyektlərin yerdəyişmə bucaq sürətini aradan qaldıran hərəkətin müvazinətləşmə sistemi işlənilib. Bu həllin sayəsində şəkillər müvafiq kəskinlik əldə edirlər. Kameraya 70 mm eni və 120 metr uzunluğu olan altı lentli kaset yerləşdirəndə, hər kanalda 1250 kadr çəkmək imkanı olur.

Yer kürəsinə qayıtdıqdan bir neçə ay sonra çəkdiyim şəkilləri Varşavada Geodeziya və Kartoqrafiya İnstitutunda gördüm. Gözəl mütəxəssislər öz elmi sirlərini mənim üçün açdılar və geologiya, topoqrafiya, kənd təsərrüfatı, balıq ovu, hidroqrafiya, ətraf mühitin qorunmasına, məkan planlaşdırılmasına və ümumiyyətlə, bütün xalq təsərrüfatına yardımçı ola biləcək fotoşəkillərin təfsir imkanlarını göstərdilər.

Orbit yüksəkliyindən çəkilmiş şəkillər həmin cihazla eyni məkanların təyyarədən çəkilmiş çoxspekterli şəkillərinə əlavə edilmişdi. Müqayisəli materiallar əldə edilən materialların yeni təfsir metodlarını işləməyə xidmət etdi. 1978-ci il bu cəhətdən pioner ili oldu. Orbitdən

əldə edilmiş məlumatlar kiçik miqyaslı xəritələrin (20-15 metr böyüklüyündə olan obyektlər görünürdü) dəqiqliklə yenilənməsinə, kənd təsərrüfatında və meşələrdə istifadə olunan inventarlaşmanı aparmağa, onların təsnifatına, həmçinin meşələrin, əkinin vəziyyətini müəyyən etməyə və kənd təsərrüfatında məhsuldarlığı proqnozlaşdırmağa imkan yaratdı. Satelitar metodu ilə maraqlı strukturları və eləcə də axtarılan təbii ehtiyatların həmin ərazidə olmamasını vəd edən geoloji strukturları aşkar etmək və sənədləşdirmək olur. Ətraf mühitin çirklənməsinin mənbəyini və dərəcəsini, suda planktonun yerləşməsi məkanlarını monitorinq etmək olur.

Orbitdə olan kosmonavtlar Kosmosu vizual və instrumental müşahidə etməyi çox xoşlayırlar, buna hər boş dəqiqələrini həsr edirlər.

İnsanlar əldə etdikləri cihazlar qədər mükəmməl deyillər, lakin onlardan ağıllı istfadə edə bilirlər. İnsan proqramlaşdırılmır, məntiqi hərəkət edir, hadisələrin qiymətləndrilməsində və qənaət edilməsində elastikdir. Nə isə qeyri-adi bir mənzərə görüb, cihazı həmin tərəfə fırladır, əgər lazımı şərait yoxdursa, eksperimentin vaxtını dəyişdirə, yaxud cihazın işini optimallaşdıra və müşahidə edilmiş təzahürləri instrumental metodla təsdiqləyə bilər. Və mən öz missiyamı məhz bu cür anlayırdım.



La Manş boğazı üzərində Günəşin batması. Müəllifin arxivindən.



Süveyş kanalının maviliyi. Müəllifin arxivindən.



Qərbi Avstraliyanın “böyrəkləri”. Müəllifin arxivindən.



Böyük Kolorado kanyonu. Müəllifin arxivindən.



Vrotslav-Straxovitse hava limanında mənim 11-ci  aviasiya qırıcı alayının bayrağı ilə görüş mərasimim, 1978-ci il iyul. Fotoqraf İreneuş Sobeşçuk



Məni uçuşda müşayiət edən Pan Tadeuşun nüsxəsi. “Bu gözəl və xüsusi xatirədir, öz şəxsi kolleksiyamda saxlayacağam” – Müqəddəs Ata dedi. Müəllifin arxivindən.




Varşava küçələrində salamlama, 20 iyul 1978-ci il. Müəllifin arxivindən.



Volov sakinləri ilə stadionda görüş. Müəllifin arxivindən.



Sevimli peşəyə qayıdış. Demblində Şahinlər Məktəbinin komandiriyəm, general rütbəsi ilə təltif olunmuşam, gözəl təyyarəçi, bizim davamçılarımızın müəllimi, polkovnik-leytenant Aleksandr Veştortla. Təəssüf ki, Demblində "ancaq" "İskra"larda uçurdum. Müəllifin arxivindən.



Oğlum kursant Miroslavla, İskra "TS-11" təyyarəsində ilk uçuşu üçün hazırlaşır, onun təlimatçısı mən oldum. Müəllifin arxivindən.

# “YUMŞAQ” ENİŞ

Yer kürəsinə qayıdış əməliyyatına 4 iyulda, hələ “Salyut-6” orbital stansiyasında olarkən başladıq. Eniş edən hissənin mərkəzində müvafiq ağırlıq vəziyyətini qoruyub-saxlamaq üçün əvvəlcədən müəyyən edilmiş sxemə əsasən əşyalarımızı “Soyuz-30“ gəmimizin müxtəlif künclərinə yığıb bağladıq. Bu, əsasən elmi materiallar, uçuşdan alınmış kino və fotoşəkil sənədləri və şəxsi əşyalarımız idi. Son anda stansiyanın yan tərəfinə gerbimizi yapışdırmağa macal tapdım – Ağ Qartalı. Bununla yeni ənənəyə başlanğıc vermiş oldum. Növbəti beynəlxalq heyətlər də olduqları stansiyalarda öz izlərini qoyurdular. Sonralar Çexoslovakiyanın da gerbi gətirildi və bizimkindən sonra yapışdırıldı, bəzilərisə bunu polyakın çexdən əvvəl getməsi kimi qəbul edirdilər, həqiqətən, belə də olmalı idi.

“Soyuz”un göyərtə sistemlərinin saz vəziyyətdə olduğunu yoxladıqdan sonra orbital stansiyada qalan Kovalyonok və İvançenkovla vidalaşdıq. Qədim rus adətinə görə, yola çıxmazdan əvvəl bir az “oturmaq” lazımdır, biz də belə etdik, sakit oturduq, sonra ürəkdən görüşdük, yəni yaşayış sahəsindən eniş kapsulunadək sıxlaşıb keçirdik. Yaşayış sahəsinin hər bir guşəsini zibil qutuları, boşalmış su qabları, istifadə edilmiş mexanizmlər və elmi cihazların hissələri ilə doldurduq. Atmosferin qatı layında, haradasa Qərbi Qazaxıstanın üstündə yanacaqlar. Orada altı boşalmış su qabını yerləşdirdik. K-3 kinokamerasını və lazımsız TV kameradan artıq çıxarılmış obyektivi ehtiyatla eniş kapsulasına xatirə olaraq gətirdim. Lyukları bağladıq, skafandrları geyindik, xüsusi bölmələrin germetikliyini nəzarətdən keçirdik və bizi yarı yolda qoymayacağını yoxlamaq üçün bir neçə dəqiqəlik əyləcləmə mühərrikini qoşduq. Klimuk bazaya stansiyadan ayrılmağa hazır olduğumuz barədə məruzə etdi. Təyin edilmiş vaxtda kiçik manevr mühərriklərindən istifadə edərək, ayrılma əməliyyatına başladıq. Stansiyadan üzüb aralananda radio vasitəsi ilə bizimlə vidalaşaraq, Yer kürəsinə sağ-salamat qayıtmağımızı arzu edən Kovalyonoku eşitdik. Bir an sonra illüminatordan uzaqlaşan stansiyanı gördüm. Fotocihazı cəld çıxarıb bir neçə şəkil çəkdim

və bayğın-bayğın əlimi sağollaşmaq üçün yellədim. Bu, haralardasa Asiyanın üzərində idi.

Tezliklə orbitdəki son gecəmiz gəlib çatdı və Pyotr gəminin mövqeyini əli ilə Yer kürəsinin görünməyən üfüqə və sürət vektoruna müvafiq yönəltməyə başladı. Gecəgörmə cihazları dəqiq və qüsursuz işləyirdi. Gəmimizin çəkisi üçün əyləcləmə mühərrikinin tələb edilən vaxtını hesabladıq. Nəticələri dəfələrlə yoxladıq. Onların dəqiqliyindən düzgün enməmizdən əlavə, həm də təhlükəsizliyimiz asılı idi. Əgər mühərrik optimal vaxtın ehtimalından bir az çox işləsəydi, gəmi sıldırım trayektoriya ilə Yer kürəsinə tərəf düşəcəkdi, atmosferdən tez keçəcəkdi, lakin yaranmış böyük yüklənmə sağlamlığımız üçün təhlükəli ola bilərdi. Əyləcləmə impulsu daha az olsa, trayektoriya səthi olardı, yüklənməsə böyük olmazdı. Lakin qızğın plazmada daha uzun müddət qalması nəticəsində ablasiya örtüyü yana bilərdi. Kapsulanın qalıqları hesablanmış nöqtədən çox uzaqlara düşəcəkdi.

Həmişəki kimi gözəl, əlvan rənglərlə Günəşin çıxmasını və qardan ağarmış Horn burnunu son dəfə seyr etdim. Uzaqda rəngbərəng olan Cənubi Amerika qitəsini və buludlarla örtülmüş okeanı gördüm. Qvineya körfəzi tərəfə istiqamət götürmüşdük.

Düzgün üfüqi vəziyyətdə durmasından əmin olduqdan sonra gəminin ön hissəsini hesablanmış dərəcədə sürət vektoru tərəfə elə qaldırdıq ki, mühərrik qoşulması zamanı əyləclərmədə üfüqi vəziyyət alsın. Sonra jiroskop sabitləşməsini qoşduq. Prosedurların düzgünlüyündən əmin olduqda, Pyotr ekvatora çatmamış əsas əyləcləmə mühərrikini saniyəyədək hesablanmış vaxtda qoşdu. Onun impulsu bizi orbitdən çıxarmalıdır. İmpulslar sayğacının xoş səs-küyünü eşitdim, yüngül titrəmə yarandı və səkkiz gündən bəri ilk dəfə belimin arxasında şəxsi kreslomu hiss etdim. Əvvəlcədən böyük olmayan, sonra isə artan tezləşmə bədənimi kreslonun içinə yüngülcə basmağa başladı. 208 saniyədən sonra mühərrik inteqratordan ayrıldı, yenidən çəkisizlik yarandı və qorxuducu sükut çökdü. Pyotr gəmidə olan vəziyyət haqqında hər dəqiqə məruzə edirdi. Cavab yox idi. Jiroskoplarla sabitləşdirilmiş gəmi ulduzlara nisbətən dəyişməz vəziyyətdə qalmışdı. Sanki arxamız qabağa uçurduq, gəminin ön tərəfisə üfüq tərəfə əyilirdi. Urəyimin tez-tez döyüntüsünü eşitdim. Emosiyalar güclü idi, çünki orbiti tərk etdiyimizi, bu mürəkkəb, təhlükəli və dönməz prosesə müdaxilə etməyin imkansız olduğunu anlayırdım. Fikrimiz cəmlənmiş, əzələlər və əsəblərimizsə son həddədək gərgin idi. Ən çətini irəlidədir. Qəhvəyi-sarı Saxaranı müşahidə edəndə, Liviya səhrasından 145 kilometr yüksəklikdə

lazımsız mühərrik və orbital hissələr enmə kapsulundan ayrıldılar və Yer kürəsi tərəfə öz trayektoriyaları ilə uçdular ki, atmosferdə yansınlar. İki uzaqlaşan obyekti gördüyümü məruzə etdim. Periskopun ekranından artıq lazımsız linzanı çıxardım və sağ yan divarda xüsusi cibə qoydum. Təəssüf ki, ilgək qopdu və bir andan sonra böyük şüşə parçası kabinədə uçurdu. Təhlükəni aradan qaldırmaq üçün onu yenidən qablaşdırdım, yastıqla basdım və dizimlə saxladım. Yer kürəsinə məruzə verdim ki, ilgək qopdu. Qayıtdıqdan sonra əsasən də UNO ovçularına hansı ildırım haqqında danışdığımı və hansı obyektləri gördüyümü dəfələrlə izah edirdim.

Saniyədə 8 kilometr sürətlə uçan meteoritə çevrildik. Lap özümə qısılmışdım, kreslonun kəmərlərini və ayaqlarımı saxlayan kəmərləri bir az da bərkitdim. Ayaqlarımı yığmış, təhlükəsizlik kəmərləri ilə bərkidilmiş, həyat verən oksigen və Yer kürəsindən ruhlandırıcı sözləri çatdıran cihazlarla "göbək"lə birləşdirilmiş halda illüminatordan Liviya səhrasının ölü səthini müşahidə edirdim.

Kapsul yavaş-yavaş odadavamlı tərəfini uçuş istiqamətində fırladırdı. Kiçik mühərriklər qısa impulslar atırdı ki, atmosferə daxil olduğumuz zaman tələb edilən mövqeyi qoruyub saxlayaq. Bunu yandırılmış yanacağın qalıqları olan, dairəvi yayılıb nəhəng çəhrayı sabun köpükləri kimi məkanda itən sakit tüstü burumları müşayiət edirdi. Aralıq dənizini keçirdik, aşağıda Krit və Kipri gördüm. Artıq aşağıda idik – Yer kürəsindən 100 km aralıqda. Şlemin şüşəli örtüyünə hansısa kiçik qırıntılar yaxınlaşırdı. Önümdə ATMOSFER siqnalizatoru yandı. Bu, atmosferdə əyləcləmə prosesinin başlanğıcı işarəsi idi. Birdən cihazlar cədvəlinin altından missiyanın ilk günlərində itirdiyim və Leonovdan xatirə olan qələm çıxdı. Bunu müsbət işarə kimi qəbul etdim və qələmi tez kombinezonun cibinə qoydum. İllüminatordan baxdım – altımızda sağ tərəfdə Türkiyəni, bir andan sonra isə Qafqazın qarlı dağlarını gördük. Evlə bizim aramızda 1500 kilometr var – və məhz bu an ilk, ürkək alovu gördük, əvvəl kapsulanı sanki çəhrayı duman bürüdü və atmosferin daha dərinliyinə keçdikcə qatılaşdı. Öz bədənimin ağırlığını hiss etdim. Görünməyən qüvvə döş qəfəsimi sıxırdı və hiss etdim ki, sanki boğazım daralır. Getdikcə nəfəs almaq daha da çətinləşirdi və böyük səylər tələb edirdi, danışmaqsa, demək olar ki, mümkün deyildi. Alov artıq əməlli-başlı görünürdü, illüminatorun odadavamlı şüşəsinin arxasında, sifətimin yanında yanırdı. Buna baxmayaraq, bir neçə dəfə diksindim, çünki bu, xoş rəngdə olan, on beş milyon selsi dərəcəsinədək istilənmiş plazma idi! Düz belimin arxasında odadavamlı örtük 1750 Selsi dərəcəsinədək qızdı. Artan yüklənmə məni

boğmağa başladı, buna görə diafraqma ilə nəfəs almağa çalışdım. Kömək etdi. Yer kürəsinə məruzələri zorla edirdim. İllüminatorun şüşəsi istiləşməyə başladı, birinci sarı, sonra isə açıq qəhvəyi rəng aldı. Tezliklə yanğının hisi şüşənin şəffaflığını tamamilə bağladı. Ancaq yağışdan sonraki izlərə oxşar zolaqlar görünürdü. Bu zolaqlar konstruksiyanın ərimiş hansısa xarici elementlərindən qızğın metal damlalarını çıxarırdı. Dəhşətli yüklənməyə dözmək çox çətin idi. Hiss edirdim ki, bədənim yastılaşır. Havanı suda boğulanlar kimi udum-udum alırdıq, sanki ehtiyat üçün saxlamaq istəyirdik. Radio rabitəsi kəsildi, çünki istilənmiş plazma radiodalğaların axınını dayandırdı. Buna baxmayaraq, dayanmadan, artıq qışqıraraq göyərtədəki vəziyyət haqqında məruzə edirdik. Lakin qəbul yox idi. Özümü narahat hiss etdim. Qəflətən kapsul yellənməyə başladı və artan, xoş olmayan və narahatedici böyük tezlikdə titrəmələr və dartılmalar başladı. Hiss edirdim ki, sanki dəli olmuş atların daşlıqla dartdığı çəlləkdə idim. 35 Max sürətlə atmosferin sahəsinə daxil olurduq, atmosfersə Yer kürəsini müdafiə edərək, bizi yad cisim kimi qəbul edirdi. Yüklənmə ilə bizi əzmək, temperaturla isə yandırmaq istəyirdi.

Qəflətən Yer kürəsini eşitdik. Rahatlandıq. Bizə məlumat verildi ki, Yer kürəsindən 40 kilometr aralıqdayıq və eniş "normal" davam edir. Paraşütün açılmasına qalmış vaxtı hesablamağa başladım. Kapsulun titrəməsi ritmik azalan yellənməyə keçdi, yüklənməsə böyük dərəcədə azaldı. Kapsul istilənmiş metal meteorundan aerodinamik daşa çevrilməyə başladı. Turbulent axın laminat axına çevrildi. Yer kürəsi xatırlatdı ki, kəmərlərimizi lap sıxmalıyıq, bərkidilməmiş əşyalarısa yaxşıca bağlamalıyıq. Bunların hamısını çoxdan eləmişdik. Mənim fikrim paraşütdə qalmışdı. Olduqca mürəkkəb missiyanın uğuru və həyatımız bu ənənəvi və müəyyən mənada primitiv nəqliyyat vasitəsindən asılı idi. Paraşütün açılmasına bir yarım dəqiqə qalmış, saniyələri uca səslə geri saymağa başladım. Vaxt bitmək bilmirdi. Əminəm ki, paraşütü açılmayan Komarovun üzünü gördüm. Ağlıma ən pis fikirlər gəlirdi və məhz bu an küt partlayış və şiddətli sıçrayış səsini eşitdik. Ardıcıl üç dəfə təkrarlandı. Bu, növbəti paraşütlərın açılmasına işarədir: dartıcı, əyləcləyən, növbəti dartıcı və daha qüvvətli sıçrayış – min kvadrat metr sahəli əsas paraşüt bizi öz ağuşuna alır.

Sükút çökdü və yavaş yellənirik. Düşmə sürətini hesablamağa çalışırdım ki, ehtiyat paraşütün açılmasına ehtiyac olub-olmamasını dəqiqləşdirək. Əla idi. Lakin hara enəcəyimizə dair bəzi narahatlıqlar yarandı, bu, dağ, meşə, tayqa, bəlkə də bataqlıq ola bilər. Bu-

ludların üstündə rayona nəzarət edən təyyarələrin bizi görmədikləri haqqında çarəsiz məruzələri eşidirdim. Dərin nəfəs alırdıq. Pyotr paraşütün açılması haqqında tez-tez çox emosional şəkildə məruzə edirdi. Sakit düşmə prosesinə piropatronların partlayışı və kapsulun yuxarı hissəsindəki çatırtı qatıldı. Hiss etdik ki, düşürük. Bir andan sonra güclü silkələnmə asılma vəziyyətinin artıq simmetrik olduğunu yada saldı. Bir azdan növbəti iki əyləncə - artıq lazım olmayan, istilənmiş termik örtüyün ayrılması. 550 kilo itirdik. Gözlənilməyən piropatronlar növbəti partlayışları kreslolarımızı 21 dərəcə yuxarı qaldırdı və onları armatizatorların üzərinə bərkitdi. Yer kürəsilə görüşməyə hazır idik.

Paraşütlə on dəqiqə uçuşdan sonra helikopter pilotunun sevinc dolu və coşqun səsini eşitdim. Böyük duyğularla paraşütü buludların altında gördüyünü və Yer kürəsinə 3000 metr qaldığını deyirdi. Ətrafımızda fırlanırdı və enmə şəraitləri barədə dayanmadan xəbər verirdi. Altımızdakı səthin düz və yaşıl olmasını qeyd edərək bizi sakitləşdirdi, lakin güclü, saniyəyə 16 kilometr sürətli küləyin olması haqqında xəbərdarlıq da verdi. Belə şəraitdə enmə prosesinin çox dinamik keçəcəyini bilirdim. Birdən 922 kod adı olan pilot sanki idman şərhçisi kimi, oyunçuların finala yaxınlaşması tək şərhlər etməyə başladı. Hər dəfə daha tez-tez deyirdi: 50 metr qaldı, 30, 20 və zəfər qışqırığını eşidəcəyimi gözləyəndə, "yumşaq enmə" adlanan raket mühərriklərinin gurultusunu və yenidən partıltı eşitdim, burulğanlıq, nəsə başıma düşdü, kapsul bir neçə dəfə yerdə fırlandı və hərəkətsizləşdi, bu an hiss etdim ki, paraşüt kapsulu sürüyür. Həmin an paraşütün bir layını açdım. Radio susdu, paraşüt laylarında qalmış antenni itirdik. Sükut çökdü, sağ böyürdə uzanmışdıq. Helikopterin pilotu qışqırdı: "seli" (endilər). Klimuk gülümsədi, məni dizimdən vurdu və dedi: "Hə, indi evdəyik". Həyatımda ən gözəl macəraya görə mən də ona təşəkkür etdim.

Tezliklə radioda tanınmış diktorun təntənəli səsilə elan edildi: "Bu gün, 5 iyul 1978-ci il tarixində, saat 16.30-da "Soyuz-30" kosmik gəmisinin beynəlxalq heyətinin yumşaq enməsi baş vermişdir, heyətin tərkibində..."

"Yumşaq enmə" haqqında həmin elanı səhərisi günü bütün qəzetlər təkrar etdi.

Gözümün qabağındakı mənzərə dalğalanırdı. Bir neçə an tərpənmirdik. Məni əzən ağırlığımı və bütün bədənimdə tər damcılarını hiss edirdim. Pyotra baxdım, üstümdə idi, mənim kimi çətin nəfəs alırdı. Qulaqcıqlarda yenə də sükut idi. Qulağıma helikopterlərin asta səsi gəlirdi. Siqnalizasiyanın qəfil səsi bizi keylikdən oyatdı.

Bu dəhşətli səsi batırmaq üçün tez düyməni basmağa atıldım, lakin hansısa qüvvə əlimi saxladı.

- Bu zibili söndür, – Pyotr israrlı dedi.

- Söndürə bilmirəm, əlim nəyəsə ilişdi, – cavab verdim.

- Sən cazibə qüvvəsini belə hiss edirsən, – dərhal izah etdi.

Növbəti cəhd etdikdə, əllərim sözümə baxdı, lakin onları güclə tərpədirdim. Siqnalları eşitdim. Sol əlim lap ağır idi – bu, saatın işidir, onun ağırlaşdırdığını yada saldım.

- Antenni aç, yaxınlaşırlar, – Pyotr tələsdirdi və əlavə etdi, - sənədlərə uyğun işlə.

Bütün addımlar yaddaşımda kodlaşdırılmışdı, lakin əminlik üçün təlimata nəzər yetirdim. UKF yayvari antennini pirotexnika üsulu ilə açdım, düz məqamında, çünki qaçıb gələn insanların səslərini artıq eşidirdik. Rabitə qayıtdı. Pyotr həmin an hamının artıq bir neçə dəqiqə bundan əvvəl bildiyini məruzə etdi: "Zorya" – mən "Qafqaz"am – sağ böyrü üstə uzanmışıq, heyətin kefi əladır". Kabinənin soyutma sistemini cəld qoşdum, yönalma mühərriklərinin enerji sistemində qalmış yanacağı və göyərtədə olan silindrlərdən sıxılmış qazı atdım. Artıq lazımsız xüsusi radio və optik yerləşmə vasitələrini söndürdüm. Çöldən gələn səslər hər dəfə daha da coşğulu idi. Xilasedicilərin kapsulla mübarizə etdiklərini və onu düz, üfüqü vəziyyətə fırlatmasını hiss edirdik. Cazibə qüvvəsi məni kreslonun içinə sıxırdı, içəridəsə hər şey fırlanırdı. Pyotr güc-bəla ilə lyukun örtüyünü açdı. İçəriyə əla, təmiz hava, Yer kürəsinin ılıq iyi, insanların səsləri və helikopter mühərriklərinin səs-küyü daxil oldu. Yerimdə oturduğum anda salamlaşmaq üçün Klimuk tərəfə uzadılmış əl gördüm. Bu əlin yiyəsi uğurlu enişimizi təbrik edir və kefimizi soruşurdu. Səsi tanımağa başlayıram – bu, axtarış-xilas qrupunun başçısıdır, cəsarətlilər arasında ən cəsarətlisi, əla dost və Ulduz şəhərciyindən təlimatçı İosif Davıdovdur. Pyotr çölə çıxır. Bəzi avadanlıq elementlərini tələsik şəxsi əşyalarım olan paketə yığdım və bərkidici kəmərləri, skafandrı tutan bağlamaları açdım. Lyukun qapağını bir az örtdüm və çıxışla üzbəüz olan rəhbərin kreslosuna keçdim. Bədənim ağırlaşmışdı, əl və ayaqlarım daş kimi ağırdır. Bu bir neçə hərəkəti yorğunluqla edirdim. Ürəyim dəhşətli sürətdə döyünürdü. Dincimi almaq arzusundaydım. Bir neçə əl birdən məni tutmaq istəyirdi. Başımı lyukdan çıxardan kimi, əllərində fotoaparatlar və kameralar olan onlarla insan gördüm. Redaktor Stefanoviçi və yaxşı yer üçün mübarizə aparan fotoreportyor Tadeuş Zaqojdjinskini tanıdım. Reportyorlar malik olduqları bütün avadanlığı mənə tərəf tuşlamışdılar. Xilasedicilərin güclü əlləri məni kapsuldan sanki ilbizi

zirehindən çıxarırımış kimi dartıb çıxardırdılar. Ayaqlarımın içəridə qalmasını nəzərə çatdıran anda bir az yavaşıdılar. Pyotrun yanında yırğalanaraq dayandım. Leonovu gördüm. Sevinirdi və bizi təbrik edirdi. Kimsə məni şaquli vəziyyətdə saxlayırdı. Başqa kimsə paketimi saxlamağı təklif etdi. Etibar etdim və bir daha həmin insanı görmədim. Ancaq bir neçə gündən sonra onun içindəkilərinin bir hissəsini tapdım. Şəxsi kinolentlərim və qeydlərim olan qeyd kitabçası itdi. Hələ ılıq olan kapsulun ətrafında xeyli adam yığılmışdı, başqaları da qaça-qaça gəlirdi. Əlimi sıxır, silkələyirdilər, öz sevinclərini ifadə edirdilər və şəkillər üçün poz verirdilər. Burada baş verənlərin çoxunu bacardığım qədər yaddaşda saxlamaq istəyirdim. Pyotrla qaralmış kapsulun yanında, iri cavan qarğıdalı tarlasında, nəhəng ağ-qırmızı paraşütümüzün düşdüyü yerdə dayanmışdıq. Yaxınlıqda kiçik çuxur gördüm – kapsulumuzun Yer kürəsi ilə ilk təmas yerini. Pyotr qarğıdalının yaşıl yarpaq dəstəsini dərdi və mənə xatirə olaraq verdi, təlimatçı Yura Şmakovsa mənə yanmış termik örtüyün balaca qırıntısını, Baykonurda işəsalma sistemi və həmin çuxurdan olan bir ovuc torpağı şəffaf torbada verdi. Bu günədək həmin xüsusi yadigarları və doğma Lipnikdən olan torpağı saxlayıram. Bir neçə addım atmağa cəhd etdim. Çətin olduğunu – (ağır skafandr və ayaqqabılarda özümü sudan çıxmış dalğıc kimi hiss edirdim)– fikirləşdim. Kimsə gözəl tünd qırmızı qızıl gül dəstəsini verdi – haradan aldılar onu? Gülü təqdim edən izah etməyə tələsdi: "Bu Emiliyadandır, bu gün səhər xahiş elədi ki, enəndən sonra sənə təqdim edim. Uşaqlarını da gördüm. Səni gözləyirlər, onları, öz yaxınlarını sabah görərsən". Ancaq sabah?

Tezliklə vestibülyar aparatım özünü hiss elətdirməyə başladı, başım fırlandı. Tanış bir jurnalist xanımla rəşadətlə görüşərək əyiləndə lap gücləndi. Ana Yer kürəmiz bir həftə bundan əvvəl bizi könülsüz buraxdı, bu günsə sanki qəbul etmək istəmir və könülsüz cəzalandırırdı. İsti idi, şlemofonu soyundum. Saçım tərdən yaş idi. Leonov bunu gördü, saçımı düzəltdi və yığışmış insanlardan xahiş etdi ki, məni çox silkələməsinlər. Bizim tərəfə təntənəli dəstə gəldiyini görüb təəccübləndim. Öndə iki milli geyimdə qız rəngli uzun xalçada iri çörək (karavay) gətirirdilər, onu baş əyərək bizə təqdim etdilər. Təzə çörək iyi göz yaşlarına səbəb oldu. Orbital stansiyadan hələ ayrılmadığımız zaman kosmonavt general Şatalov məndən soruşmuşdu: "Yer kürəsində ən çox nə yemək istərdin". Tərəddüd etmədən cavab verdim: "Bir tikə təzə çörəklə yağ". Bir daha arzuların çin olması sübut edildi. Bizi əmin etdilər ki, sabah ailələrimizi görəcəyik. Başa düşdüyümə görə, həyat yoldaşlarımız kosmodroma gələcəklər.

Başqa heyətlər kimi, iki həftə orada güc yığmaq üçün qalmalıydıq.

Gün boyu fotoreportyorların əmrində idik. Onlarsa özləri yaratdıqları xaosda işləyirdilər. “Artıq həmişə belə olacaq” – Pyotr gülümsəyərək mənə deyir. Onların mövcudluğu mənim üçün cazibə qüvvəsi və vestibülyar aparatın pozğunluğundan daha bezikdirici idi. Çoxillik ənənəyə əsasən, kapsulun qarayanıq səthində imza atmalı idik. Jurnalistlər bu məqamı əbədiləşdirmək üçün hazırlaşdılar və... karandaş yoxdur. Jurnalist İrena Şadzevska bizi bu çətin məqamdan xilas etdi. Öz dodaq boyasını bizə qurban etdi. Bu orijinal üsulla ənənəni qoruyub saxladıq. Fikrim ancaq hardasa əyləşmək idi. Həkimlər bizi helikopterə yönəltdilər. Hər dəqiqə kimsə bizə qaçıb çatırdı, şəklimizi çəkirdilər, gül və ya hansısa oyun-oyuncaq verirdilər. Çobanın mənə verdiyi hədiyyədən çox sevindim – mənə yerli, iki  simli dombra adlanan simli alət bağışladı. Çox böyük olan helikopterdə özümüzü oturacaqlara atdıq. Gücümüz yox idi. Skafandrları soyunmaq təklif edildi. Lakin diqqətimi ətirli karavay çəkdi. Düzü, onu çırpışdırdıq – çox dadlı idi. Əsl rahatlıqsa skafandları soyunandan sonra idi. Yuyunmaq da təsviredilməz ləzzət idi. Köynəyi əlimə alanda, tərdən yaş və sal daş kimi ağır idi. Əzələlərim və duyğularım cazibə qüvvəsini belə qəbul edirdilər. Həkimlər bizdən bir addım belə ayrılmırdı. Nəbzi, təzyiqi yoxlayırdılar, parlaq təbəssümlə bizi tərəzidə çəkirdilər və su içməyə sövq edirdilər. “Bədəninizdəki su xeyli azalıb, lakin bir neçə gündən sonra normaya qayıdacaqsınız”, – deyirdilər. Sən demə, səkkiz gün kosmosda olduğum zaman 4,6 kilo arıqlamışam. Sonra mənə məlum oldu ki, həmin müddət ərzində həyat yoldaşım 6 litr ağlayıb.

Qarğıdalı tarlasında hərəkət sıxlaşırdı. Yeni maraqlananlar və jurnalistlər peyda olurdu. Hər kəs heç olmasa bir sual verməyə çalışırdı, ab-hava yorucu, lakin həyəcanlı və mehriban idi. Rahat paltar – mavi cins geyinərək helikopterdən çıxdıq ki, çoşğun toplum ilə yenidən görüşək. Qarğıdalının təmiz tapdalandığını gördüm. Arkalık adlı yerə tezliklə uçacağımız haqda məlumatı böyük sevinclə qəbul etdik. Mi-8 nəql helikopterinin kabinəsində bərk metal oturacaqda yer aldım. İçərisi nəm idi. Kabinənin orta hissəsində iri, sarı 800 litrlik əlavə yanacaq bakı yerləşdirilmişdi. Ən mühüm sərnişin mən idim. Pyotr Klimuk başqa helikopterlə uçurdu. Uçuşda mənə aviasiya marşalı, II Dünya müharibəsində iki dəfə Sovet İttifaqı Qəhrəmanı olan, hücumçu pilot Aleksandr Yefimov müşayiət edirdi. O, günlərin bir günü bizi yorucu məşqlərdən sonra masada yatmış görmüşdü. Həmçinin həkim və xidmətdən iki xanım var idi, onlar özlərini daha mehriban göstərmək istəyirdilər – biri buterbrodlar, birisə

içkilər təklif edirdi. Çay xüsusən ətirli idi. Minnətdarlıq edərək bir buterbrod yedim və dadlı karavayı götürdüm, onu qırırdım, iyləyirdim və sanki ən dadlı təam kimi yeyirdim.

Startdan sonra helikopterin pilotu eniş yerimizi bir neçə dəfə fırlandı. Yüzlərlə adam, onlarla maşın və bizim kapsul tərəfə yığılan yeni insanlar gördüm. Onlar piyada gəlirdilər, maşınlarla, kamazlarla, atlarla... Son dəfə kapsula baxdım, insanlarla əhatə edilmişdi. Yan tərəfdə aydınca "krater" və açılmış nəhəng ağ-qırmızı paraşüt görünürdü. Uçuş istiqamətinə qarşı perpendikulyar qoyulmuş oturacaqda bunların hamısını görmək üçün tez-tez yerimi dəyişirdim. Vestibülyar aparatım özünü xatırlatdı, kefim pozuldu. Marşal Yefimov bunu hiss etdi. "Düz otur",– təklif etdi. Pilot kabinəsinə işarə etdim. Anladı, başı ilə yellədi və ikinci pilotu çağırdı. Onun yerini böyük həvəslə tutdum. Bu mənim yerim idi. Helikopterin kapitanı baş verən dəyişikliyi gülümsəyərək qəbul etdi. Kabinə şüşələnmişdi, görüntü əla idi və başımı fırlatmağa ehtiyac yox idi. Uçuş rahat idi. Sükanlara toxundum, onları incəliklə əlimlə sıxdım. İçimdə pilot instinkti oyandı. Dəstəyi çəkdim, pilot bunu gördü və xahişimi anladı. Əllərini yuxarı qaldırdı. Qətiyyətlə sükanı tutdum. Helikopter mənə tabe oldu. 40 dəqiqə ərzində idarə etdim. Kapitan Arkalıka enməmişdən əvvəl idarəetməni üzərinə götürdü. Sağda nizamlı sıralarla düzülmüş yüzlərlə insan gördüm.

Enəndən sonra helikopterə qızlardan ibarət nümayəndə heyəti yaxınlaşdı, onlar da bizi ətirli çörək və duzla salamlayırdılar. Əllərində gül uşaqlar və rəngli şərflər bağlamış yerli hakimiyyət nümayəndələri yaxınlaşdılar. Məni və Pyotru – fikir verdiyimə görə - tələsik inşa edilmiş bir az yuxarı tərəfə apardılar. Kimsə çıxış etdi, çıxış edənlər həyəcanlarını gizlədə bilmirdilər. Mən Arkalıq şəhərinin fəxri vətəndaşı olmaq şərəfinə layıq görüldüm. Pyotr çıxış etdi – çox duyğulu və təsirli. Məni çıxış etməyə dəvət edəndə ayaqlarım büküldü. Nəsə deməli olduğumu anlayırdım. Gərginlik yüksək idi, karıxıb qalmışdım. Danışırdım, toplananlarsa tez-tez məni alqışlayırdılar. Nə o zaman, nə də indi çıxışımın məzmununu xatırlamıram. Yığıncağın bitməsini xilas kimi gözləyirdim. Təşkilatçıların şpalerlə gəzmək təklifimi qəbul edəndə çox sevindim. Salamlama və təbəssüm bitmirdi. Toplaşanların qəfil jestlərinə reaksiya verərək, onlara tərəf çevriləndə tarazlığı itirirdim. Yanaşı gedənin əli məni saxlayırdı. Toplaşanların əllərindəki Pyotrun və özümün böyük, lakin çox pis portretlərimizə təəccüblə baxırdım. Yəqin ki, yerli "rəssam" tərəfindən tələsik çəkilmişdi. Bu an polyak dilində "Salam, Mirek" eşitdim. Təəccüblənərək soruşdum: "Siz, polyaklar, buraya

haradan gəldiniz?" Yaşlı xanım dedi: "A mi, Polacy, tut jeszczo z wojny"[64]. Bir neçə həmyerlimlə salamlaşdım, onlar həyəcanlı və xoşbəxt idilər. Onların göz yaşları mənim göz yaşlarıma səbəb oldu. Vaxt tələsdirirdi. Hava limanının yolunda uçuş üçün hazır olan "TU-134" təyyarəsi gözləyirdi. Kabinə sakit və qəşəng idi. Heyətimizin hər yerdə bizimlə olan həkimi masanı açdı, yeməklər əla və dadlı idi, şirniyyat, meyvə, balıq kürüsü və başqa şeylər də var idi. Bir badə şampandan imtina etmədik. General Leonov tərəfindən təşviq edilərək, böyük həvəslə içdik. Yada saldı ki, uçuşdan əvvəl kosmodrom mehmanxanasında vidalaşanda, köpüklənən şampana ancaq baxa bildik. Sağlığı deyəndən sonra Yer kürəsində olduğuma inandım.

Baykonura saat yarımlıq uçuş nəzərə çarpmadan keçdi. Enişdən əvvəl göyərtədə olan mundirləri geyindik. Pyotr Sovet Ordusunun polkovnik mundirini, mənsə Polşa Ordusunun mundirini geyindim.

Hava limanında bizim üçün şən salamlama hazırlamışdılar. Həyat yoldaşım və uşaqları axtarırdım, onları soruşdum. Boş yerə. Növbəti salamlama "Kosmonavt" mehmanxanasında hazırlanmışdı. Bizi tibbi personal və xidmətçilər gözləyirdi. Bizi növbəti karavayla salamladılar. Kimsə mənə tısbağa verdi – yadında saxlamışdı ki, oğluma belə hədiyyə söz vermişəm. Şöhrət xiyabanında təntənə ilə ağac əkdim (46-cı nömrə). Mətbuat konfrasında bizi sual atəşinə tutmuşdular. Yorğun idim və dincəlmək istəyirdim. Sabah Ulduz şəhərciyində olacağımız haqqında xəbər verildi. Təəccübləndim. Yoldaşımı və uşaqlarımı görəcəyimə sevindim. Bəs niyə ikihəftəlik istirahətdən məhrum olduq? "Sabah saat 11-də Kremldə olmalısınız – cavab verildi. – Oyanma səhər saat dörddə, gedin dincəlin". Leonov bizi hovuza apardı ki, "çəkisizliklə vidalaşaq". Amma bu, daha doğrusu, onunla yenidən görüş idi. Çiməndən sonra start günü söz verilmiş qızıl şüşə peyda oldu. Dörd saatdan az yatdım. Səhəri saat 9-da Çkalov hava limanında yaxınlarımı gördüm. Həyəcanın sonu yox idi. Həyat yoldaşım sevincdən ağlayırdı. Boğazımda qəhər və təsviredilməz sevinc hiss edirdim. Oğlum fəxr duyurdu, qızımsa boynumdan bacardığı qədər bərk tutmuşdu. Salamlaşanların arasında müəlliməm, xanım Yuzefa Haydonu, Demblindəki Şahinlər Məktəbinin rəisi, general Yuzef Kovalskini, redaktor Rışard Badovskini, mədənçiləri və jurnalistləri gördüm.

---

[64] Xanım rusifikasiya edilmiş polyak dilində danışırdı: "Biz, polyaklar, hələ müharibə dövründən burada qalmışıq"

Ulduz şəhərciyində bizə isti salamlama hazırlanmışdı. Deyəsən, bizi salamlamağa bütün sakinlər gəlmişdi. Onlar Qaqarinin abidəsi önündə ailələrimizlə əklil qoyduğumuz mərasimdə də iştirak edirdilər. Coşqulu dəstə Kosmonavtlar Xiyabanı ilə Zabit Evinədək zəfər gəzintisi zamanı bizi müşayiət edirdi, orada təntənəli görüş təşkil edilmişdi. Övladlarım məndən bir addım belə ayrılmırdılar, hətta kürsüdə çıxış etdiyim zaman. Yaxınlarımla görüş sevinci qısa oldu. Moskvaya getdik. İki saat sonra Pyotrla gərgin vəziyyətdə Kremlin qızılı bəzənmiş zalında idik. Qulağımda hələ də helikopterin səsini eşidirdim və onun arasında danışan L.Brejnevin sözləri gəlirdi: "Kopernikin vətəninin oğlu Kosmosa getdi, bu fantastikdir. Polşa və polyaklar üçün bu, böyük milli fəxrdir". Kremldən Sovet İttifaqı Qəhrəmanının Qızl Ulduzu ilə qayıtdım (nr 11301).

Axşam bizim idi. Ulduz şəhərciyində Zabitlər Evinin qəbul zallarında çox sayda kosmonavtların, Mərkəz işçilərinin və Moskvadan gələn vacib qonaqların iştirakı ilə şərəfimizə ziyafət verildi. Valya Qaqarina - Yurinin həyat yoldaşı və Valentina Tereşkova da iştirak edirdilər. Əyləncə səhərədək davam etdi. Lakin mənim fikrim Polşada idi.

# ALTINCI

## HİSSƏ

İki min saatdan artıq
sükan arxasında...



# ORBİTİN QARANLIQ TƏRƏFİ

*Əbədi qələbə yoxdur.*

Antuan de Sent-Ekzüperi

Raketin startetmə anından nəhəng təşviqata da start verildi. Kosmik uçuşların iştirakçıları milli qəhrəmanlara çevrilirdilər. Sovet İttifaqı Qəhrəmanı fəxri adı Pyotra əvvəlki missiyalarına görə iki dəfə verilmişdi. Mən də bu şərəfə haqlı olaraq "Elmi-tədqiqat "Salyut-6" – "Soyuz" orbital kompleksində kosmik uçuşun uğurla icrası və həmin vaxt nümayiş etdirilən igidlik və qəhrəmanlığa" görə layiq görülmüşdüm.

Qəzetlər orbitdən məlumatları çatdırmaq üçün rəqabət aparırdılar. Xarici mətbuat bunu xoş sözlərlə şərh edirdi. Əsas mətbu orqanların xüsusi buraxılışları peyda olurdu. Radioda həkim, alim və siyasətçi qrupları növbətçilik edirdi. Uçuşun gedişatı haqqında mütəmadi xəbərlər verilirdi. Kosmik uçuş Polşa və SSRİ arasında olan böyük dostluğun təsdiqindən əlavə, həmçinin orbitdə həyata keçirilən unikal proqramla təstiqini tapan geniş elmi əməkdaşlığın isbatıdır. Uçuşun tibbi və psixofizioloji amilləri haqqında məlumatlar verilirdi. Polyak kosmonavtikasının gələcəyinə dair nikbin baxışlar yaranmışdı. Epizodik nəşr və plakatlar, poçt markaları və sikkələr peyda oldu, bunların hamısı uçuşu, uçuş heyətini mədh edirdi.

Polyaklar həmyerlilərinin Kosmosa uçuşu haqqında xəbəri sevinc və fəxrlə qəbul edirlər. Digər reaksiyaları da yada salmaq lazımdır, tez-tez olmasa da, amma aşağıda verilmiş misal kimi: "Nə ət, nə sümük var, polyak isə kosmosa uçur".

Polşaya Pyotr və ailələrimizlə 22 iyuldan əvvəl gəldik ki, Polşa Dirçəlişinin 34-cü ildönümünü qeyd edək. Bizi şövqlə qarşıladılar. Birdən-birə məşhurlaşdım; bununla necəsə yaşamaq lazım idi - amma necə? Saysız-hesabsız məktublara, teleqramlara cavab verməyə çatdırmırdım. Təsəvvür edə bilməzdim ki, xoş olan

məşhurluq cavabdehlik tələb edir və zamanla problemli, hətta yorucu ola bilər.

Elmi təcrübələrin hazırlanmasında iştirak edən Polşa Elmlər Akademiyası və dövlət elmi institutları mənimlə Pyotru ali mükafatlara layiq gördülər. Kosmik uçuşa görə əsas mükafat – yaşıl rəngli "Polonez" markalı avtomobil məni çox sevindirdi.

Ölkə ərazisində ikihəftəlik tur dəqiqliklə planlaşdırılmış tədbir idi. Alimlər, əsgərlər, gənclər, mədənçilər, zavod və fabrik işçiləri, skautlar, pilotlar və aeroklublarda model hazırlayan mütəxəssislərlə görüşdük. Həyat yoldaşlarımız qadın proqramlarında iştirak edirdilər. Vrotslavda şəhərin fəxri vətəndaşı statusuna layiq görüldüm. Doğma hərbi hissədə - 11-ci qırıcı alayı və Volovda, doğma liseydə dost və müəllimlərimlə görüş çox təsirli oldu. Hər yerdə maraq oyadırdıq. İnsanlar bizə qarşı çox mehriban idilər, bizə hörmət bəsləyirdilər. Alqışlar bitmək bilmirdi.

Radomda ilk dəfə olaraq Pyotra paxıllıq etdim. Nə ürəkdən qarşılandığına, nə də şəhərin fəxri vətəndaşı olmasına. Pyotr oradakı Qızıl Ordunun qəbiristanlığında atasının qayğı ilə təmir edilmiş məzarına əklil qoymaq imkanına malık idi. Mənimsə belə şansım yox idi. İndi, neçə illər keçdikdən sonra, öz atamın qarşısında baş əyə bilərəm. Məzarı önündə deyil, çünki artıq mövcud deyil, Bereznedə hətta polyak qəbiristanlığı yoxdur. Bu gün Varşavada onun adı yazılmış yerdə, Volin Skverində, Milli Ordunun 27-ci diviziyasının Qəhrəmanlar Abidəsinin önündə, Paris ətrafındakı Montmorensidə, "Postumuzda qaldıq" lövhəsi yerləşdirilmiş polyak qəbiristanlığında, Zamoşç Rotondasında və onun rəmzi məzarı olan, anamın Vrotslavdaki qəbri yanında əklil qoya bilərəm.

Zaman ötdükcə anladım ki, vaxtımı bir neçə adam idarə etməyə başlayıb, özüm haqqında fikirləşmək imkanı sistematik olaraq əlimdən alınmışdı. Yüksək səviyyəli məmurlar uğurumla elə öyünürdülər ki, sanki bu onların işi idi. Hesab edirdilər ki, müxtəlif təntənələri qeyd etməli, fəxri komitələrdə oturmalı, lentləri kəsməli, yəni bəzək kimi hər an onların qulluğunda olmalıyam.

Xidməti borclarımı bəhanə gətirərək, bu vəziyyətdən qaçmağa çalışırdım. Bu zaman komandirlərimə təsir göstərirdilər, onlar razılaşır, sonra isə tez-tez baş verən səyahətlərimdən narazılıq edirdilər.

Uçuşlar üçün darıxırdım, lakin mənə təklikdə uçmaq qadağan edilmişdi. Bu qadağanı heç kəs izah edə bilmirdi. Bu mənasızlığa son qoymaq üçün məni Moskvaya Baş Qərargahın Akademiyasına oxumağa göndərməyi xahiş etdim. Təklifimə müsbət cavab aldım.

Oxumağa 1980-ci ilin payızında getdim, əlbəttə ki, ailəmlə. Bizə ev verdilər. Oğlum səfirliyin yanında polyak məktəbinə gedirdi, qızım isə uşaq bağçasına. Həyat yoldaşım Polyak Radio və Televiziyası Müxbirləri Bürosunda işə qəbul edildi. Bu, iki psixoloji dincəlmə ili idi. 12 müxtəlif ixtisaslı polyak zabitləri qrupuna daxil oldum, bunlardan ikisi pilot, biri xüsusi təyinatlı, topçu, hava hücumundan müdafiə, kimyaçı, istehkamçı, məntiqçi və bir neçə ümumi hərbi zabit idi. Akademiyada ikinci kosmonavt-tələbə idim. İki il bundan əvvəl bu tanınmış məktəbi iki nömrəli kosmonavt, Qaqarinin əvəzedicisi German Titov bitirmişdi. Yaxşı oxumağa çalışırdım və qrupda ən yaxşılar arasında ikinci idim. Qrupumuzda 10 nəfərdən ən gec general rütbəsini alan podpolkovnik Marian Robelek başçımız idi.

Ölkəyə  Akademiyanın əməliyyat və strateji səviyyəli diplomu ilə qayıtdım. Polkovnik rütbəsinədək yüksəldim və mənə Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə  yüksək vəzifə verildi. Təcrübə yığandan sonra Varşavanın Bemovində korpus komadirinin müavini vəzifəsini icra edirdim.

1984-cü il payızın sonlarında, Demblin məktəbinin rəis müavini, sonra isə rəisi vəzifəsinə təyin edildim. Elə məhz orada 1988-ci ildə briqada generalı rütbəsi aldım. Demblində işlədiyim illəri xüsusi məmnuniyyətlə yada salıram. Tək uçmağ qadağasını aradan qaldırmağa nail oldum. Plakatdakı qəhrəman olmaq istəmirəm – izah edirdim. Öz aviasiya karyeramda bir az gerilədim. Ancaq məktəbin reaktiv "İskra" və turbovintli "Orlik" təyyarələrində uçurdum, amma onlardan istədiyim qədər istifadə edə bilirdim. Tez-tez təlimatçı qismində tabeliyimdə olan vahidlərin pilotları və kursantlarla uçurdum, onlardan biri də oğlum Miroslav idi. Aviasiya sənətkarlığında təcrübəli olan "İskra"ların pilotları mənə bir neçə maraqlı pilotluq manevrləri öyrətdilər. Mazovetski Tomaşov məktəb alayının komandiri Aleksandr Veştort tayı-bərabəri olmayan hava akrobatı idi. Həmçinin Demblin alayının komandiri Maçey Novaçıkin, əsasən də birgə yalançı hava mübarizəmiz zamanı pilotaj bacarıqlarına heyran qalırdım. Onlar və oxşarları gələcək pilotları, bizim davamçılarımızı öyrədirdilər.

Şahinlər Məktəbinin tarixində ilk dəfə olaraq birinci attestasiyanın 60-cı ildönümü ilə əlaqədar Demblin məktəbinin müharibədən əvvəlki şagirdlərini ziyarət etmişdim. Əfsanəvi şəxsləri, Böyük Britaniya uğrunda döyüşlərin qəhrəmanlarını, kitablardan tanıdıqlarımı, 303-cü diviziyanın iki məşhur keçmiş başçısı, polkovniklər Yan Falkovskini və Voyçex Kolaçkovskini, eləcə də yüzlərlə qırıcı, bombardmançı, naviqasiya pilotlarını – bir sözlə, faşizm üzərində

qorxulu müharibənin bütün cəbhələrində hava məkanında döyüş iştirakçılarını tanıdım.

Demblində dörd il rəis vəzifəsində çalışdıqdan sonra Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə qoşunları komandanının müavini vəzifəsinə təyin edildim, sonra isə Milli Müdafiə Naziri Stanislav Dobjanskinin məsləhətçisi oldum. Onun davamçıları məni vaxtından əvvəl ehtiyata göndərməyə çalışırdılar, lakin məhkəmə mənim lehimə qərar qəbul etdi. Aviasiyada 2001-ci ilədək xidmət etdim, lakin növbəti müdafiə nazirlərinin (indi onlara haqlı olaraq MMON şefləri deyilir) heç biri mənə 40 illik xidmətə görə təşəkkür etmədi. Mənə mənsub olduğum son uçuşu da heç biri təşkil etməmişdi. Ehtiyata çıxandan bir il sonra, 2002-ci ilin 15 avqust tarixində yenidən mundir geyindim. Belvederin həyətində məni cənab Prezident Aleksandr Kvaşnevski qarşıladı və gözəl məktub təqdim etdi. Mundirimdə növbəti medallar parıldayırdı: əla səviyyəli pilotun qartal şəklində nişanı, Polşa Xalq Respublikasının Əməkdar Pilotu nişanı, PXR-nın Kosmonavtı nişanı. Yanımda kiçik aviasiya qılıncı var idi – bu mükafatı 22 mart 1964-cü il buraxılışından olan əla təyyarəçi üçün Milli Müdafiə Naziri layiq görmüşdü. Mundirin sol sinəsində Xidmətlərə görə Qızıl Xaç və bircə orden – Təbəssüm Ordeni[65] asılmışdı. Kosmik uçuşa görə təqdim edilmiş I dərəcəli Qrünvald Xaçı tarixin zibilliyinə atılmışdı.

XX əsrin 80-cı illərinin ortasından sədrlik etdiyim Polyak Astronavtika Cəmiyyəti ilə Polşa Elmlər Akademiyasının Satelitar və Kosmik Tədqiqatlar Komitəsi, ən əvvəla isə, Kosmik Uçuş İştirakçılarının Beynəlxalq Assosiasiyası (ASE - Association of Space Explorers, rus dilində AUKP – Assosiasiya Uçastnikov Kosmiçeskix Polyotov) ilə əməkdaşlıq edirdim. Hər il keçirilən qurultaylarda öz məruzələrimi təqdim edirdim. 90-cı illərdə məni ASE-nin icra komitəsinin üzvü seçdilər, ikinci dəfə bu şərəfli vəzifəni 2005-ci ilədək icra etdim.

Ölkə çətin illərini yaşayanda, ASE-nin üzvləri mənə dəstək olurdular, cəsarətlə və rəsmi şəkildə məni müdafiə edirdilər. Öz dəlilləri prezident Lex Valensayadək çatdırdılar, o isə Baş Qərargahın rəisi, general Tadeuş Viletskiyə "bütün dünyada tanınmış ilk kosmonavtımıza hörmət bəsləmək və xidmətə qaytarmağı" məsləhət görmüşdü.

Həyatda həmişə olduğu kimi, bəziləri tərəfindən bədxahlıqla

[65] Polşada təsis edilmiş bu orden uşaqlar tərəfindən seçilən böyüklərə verilir. Azərbaycanda həmin orden 2007-ci ilin mart ayında Ələkbər Hüseynova verilmişdi

üzləşəsi oldum. Uçuşa görə mənə içi dolu lüks villa və ödənişsiz xidmətçilərin verilməsi xəbərinə mat qaldım. Poznandan şayiələr çatırdı ki, pilot və kosmonavt kreslosu uğrunda rəqabət aparmağa qardaşım Vladislav kömək etmişdi. Bəli, bu, həqiqətdir – mənə çox kömək etdi. O, həmişə mənim üçün nüfuz sahibi və əlçatmaz nümunə idi. Lakin o mənim əvəzimə oxumurdu, əvəzimə uçmurdu, dəhşətli yükləmələrə dözmürdü, mənasız tədqiqatlar zamanı huşumu itirdiyim an mənə oksigen vermirdi, əvəzimə sərt zondları udmurdu, səhvlərə görə cərəyanla cəzalandığım zaman əvəzimə öz başını vermirdi, qeyri-insani məşqlərdən sonra onun ürəyi bulanmırdı. Vladek mənə kömək etdi, çünki pilot və həmçinin rəisim olaraq məni, yeni başlamış pilotu ciddi qiymətləndirirdi, məsləhətlər verirdi, ən əsası isə, hələ uşaqlıqda aviasiyaya sevgisini mənə aşılamışdı. Vətənpərvərliyi öz doğma evimdə öyrəndim.

Düzünə qalsa, aviasiyada çoxillik xidmətimi ancaq 2005-ci ildə bitirdim. Həmin zaman milli müdafiə naziri olan Yejı Şmaycinski sonuncu uçuşu icra etmədiyimdən xəbər tutdu. Əvvəlki nazirlərin səhvlərini düzəltmək üçün Hərbi Hava Qüvvələrinin başçısına şəxsən əmr verdi. 5 oktyabr tarixində hərbi pilotun xidmətini müvəffəqiyyətlə başa çatdıran anı yaşadım, son hərbi təyyarədə vida uçuşunu icra etdim. Uçuşda Demblində xidmət etdiyim vaxtdan keçmiş tələbəm, artıq o zaman kursantlar arasında seçilən Rışard Rutkovski məni müşayiət edirdi. Bu "Miq-29"-dakı uçuş bütün xırdalıqları ilə həyatımdakı ilk uçuşum kimi yaddaşımda həkk edildi. Bu sözləri yazdığım an Rutkovski artıq generaldı. Bu da mənim üçün sevinc və məmnunluq mənbəyidir.

Şəxsi uçuşlar kitabçamda bu qırx dəqiqəlik rəmzi uçuş haqqında son yazı aviasiyada çoxillik xidmətimi tamamladı. Sükan arxasındakı balansım iki min saatdan artıqdır, planerlərdən başlayaraq, piston mühərrikli təyyarələr və reaktiv təyyarələrin müxtəlif növləri "Miq-15", "Miq - 17", "Miq-21", "F-16", "F-18", "Mirage-2005", "Su-27" və "Miq-29"-dək idarə etmişdim.

Təqaüdçü həyatım heç də darıxdırıcı deyil. Sakit yerdə, meşənin ortasında həyat yoldaşımla birlikdə tikdiyimiz evdə yaşayıram. Həyatımıza qız nəvələrim ilə birgə sevinirik. Polşa və bütün dünyadan gələn sonu olmayan məktublarla mübarizə aparıram. Göründüyünə görə həyatım rahatdır, lakin bu ancaq illüziyadır, həyatın tez-tez bizə müxtəlif sürprizləri olur. Üzərimdə tanınmış mütəxəssis tərəfindən aparılan amansız cərrahi əməliyyat dəhşətə çevrildi. Həkim səhvi nəticəsində üç ciddi əməliyyatdan keçəsi oldum. Həkimlər həyatda sağ qalmağıma şans vermirdilər. Son əməliyyat

həkim səhvini təsdiqlədi və növbəti sürprizi təqdim etdi. Qarın boşluğumda, üç ay bundan əvvəl ilk əməliyyatdan qalmış 1x1 ölçüsündə əməliyyat dəsmalı tapılmışdı. Bu bədbəxtlikdən sağ çıxdım, yarım ildən sonra isə itirdiyim otuz kilo çəkimi "qaytardım", bir il yarımdan sonra isə yükləmələrlə "F-16"-nı cavanlıq illərimdə olduğu kimi idarə edirdim.

Otuz ildən sonra da tanındığıma heyran qalıram. Uşaqların kortəbii reaksiyaları məni təəccübləndirir, məncə, bu reaksiya daha çox valideynlərin hekayələrindən, daha az isə dördüncü sinif şagirdləri üçün kitabda təsvir edilmiş kiçik Miruş və Miroslavın nailiyyətlərindən irəli gəlir.

2008-ci ildə siyasi səhnədə məni cəzalandırmaq niyyətləri olan siyasətçilər peyda oldu, hərbi rütbəmi almaq, illərcə xidmətə görə aldığım təqaüdü kəsmək istəyirdilər, amma nəyə görə? Burada Stanislav Lemin[66] dediklərini qeyd edəcəm: "Əgər Hermaşevskini fransız və ya amerikalı raket kosmosa aparsaydı, yəqin ki, ona daha yaxşı münasibət göstərərdiniz".

---

[66] Stanislav Lem (1921-2006)- polyak yazıçı, futuroloq, satirik, filosof və fantast idi

# KOSMİK AİLƏ

Kosmonavtlar və Astronavtlar Assosiasiyasını, yəni Qərb və Şərqdən kosmik uçuşlar iştirakçılarını birləşdirən institutu yaratma ideyası keçən əsrin səksəninci illərinin əvvəllərində meydana gəldi. Arabir astronavtikaya dair qurultaylarda görüşürdük. Dəmir pərdənin arxasından olan həmkarlarımızla maraqlanırdıq. Dəfələrlə əmin olmuşdum ki, "normal" və çox xoş oğlanlardır. Kosmik mövzulara dair eyni fikirlərə malik idik, Kosmosu eyni cür yaşayırdıq və eynilə risk edirdik. Bizi qəbul etmədiyimiz amil ayırırdı – siyasət. Birləşdirənsə "oradakı", Yer kürəsindən xaricdəki unudulmaz təcrübə idi.

Bir-birimizə yaxınlaşmaq üçün kosmik imperiyaları ayıran etibarsızlıq buzlarını əritmək lazım idi. İlk təşəbbüsü amerikalılar etdilər. 1982-ci ilin yazında amerikalı Russel Şveytskart və Jeyms L.Hikman SSRİ Elmlər Akademiyasının üzvləri ilə sorğu müzakirələri, amerikalı və sovet hakimiyyəti nümayəndələrilə astronavtlar və kosmonavtlar birliyinin yaradılmasının mümkünlüyü barədə danışıqlar aparırdılar. 1983-cü ildə mövqelər yaxınlaşdı. Maykl Kollins, Edqar Mitçel və Russel Şveytskart Moskvaya gəldilər, kosmonavtlar Aleksey Leonov, Aleksey Yeliseyev, Vitali Sevastyanov və Valeri Kubasovla görüşdülər. 1984-cü ilin sentyabr ayında amerikalı astronavtlar, rusiyalı kosmonavtlar və fransız kosmonavt Jan Lu Kretyen Paris ətrafındakı Kerneydə görüşdülər. Kosmonavtlar və astronavtların ilk konqresinin məhz həmin bu yerdə 1985-ci ildə keçirilməsinə dair qərar qəbul edildi.

Parisdən 40 km aralıqda, Ruan tərəfə gedən yolda, qədim ağaclar arasında IX əsrdən qalmış Kerney abbatlığı yerləşir. Bir gün səlibçilər müqəddəs torpağa yürüş etmək üçün burada görüşmüşdülər. Hazırda bu, xanım Feliks Amiotun şəxsi mülküdür, o, isə artıq kosmosa uçmuş və yenə də bu arzuda olan şəxslərə şərəflə qonaqlıq verdi. Xanımın qızı – zövqlü sarısaç Mari Kristina amerikalı astronavt, 1971-ci ildə Ay üzərinə Apollo-14 gəmisi ilə dördüncü ekspedisiyasının iştirakçısı Edqar Mitçellə evlənib. Sənayeçi ailəsinin dəbdəbəli iqamətgahı olan Abbatlığın qədim divarlarında ABŞ, SSRİ, Fransa, Səudiyyə Ərəbistanı və İnterkosmos proqramının missiyalarında iştirak etmiş dövlətlərin təmsilçiləri – Bolqarıstan, Çexoslovakiya, Kuba, Monqolustan, ADR, Polşa, Rumıniya və Macarıstandan 25

kosmonavt və astronavt görüşmüşdü.

İlk günlərdə amerikalı və rusiyalı komandalara bölünmə çox aydın görünürdü. Səudiyyə Ərəbistanından olan astronavt, kral ailəsinin üzvü Əl-Saud Sultan bin Salman bin Əbdüləziz amerikalıların tərəfini tuturdu. Rusların dəstəyi daha böyük idi – biz, yəni İnterkosmos proqramının səkkiz kosmonavtı və fransalı Kretyen ("Soyuz-T6" və "Salyut-7" missiyaları) onların tərəfindəydik.

Tarixdə ilk görüş Mixail Qorbaçovun – beynəlxalq siyasətin yüksələn ulduzunun Fransaya səfərinə təsadüf etdi. "Perestroyka" sözü dünya karyerasını qurmağa başlayırdı. Həmçinin amerikalılarla rusların birgə uçuşu olan Apollo-Soyuz proqramından on il keçirdi.

Görüşümüzün məqsədi nizamnamənin hazırlanması və təsdiq edilməsi, ASE birliyinin həyata keçirilməsi idi. Hər hansı siyasi konteksdən qorxurduq və buna görə Assosiasiyanın nizamnaməsində Kosmosun hərbi məqsədlərə xidmət edə bilməyəcəyi qeydini əlavə etməmişdik. Daha təhlükəsiz formulu işlətdik – kosmik sahənin tədqiqatları insanlara xidmət etməlidir. Assosiasiyanın rəsmi dilləri kimi ingilis və rus dilləri seçildi, ASE-nın bərabərhüquqlu qərargahları isə San-Fransiskoda və AUKP Moskvada fəaliyyət göstərəcəklər.

Mitçellər bizi evlərində qalma şəraiti ilə təmin etdilər. Məsləhətləşmələr gecə yarısınadək davam edirdi. Zirvə toplantımız ancaq oktyabrın 4-dən 5-nə keçən gecə Qurultaya çevrildi. Uzun davam edən, gərgin müzakirələrdən sonra etibarsızlıq divarı aşdı. Gecə saat üçdə nizamnaməni təsdiqlədik və Kosmos Tədqiqatçıları Assosiasiyasının çağırılması haqqında qərar qəbul etdik. Bu andan kosmonavtlar və astronavtların təşkil etdikləri icmaya çevrildik. Şampan verildi. Hadisədən xatirə olaraq təsadüfi bir plakata öz imzalarımızı çəkdik. Bu, ənənəyə çevrildi – hər bir qurultaydan növbəti bu cür xatirə gətirirəm. Artıq iyirmi beş ədəddir. ASE bağlı dairə deyil – kosmik sahədə olanlar, Yer kürəsi ətrafında heç olmasa bir dəfə fırlananlar, çəkisizlik təcrübəsinə malik və Yer kürəsini uzaq məsafədən görənlər üçün qapımız açıqdır.

Sübh çağınadək gözəl əhvalımız var idi. Abbatlığın böyük yemək otağında növbəti qurultaylara məşhur şəxsləri, bəşəriyyətin sülh yolu ilə inkişafına yaxşı təsir göstərən nüfuzlu şəxsləri dəvət etməyi qərara aldıq. Kerneydə son banketdə bu xüsusi qonaq qeyri-adi şəxs olmuşdu – Jak Kusto, dəniz dərinliklərinin tədqiqatçısı, səyahətçi və yazıçı. Fəxri qonaq hansısa anlamda bizə yaxın adam idi. Həqiqətdə okeanın dərinliyi Yer kürəsindən xaricdəki vakuumdan fərqlənir, lakin eynilə insana qarşi ədavətli idi. Dərinlik dalğıcları da təklik mühiti ilə tanışdırlar – astronavtlar kimi öz intellekti və zəhməti ilə sualtı dünyanın kəşfiyyat şəraitini yaradan insanlar piramidasının zirvəsində dayanıblar. Kusto öz çıxışında dərinlik-

də çəkisizliyin əvəzedicilərinin üzəçıxma faktını qeyd etdi. Onun çıxışı böyük maraqla qarşılandı, çünki kəşfləri Kosmosdakı təcrübəmizə yaxın idi. Şveytskart qonağa mükafat təqdim etdi və onun haqqında belə sözlər dedi: "İnsanlardan heç biri bəşəriyyətdə ətraf mühitin qorunması üçün belə ciddi məsuliyyət duyğusunu Sizin kimi oyada bilməmişdir".

Vida axşamı "son et lumiere" (işıq və səs ) üslubunda qeyri-adı tamaşa ilə bitdi. Zamana səyahət etdik. Min illər əvvələ, bu möhtəşəm divarlarda qurulan zamanlara qayıtdıq, məşəllər və səslərlə bizə orta əsrlərdə baş verənləri və ov səhnələrini göstərirdilər. Kosmos insanlarının ilk beynəlxalq görüşü gözəl atəşfəşanlıqla sona çatdı.

ASE-nın ilk Qurultayının şüarı belə idi: "Yer kürəsi – Bizim Evimizdir", çünki Assosiasiyanın ən əsas məqsədi bu günün və Yer kürəsinin qayğısına qalmaqdır. Assosiasiyanın üzvlərini kosmik məkanı tədqiq və istifadə etmək sahəsində beynəlxalq əməkdaşlığı təbliğ etmək, cəmiyyəti insanın kosmik məkana çıxmasının tarixi mənası barədə məlumatlandırmaq və dünya ictimaiyyətini Kosmik kəşfiyyatlarda əldə edilmiş nailiyyətlərin mənasını daha asan başa düşmək üçün birləşdimək niyyətindəyik.

Assosiasiyanın öz qrafik işarəsi var – bu, Kosmosun qaranlığı fonunda şüşəsində Yer kürəsinin təsviri əks edilən kosmonavtın şlemidir.

ASE-nin ilk Qurultayının vacib amillərindən biri dövlət başçılarına və hakimiyyətə Kosmosa soyuq müharibə baxışı ilə deyil, başqa bir nəzərdən baxmaq, sülh, gələcək nəsil və bəşəriyyət naminə kosmik məkanın birgə istifadəsi üçün alimlərin cəhdlərini birləşdirməkdir. Hər növbəti Qurultay başqa dövlətdə həmin dövlətin kosmonavt və ya astronavtının dəvəti ilə keçirilir. Konqreslər artıq Macarıstanda, Meksikada, Bolqarıstanda, Səudiyyə Ərəbistanında, Hollandiyada, Almaniyada, ABŞ-da, Rusiyada, Polşada, Kanadada, Kosta-Rikada, Rumıniyada, Belçikada, İspaniyada, Şotlandiyada, Avstriyada və Yaponiyada keçirilib. 2009-cu ildə Praqada, sonra isə Malayziyada görüşməyi planlaşdırırıq. 1995-ci ildə Polşada ASE-nin Qurultayı zamanı fəxri qonaq Polşa Prezidenti cənab Lex Valensa olmuşdu, şüarı isə "Kosmos və müasir cəmiyyət" idi.

Kosmos insanlarını birləşdirən bağlar çox güclü və təbiidir, buna görə tez-tez Ulduz şəhərciyinə gedirəm. Bunun üçün səbəb boldur, ya elmi simpoziumların təşkili, Qaqarinin uçuş ildönümü, missiyamızın ildönümü və ya yubileylər: Klimukun 60 illiyi, Valya Tereşkovanın 70 illiyi. Həmçinin səbəb olmadan da Şəhərciyin mühiti və ya dostlarım üçün darıxanda oraya gedirəm. Orada uşaqlarım və qız nəvələrimlə olmuşdum, müəllimlər, həkimlər, təlimatçılar və

kosmonavtlarla görüşdüyüm unikal məkanı göstərdim. Ancaq Leonov özü bildiyi üsulla həmişə gəlişimdən xəbər tutur, digər kosmonavtlar da peyda olur: Volodya Lyaxov həyat yoldaşı Zina ilə, Tolya Berezovoy, Tolqat Musabayev, kosmonavtların yaşadığı digər qəsəbədə tez-tez qonaq getdiyimiz dostlarım Yeqorov, Strekalov, Titov, Kovalyonok, Avdeyev – hamısının adını çəkmək mümkün deyil. ONLAR- kosmonavtlar mənim ikinci ailəmdir.

# YEDDİNCİ

## HİSSƏ

### Bəşəriyyət Yer kürəsində əbədi qalmayacaq



Bəşəriyyət Yer kürəsində əbədi qalmayacaq, lakin işıq və məkanı təqib edərək, əvvəl qorxa-qorxa atmosferin xaricinə çıxacaq, sonra isə günəş sistemini bütövlüklə fəth edəcək.

K. Siolkovski

# KOSMOSUN QOXUSU

Onlarla görüşlərdən birində bir nəfər məndən soruşdu: "Kosmosun qoxusu necədir?" Əvvəlcə sualı yersiz saydım. Düşündükcə xatırladım ki, Kosmosda xüsusi iylər qammasına rast gəldim. Müxtəlif iylər hər birimizi müşayiət edir, lakin, adətən, biz buna elə də böyük əhəmiyyət vermirik. Həyatımızı iylərlə təsvir etmək olar. Hər yaşanmış vəziyyət, hər hərəkət, peşə şəxsi qoxuya malikdir.

Kosmosun qoxusu məni ora aparan uzun yolun tacıdır. Hətta indi, neçə illər keçdikdən sonra, ulduzlu səmaya baxıb dərin nəfəs alaraq, məkanın ətrini hiss edirəm. Burada hər şey var: uşaqlığım, arzularım, sevinclərim, şübhələrim və qorxularım – Kosmosa aparan bütün yolum.

Bu yoldakı ilk qoxu birinci təyyarələrimi düzəltdiyim yapışqan və kağızın iyidir. Sonralar yeni başlanğıc mərhələsinin – uçan təyyarə modelinin düzəldilməsi - cökə və küknarın xoş ətri, sümük yapışqanın iyrənc qoxusu, aseton və lakın iyi var idi. Və əlbəttə ki, bütün digər modellərdə ötürücü rezinin qoxusu da mövcud idi. Gənəgərçək yağı və efir iyi isə daxili yanma mühərrikli modellərlə öz bacarığımı sınamağım deməkdir. Həmin iylər hava limanım olan otların, çəmənliklərdəki saman və torfluğun xoş ətri ilə qarışırdı.

Unudulmaz qoxunu tərəfimdən inşa edilmiş və quraşdırılmış, əllə işə salınan raket yaradırdı. İlk nüsxələr o zamanlar yandırıla biləcək şəkil lent rulonları ilə doldurulurdu və yanmış sellüloid iyi verirdi. Tanış fotoqrafdan aldığım bütün ehtiyatı istifadə etdikdən sonra qara tozu yaratmağı öyrəndim. Bu zaman start emosiyaları ilə hidrogen-sulfidin iyi bir-birinə qarışırdı. Raket qara zolaqla iz qoyurdu və səmanın maviliyində itirdi. Son, artıq metaldan düzəltdiyim üçüncü nəsil raketlərimin ötürücüsü üçün xüsusi mazut əsasında möhkəm qatışıqdan istifadə etdim. Əməlli-başlı partlayış məni dəhşətə gətirdi və iy yadda saxlama qabiliyyətindən məhrum etdi, xoşbəxtlikdən ağlımı başımdan almadı. Bununla da raket modelləri ilə macəram bitdi.

Aviasiya xəyalları da ətir verirdi. Sevimli jurnalım "Qanadlar və mühərrik", "Qanadlı Polşa" və "Cavan texnik" öz güclü çap bo-

yasının iyi ilə təxəyyülümü oyadırdılar. Yeni nömrədə, görəsən, hansı maraqlı məqalələr olacaq?

On üç yaşım olanda, ilk dəfə Varşavaya gəldim. Qardaşım Vladislav Babitse hava limanında reaktiv təyyarələrinin qırıcı dəstəsində pilot və başçı idi. Onun mənzilinin iyi bizim Volovdakı evin qoxusundan fərqlənirdi. Bu günədək unudulmaz aviasiya ətrinə malik idi. Sanki gül dəstəsi idi – pilotun qara dəri gödəkçəsi, əlcəklər və şlem ətri verirdi. Bu, məni bütövlüklə əhatə edən xəyallar ətri idi. Maraqdan parıldayan gözlərimi görən Vladek məni hava limanına dəvət etdi və orada təzahür, texniki möcüzə, həsrətində olduğum gümüşü reaktiv təyyarə, gerçək "Miq 15" gördüm. Dilim tutuldu. Ona toxuna və ya heç olmasa bir az yaxın dura biləcəyimdən əmin deyildim. Bu, heyranedici idi. Özümü qeyri-adi hiss etdim. Vaxt keçdikdə, artıq pilot olandan sonra, təyyarəyə hər dəfə yaxınlaşdıqda həmişə bu xatirələr oyanırdı və bədənimdə titrəmə olurdu. Kimsə kabinəyə daxil olmağı təklif etdi. Elə bildim ki, yuxudayam. Məhz bu zaman tayı-bərabəri olmayan sirli bir qoxu hiss etdim. Anladım ki, bu mənim həyatımın ətridir. Sanki ovsunlanmış kimi oturmuşdum, orada çoxlu alətlər, açarlar və dəstəklər var idi. Kimsə - artıq yadımda deyil kim – onların nə üçün lazım olduğunu izah etmək istəyirdi, lakin sözlərin mənasını tuta bilmirdim. Aydın eşitdim: "Bax, bu, xüsusi oksigen borusudur, yoxla". Oksigen mənim üçün həyatverici nəyinsə təcəssümü idi. Qeyri-adi macəralara hazır idim. Təxəyyülüm mənə deyirdi ki, bu "nə isə" badam, alma və ya gül ətri verəcəkdir. Borunu ağzıma tutdum. Birdən nə isə fısıldadı, çıkkıldadı və... rezin iyi hiss etdim. Çox məyus oldum. Həmin an heç təsəvvür də edə bilməzdim ki, bir neçə il sonra pilot olacağam və həmin iy məni daim müşayiət edəcək. İllər sonra uçuşa hazırlanaraq, maskanı taxmamışdan əvvəl həmin borudan bir udum oksigen alırdım. Bu üsulla pilot olduğuma görə taleyimə təşəkkür edirdim. Bu, çin olmuş cavanlıq arzumun ətri idi.

Əminliklə deyə bilərəm ki, hətta indi, illər keçdikdən sonra gözüyumulu maşınların növünü iylə tanıya bilərəm: planer lak, ağac və ağac iyindən ibarətdir, porşenli mühərriklə işə salınan təyyarə benzin, yağ, lak, rezin və pnevmatik qurğudan gələn sıxılmış havanın qeyri-aydın şirintəhər iylərinin qatışığıdır. Reaktiv təyyarə tamamilə fərqli iyə malikdir – metal, lak, neft, hidrol və... spirt, bəli, təyyarəni buzlamadan qoruyan və digər funksiyaları yerinə yetirən həqiqi spirt iyi var. Bu iybilmə üsulu ilə hətta kosmik gəmini də tanıya bilərəm. Lakin kimsə onun içinə biranlıq daxil olsa, heç bir qoxunu yadda saxlamayacaq, çünki bununla təəssüratlar, yaşananlar, sevinc və qorxular assosiasiya edilməlidir. Buna inanmaq çətindir, çünki Yer kürəsində

dünya həqiqidir, məntiqə arxalanır. Meşənin meşə qoxusu, çəmənliyin çəmənlik, almanın alma, limonun limon qoxusu var, benzin benzin qoxuyur. Kosmos isə başqa bir varlıqdır. Ora aparan yol uzundur və bəzən xoşa gəlməyən iylərlə örtülür. Kosmonavt namizədlərinin seçim qrupuna düşəndə, heç fikirləşə bilməzdim ki, Kosmosun ətri ilə tanış olacağam. İlk iylər heç də xoş deyildi, adi, banal xəstəxana iyləri, Mronqava və Zakopanada gimnastika zallarında məşqlərin qoxusu idi. Ulduz şəhərciyində oradakı meşənin, göbələk, ağaclar və güllərin unudulmaz təmiz ətirlərini kəşf etdim. Məşq laboratoriyalarının qoxusu əbədi olaraq yaddaşımda həkk olundu – dərmanların iyi ilə texniki mazların, cərəyanın, alətlərdə olan hidravlik mayelərin, çalışmalar və yorğunluğun iyləri qarışmışdı. Bəzən uzun davam edən fırlanmalar, dövriyyələr, yelləncək, sentrifuqa və fırlanan kreslolarda tərs dönmələr zamanı elə vəziyyətə gəlib çatırdım ki, vestibülyar aparatım çətinliklə dözürdü. Bir gün namizədlərdən biri dözmədi və laboratoriyada başqa bir qoxu da yayıldı, bu, məğlubiyyət qoxusu idi. Start istilənmiş beton, qum, çöllük, yovşan iylənir – bunlar məni Kosmosa yaxınlaşdırırdı, oradakı həqiqiliyə aparan yolun dəhlizidir. Metal, plastik, lak, rezin və ya bütün metal hissələr örtülmüş döşəmələrin iyi hər yeri bürümüşdü. Nə havatəravətləndiricilər, nə də ətirlərdən istifadə edilmirdi. Darısqal otaqda tualetin mövcudluğu hiss olunmurdu. Çox dəqiq inşa edilmişdi. Hava dəfələrlə filtrlə təmizlənirdi və oradan heç bir qoxu gəlmirdi. Səhər əl-üzümüzü yuduqda iyləri hiss etmək olurdu – kosmetika ətri saçırdı. Səhərlər dezinfeksiyaedici vasitələrlə zənginlənmiş qəhvəyi dəsmallarla yuyunurduq. Bu, ümumi istifadə üçün kosmetikanın erkən inkişaf zamanı idi, buna görə dəsmallar sadəcə pis qoxurdu, lakin dezinfeksiyaedici vasitə olaraq çox effektiv idi. Yer kürəsindəki orbital stansiyanın simulyatorunda hər bir otağın öz qoxusu var idi. Kosmosda bütün hissələr boyu xüsusi ventilyatorlar çəkmişdik, buna görə iylər qarışırdı. Ventilyasiyanın intensivliyini azaldanda, burunla duyulan fərqləri artıq aydın hiss etmək olurdu.

Özümüz hazırladığımız yeməklər evdə bişirilən gözəl təamların qoxularına malik deyildi. Bankadakı ət – hətta qızdırılmış halda – evdə qızardılan ətin tam ətrini verə bilmirdi. Bu çatışmazlığı təkrarolunmaz dad və ətrə malik çay əvəz edirdi. Bunun, digər yeməklər, ümumiyyətlə, dadsız və iysiz olduğuna görə, yoxsa çayda həqiqətən qeyri-adi nəyinsə olduğundan baş verdiyini tapmaq itəyirdim. Sonralar məlumat aldım ki, sirr çayın Yer kürəsində hazırlanma üsulundadır. Pinsetin köməyi ilə budaqdan ən zərif yarpaqlar götürülürdü. Kosmik çayın ətri, dadı və iyi onu ömrümdə içdiyim ən nəcib içki kimi yaddaşda saxlamağa səbəb olmuşdu. Bir gün Yer kürəsindən məlumat aldım ki, "+y

oxunda, 7 nömrəli dolabda 42 nömrəli bağlama var, sürprizdir". Açdım və karıxmış halda oxudum: "Miroslav üçün polyak biqosu". Mənim üçüm polyak biqosu hazırlamışdılar!!! Bir neçə andan sonra orbital stansiyanın göyərtəsinə dünyanın ən gözəl qoxusu yayıldı. Biqos hamı üçün çox dadlı idi, mənim üçün isə həm dadlı, həm də əlavə olaraq xoş idi. Deməli, Kosmos polyak biqosunun ətrini də verə bilər.

Kosmosda Yer kürəsindən olan hər şey xüsusi ilə dəyərlidir. Orbitə uçaraq həmkarlarım üçün hədiyyələr apardım. İki həftə idi ki, onların Yer kürəsi ilə fiziki əlaqələri yox idi. Səbirsizliklə hədiyyələri gözləyirdilər. Saşa üçün həyat yoldaşının adından bir neçə alma və iki limon gətirmişdim. Ona dedim: "Buyur, bu Rimmadandır". Necə reaksiya verdiyini gördüm, gözləri dolmuşdu. Almalardan birini dəqiqliklə seyr etdi, qoxladı. Sonunda soymağa başladı. Kabinəyə Yer kürəsinin ətri yayıldı. Almanı dörd hissəyə böldü və bizə təklif etdi. Pyotrla qətiyyətlə imtina etdik. "Siz yeyin, biz bir azdan qayıdırıq", – Pyotr dedi. Bu meyvələrdən hamımız faydalandıq. Soyulmuş qabıqları sənədləri, qeydləri və ya digər bərkidilməmiş əşyaları saxlamaq üçün istifadə etdiyimiz rezin lentlərlə divarın böyrünə bərkitdik. Və iki xiyaban yaratdıq – sol (-y) limon və sağ (+y) alma xiyabanı idi. Onların yanında üzərək, Yer kürəsini əvəz edən ətirlərdən böyük sevinclə zövq alırdıq.

Çəkisizlik şəraitində duyğular, eləcə də iybilmə hissi daha da sərtləşir. Bunu gözlənilmədən baş verən iy hadisəsi vaxtı və ondan sonra uzun müddət hiss edə bildik. Nahardan əvvəl elektrik qızdırıcısına şorba və konserv tübikləri qoyduq. Avtomatı 4,5 dəqiqəyə qurduq. Naharı gözləyərək hərəmiz öz işi ilə məşqul olmağa başladıq. Mən Yer kürəsini müşahidə etməkdə və daha maraqlı mənzərələrin şəklini çəkməkdə davam edirdim. Birdən qulaqbatıran partlayış gurultusu eşidildi. Mərkəzi hissəni tüstü bürüdü. Tez hərə öz gəmisinə atıldı. Bizim gəmimiz stansiyanın qarşı tərəfinə birləşdirilmişdi. Tüstü buludunda Kovalyonokla toqquşdum. "Mətbəx partladı", – o qışqırdı. Həqiqətən də, yanmış yeməyin iyini hiss etdim. Tüstü partlamış tübikin buxarı imiş, onun içindəkilərsə göyərtənin ətrafına yayılmışdı. Qalıqlar çəkisizlikdə yuxarı qalxaraq, müxtəlif canlıların sürüsünə bənzəyirdi, məsələn, hərəkət edən, bir-birinə ilişən və fırlanan iyrənc hörümçəklərə oxşayırdı. Gülməyə başladıq və cəld uçan qalıqları yığdıq. Səhnə çox məzəli idi. Müxtəlif vəziyyətlərdə uçurduq, uçanları tutmaq üçün bir-birimizə dəyirdik. Külə dönmüş yeməyin iyi xoşagəlməz və qıcıqlandırıcı idi. Şiddətli hərəkətlərlə vestibülyar aparatımı yükləndirdim. Sıxıntı və ürək bulantısı hiss etdim. Nahardan imtina etdik. Qapalı bir yerdə olmaq istədim, çünki üstəlik başım da fırlandı. Rezin paketlə stansiyanın arxa hissəsinə uzdüm. Pyotr orada artıq öz paketi ilə dincəlirdi.

Özümüzü dəhşətli dərəcədə pis hiss etsək də, bir-birimizə gülümsədik. Yanmış yeməyin iyi örtüklərə hopdu və missiyanın sonundadək keçmədi. Dəfələrlə mətbəxin yanından üzəkən nəm iyi məni qıcıqlandırdı.

Yer kürəsinə dinamik düşürdük. Kapsulun enmə trayektoriyasını əhatə edən alovun mənzərəsi maraq oyadırdı, beyin isə şüurlu olaraq yanğın iyini yaradırdı. Alovadavamlı örtüklə qorunurduq. Kapsul germetik olsa da, yanğının iyini aydın hiss edirdik. Yerlə toqquşma, yəni „yumşaq eniş", macəranın sona çatması haqqında xəbər verdi. Lyuku açdıqdan sonra böyük hava udumu aldım. Bu, missiyanın ən gözəl qoxusu idi. Nəfəs almırdım, təkrarolunmaz dada malik olan havanı içirdim, xoşbəxtlik və uğur qoxusu, salamlama zamanı çörəkdən gələn həyat ətrini duyurdum.

# TƏXƏYYÜLÜN SƏRHƏDDİNƏ QƏDƏR

*Hər şey sirdir, heç nəyi mübahisəsiz dəqiqləşdirmək mümkün deyil.*
Empedokl

Artıq yetkin pilot olaraq uzun illər ərzində Polşa səmasını qırıcı təyyarənin kabinəsindən ölçüb-biçirdim, lakin bir gün səma mənim üçün Kosmosa çevrildi. Həyatımda ilk dəfə ona „toxuna" bildim. Onun sonsuzluğu mənim, insanın necə kiçik, kövrək olduğunu göstərdi. Böyüklüyə, Kosmosun mükəmməlliyinə, onun ideal harmoniyası, sakitliyi və əbədi olmasına qarşı böyük itaət hissi keçirdim. İtaət birdən yaranmır. Orbitdə ilk dəqiqələr, həqiqətən də, intellektual eyforiyadır. "Yer kürəsini uzaqdan görən bir neçə nəfərdən biriyəm - deməli, güclü qüvvəyəm". Ağıl-fərasət tez yaranır, mən insan intellekti və ruhu sayəsində buradayam. Özümü tanımaq, səssizliyin hüdudsuzluğunun və məkanın nəhəngliyinin mənasını aşkar etmək üçün mənə səmada milyonlarla ulduz görmək lazımmış. Kosmos anlamaqda, öz mövcudluğunun mənasını başa düşməkdə çox kömək edir. Bəs mən hüdudsuz Kosmosla müqayisədə kiməm? Heç kim, sadəcə kiçik qum zərrəsiyəm, mənası olmayan bir tozcuq, lakin düşünən tozcuq. Bəs sən, kosmonavt, kimsən, kəşfiyyatçı, səyahətçi, bəlkə də gələcəkdə uzaqlara aparan səyahətlərin pioneri? Birinci Yuri Qaqarin olmuşdu. 12 aprel 1961-ci ildə – bu günü xatırlayıram – dünya heyran qalmışdı. İnsan fizika qanunlarına, minlərlə maneələrə, öz zəifliyinə üstün gəldi və əbədi arzuları həyata keçirdi. Yer kürəsini, Ananı və bəşəriyyətin əbədi beşiyini 108 dəqiqəlik tərk etdi.

O, Kaluqadan olan təvazökar müəllim, dahi mütəfəkkir və damarlarında polyak qanı axan Konstantin Siolkovskinin söylədiklərini rəhbər tutaraq Kosmosa getdi. Yarım əsr əvvəl Siolkovski belə demişdi: „Planet düşüncənin beşiyidir, lakin daima beşikdə yaşamaq olmaz... Bəşəriyyət əbədi Yer kürəsində qalmayacaq, lakin işıq və məkanı təqib edərək, ilk əvvəl qorxa-qorxa atmosferin xaricinə çıxacaq, sonra isə günəş sistemini bütövlüklə fəth edəcək".

Bu, çox peyğəmbərcəsinə söylənmiş sözlər idi. Bu gün daimi olaraq Kosmosda mövcuduq. İnsan Aya da gedib çatdı. Məntiqlə dü-

şünsək, demək olar ki, növbəti məqsəd Mars olacaqdır. Bu həqiqətdir, lakin düzünə qalanda, söhbət həmin sirli planetdən getmir. İnsanın Kosmosdakı fəaliyyətinin əsas məqsədi Ay və ya Mars, eləcə də Yer kürəsindən xaricdəki hər hansı nöqtə deyil, lakin bəşəriyyətin inkişafına Yer kürəsində əbədi qalaraq nail olmaq mümkün deyil.

İnsanların bir çoxuna, hətta ali təhsili olanlara, hələ müasir dövrdə elə gəlir ki, astronavtika sivilizasiyanın inkişafı üçün əsas istiqamətlərlə heç bir əlaqəsi olmayan bir sahədir. Bəziləri hər hansı təcrübənin faydalarını görürlər, lakin deyirlər ki, bunları daha ucuz başa gələn vasitələrlə əldə etmək olardı. Buna etiraz edə bilmərik, lakin bir şey də var ki, həmin yol daha uzun olacaqdı. Hərçənd astronavtikadan başqa heç bir sahədə elmi, texniki qurğuların saz və etibarlı olması, eləcə də bir neçə il bundan əvvəl heç kəsin arzulaya bilməyəcəyi ölçülərədək elektronik sistemlərin kiçildilməsi və kiçiltmə imkanları problemlərinin təcili həlli ehtiyacı üzə çıxmır.

Kosmosda arzularımızı reallaşdırırıq, fürsətdən istifadə edərək insanın təbiəti, Kainatı fitri tanımaq ambisiyalarını sakitləşdiririk. Kosmosdan özümüz də faydalanmağa çalışırıq, bəlkə də hər şeydən əvvəl orada həyatı və həmçinin bütün bəşəriyyət üçün uzaq gələcək perspektivlərini axtarırıq.

Bu gün Kosmosun tədqiqatı tək insanın orada mövcudluğu ilə assosiasiya edilmir, hərçənd insan orada bir ildən uzun müddət ərzində yaşaya bilər. Həmçinin insan tərəfindən istehsal edilmiş cihazlar günəş sistemimizin planetlərinə daxil olur, eləcə də "Voyager" kimi, bizim Sistemi tərk edərək Kainatın hüdudsuzluğuna doğru uçurlar.

Milyard işıq ili ilə ölçülən Kosmosun böyüklüyü insan üçün ancaq işıq üfüqünün bir saniyə keçən dərinliyinədək əl çatandır. Demək ki, Kosmosda artıq 50 illik fəaliyyətə baxmayaraq, Kainatı tanıma böyük odisseyasının ən erkən mərhələsindəyik.

Kosmosa səyahət etmə imtiyazı hər kəsə verilməyib, ancaq 474 kosmonavt və astronavt buna malikdir. Faktiki olaraq biz hamımız kosmik dənizçilərik. Yer kürəsi orbitlə Günəşin ətrafında saniyədə 30 kilometr sürəti ilə fırlanır, Günəş isə öz sisteminin bütün planetləri ilə Herkules bürcü istiqamətində saniyədə 20 kilometr sürəti ilə üzür. Nəhayət, Kainatda milyardlarla qalaktikalardan biri olan Qalaktikamız öz oxu ətrafında fırlanır. Onun ölçüsü ağlasığmaz dərəcədə nəhəngdir. O, 10 min işıq ilinə yaxın spiral strukturu və 150 min işıq ilinə yaxın diametr təşkil edir, özündə yüz milyardlarla ulduzu ehtiva edir, bizim Günəş sistemimizsə heç də mərkəzdə yerləşmir, mərkəzdən 30 min işıq ilinə yaxın məsafədə yerləşir. Ən

uzaq qalaktikalar 12-13 milyard işıq ili uzaqlığında müşahidə edilib. Onlar hələ də mövcuddularmı, yoxsa onların əvəzinə yeni qalaktikalar yaranıb? Kainat haqqında həqiqəti əldə edəcəyikmi? Bilinmir. Mövcudluğun ən böyük sirri olan bu tapmacanı çözmək üçün bəşəriyyətin daim çalışacağı dəqiqdir.

Burada növbəti suallar ortaya çıxır. Şüurla başa düşülməsi çətin olan mükəmməlliklər öz-özünə yarandı, bəs başqa cür olduqda, bu hərəkətverici qüvvə haradadır? Kimsə kainatı yaratmalı idi, onu hərəkətə gətirməli idi, bunu kimsə idarə etməlidir. Cavab bəllidir, Tanrı haqqında fikirləşməyə başlayırsan.

Bir çox kosmonavt və astronavtlarla tanışam, onların Kosmosda yaşadıqları və düşüncələri mənimlə oxşardır. Elə bir adam görmədim ki, kosmik uçuşdan qayıdandan sonra dinindən-imanından imtina etsin. Lakin bir çox ateistlər qayıdandan sonra mənəvi cəhətdən tamamilə dəyişmiş insan olmuşdular.

İnsanın düşüncəsi kosmik sərhədsizlikdə fikirlərimizə və təxəyyülümüzə hərəkət etməyə imkan verir. Saniyə içində çox uzaq məsafələri qət edə bilərik, uzaq səma cisimlərini, qalaktikaları ziyarət edirik. Real, fiziki həyatda isə "ancaq" işığın yayılma sürəti ilə səyahət edə bilərik – öz nəzəriyyəsində Albert Eynşteyn belə deyir.

Öz nailiyyətlərimiz, problemlərimiz, xəyallarımız və cəhdlərimizlə bu ölçüsüz məkanda kimik? Bütün ulduzlar, planet, kometa və digər axıradək tanınmamış obyektlərin qardaşlarıyıq, çünki bədənimizin 80 faizini hər yerdə mövcud olan hidrogen təşkil edir, orqanizmimizdə və təbiətdə olan digər elementlərsə ulduzların nüvə sintezinin nəticəsidir. Materiyanın bu hissəciklərini kometlər və meteoritlər digər planetlərə və Yer kürəsinə gətirirdilər. Burada həyat yarandı, bəs başqa planetlərdə də o mövcuddurmu? Buna görə də bəzilərinin "homo sapiens" adlandırdığı insan təkamül nəticəsində davamlı və mükəmməl forma aldımı, bəlkə də qədim adam-meymun və gələcəkdə yaranacaq tamamilə yeni növ arasında hansısa keçici formayıq? Bizim sistemə oxşar günəş sistemlərini tapdıq, lakin Yer kürəsindən başqa heç yerdə həyat aşkarlamadıq. Bəlkə artıq sabah bu kəşf peyda olacaq? Bu zaman özümüzü dərk etməni yenidən tədqiq etməli olacağıq. Ehtimal nəzəriyyəsinə əsaslanaraq təxmin edirik ki, Kainatda həyat mövcud olan yerlər var. Bu qəribədir, lakin orbitdə mənə elə gəlirdi ki, kimsə daima yaxınlıqda məni təqib edir, sanki burada, Kosmosda nə etdiyimlə maraqlanırdı. Bəlkə də bu sadəcə mistikaya olan meyllənmədir. Biz polyakların, xüsusən də astronavtların professor Aleksandr Volşçaninlə birlikdə başqa günəş sistemləri və onların planetlərinin axtarışlarında böyük

iştirakımız var. Bəlkə məhz orada bəşəriyyət üçün alternativ var, çünki 2-3 milyard ildən sonra bizim Günəş qırmızı nəhəngə çevriləcək və Yer kürəmizə hopacaq. Deməli, ancaq indiki zamanı düşünərək yaşaya bilmərik. Gələcəyi düşünərək, çoxsahəli təhsilə qayğı göstərməliyik, çünki ətraflı bilik olmadan təhlükəni tanıya və baş verə biləcək faciələrin qarşısını ala bilmərik. Sivilizasiya üçün başqa yol yoxdur. Bəşəriyyətin bu günkü çətinlikləri gələcəkdə bəlkə də problemlər dağı ilə qarşılaşa biləcək qum zərrəsidir.

ŞƏXS ADLARI GÖSTƏRİCİSİ


Adamçuk, pilot, eskadra başçısı – 37
Afanasyev Viktor Mixayloviç – 180
Akijama Toyohiro – 180
Aksyonov Vladimir Viktoroviç – 56
Amiot Feliks – 213
Amiot Mari Kristina – 213
Anders Vladislav – 64
Ankeyev İvan Nikolayeviç - 74
Armstronq Neil Alden – 117
Avdeyev Sergey Vasilyeviç – 216

Badovski Rışard – 202
Baqinskilər, ailə – 17
Baranski Stanislav – 55, 57, 59, 68, 102, 112, 127
Berger Rolf – 64, 65
Belyayev Pavel – 74, 99, 100
Belavska Zofia – 17
Belavski Damazı – 17
Belavskilər, ailə – 17
Beleviç Henrik – 15
Beniurlar, ailə - 17
Bereqovoy Georgiy Timofeyeviç – 74, 81, 106, 113, 119
Berezovoy Anatoliy (Tolya) Nikolayeviç – 143, 144, 216
Berezovaya Lida – 143, 144
Berut Boleslav – 24
Bıkovski Valeriy Fyodoroviç – 56, 74, 81, 109, 141
Borıslavski Zıqmunt – 33, 34, 168
Bosak Françişek, keşiş – 31
Braun fon Verner – 116
Brejnev Leonid – 203
Buqala Andjey – 56, 59, 60, 173
Bulanda Stefan – 40

Canibekov Vladimir Aleksandroviç – 104, 130, 143
Ceçontkovski Stefan – 14
Civişeklər, ailə – 17
Cujınski Adam – 35

Çkalov Valeriy Pavloviç– 80

Davıdov İosif – 198
Dedkov Anatoliy – 176
Depka Vitold – 38
Dobrovolski Georgiy Timofeyeviç – 159
Dobjanski Stanislav – 210
Dombrov Romuald – 76
Dorojınski Yanuş – 56
Dyomin Lev Stepanoviç – 159

Empedokl – 225
Eynşteyn Albert – 227

Əl-Saud Sultan bin Salman bin Əbdüləziz – 214

Falkovski Yan – 209
Farman Henri – 18
Filatyev Valentin İgnatyeviç – 74
Frunze Mixail – 73

Gerek Edvard – 69, 70
German Anna – 135
Golbs Eberhard – 65

Halka Henrik – 57, 59, 68
Hardt Valentı – 36
Hermaşevska Alina (Kavalko) – 18-20, 22, 29, 30
Hermaşevska Anelya – 17
Hermaşevska Anna (Kampinovska) – 18, 19, 22, 25, 26
Hermaşevska Dorota - 17
Hermaşevska Emiliya (qız soyadı Lazar)– 8, 18, 44, 46, 47, 51, 142-144, 176, 199
Hermaşevska Emiliya (qızı) – 18, 47, 60, 113, 127, 130, 134, 176
Hermaşevska Yulia – 17
Hermaşevska Kamila (Belavskilərdən) – 17, 22
Hermaşevska Katajına – 17
Hermaşevska Korneliya – 29
Hermaşevska Maria (Hutnitskilərdən) – 17, 18, 22
Hermaşevska Mixalina (Zıqadlo) –17
Hermaşevska Sabina (Çapiqa) -17
Hermaşevska Sabina –18, 19, 22, 24, 30
Hermaşevska Saleza-17
Hermaşevska Teresa (Parkitna) - 18, 19, 22, 24, 26, 44
Hermaşevska Vladislava-17, 64
Hermaşevska Zofia (Slovinska) – 17
Hermaşevski (ulu baba) - 17
Hermaşevski Antoni –17, 64
Hermaşevski Boquslav-13, 18, 19, 22, 24-26
Hermaşevski İqnatsı-17
Hermaşevski Yakub -17
Hermaşevski Yan-17
Hermaşevski Yuzef-17
Hermaşevski Kajimej –17, 29, 64
Hermaşevski Lutsyan-17
Hermaşevski Lukaş-17
Hermaşevski Miroslav, ata
Hermaşevski Miroslav, oğlu - 45, 82, 113,114,127,130,143, 209
Hermaşevski Pyotr-17
Hermaşevski Roman –17, 22
Hermaşevski Sılvester -17, 20, 22
Hermaşevski Tadeuş-17,64
Hermaşevski Teofil –17
Hermaşevski Vinsentı -17
Hermaşevski Vladislav-18, 19, 20, 22, 24, 26, 29, 30, 32, 38, 44, 46, 211, 220
Hermaşevski Ziqmunt – 17, 64
Hikman Jeyms L.- 213
Holubetskilər, ailə - 17

Xoytsan Antoni – 32
Xryunov Yevgeniy Vasilyeviç – 74, 111, 155

İlyuşin Vladimir – 108

İohann Pavel II, Roma papası – 173
İvançenkov Aleksandr Sergeyeviç – 117, 137, 153, 169, 171, 174, 175, 185-188, 193, 222

Kajimej Krata – 46
Karpov Yevgeniy – 73
Klima Ladislav – 65
Klimuk Lilya - 81, 82, 111, 142, 143
Klimuk Mişa - 81, 82, 113, 114, 130, 143
Klimuk Pyotr İlyiç – 81-83, 99, 102, 104, 106-108, 111-114, 117-120, 125-127, 130-142, 146-151, 153-159, 161, 164-168, 170, 173-178, 180, 182, 185-190, 193, 194, 197-203, 207, 208, 215, 222
Klukovski Kşıştof - 56, 59, 65, 67, 68
Kmita Yan -47
Kolaçkovski Voyçex - 209
Kollins Maykl – 213
Komarov Vladimir Mixayloviç – 74, 147, 196
Kondraçuk Yejı – 36
Konopnitska Maria - 30
Korolyov Sergey Pavloviç – 73, 74, 86, 93, 116
Koşık Vladislav - 13
Koşık Zbiqnev – 13
Kovalkovski Boqdan – 45, 46
Kovalyonok Vladimir Vasilyeviç – 99, 117, 137, 153, 160, 166, 167, 169, 170, 171, 174, 175, 179, 181, 187-189, 193, 216, 222
Kovalskiy Yuzef – 202
Koveşnikov Dmitri Stepanoviç – 103
Kölneri Eberhard – 75, 109
Kraşevski İzabela – 9
Kretyen Jan Lup Jak Mari – 213, 214
Kubasov Valeriy Nikolayeviç – 99, 109, 112, 213
Kuriatuvlar, ailə – 17
Kujora Tadeuş – 59, 65, 68
Kuznetsova Tatyana – 74
Kvaşnevski Aleksandr – 210
Koriolis de Qaspard Qustave – 112
Kusto Jak – 214

Qaqarin Yuriy Alekseyeviç – 63, 65, 68, 74, 76, 80, 81, 85, 86, 116, 133, 175, 203, 209, 215, 225
Qaqarina Tamara – 86
Qaqarina Valentina – 203
Qaqarina Zoya – 86
Qalileo – 182
Qazenko Oleq – 119
Qlazkov Yuriy Nikolayeviç – 66, 111
Qlodj Leşek Slavoy – 173
Qluşko Valentin Petroviç – 99, 109, 110, 119, 120, 135
Qorbaçov Mixail – 214
Qorbatko Viktor Vasilyeviç – 66, 74, 109
Qotlib Henrık – 37
Qreçko Georgiy Mixayloviç – 104, 106, 161, 180
Qubarev Aleksey Aleksandroviç – 108, 111

Lazar Stanislav – 68
Lazarev Vasiliy Qriqoryeviç–

59, 111, 139
Lebedev Valentin Vitalyeviç – 81, 82
Lem Stanislav – 212
Leonov Aleksey Arxipoviç – 64-66, 74, 75, 81, 85, 99-101, 104, 105, 110, 111, 113, 116, 119, 128-130, 143, 144, 195, 199, 202, 213, 215
Leonova Svetlana – 111, 142, 143
Linevski Boqdan – 34
Lişetska Vilhelmina – 17
Loşyovskilər, ailə – 17
Lukaşeviç İqnatsı – 130
Lyaxov Vladimir Afanasyeviç – 216
Lyaxov Zina – 216

Maik Stanislav – 44
Mayevski Zcislav – 32, 35
Makarov Oleq Qriqoryeviç – 104, 139
Malınski Emanuel – 17
Malınski, hersoq – 17, 18
Manarov Musa Xiramanoviç – 180
Meissner Yanuş – 36
Mixalakov, ailə – 17
Mitskeviç Helena – 31
Mitçel Edqar Din – 213
Mlınarski Eugeniuş – 32, 33
Morozov Boris – 80
Musabayev Tolqat Amangəldiyeviç - 216

Nelyubov Georgi – 74
Nikolayev Adrian Qriqoryeviç – 74, 81, 111
Novaçıkin Maçey – 209

Olşevski Karol Stanislav – 130

Patsayev Viktor İvanoviç – 159
Paynovski Françişek – 34
Pazio Lidia – 34, 35
Pelçak Oldrix – 75, 76, 105, 111
Peşlak Yanina – 31
Petjak Henrik – 46
Plotskilər, ailə – 17
Plonka Valentı – 34
Podolska – Frey Edita – 9
Ponomaryova Valentina -74
Popel Tadeuş – 35
Popoviç Marina – 108
Popoviç Pavel Romanoviç – 74, 107, 111

Rafikov Mars Zakiroviç – 74
Rakovskilər, ailə – 17
Remek Vladimir – 75, 76, 89, 105, 107, 108, 111
Reznikov İvan – 117,125, 131, 155
Rıxlevski Yan – 133
Robelek Marian -209
Rodoviç Marıla – 135
Romanenko Yuriy Viktoroviç – 104, 161, 180
Roniker Andjey – 40
Rossovski Yan – 23
Rossovski Miçeslav, keşiş – 22, 23
Rojdestvenski Valeriy İlyiç – 160
Rudı Yanuş - 34
Rukavişnikov Nikolay Nikolayeviç – 159

Rutkovski Rışard – 211

Sarafanov Genadiy Vasilyeviç – 159
Sava-Borıslavski Vlodimej – 168
Savitskilər, ailə – 17
Sent Ekzüperi Antuan De – 5, 207
Severinovlar, ailə – 17
Seryogin Vladimir – 80
Sevastyanov Vitaliy İvanoviç – 81, 113, 213
Severin Qay – 89
Siolkovski Konstantin – 217, 225
Skajınski Stanislav – 168
Slovinskilər, ailə – 17
Sobeşçuk İreneuş – 9
Solovyova İrina – 74
Spıxalski Marian – 67
Staxovski Leopold – 47
Stefanoviç Vitold, redaktor – 120, 198
Strekalov Genadiy Mixayloviç – 216
Suvorov Viktor – 135, 137

Şadzevska İrena – 200
Şatalov Vladimir Aleksandroviç – 83, 113, 119, 159, 174, 199
Şetelnitski Vatslav – 34
Şmaycinski Yejı – 211
Şmakov Yuriy – 104, 127, 199
Şonin Georgiy Stepanoviç – 74
Şveytskart Russel Luis– 213, 215
Şvyatkeviç Boqdan – 56

Tarasov İlya – 118
Teliqa Leonid – 147
Tereşkova Valentina Vladimirovna – 74, 81, 203, 215
Timofeyevna Anna Qaqarina – 85, 86
Tito Denis Entoni – 83
Titov German Stepanoviç – 74, 81, 209, 216
Tomçınskilər, ailə – 17
Tsıbliyev Vasiliy Vasilyeviç – 83

Urbanoviçlər, ailə – 17

Valensa Lex -210, 215
Valişkeviç Yan – 57
Varlamov Valentin – 79, 126
Vern Jül – 148
Verşınov Konstantin Andreyeviç – 73
Veştort Aleksandr - 209
Viletski Tadeuş – 210
Vişlinski Pyotr – 47
Vişnevski Henrik – 39
Volşçan Aleksandr – 227
Volkov Vladislav Nikolaeviç – 159
Volınov Boris Valentinoviç – 74, 111, 113
Vondrouşek Mixal – 65
Vrublevski Leşek – 9
Vrublevskilər, ailə- 17

Yankovski Zenon -59, 65, 69, 70, 75, 107, 109, 133
Yaruzelski Voyçex - 60, 67-69, 107, 132
Yefimov Aleksandr - 82, 200, 201
Yeqorov Boris Borisoviç – 216

Yen Ziqmund Verner Paul –75, 109
Yeliseyev Aleksey Stanislavoviç - 159, 213
Yerkina Janna -74

Zaqojcinski Tadeuş – 9, 198
Zarçınski – 17
Zaykin Dmitriy – 74
Zdunçık Yuzef – 40
Zebrovskilər, ailə Edvard –31
Zon Boleslav- 3
Zudov Vyaçeslav Dmitrieviç – 111, 159
Zıqadlovlar, ailə – 17

Mündəricat


Giriş sözü........................................................................................ 7

BİRİNCİ HİSSƏ
Hələ uçmasa da, artıq bombalamağa başlayıb

İlk uçuşum və ilk enişim.............................................................. 13
Qismət və vəzifə............................................................................ 17

İKİNCİ HİSSƏ
Səmanın qaranlığını nişan alıram

Planerdən reaktiv təyyarəyə qədər.............................................. 29
Səma ilə vidalaşma........................................................................ 49

ÜÇÜNCÜ HİSSƏ
Aranızdan ən yaxşılarını seçməliyik...

Öz istəyi ilə...................................................................................... 55
Kosmos ziyarətgahına zəvvarlıq.................................................. 63
Ziyarətdən qayıdış və xeyir-duanın verilməsi............................ 67

DÖRDÜNCÜ HİSSƏ
Kosmodroma aparan yol açıqdır

Tikanları keçərək... ........................................................................ 73
Kosmonavt...................................................................................... 81
Kosmonavtların bayramı.............................................................. 85
Kosmonavtın kral taxt-tacı.......................................................... 89
"Soyuz" od arabası və "Salyut" kosmik alaqapısı...................... 93
Səmaya aparan pilləkənlər........................................................... 99
Finiş – geriyə sayım başladı........................................................ 111
Başqa dünyaya aparan dəhliz...................................................... 115

BEŞİNCİ HİSSƏ
Ulduz görürəm, milyonlarla ulduz


Baykonur kosmodromu – 27 iyun - “2 saylı perron”..............125
Kabinədə həbs.......................................................................... 137
Gerçək, yoxsa yuxu................................................................... 145
Dəniz və orbitdə manevrlər...................................................... 153
Özünəməxsus görüş.................................................................. 163
Kosmik sirr................................................................................. 173
Sirlər və rənglər diyarı.............................................................. 179
Bütün dünya və Polşa............................................................... 185
“Yumşaq” eniş........................................................................... 193


ALTINCI HİSSƏ
İki min saatdan artıq sükan arxasında...


Orbitin qaranlıq tərəfi.............................................................. 207
Kosmik ailə................................................................................ 213


YEDDİNCİ HİSSƏ
Bəşəriyyət Yer kürəsində əbədi qalmayacaq


Kosmosun qoxusu..................................................................... 219
Təxəyyülün sərhəddinə qədər.................................................. 225

Şəxs adları göstəricisi...............................................................230

Miroslav
# Hermaşevski

Çəkisizliyin yükü
Təyyarəçi-kosmonavtın həyat hekayəsi

**Tərcüməçilər**
*Sonya Piriyeva*
*Vüsalə Mustafayeva*
*Yelena Karetina*

**Məsul redaktor**
*Fuad Babayev*

**Redaktorlar**
*Gündüz Nəsibov*
*Ramilə Qurbanlı*

**Texniki redaktorlar**
*Təmkin Məmmədli*
*İrina Muxtarova*

**Cildin dizaynı**
*Elviz İsmayılov*

**Kompüter səhifələnməsi**
*Sevda Ağayeva*

**Korrektorlar**
*Leyla Atakişiyeva*
*Mətanət Babayeva*